**AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİLNAZİRLİYİ**

**Azərbaycan Texnologiya Universiteti**

# İNNOVASİYALI İQTİSADİYYAT VƏ MENECMENT

№ 3 2023

**Baş redaktor:**

**Yaşar Adil oğlu Ömərov, dosent**

**Redaksiya heyəti**

**Baş redaktorun müavini:**
**Raqif Tofiq oğlu Hüseynov i.f.d., dos.**

Prof. Dr. Patrick Siegfried, Trier Tətbiqi Elmlər Universiteti, Almaniya
Prof. Dr. Anikó Khademi-Vidra, Macarıstan Kənd Təsərrüfatı və Təbiət Elmləri Universiteti, Macarıstan
Prof. Dr. Alina Daniłowska, Varşava Təbiət Elmləri Universiteti, Polşa
Prof. Dr. Murat Kızıldağ, Mərkəzi Florida Universiteti, ABŞ
Prof. Dr. Andrei Jean, Rumıniya Milli Elmlər Akademiyası, Rumıniya
Prof. Dr. Julia Galchynska, Ukrayna Milli Təbiət və Ətraf Mühit Elmləri Universiteti, Ukrayna
Prof. Dr. Ercan Özen, Uşak Universiteti, Türkiyə

**Məsul katib:**
**Qalibə Rza qızı Məmmədova t.f.d., dos.**

Rəsmiyyə Abdullayeva, prof., ETN, İqtisadiyyat İnstitutu
Şahin Xurşudov, dos., GDU
Afəddin Həmidov, dos., GDU
Məhərrəm Hüseynov, prof., ADAU
Veysəl Eyyubov, prof., MDU
Fizuli Məmmədov, prof., ATU
Yusif Hümbətov, prof., ATU
Sakit Yaqubov, prof., UNEC
Şaiq Əsgərov, dos., UNEC
Kərimov Mehman İlham o.,i.f.d.(xarici dil üzrə mütəxəssis)

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb: Reyestr №4155**

**Azərbaycan Texnologiya Universitetinin Elmi Şurasının qərarı ilə çap olunur**

**Jurnal aşağıdaki Beynəlxalq elmi məlumat bazalarına daxildi:**

*International Scientific Indexing (ISI), International Institute of Organized Research (I2OR), Journal factor, Cite factor, Academic Scientific Journals, Scientific Indexing Services*

**Print** – 2616-8626

*Innovasiyali iqtisadiyyat və menecment №3, 2023, 160 - səh.*

## № 3/2023

## MÜNDƏRİCAT– СОДЕРЖАНИЕ - CONTENTS

M. M.Hüseynov,S. T.Abbasova Kənd təsərrüfatı müəssisələrinin Azərbaycanda inkişafı.............. 3
Z. R.Novruzova Dil və mədəniyyət iqtisadi inkişafın amili kimi.............................................. 10
N. A.Nərimanov, P.Q.Qələndərli, N.İ.Sultanov Ölkəmizdə qiymətli kağizlar bazarı dövriyyəsinin inkişafının xalq kapitalizminin formalaşmasına təsiri...................................................................... 16
A. A.Tağıyev Yerli özünüidarə orqanlarının səmərəliliyi və iqtisadi artım: Azərbaycan nümunəsi.. 22
M. C.Hüseynov, S.S.Allahverdiyev,V. A.Fərzəliyev, S. B.Sadiqova Təbiəti mühafizə və ətraf mühit keyfiyyətinin idarə olunmasına yeni yanaşmalar................................................................... 26
M. C. Hüseynov, S. E.Bayramova,G. Ş.Vəliyeva, T. M.Hüseynova İqtisadi risk dərəcəsinin aşağı salınması istiqamətləri ........................................................................................................ 33
E.C.Zeynalli, E. E.Rzayev, S. S.Mustafayev Bazar münasibətləri şəraitində biznesin tənzimlənməsində iqtisadi səmərəliliyin yüksəldilməsi................................................................... 39
S.T.Hacıyeva,V.F.Cənnətova Kütləvi informasiya vasitələrində insan resurslarının idarə edilməsinin mahiyyəti........................................................................................................... 45
A. V.Hacıyev Müasir əmək bazarı ölkə iqtisadiyyatının islahatı kontekstində................................. 52
N. İ.Abdullazadə Milli iqtisadiyyatda mövcud olan struktur problemlərinin təhlili......................... 58
P. E.Muxtarova, A. A.Abdullazadə Müəssisələrdə uçot siyasəti..................................................... 63
Ş. N.Xurşudov, M. T.Osmanlı Turizmdə reklam fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri........ 70
N.A. Nərimanov, J. E.Nəzərli, S. Ş.Dünyamalıyeva Kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyələşdirilməsinin səmərəliliyinin artırılması yolları............................................................ 75
K. S. Dadaşova, S.T.Nəsibov Hazır qida məhsullarının sertifikatlaşdırılmasının tədqiqi məsələləri 82
Əliyev R.R Aqrar-sənaye kompleksində sahibkarlıq subyektlərinin maliyyə sabitliyini təmin edən xüsusiyyətlər və amillər.................................................................................................................... 88
Y.F. Əlifov, V. Y.Əlifov Aqrar istehsalın səmərəliliyini şərtləndirən amillərin təhlili................ 95
E. E. Nəsibov Nəqliyyat amilinin vahid iqtisadi subyekt olaraq iqtisadiyyatda təsiri...................... 101
İdrisli P. H.Bank sektorunda rəqabətin kredit münasibətlərinin səmərəliliyinə təsiri........................ 106
K.R.Həsənova, Ş.H.Əliyev Müasir iqtisadi şəraitdə ümumlogistik problemlər............................... 111
R. I.Hasanov Greenıng the automotıve ındustry: leveragıng alumınum for envıronmental and economıc advantages......................................................................................................... 116
Xudaverdiyeva E. M .Müəssisədə innovasiya fəaliyyətinin məhiyyəti və əhəmiyyəti...................... 123
F. Z.Abbasov, M. Q.Alxaszadə Strateji əməliyyat və büdcə planlaşmasında risklərin idarəedilməsi 129
X. M. Ağayeva, G. R.Şirəliyeva Vergi – büdcə gəlirlərinin artırılmasının əsas mənbəyi kimi......... 137
A.R.Verdiyev ,N.A.Zulfugarli Financial analysis of enterprises ………………………………...... 145

№ 3/2023 səh.3-9

UOT 338
DOI:10.30546/JIECM.2023.3.3.

# KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNİN AZƏRBAYCANDA İNKİŞAFI

[1]Mehman Məzahir oğlu Hüseynov, [2]Sumayya Təhmasib qızı Abbasova

Azərbaycan Texnologiya Universiteti

sumayyaabbasova@gmail.com

***Xülasə.****Məqalədə kənd təssərüfatı müəssisələrinin Azərbaycanda qədim dövrlərdən bu günümüzə qədər kecdiyi inkişaf yollarından bəhs edilmişdir. Müasir dövrdə bəşəriyyətin ən qlobal problemlərindən biri əhalinin ərzaq məhsulları ilə təminatıdır. Hazırda dünya ölkələri, beynəlxalq qurumlar, xüsusən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Dünya Bankı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (IFAD), Beynəlxalq Valyuta Fondu və digər təşkilatlar tərəfindən aclıqdan əziyyət çəkən insanların sayının yox edilməsi, hər bir insanın minimum yaşayış kalorisi ilə təmin edilməsi, ərazq təhlükəsizliyinin digər aspektləri və s. problemlər nəzərə alınmaqla aradan qaldırılması üçün iş aparılır.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, iqtisadiyyat, FAO, IFAD, BMT, UDM.*

**Giriş.**Azərbaycan Respublikası Cənubi Qafqazda ərazinin 86,6 min $km^2$-ni əhatə edir. Azərbaycan Qafqazın cənub-şərq hissəsini tutaraq, İran və Rusiya Federasiyası (Dağıstan) arasında Xəzər dənizi sahillərinin bir hissəsi boyunca uzanır.

Azərbaycan şimal, cənub və qərb regionlarını da əhatə edir ki, burada da dağlar daha çox üstünlük təşkil edir. Dağlar respublikanın təqribən 43%-ni əhatə edir. Düzənlik ərazilər isə Azərbaycanın quru ərazisinin yerdə qalan 57%-ni əhatə edərək, ölkənin mərkəzi hissəsi boyunca uzanır. Meşələr ümumi quru ərazisinin təqribən 12%-ni tutur; ölkənin ərazisinin təqribən 54,9%-i aqrar isteshal üçün münasibdir.

Bazar münasibətləri şəraitində ölkə iqtisadiyyatının mühüm sahəsi kimi kənd təsərrüfatı, onun sahəsi olan bitkiçilik və heyvandarlıq məhsulları istehsalının artırılmasında, ərzaq təhlükəsizliyinin təmin edilməsində, eləcə də təbii resurslardan səmərəli istifadə olunmasında və regionların sosial-iqtisadi inkişafında mühüm təsir göstərir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, hər hansı bir dövlətin inkişaf etmiş kənd təsərrüfatı olmadan onun iqtisadi yüksəlişini təsəvvür etmək olmaz. Eyni zamanda, kənd təsərrüfatının inkişaf etdirilməsi təkcə iqtisadi vəzifə deyil, həm də siyasi və sosial iqtisadi vəzifədir. Hazırda ölkəmizdə kənd təsərrüfatının sürətli və dayanıqlı inkişafını təmin etmək üçün mükəmməl aqrar siyasət mövcuddur.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan iqtisadiyyatının digər sahələrində olduğu kimi, kənd təsərrüfatının da inkişafına nail olmaq asan olmadı. Bu baxımdan aqrar sektordakı indiki uğurlar gərgin əmək və həyata keçirilən düzgün siyasət sayəsində əldə edilərək bu günə gəlib çatmışdır. Bu gün Respublikamız da artıq nəinki bir çox strateji məhsullara olan tələbatını yerli istehsal hesabına ödəyir, hətta xaricə də kənd təsərrüfatı məhsulları ixrac edir [1].

Aqrar sahənin inkişafı da maliyyə dəstəyi ilə mühüm rola malikdir. Odur ki, bu gün Azərbaycanda digər sahələrdə çalışan sahibkarlarla yanaşı, fermerlərə də güzəştli şərtlərlə kreditlər verilir ki, daha da inkişaf etsinlər.

Bu vəsaitdən səmərəli istifadə edən fermerlərin bir çoxu öz təsərrüfatlarını iri fermer təsərrüfatlarına çevirirərək öz fəaliyyətlərini daha da genişləndirirlər. Artıq ölkədə onlarla iri fermer təsərrüfatı fəaliyyət göstərir ki, bunların fəaliyyəti istehlak bazarının sabitləşməsində, ixrac potensialının artmasında, idxaldan asılılığın azalmasında, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır.

№ 3/2023 səh.3-9

Son illərdə iqtisadiyyatın mühüm sahələrindən olan qeyri-neft sektorunun inkişafı ilə yanaşı, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafı təmin edilmiş, əkinəyararlı torpaqlardan və mövcud su resurslarından səmərəli istifadə istiqamətində mühüm addımlar atılmış, minlərlə hektar torpaq sahəsi əkin dövriyyəsinə cəlb olunmuş və nəticədə kənd təsərrüfatı məhsullarının istehsalında davamlı artım meyilləri formalaşaraq respublikamızı da kənd təsərrüfatının yüksək inkişaf səviyyəsinə catdırmışdır.

Cəmiyyətin müasir inkişafı dövründə kənd təsərrüfatının gələcək inkişafı ilə bağlı çağırışlar, ilk baxışda fərqli görünən iki qlobal trend fonunda müəyyənləşir.

- Belə nəticə cıxır ki, qlobal miqyasda kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın artım tempi azalma meylinə malikdir. FAO-nun hesablamalarına görə, ötən 40 il ərzində bu tələbatın ortaillik artım tempi 2,2 faiz olduğu halda, növbəti 40 il ərzində bu göstəricinin 1,1 faizə qədər enəcəyi gözlənilir. O cümlədən, inkişaf etməkdə olan ölkələr üzrə bu göstəricilər, müvafiq olaraq, 3,6 faiz və 1,3 faiz səviyyəsində dəyərləndirilir.
- Müasir dövrdə kənd təsərrüfatı sahəsi yalnız aşağı inkişaf səviyyəsinə malik olan ölkələrdə sosial-iqtisadi inkişafın yüksəldilməsi baxımından müsbət rola malikdir. Müvafiq sənaye və xidmət sahələrinin inkişaf etdiyi və ya bu sahələr üzrə məqsədyönlü inkişaf strategiyasına malik olan ölkələrdə kənd təsərrüfatı əsas etibarilə, ərzaq təhlükəsizliyinin, məşğulluğun təmin edilməsi və qismən də ixracın şaxələndirilməsinə xidmət edir. Bunun nəticəsidir ki, ötən onilliklər ərzində qlobal ÜDM-də kənd təsərrüfatının payı 9-10 faizdən 4-5 faizə, dünya üzrə iqtisadi fəal əhalinin sayında kənd təsərrüfatı sahəsinə düşən iqtisadi fəal əhalinin payı isə 51 faizdən 38 faizə enib.
- 2050-ci ildə bütün dünya üzrə ərzaq istehsalının artırılması zərurəti yaranacaq və hətta inkişaf etməkdə olan ölkələrdə müvafiq istehsal həcminin 2 dəfə artırılması zəruri olacaqdır. Çünki qlobal miqyasda həyat səviyyəsi standartlarının getdikcə yüksəlməsi trendinə uyğun olaraq ərzaq məhsulları istehsalının strukturunda sağlam və keyfiyyətli məhsulların xüsusi çəkisi getdikcə yüksəlməyə başlayacaq.

Kənd təsərrüfatı Azərbaycanın olduqca vacib istehsal sahəsidir. Burada qədim zamanlardan bəri üzümçülük, ipəkçilik və meyvəçilik sahələri geniş yayılmışdır. Ölkə ərazisi müxtəlif relyefə malikdir. Böyük bir ərazisini dağlıq relyef təşkil etdiyindən maldarlıq burada yaşayan insanların həyatında daim mühüm rol oynamışdır. Maldarlığın inkişafı kustar toxuculuq və xalçaçılığın inkişafına müsbət təsir göstərmişdir. Həmin illərdən başlayaraq ölkədən Avropaya və şərqə yüksək keyfiyyətli şərablar, xalça, gön-dəri, ipəkçilik məhsulları və s. ixrac edilmişdir.

1991-ci ildə Sovetlər İttifaqının dağılmasından və Azərbaycanın müstəqillik əldə etdikdən sonra əsas problemlərdən biri də yeni torpaq siyasətinin həyata keçirilməsi, torpaq islahatlarının aparılması idi. Sovetlər İttifaqında mövcud olan asılı iqtisadi rejimin dağılması digər respublikalar kimi Azərbaycanı da ağır iqtisadi böhrana saldı. Bununla da Azərbaycanın iqtisadiyyatında, o cümlədən, aqrar sahədə tənəzzül və iqtisadi böhran yaranmağa başladı. O vaxtlar kənd təsərrüfatında əsas təsərrüfat formaları olan kolxoz və sovxozlar mühüm dərəcədə fəaliyyət göstərə bilmir və bu iqtisadi tənəzzül günü-gündən dərinləşirdi. Respublikanı bu iqtisadi böhrandan çıxarmanın yeganə və düzgün yolu ölkə iqtisadiyyatını qısa bir müddətə yeni iqtisadi əsaslarla bərpa etmək idi ki, bunun sayəsində ilk tprpaq islahatının kecirilməsinə başlanıldı. Belə bir şəraitdə Ümummilli Lider Heydər Əliyev iqtisadiyyatın yenidən dirçəlib inkişaf etdirilməsinin yeganə yolunun islahatlar olduğunu bildirdi. Onun rəhbərliyi və təşkilatçılığı altında aqrar islahatın aparılması üçün hüquqi baza yaradılmış və həyata keçirilmişdir. Bununla da, 1995-ci ildə "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və 1996-cı ildə isə "Torpaq islahatı haqqında" qanunlar qəbul edilmişdir [2].

Kənd təsərrüfatının inkişafı üçün Heydər Əliyevin rəhbərliyi altında respublikada 40-dan çox hüquqi-normativ qanun qəbul edildi və onların əsasında aparılan islahatların yekunu olaraq 1372, 8 min hektar torpaq sahəsi, 63 mindən artıq maşın və traktor, 4 min mal-qara tövləsi, 2300 qoyun yatağı, 450 min baş qaramal, 1 milyon 900 başdan artıq davar düşürdü. Hazırda ölkədə 2600-dən çox kəndli-fermer təsərrüfatı fəaliyyət göstərir. İstehsal edilən kənd təsərrüfatı məhsullarının 99,01 faizi məhz kəndli-fermer təsərrüfatının payına düşür. Bu məhsulların satışında qiymətlər tam sabitləşdi, idxal-

**№ 3/2023** **səh.3-9**

ixrac prosedurları zamanı yaranan bütün maneələr aradan qaldırıldı. Hazırkı dövrdə Azərbaycan idxaldan asılı dövlətdən ixrac edən dövlətə çevrilmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli müvafiq Fərmanı ilə təsdiq edilmiş Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri çərçivəsində kiçik və orta sahibkarlıq fəaliyyəti üçün biznes şəraitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, xarici bazarlara çıxış imkanlarının artırılması, innovasiyaların təşviqi, rəqabətə davam gətirə bilən sektorun yaradılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının istehsal vasitələrinə, daxili və xarici bazarlara çıxışının asanlaşdırılması, daxili bazarda idxalı əvəzləyən zəruri ərzaq məhsullarının istehsalının artırılması, qida təhlükəsizliyinin gücləndirilməsi, kənd yerlərində məşğulluq imkanlarının artırılması və digər istiqamətlər üzrə müəyyən edilmiş tədbirlərin icrası uğurla davam etdirilir ki, bu da kəndlərdə iş yerlərinin artmasına səbəb olur.

"Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamına uyğun olaraq hazırlanmış 2018-ci il 12 fevral tarixli "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı" ölkəmizdə çayçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsinə, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi nəticəsində, çay istehsal edilib becərilməsinə marağın artırılmasına yönəldilmişdir.

Dövlət başçısının aqrar sahənin inkişafı üçün imzaladığı "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafı üzrə Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 23 yanvar 2007-ci il tarixli sərəncamı kənd təsərrüfatına öz müsbət nəticələrini göstərmiş, daxili istehsalın həcmi artmış, əhalinin bir sıra kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi mümkün olmuşdur.

Sürətli inkişaf dövrünü yaşayan Azərbaycan kənd təsərrüfatı tarix üçün kifayət qədər böyük sayıla biləcək zaman kəsiyində mühüm tərəqqi yolu keçmiş, qazandığı sosial-iqtisadi nailiyyətlərlə və bu sahələrdə nümayiş etdirdiyi artım tempilə, nəinki regionda, həm də dünya coğrafiyasında aparıcı dövlətlərdən birinə çevrilmişdir[3].

Əhalinin lazımi tələbatından artıq bəzi növ kənd təsərrüfatı məhsulları istehsal edildiyindən onların ixrac edilməsi üçün şərait də yaranmışdır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına aqrar sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi sahibkarlara Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən büdcədən ayrılmış 34,3 milyon vəsait və əvvəlki illərdə verilmiş kreditlər üzrə daxilolmalar hesabına müvəkkil kredit təşkilatları vasitəsilə güzəştli kreditlər verilmişdir. Bu kreditlər 13 müvəkkil kredit təşkilatları vasitəsilə ölkənin 48 rayonunda aqrar sektorda sahibkarlıq fəaliyyəti ilə məşğul olan 1300 fiziki və hüquqi sahibkarlara verilmişdir. Kreditlərin əsasını heyvandarlıq və bitkiçilik sahələrinin inkişafı təşkil edir.

Azərbaycan iqtisadiyyatının inkişaf etməkdə olan sahələrindən biri olan kənd təsərrüfatının inkişaf etdirilməsi auditin tətbiq edilməsinin aktuallığını ön plana çəkir. Azərbaycan Respublikasının Kənd təsərrüfatı ilə bağlı Qanununda nəzərdə tutulduğu kimi, kənd təsərrüftı obyektlərində «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq audit yoxlaması həyata keçirilməlidir.

Kənd təsərrüfatı obyektlərində daxili auditin təşkili aşağıdakı bir sıra qaydalara uyğun şəkildə aparılır:

1. Qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilmiş tələblərin yerinə yetirilməsi;
2. Rəhbərlik və müəssisə rəhbəri tərəfindən əsaslandırılmış qərarların qəbul edilməsinə imkan verən dürüst məlumatların əldə edilməsi;
3. Maliyyə hesabatı istifadəçiləri (Dövlət, müvafiq icra hakimiyyəti orqanları, bank, sığorta və s. təşkilatlar) tərəfindən düzgün məlumatların əldə edilməsi;

4. Audit zamanı kənd təsərrüfatı müəsssisələrində aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədləri.

2019-cu ildə kənd təsərrüfatı müəssisələrinin ümumi məhsulunun manatla dəyəri 7836.7 mln. manat təşkil etmişdir ki, bunun da 4085.5 mln. manatı heyvandarlıq, 3751.2 mln. manatı isə bitkiçilik məhsullarının payına düşmuşdür. Əvvəlki ilə nisbətən kənd təsərrüfatı sahələrinin istehsalı 7.2%, o cümlədən bitkiçilik məhsulları üzrə 11.7%, heyvandarlıq məhsulları üzrə isə 3.5% fərq ilə artım müşahidə olunmuşdur. Nəticədə, qeyd edilən dövrdə kənd təsərrüfatı məhsulunun strukturunda bitkiçilik sahəsinin payı 45.4%-dən 47.9%-ə qədər artmış, heyvandarlıq sahəsinin payı isə 54.6%-dən 52.1%-ə qədər azalmışdır. 2019-cu ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda yaradılan əlavə dəyərin həcminin əvvəlki ilə nisbətən artımı 7.3%-ə bərabər olmuşdur. Bu göstəricilərin nəticəsində, ölkənin bu sahə üzrə ÜDM-də payı 2018-ci ildə 5.3%-dən 2019-cu ildə 5.7%-ə qədər yüksəlmişdir.

2019-cu ildə kənd təsərrüfatı müəssisələrinə dövlət dəstəyi davam etdirilmişdir. AKİA tərəfindən 2019-cu ildə kənd təsərrüfatının inkişafı məqsədilə ölkənin 58 rayonunda aqrar sektorda çalışan 723 sahibkara 21167,1 min manat məbləğində güzəştli kreditlər ayrılmışdır ki, bu da onların öz sahələrinin inkişafına səbəb olmuşdur. Güzəştli kreditlərin verilməsi nəticəsində 705 daimi və müvəqqəti iş yerləri fəaliyyətə başlamışdır. Kənd təsərrüfatının bütün kateqoriyaları üzrə orta hesabla il ərzində məhsul istehsalı, min tona qədər olmuşdur. Nazirlik Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi ilə məşğul orqandır.

Kənd təsərrüfatının inkişaf yollarına nəzər yetirərkən aşağıda qeyd edilənləri bir daha yada salmamaq mümkün deyildir.

60-cı illərdə respublikanın iqtisadiyyatı və onun ən vacib sahələrindən biri olan kənd təsərrüfatında uzun sürən böhran burada tənəzzülə gətirib çıxardı. Kənd təsərrüfatı müəsisələrinin ümumi məhsulunun orta illik artım sürəti digər respublikalardan geri qalırdı. 1969-cu ildə 574 min ton taxıl, 299 min ton pambıq, 372 min ton tərəvəz, 272 min ton üzüm, 52 min ton meyvə, 113 min ton kartof, 24,5 min ton tütün istehsal edilmişdir ki, bu da ümumi əhalinin tələbatını qarşılayırdı. Əsas kənd təsərrüfatı bitkilərinə olan tələbat məhsuldarlığı getdikcə aşağı düşürürdü. Bu ildə hər hektardan orta hesabla 9,5 sentner dənli bitkilər, 15,1 sentner pambıq, 120 sentner tərəvəz, 43,6 sentner üzüm, 10,4 sentner meyvə, 18 sentner tütün, 79 sentner kartof istehsal olunmuşdu. İctimai heyvandarlıqda vəziyyət daha çətin idi. Kolxoz və sovxozlarda mal-qaranın sayı ildən-ilə azalır, bu isə məhsuldarlığın aşağı düşməsi və maya dəyərinin artmasına səbəb olurdu. Respublikada 1969-cu ildə hər yüz inək və camışdan cəmi 49 buzov və balaq, hər yüz doğar qoyun və keçidən 43 quzu və çəpiş nəsli artmış, hər inək və camışdan orta hesabla 677 kq süd sağılmış, hər qoyundan 1,6 kq yun qırxılmışdı. İttifaq üzrə isə bu rəqəm müvafiq olaraq 2253 kq və 2,8 kq idi. Respublika iqtisadiyyatına rəhbərlik sahəsində buraxılan səhvlərin və qüsurların kökünü kəsmək, bütün səviyyələrdə intizamı möhkəmlətmək, tapşırılan iş üçün kadrların tələbkarlığını və məsuliyyətini artırmaq sahəsində qəti və ciddi addımlar atılmağa başladıldı.

90-cı illərin əvvələrində Azərbaycan iqtisadiyyatının hansı vəziyyətdə olduğu hamıya məlumdur. Siyasi qarmaqarışıqlıq, hakimiyyətsizlik, qanunsuzluq baş alıb getdiyindən kənd təsərrrüfatı tam tənəzzülə uğramışdı. Bu tənəzzül kənd təsərrüfatına öz təsirini daha çox göstərmişdir. İstehsal infrastrukturu dağılmış, neçə-neçə insanın zəhməti ilə yaradılmış potensial məhv olmaq həddinə gəlib çatmışdı. Təkcə 1990-1995-ci illər ərzində kənd təsərrüfatı məhsullarının istehsalı 58 faizə qədər azalmışdı.

Heydər Əliyev ölkə iqtisadiyyatının möhkəmləndirilməsi məqsədilə resurslardan səmərəli istifadə edilməsi, , xarici şirkətlərlə əlaqələrin genişləndirilməsi, fəaliyyətdə intizamın yaradılması kimi vacib şərtlərin önə çəkilməsini vacib hesab etmişdir, "... Respublikanın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırıb daha da inkişaf etdirmək üçün biz ölkələrlə və dünyanın bütün şirkətləri ilə sıx əməkdaşlıq etməyi, Azərbaycan ilə xarici ölkələr, şirkətlər arasında müştərək iş görməyi, iqtisadiyyat sahəsində əsas istiqamətlərdən biri hesab edirik" – demişdir.

№ 3/2023 səh.3-9

Respublikanın kənd təsərrüfatının daimi inkişafı haqqında düşünən Heydər Əliyev əldə edilən təcrübəni və yeni imkanları təhlil edərək, onuncu beşillik (1976- 1980) üçün daha mürəkkəb vəzifə - intensiv amillərin tətbiqinin genişləndirilməsi və məhsuldarlığın yüksəldilməsi hesabına kənd təsərrüfatının sürətli inkişafına nail olmaq vəzifəsini irəli sürdü və ittifaq rəhbərliyinə konkret təkliflər verdi. 1970-ci ilin iyulunda Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında", 1975-ci ilin iyulunda "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" və 1979-cu ilin fevralında "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" qərarları qəbul olundu.

FAO-nun metodologiyası ilə hesablanan və 2004–2006-cı illərin baza kimi götürüldüyü Ümumi İstehsal İndeksi Vahidi ("Gross Production Index Number") göstəricilərində bütövlükdə kənd təsərrüfatı sahəsi üzrə göstərici 2013-cü ildə Azərbaycanda dünya üzrə orta göstəriciləri ilə müqayisədə nisbətən yuxarı olmuşdur.

Son illərdə Azərbaycanda baramaçılığın inkişafı üçün bu sahədə yem bazasının gücləndirilməsi istiqamətində davamlı işlər həyata keçirilir. Bu məqsədlə, 2018-ci ildə Çindən 3.5 mln. ədəd, 2019-cu ildə daha 1 mln. ədəd ting tədarük edilərək sahibkarlara paylanılmışdır. Nəticədə, tut (çaklil) sahələri 2018-ci ildə 1691.4 ha-dan 2019-cu ildə 2057.3 ha sahəyə əkilmişdir.

Bütövlükdə, bitkiçilik sahəsində son illərdəki artım intensiv amillər hesabına həyata keçirilmişdir. 2018-ci ildə dənli və dənli paxlalı bitkilər üzrə məhsuldarlıq 30.0 s/ha-dan 2019-cu ildə 32.1 s/haya, pambıq üzrə 17.6 s/ha-dan 29.5 s/ha-ya, kartof üzrə 149.0 s/ha-dan 169.0 s/ha-ya, tərəvəz üzrə 162.0 s/ha-dan 176.0 s/ha-ya, bostan məhsulları üzrə 191.0 s/ha-dan 209.0 s/ha-ya qədər artm müşahidə edilmişdir. Ümumilikdə, 2019-cu ildə əkinlərin və çoxillik əkmələrin cəmi sahələri əvvəlki ilə nisbətən 0.5 % azaldığı halda, bitkiçilik məhsullarının istehsalı artaraq 11.7% təşkil etmişdir. Bitkiçilik sahəsində istehsalın intensiv amillər hesabına artmasının mühüm göstəricilərindən biri gübrə və pestisidlərdən səmərəli şəkildə istifadə olmuşdur. Belə ki, 2019-cu ildə ölkəyə gübrə idxalı dəyər ifadəsində 2016-cı ilə nisbətən 2,2 dəfə, o cümlədən, qeyd edilən dövrdə fiziki çəkidə azot gübrəsinin idxalı 96,2 min tondan 148,7 min tona, fosfor gübrəsinin idxalı 77,4 tondan 530,0 tona, kalium gübrəsinin idxalı 7,96 min tondan 9,2 min tona, qarışıq (mürəkkəb) mineral gübrələrin idxalı isə 62,6 min tondan 177,1 min tona qədər artmışdır. Habelə, 2019-cu ildən ölkədə karbamid gübrəsinin istehsalına da başlanmışdır ki, bu da kənd təsərrüfatının mineral gübrə təminatının yerli resurslar hesabına yaxşılaşdırılmasında əhəmiyyətli dərəcədə təsirli olmuşdur.

Bunu da vurğulamaq lazımdır ki, bitkiçilik sahəsində daimiliyin təmin edilməsi və məhsuldarlığın artması baxımından bitkilərin becərilməsində qidalı maddələrin balanslı istifadəsi mühüm əhəmiyyətə malik olmuşdur. Son dövrlərdə azot gübrəsinin idxalına nisbətən digər mineral gübrələrin, xüsusilə, mürəkkəb gübrələrin idxalının artması becərmə prosesində vacib hesab edilən səbəblərdən biridir. Belə ki, ölkəyə əsasən idxal edilən ammofos gübrəsinin tərkibində 52% fosfor və 12% azot, nitroammofoska gübrəsinin tərkibində 16% azot, 16% fosfor və 16% kalium var. Son illərdə bu sahədə aparılmış maarifləndirmə işləri ölkədə mineral gübrələrdən istifadənin artması ilə yanaşı, ondan səmərəli şəkildə istifadə meyillərinin də yaranmasına səbəb olmuşdur. 2019-cu il dekabrın 24-nə olan məlumatlara əsasən 2020-ci ilin məhsulu üçün 1156.2 min hektar sahə becərilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 1.7% çoxdur. Həmçinin 1019.2 min hektar sahədə dən və yaşıl yem üçün səpin aparılmışdır [4].

Bir daha vurğulamaq lazımdır ki, Azərbaycanın xalq təsərrüfatının bütövlükdə dinamik inkişafını təmin edən, respublikada qurub yaratmaq əzminin hər bir adamın həyat normasına çevrilməsində, Azərbaycanın qısa bir tarixi dövr ərzində keçmiş SSRİ məkanında geri qalmış respublikadan birincilər sırasına çıxarılmasında Heydər Əliyev bacarığının və tələbkarlığının əvəzolunmaz rolu olmuşdur. Ümummilli Liderin kənd təsərrüfatının inkişafına olan diqqət və qayğısı onun respublikamızda siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra da intensiv xarakter almışdır.

Ölkə başçısı İlham Əliyev 1 noyabr 2003-cü il Respublika Prezidenti kimi andiçmə mərasimində xalqa müraciətində demişdir: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası,

ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalaçağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm". Bu gün hamımız yüksək kürsüdən deyilmiş dahiyanə sözlərin yerinə yetirilməsinin, gələcəkdə daha intensiv olaraq həyata keçiriləcəyinin canlı şahidləriyik. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublika iqtisadiyyatında energetika – yanacaq kompleksindən sonra ikinci əhəmiyyət kəsb edən aqrar sferanın inkişafına yönəldilmiş bir çox ardıcıl tədbirlər həyata keçirilmişdir. Onun aqrar – sənaye kompleksində çalışan fermer, sahibkarlar, alim və mütəxəssislər tərəfindən böyük ümid və rəğbətlə qarşılanan "Azərbaycan Respublikasında sosial – iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanı, 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial – iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", 2004-cü il 23 oktyabr tarixli sərəncamları ilə təsdiq edilmiş "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" və "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında", 2008- ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", 2009-cu il 14 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial – iqtisadi inkişafı Dövlət Proqramı", 2011-ci il 15 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" və digər qəbul edilmiş hüquqi – normativ sənədlər aqrar – sənaye kompleksinin inkişafına güclü təkan vermişdir.

Mükəmməlləşdirilmiş metodika və rəqəmlər bazası üzərində iki onillik araşdırmalar nəticəsində aclıqdan xroniki əziyyət çəkən insanların sayı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO), Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (İFAD) və Beynəlxalq Ərzaq Proqramı (BƏP) tərəfindən dəqiqləşdirilərək müəyyən edilmişdir ki, hazırda dünyada bu insanların sayı təxminən 870 milyondur. Aclıqdan xroniki əziyyət çəkən insanların əksəriyyəti, yəni 852 milyon nəfəri, orta hesabla bu ölkələrdə yaşayan insanların 15 faizi əsasən inkişaf etməkdə olan ölkələrin, 18 milyon nəfəri isə inkişaf etmiş ölkələrin payına düşür. 1990-2012-ci illər ərzində aclıqdan əziyyət çəkən insanların sayı 132 milyon nəfər və ya dünya əhalisinin 18,6 faizindən 12,5 faizə qədər, inkişafda olan ölkələrdə isə 23,2 faizdən 14,9 faiz miqdarında azalmışdır ki, bu da əgər effektiv tədbir görülərsə, Minillilyin inkişaf Məqsədlərinə çatmağa imkan verər.

## Nəticə

Kənd təsərrüfatı Azərbaycanın ənənəvi istehsal sahəsidir. Bu gün Azərbaycan iqtisadiyyatına nəzər yetirsək, onun dünya miqyasında hec kimdən iqtisadi və siyasi cəhətdən asılı olmayan nadir ölkələrdən biri olduğunu görərik. , Respublikamız cağdaş dövrün idxal edən ölkəsindən ixrac edən ölkəsinə çevrilmişdir, onun nəticəsidir ki, 2022-ci ildə ümumi iqtisadiyatda təxminən 5%, qeyri -neft sektoronda 9%-dan çox, bununla bərabər ümumi daxili məhsulumuz rekord həddə 130 mln. $-a çatıb, bu tarixi bir naliyyətdir. Bu göstəricilərdən belə aydın olur ki, Azərbaycan Respublikasında Kənd Təssərüfatına necə önəm verilir.

## ƏDƏBİYYAT

1. İsmət Abasov. Azərbaycanın və Dünya Ölkələrinin Kənd Təsərrüfatı, Bakı, 2013
2. Kənd Təsərrüfatı Nazirliyi illik hesabat, Bakı, 2020
3. Şərqi Avropa tərəfdaş ölkələrinin kənd təsərrüfatı və kənd yerlərinin inkişafının qiymətləndirilməsi Azərbaycan Respublikası- Avropa İttifaqı Qonşuluq Proqramı
4. Avropa İttifaqı Qonşuluq Proqramı, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

№ 3/2023 səh.3-9

УДК 338

**Развитие сельскохозяйственных предприятий в Азербайджане**

[1]М.М.Гусейнов, [2]С. Т.Аббасова

**Резюме.**В статье рассказывается о путях развития сельскохозяйственных предприятий в Азербайджане с древнейших времен до наших дней. В современное время одной из самых глобальных проблем человечества является обеспечение населения продуктами питания, и самая главная обязанность и честь - платить за это обеспечение. В настоящее время ликвидация числа людей, страдающих от голода, осуществляется странами мира, международными организациями, особенно Продовольственной и сельскохозяйственной организацией Объединенных Наций (ФАО), Всемирным банком, Международным фондом сельскохозяйственного развития (МФСР), Международный валютный фонд и другие организации, каждая из которых обеспечивает человека минимальными жизненными калориями, другими аспектами продовольственной безопасности и т. д. С учетом проблем ведется работа по их устранению.

**Ключевые слова:** сельское хозяйство, экономика, ФАО, МФСР, ООН, УДМ.

UDC 338

**Development of agricultural enterprises in Azerbaijan**

[1]M. M.Huseynov, [2]S. T.Abbasova

**Summary.**The article talks about the development paths of agricultural enterprises in Azerbaijan from ancient times to the present day. In modern times, one of the most global problems of humanity is providing the population with food products, and the most important duty and honor is to pay for this provision. Currently, the elimination of the number of people suffering from hunger by the countries of the world, international organizations, especially the Food and Agriculture Organization of the United Nations (FAO), the World Bank, the International Fund for Agricultural Development (IFAD), the International Monetary Fund and other organizations, every providing a person with minimum living calories, other aspects of food security, etc. Taking into account the problems, work is being done to eliminate them.

**Key words:** agriculture, economy, FAO, IFAD, UN, UDM.

Redaksiyaya daxilolma: 29.09.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.10-15

UOT 338.12
DOI:10.30546/JIECM.2023.3.10.

# DİL VƏ MƏDƏNİYYƏT İQTİSADİ İNKİŞAFIN AMİLİ KİMİ

**Zəminə Rəsul qızı Novruzova**

**Azərbaycan Texnologiya Universiteti**

zeminenovruzova@mail.ru

***Xülasə.****İnsanlara məxsus olan dillər qədər mədəniyyətlər də bir-birindən fərqlənir və böyük sürətlə dəyişikliyə uğrayır. Mədəni dəyişikliklər dilə münasibətdə də özünü göstərir. Danışıq dili hər hansı bir insan cəmiyyətində istifadə edilə bilən məlumatın həcmini əhəmiyyətli dərəcədə genişləndirir və yeni bacarıqların əldə edilməsini, eləcə də texnikaların dəyişmiş şəraitə və ya yeni, fərqli mühitlərə uyğunlaşdırılmasını sürətləndirir. Dildən istifadə etməklə istənilən bacarıqlar, texnikalar, məhsullar, sosial nəzarət üsulları və s. izah edilə bilər və hər kəsin ixtirasının son nəticələri deyilənləri qavramaq üçün intellektual qabiliyyəti olan hər kəsə təqdim edilə bilər. Dillər və onların daxilində variasiyalar bütövlükdə insan cəmiyyətində həm birləşdirici, həm də müxtəlifləşdirici rol oynayır. Ümumi mədəniyyət və ortaq dil fərdlər arasında ticarəti asanlaşdırır, eləcə də həmin fərdlərin digər dilləri və mədəniyyətləri öyrənmək üçün stimulları var.*

***Açar sözlər:*** *dil, mədəniyyət, iqtisadiyyat, dil dinamikası, dil və əmək gəliri.*

Bütün xalqlara və bütün dillərə aid olan universal fakt bundan ibarətdir ki, dil daxili fikirlərin şifahi formada ötürülməsidir. Dil və mədəniyyət arasında əlaqə əsasən özünü məhz dilin mədəniyyətin bir hissəsi olmasında göstərir. Təbii ki, burada mədəniyyət anlayışı geniş anlamda insan həyatının və davranışlarının bütün aspektlərini əhatə edən bir faktor kimi başa düşülməlidir. Dilin mənimsənilməsi və ondan istifadə olunması anadangəlmə, irsi olsa da, ondan necə istifadə edilməsi, artıq insanın cəmiyyətin bir üzvü olaraq özünü necə yetişdirməsindən asılıdır. Bunu sadə dillə belə izah etmək olar; məsələn, yemək yaşamaq üçün bioloji tələbatdır, amma fərqinə vararaq insanın özü üçün (sağlamlığı və ya xarici görkəmi) lazım və ya faydalı olanları seçməsi, zərərli olanlardan imtina etməsi bilgi olmaqla yanaşı, artıq, həm də bir mədəniyyət göstəricisidir. Bu müəyyən mənada dilə də aiddir. Əgər fərdin dili cəmiyyətin bir üzvü kimi mədəni aspektlər çərçivəsində mənimsənilirsə, artıq bu mədəniyyətdir və dillə mədəniyyətin qarşılıqlı şəkildə bağlılığının göstəricisi olmaqla yanaşı, cəmiyyətlə dilin bağlılığının sübutudur. Çünki, dil ictimai mühitdə inkişaf edir, strukturlaşdırılır və hər bir dil müəyyən qrup insanlar arasında tarixən dəyişikliklərə məruz qalaraq yaşayır.

Dilin mədəni şəkildə öyrədilməsi insanın hələ uşaq yaşlarından çox böyük ifadələr toplusuna məruz qaldığı zamanda, daha dəqiq desək, tədris zamanı düzgünlük standartlarına əsaslanan oxumaq və yazmaq vərdişləri aşılandığı və ya formal qrammatika mənimsədildiyi zaman daha geniş aspektdə baş verir, halbuki ailədə uşaqlar və ya valideynlə uşaqlar arasında olan ünsiyyət zamanı söz ehtiyatı genişlənsə də, bu proses bir qədər zəif gedir.

Müxtəlif ərazilərdə yaşayan insanlara aid olan dillər qədər mədəniyyətlər də bir-birindən fərqlənir və hər zaman, bəzən də böyük sürətlə dəyişə bilirlər və dəyişirlər. Mədəniyyət dəyişikliyinin dillə əlaqəsi hansı formada özünü göstərir? Təkcə bunu demək kifayətdir ki, dildən istifadə etməklə istənilən bacarıqlar, texnikalar, məhsullar, sosial nəzarət üsulları və s. izah edilə bilər və hər kəsin ixtirasının son nəticələri deyilənləri qavramaq üçün intellektual qabiliyyəti olan hər kəsə təqdim edilə bilər. Düzdür, danışıq dili hər hansı bir insan cəmiyyətində istifadə edilə bilən məlumatın həcmini əhəmiyyətli dərəcədə genişləndirir, yeni bacarıqların əldə edilməsini və texnikaların dəyişmiş şəraitə və ya yeni, fərqli mühitlərə uyğunlaşdırılmasını sürətləndirir. Nəzərə alsaq ki, əsrlər öncə yazının ixtirası və yayılması, savadlılığın artması bu prosesi nə qədər sürətləndirib, onda bu günə qədər dil və mədəniyyət arasında olan əlaqənin hansı formada və əhəmiyyətdə olduğunu daha dəqiq anlamaq olar.

№ 3/2023 səh.10-15

Bütün dünyada kommunikasiyanın yayımlanması və ya ani ötürülməsi üçün müasir texnikalar, dünya dilləri arasında sürətli tərcümə vasitələri ilə birlikdə hər cür istifadə edilə bilən bilikləri dünyanın demək olar ki, hər yerində insanlar üçün əlçatan etməyə imkan verdi. Bu da öz növbəsində müasir dünyada elmi, texnoloji, siyasi və sosial dəyişikliklərin böyük sürətini izah edir. Bütün bunlar bəşəriyyətin istər xeyrinə, istərsə də ziyanına mədəniyyətin ötürülməsində dilin dominant rolu ilə əlaqələndirilməlidir.

Cəmiyyətdə sosial və peşə qruplarının fərqləndirilməsində dil daxilində variasiyaların oynadığı rol mühüm əhəmiyyət kəsb edir. Dil ötürülməsində bu, bilərəkdən müdaxilə edilmədiyi təqdirdə, öz-özünə davam etməyə meyllidir. Şüursuz və qeyri-ixtiyari akkulturasiya prosesi kimi uşaqların valideynlərinin və yaxın qohumlarının mənsub olduğu sosial qrup daxilində tərbiyə almaları və bu qrupun ləhcəsini, ünsiyyət üslublarını, digər subkultura və ona xas olan davranış xüsusiyyətlərini və münasibətlərini öyrənmələrini misal göstərmək olar. Lakin nə qədər qeyri-ixtiyari olsa da, sosial statusun və sosial iyerarxiyanın linqvistik təzahürlərinin əhəmiyyəti təbəqələşmiş cəmiyyətlərdə şəxsi irəliləyişə nail olmaq istəyənlər üçün yaddan çıxmır. Leksik, qrammatik və fonoloji xüsusiyyətlərinə görə uyğun variantın seçilməsinin, hansı sözlərdən istifadə etməli və hansı sözlərdən qaçınmaq lazım olduğunun öyrənilməsinin sosial miqyasda yuxarı və ya aşağı hərəkət etmək istəyən insanlar üçün böyük rolu və əhəmiyyəti var. Eyni mülahizələr birinin dilinin dəyişdirilməsi ilə ləhcənin dəyişdirilməsinə də aiddir. Dilin dəyişdirilməsi fərd üçün daha çətin və ümumiyyətlə, daha nadir olsa da, hər hansı bir kütləvi immiqrasiya hərəkatında geniş yayılma ehtimalı olan hadisədir.

Dillər və onların daxilində variasiyalar bütövlükdə insan cəmiyyətində həm birləşdirici, həm də müxtəlifləşdirici rol oynayır. Dil mədəniyyətin bir hissəsidir, lakin mədəniyyət çoxlu müxtəlif xüsusiyyətləri özündə cəmləşdirdiyindən mədəni xüsusiyyətlər arasındakı sərhədlər aydın deyil və hamısı üst-üstə düşmür. Mədəniyyətlərin müxtəlif komponentlərinin paylanması fərqlidir və dillərin paylanması qeyri-linqvistik mədəniyyət xüsusiyyətlərindən fərqli ola bilər.

Dil, insan davranışının digər aspektləri kimi məqsədyönlü müdaxiləyə məruz qalır. Fərqli dilləri olan insanlar ünsiyyət qurmağa ehtiyac duyduqda, onlar üçün müxtəlif məqsədəuyğunluqlar açıqdır və bunun ən barizi ikinci dil öyrənmək və öyrətməkdir. Bu isə öz növbəsində vaxt, səy və təşkilatçılıq tələb edir. Bir neçə fərqli dilin üstünlük təşkil etdiyi zamanlarda beynəlxalq məqsədlər üçün bir dilin seçilməsinə dair gizli və ya qəsdən razılaşmalar əldə edildiyi tarixdən də məlumdur. Məsələn; müəyyən bir dönəmdə Roma İmperiyasının qərb yarısı Latın dilindən, şərq yarısı isə yunan dilindən istifadə edirdi. Orta əsrlərdə Qərbi Avropada latın dili təhsilli insanların beynəlxalq dili kimi davam etdi və latın dili məktəblərdə tədris olunan ikinci dil idi. Sonralar Fransanın mədəni, diplomatik və hərbi nüfuzu fransız dilini Avropa diplomatiyasının dilinə çevirdi. Fransız dilinin beynəlxalq münasibətlər dili kimi bu şəkildə istifadəsi XX əsrə qədər davam etdi. İkinci Dünya Müharibəsindən sonra elm və texnologiyada, eləcə də beynəlxalq ticarətdə ingilis dilinin üstünlük təşkil etməsi bu dilin praktiki iş dünyasında əsas beynəlxalq dil kimi tanınmasına səbəb oldu. Bu gün də bu proses davam edir və digər dillərdə təhsil almış insanların ingilis dilində işgüzar biliklərə yiyələnməsi üçün göstərdiyi səylərin həcmini doğma dili ingilis dili olanların yetərincə dərk etmələri mümkün deyil.

Mövcud təbii dillərin beynəlxalq səviyyədə tanınmasına alternativ olaraq, məhz elə bu məqsədlə hazırlanmış yeni və əsl beynəlxalq dillərin icad edilməsinə və təbliğinə cəhdlər edilmişdir. Belə dillərdən ən məşhur olanı XIX əsrdə L.L.Zamenhof tərəfindən icad edilən esperanto dilidir. Bu cür dillər, ümumiyyətlə dünyanın daha yaxşı tanınan mövcud dillərinin lüğət və qrammatik aparatının hissələri əsasında qurulur. Ən əsası burada yazı və onun tələffüzü arasındakı əlaqə bir çox dillərdə mövcud olan orfoqrafiya-orfoepiya fərqlərinə nisbətdə daha sistematikdir (Məsələn; ingilis dilində yazı və tələffüz arasındakı uyğunsuzluqdan başqa ümumiyyətlə, bəzi digər orfoqrafiyalarda da olduğu kimi ingilis dilinin orfoqrafiyasının görünən irrasionallığının bir hissəsi sadəcə hərf ardıcıllığının sabit qalması, onların təmsil etdiyi səslərin dəyişməsi ilə bağlıdır) və bütün təbii dillərin məruz qaldığı qrammatik pozuntulardan qaçınmağa diqqət yetirilir. Ancaq, esperanto dilində danışanların beynəlxalq cəmiyyəti mövcud olsa da, bu süni dillər çox irəliləyiş əldə etməmişdir.

Dilin iqtisadiyyatına dair ədəbiyyatı dörd əsas kateqoriyaya bölmək olar:

№ 3/2023 səh.10-15

1. Dil və əmək gəliri: Burada dilə etnik atribut kimi baxılır. Bir insanın ana dili onu müəyyən bir qrupa aid edir və bu dilə əsaslanan mənsubiyyət həmin şəxsin sosial-iqtisadi vəziyyətinə və qazanclarına təsir göstərə bilər.
2. Dil dinamikası: Burada dilə iqtisadi üstünlük mənbəyi kimi diqqət yetirilir. Dil bacarıqları fərdlərin və cəmiyyətlərin gəlirli şəkildə sərmayə qoya biləcəyi bir sahə kimi görülə bilər.
3. Dil və iqtisadi fəaliyyət: Burada dil təkcə şəxsiyyətin əsas elementi və ya potensial dəyərli bacarıqları kimi deyil, daha çox onun sosial-iqtisadi statusuna təsir edən linqvistik atributlar toplusudur.
4. Dil siyasətinin iqtisadiyyatı: İqtisadiyyat üstünlüklər və çatışmazlıqlar baxımından dil siyasəti ilə bağlı müxtəlif seçimlərə baxmağa kömək edə bilər. Cəmiyyət dillə bağlı seçimlərlə qarşı-qarşıyadır. Bu iş xətti fərdlərin və cəmiyyətin nöqteyi-nəzərindən mənfəət və xərclərin əsas mənbələrini müəyyən edir. Təhsil dövlətin dil sahəsinə müdaxiləsinin ən mühüm kanalı olduğundan, təhsil iqtisadiyyatı bu qəbildən olan işlərə mühüm töhfə verir [1].

Dil dəyişikliklərinin təbii gedişatına və dillərin yayılmasına qəsdən müdaxilə təkcə beynəlxalq əlaqə və əməkdaşlığın asanlaşdırılması məqsədilə ilə məhdudlaşmır. Milli dövlətlər və onların daxilindəki dil qruplarında birləşdirici qüvvə kimi dil uzun müddət siyasi məqsədlər üçün manipulyasiya edilmişdir. Əslində, çoxdilli dövlətlər mövcud ola bilər və inkişaf edər, lakin linqvistik rəqabət və çəkişmə hər zaman pozucu rol oynamışdır. Belçikada fransız və flamand dillərində danışanlar, eləcə də Hindistanın bəzi yerlərində rəqib xalq icmaları arasında baş verən dil iğtişaşlarını buna misal göstərmək olar. Belə olan təqdirdə, dilinin sıxışdırıldığını, təqib edildiyini, hücum və ya təzyiq hədəfi olduğunu və ya ayrı-seçkiliyə məruz qaldığını düşünən xalq üçün o, yalnız ünsiyyət vasitəsi olmaqdan çıxır, sədaqət rəmzinə çevrilir.

Qarşılıqlı anlaşılmayan iki dil arasında davamlı təmasda olan və hər ikisinin sıxışdırılmasına və ya genişlənməsinə səbəb olmayan vasitələrdən biri tərcümədir. Məlum olduğu üzrə dilçilikdə tərçüməşünaslıq nitq fəaliyyətinin bir növü olaraq dilçilik təlimidir. Bəzi alimlər tərəfindən "tərcümə nəzəriyyəsi", baziləri tərəfindən isə "translatologiya" adlanan bu şöbə tərcüməşünaslıq problemləri ilə məşğul olur. Fərqli formaya və məzmuna malik materialların tərcümə edilməsi məsələsində əsasən iki növ özünü göstərir. Bunlardan biri bədii, digəri isə informativ tərcümədir. Təbii ki, bədii tərcümə daha çox ədəbiyyatla əlaqədar olduğundan özünün tədqiqat metodları, məzmunu mövcuddur və onun problemləri ədəbiyyatşünaslıq elminə daha yaxındır. İnformativ tərcüməyə isə rəsmi, elmi, publisistik, işgüzarlıq və s. materialların tərcüməsi daxildir ki, bununla bilavasitə dilçilik elmi məşğul olur və burada bizi maraqlandıran tərcümə məsələsi də məhz informativ tərcümə məsələsidir.

Beləliklə, fərqli dillərdə olan iki istifadəçi danışmağa ehtiyac duyan kimi, ya üçüncü tərəf vasitəsilə, ya da birbaşa tərcümə lazımdır. Yazının ixtirasından və yayılmasından əvvəl tərcümə ani və şifahi idi; bu işdə peşəkarcasına ixtisaslaşan şəxslər tərcüməçi adlanırdı.

Tərcüməçinin vəzifələri materialın şifahi, əllə (imzalı) və ya yazılı olmasından asılı olmayaraq eynidir, lakin təbii ki, yazılı mətnlər arasında tərcümə üslubi düzəliş və texniki təcrübə üçün daha çox vaxt və əmək tələb edir. Çünki, sözlər leksik mənalarına görə başqa dillərdə ən çox uyğun gələn ekvivalenti ilə belə müxtəlif çalar və assosiasiyalar təşkil edər və bu da hərfi tərcüməni poza bilər. Semantik olaraq hərfi və ədəbi mətnin tənzimlənməsi, mümkün olduğu qədər hər bir sözün dəqiq tərcüməsi ilə bütöv bir cümlənin və ya hətta bütöv bir mətnin düzgün idarə edilməsi böyük diqqət, gərgin əmək tələb edir və orijinalın mənasını çatdırır.

Şeirin tərcüməsi xüsusi çətinliklər yaradır və orijinal şeir nə qədər yaxşı olarsa, tərcüməçinin işi də bir o qədər çətin olur. Çünki poeziya, şairin demək istədiyini bədii və obrazlı dillə və hər bir xalqın milli, mədəni, etnoqrafik xüsusiyyətlərinə görə ifadə edir. Şairlər hansı dildə yazmaqlarından asılı olmayaraq həmin dildə söz seçiminə, sözlərin sırasına və qrammatik konstruksiyalarına diqqət yetirir, uyğun gələn bütün resursları, o cümlədən dilə xas olan fonoloji xüsusiyyətləri ölçü, qafiyə, assonans və alliterasiya ilə tamamlayırlar. Təbii ki, bu sadaladığımız xüsusiyyətlər də dildən-dilə fərqlənir.

Tərcümə mətnin kommunikativ dəyərini genişləndirməyə xidmət edir. Ancaq, bəzən insanlar bunu məhdudlaşdırmaq istəyirlər ki, bu da məxfi mesajların effektivliyi üçün onların ünvanlandığı tək

№ 3/2023 səh.10-15

şəxs və ya bir neçə şəxs tərəfindən tanınması və başa düşülməsi ilə bağlıdır. Bunlar diplomatik mübadilələr, müharibə zamanı operativ mesajlar və bəzi kommersiya məlumatlarının ötürülməsidir. Uzun əsrlər boyu yazılı mesajların ələ keçirilməsindən qorunması üçün müxtəlif vasitələr tətbiq edilmişdir. XX əsrdən etibarən artıq teleqraf və telefoniyada baş verən inkişaf, internetin yaranması, istər nitq kimi ötürülən, istərsə də əlifba hərfləri seriyası kimi göndərilən mətnlərin icazəsiz qəbulundan qorunmasını daha da aktuallaşdırdı. Yazılı mesajların gizlədilməsində kriptoqrafiya – kodlar və şifrələr – deşifrə üsullarının inkişafı ilə qarşılaşsa da, uzun müddətdir ki, daim inkişaf etdirilir.

Bütün fizioloji və əqli cəhətdən tipik insanlar ana dilinin əsas quruluşunu və əsas lüğətini, ümumiyyətlə, ünsiyyət vasitəsi kimi birinci dilin mənimsənilməsi prosesini əsasən təsadüfi məruz qalma nəticəsində uşaqlıq dövrünün sonuna qədər əldə edirlər. Bununla belə, birinci dilin mütərəqqi mənimsənilməsində əldə olunan böyük nailiyyətə baxmayaraq, bu, heç bir şərhə səbəb olmur, qeyri-adi qarşılanmır, sadəcə, böyümə prosesində gözlənilənlərin bir hissəsi kimi qavranılır. Bu insanın öz birinci dilinin əsas strukturunu və lüğətini qismən və ya tam şəkildə mənimsədiyi zaman həyata keçirilən məqsədyönlü fəaliyyətdir.

İkinci və sonradan əldə edilmiş hər hansı bir dilin öyrənilməsi tamamilə ayrı bir məsələdir ki, burada da bir çox insanlar onu öz ana dillərindən daha çox mənimsəmirlər. Yalnız ikinci dillə qarşılaşdıqda dilin nə qədər mürəkkəb olduğunu və sonrakının mənimsənilməsi üçün nə qədər səy sərf etmək lazım olduğunu başa düşürlər. Belə bi fikir söylənilir ki, bir dili öyrənmək üçün əsas maneə artıq bir dili bilməkdir və ümumi təcrübə göstərir ki, uşaqlıqda daha asan və sadə görünən qrammatik quruluş, lüğət ehtiyatı və s. öyrənilməsi qabiliyyəti, zaman keçdikcə tədricən itirilir.

İkinci dili öyrənərkən nitq və yazı bacarıqlarına yiyələnmək inkişaf etmiş ölkələrdə universal savadlılıq standartı kimi qəbul edilir və arzuolunan nailiyyətdir. Nəzərə almaq lazımdır ki, bu gün dünyada 1000 və ya 500, hətta 50 nəfərdən az adam tərəfindən danışılan bir çox fərqli dil var. Yalnız geniş bir ərazidə istifadə olunan dillərin öyrənilməsinə tədris resursları, müəllimlərin vaxtı və təlimi, çap, nəşrlər, bir sözlə, kapital qoyuluşu tətbiq edildikdə iqtisadi və sosial cəhətdən əsaslandırıla bilər.

Alman sosiolinqvisti Florian Coulmas "Dil və İqtisadiyyat" əsərində dil və iqtisadiyyatın qarşılıqlı əlaqəsinin bir çox yollarını, iqtisadi inkişafın dillərin yaranmasına, genişlənməsinə və ya tənəzzülünə necə təsir etdiyini göstərmişdir. O cümlədən, çoxdillilik və sosial zənginliyin bir-biri ilə necə əlaqəli olması, müasir cəmiyyətlərdə dil və pulun oxşar funksiyaları necə və nə üçün yerinə yetirməsi, standart dilin olmasının nə üçün iqtisadi üstünlük təşkil etməsi, çoxdilli cəmiyyətlərdə dillərin qeyri-bərabər paylanmasının iqtisadi bərabərsizliyə səbəb olması və s. haqda məlumat verilir.

Bəs dillərin iqtisadi dəyəri necə qiymətləndirilə bilər? Dillərin niyə daxili iqtisadiyyatı var və onlar xarici iqtisadiyyatın tələblərinə necə uyğunlaşırlar?

Əvvəllər təhsil siyasəti ilə məşğul olmuş sinqapurlu, Li Kuan Yu müstəqillik, dilin bölücü potensialı haqqında danışarkən demişdir ki, "dilin irqlə heç bir əlaqəsi yoxdur və insan bir dillə doğulmur [2].

Dil dekolonizasiya ilə birlikdə müstəqillik yoluna qədəm qoyan dövlətlərin inkişaf yolunda əsas amillərdən biri olsa da, ən çox kənarda qalan sahələrdən bəlkə elə birincisi də odur. Qabaqcıl ölkələr üçün Avropa dillərindən istifadə etməklə təhsil, hüquq və dövlət səviyyəsində əlaqələr daha faydalıdır və belə bir dil siyasəti elitaların hakimiyyətdə möhkəmlənməsinə, yüksəlməsinə kömək etdiyi halda, ümumi əhalinin bilik əldə etməsinə əngəl törədir. Ümumi və bir çox dillərdə ali təhsil əlavə xərc tələb etdiyindən onu həyata keçirmək çətin olur və ümumi əhalinin güclənməsinə qarşı işləyə bilir. Bu qarşılıqlı əlaqə bir daha dil və iqtisadiyyat arasındakı əlaqəni müəyyənləşdirir [2].

Dövlət dil xərclərini üzərinə götürür, çünki o, ünsiyyət bacarıqlarına ehtiyacı olan biznes kimi onun vasitəsilə özünü qoruyur. Dillər iqtisadi sistemlər kimi davrana bildiyindən onun bir əmtəə rolu da mövcuddur. Buna görə də, sosial-iqtisadi ekologiyalar müəyyən dillər üçün əlverişsiz olur. Dillərin yayılması, əsasən, iqtisadi şəraitdən asılıdır və bəzən simvolik gücün ifadəsi ola bilər. Bununla belə, dünyanın linqvistik xəritəsindəki dəyişikliklər göstərir ki, dillər dünyada baş verən iqtisadi inkişaflarla əlaqədar olaraq bəzən güclü, bəzən də zəif ola bilirlər. Dil bazarında müəyyən bir dilə iqtisadi dəyər

№ 3/2023 səh.10-15

vermək ona həmin dillə bağlı bəzi imtiyaz və səlahiyyətlərin verilməsi deməkdir. Dünyadakı əksər dil icmaları bu siyasəti dil öyrənmə sərmayələrində qarşılıqlılıqdan narahat olmadan tətbiq edir, linqvistik ədalətin ardınca ehtiram pariteti kimi unudulur və dil rejimləri bəzən çox ədalətsiz olur.

Dillər hərfi mənada kapital qoyuluşları tələb etidiyindən, deyə bilərik ki, bu gün dil texnologiyası çox önəmlidir. Bu, gəlir gətirmədikdə yalnız zəngin ölkələr və bizneslərin ödəyə biləcəyi əhəmiyyətli investisiyalar tələb edir. Bu baxımdan, bu gün ingilis dili Amerika imperiya gücünün nəticəsi və aləti, XXI əsrdə rəqabət üstünlüyü, firavanlıq və güc uğrunda gedən qlobal yarışmada Amerika anglofonları üçün nəzərəçarpacaq sərvət kimi qəbul edilir. Baxmayaraq ki, ən yaxşı biznes dili müştərilərin dili olaraq qalır, yenə də çoxdilli iş təcrübələri, "ideal" qlobal iqtisadiyyat bütün dünya üçün vahid dili nəzərdə tutur. Lakin "ideal" qlobal dil bütün biznes üçün ümumi məqbul və ədalətli dil yükünü nəzərdə tutur. Bu baxımdan dil bərabərsizliyi ticarət məqsədləri üçün əksər ölkələrə və özəl müəssisələrə baha başa gəlir, halbuki dili beynəlxalq dil bazarında aparıcı mövqe tutan ölkələr, adətən bu dilin yayılmasına subsidiya verməkdən imtina edirlər.

Hər halda, hələ də belə iddialar mövcuddur ki, bəzi dillər (məsələn; esperanto kimi) mənfəət-xərc təhlili baxımından daha faydalı olardı. Problem ondadır ki, dillərin qiymətləndirilməsində dəyişən model heç də həmişə yalnız rasional hesablana bilən amillərlə baş vermir. Dilə verilən qeyri-iqtisadi dəyərlərə baxmayaraq, dil məsələlərində üstünlük təşkil edən çox vaxt sərfəli olandır və bu, dominant dilin istehsal vasitəsi kimi üstünlüyünə, yüksək linqvistik kapital dəyərinə səbəb ola bilir və olur. Bu baxımdan, son onilliklərdə ingilis dilini öyrənmək istəyinin, həm də zərurətinin o qədər artdığını, eləcə də onun fəaliyyət dairəsinin o qədər geniş olduğunu görmək olar ki, xarici dil öyrənməyin iqtisadi zərurəti və digər stimulları, ümumiyyətlə, əhəmiyyətsiz kimi qəbul edilir.

Dil iqtisadi potensialı ilə yanaşı, həm də siyasi, mədəni və sosial-psixoloji xüsusiyyətlərin daşıyıcısıdır. Ümumi mədəniyyət və ortaq dil fərdlər arasında ticarəti asanlaşdırır, eləcə də həmin fərdlərin digər dilləri və mədəniyyətləri öyrənmək üçün stimulları var ki, daha çox potensial ticarət tərəfdaşlarına sahib olsunlar. Assimilyasiyanın dəyəri kiçik azlıqdan olan bir fərd üçün böyük azlıq qrupundan olana nisbətən daha böyükdür. Bir cəmiyyətdə bir mədəniyyətdən olan fərdlərin çox böyük əksəriyyəti olduqda, azlıq qruplarından olan fərdlərin daha tez assimilyasiya olma ehtimalları var. İmmiqrantın doğma mədəniyyəti və dili onun yeni ölkəsində geniş şəkildə təmsil olunduqda və ya hökumətlər azlıqların maraqlarını birbaşa müdafiə etdikdə, assimilyasiya ehtimalı və çoxluğun mədəniyyətinə assimilyasiya olunmaq üçün stimul azalır.

Beləliklə, istər mədəniyyət tarixinin tərkib hissəsi kimi, istərsə də mədəniyyətin özünün mərkəzi hissəsi kimi dil, hər hansı digər insan fəaliyyətindən və nailiyyətlərindən daha çox bəşər cəmiyyətinin fərqli dövrlərində nələr olduğunu aşkar etməyə qadirdir.

## ƏDƏBİYYAT


1. Victor A. Ginsburgh. Shlomo Weber. Culture, Languages, and Economics. 2013
2. Tõnu Tender / Ludwig M. Eichinger (eds.) Language and Economy Language industries in a Multilingual Europe, Contributions to the EFNIL Conference 2019 in Tallinn. 219 səh.
3. https://www.britannica.com/topic/language/Language-typology
4. https://www.jstor.org/stable/2155896
5. https://en.wikipedia.org/wiki/Economics_of_language
6. https://www.futurelearn.com/info/courses/multilingual-practices/0/steps/22650


**УДК 338.12**

**З. Р.Новрузова**

**Резюме.**Культуры столь же различны и велики, как и языки, принадлежащие людям быстро меняется. Культурные изменения отражаются в том, как они связаны с языком. Язык значительно расширяет объем информации, которая может быть использована в любом

№ 3/2023 səh.10-15

человеческом обществе и ускоряет приобретение новых навыков и адаптацию технологий к изменяющимся условиям или новым, различным средам. Использование языка может объяснить любые навыки, методы, продукты, методы социального наблюдения и т. и конечные результаты изобретения каждого могут быть представлены любому, кто обладает интеллектуальными способностями, чтобы понять, что говорится. Языки и вариации внутри них играют как объединяющую, так и разнообразную роль в человеческом обществе в целом. Общая культура и общий язык облегчают торговлю между людьми, а также стимулируют изучение других языков и культур.

**Ключевые слова:** язык, культура, экономика, динамика языка, язык и трудовые доходы.

**UDC 338.12**

**Z. R. Novruzova**

**Summary.**Cultures are as diverse and large as the languages that belong to people are changing rapidly. Cultural change is reflected in the way it relates to language. Language greatly expands the amount of information that can be used in any human society and accelerates the acquisition of new skills and the adaptation of technologies to changing conditions or new, different environments. The use of language can explain any skills, techniques, products, methods of social surveillance, etc., and the end results of the invention of each can be presented to anyone who has the intellectual ability to understand what is being said. Languages, and the variations within them, play both a unifying and diverse role in human society as a whole. A common culture and a common language facilitate trade between people, as well as stimulate the learning of other languages and cultures.

**Key words:** language, culture, economy, language dynamics, language and labor income.

Redaksiyaya daxilolma: 19.11.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.16-21

UOT 338.12:338.34:330.36

DOI:10.30546/JIECM.2023.3.16.

# ÖLKƏMİZDƏ QİYMƏTLİ KAĞIZLAR BAZARI DÖVRİYYƏSİNİN İNKİŞAFININ XALQ KAPİTALİZMİNİN FORMALAŞMASINA TƏSİRİ

[1]Nicat Adil oğlu Nərimanov, [2]Pünhan Qəşəm qızı Qələndərli,
[3]Nəcəf İsaq oğlu Sultanov

**Azərbaycan Texnologiya Universiteti**

***Xülasə.****Bu gün ölkəmizdə maliyyə dövriyyəsinin sürətlə formalaşması, iqtisadiyyat və hüquq sahəsində aparılan islahatlar prosesi bazar infrastrurukturunun yaradılması nəticəsində mümkündür. Yeni dövr formalaşdırılan bazar infrastrukturunun ən əhəmiyyətli hissələrindən biri QKB-dır. Beynəlxalq təcrübədə QKB iqtisadiyyatın maliyyə ilə təmin olunmasında bank sahəsi və dövlətin büdcəsi ilə bərabər ən öndə gələn mühüm variantlarındandır. QKB maliyyə kapitalının səfərbər olunmasına marağı artırmaqla maliyyə resurslarının iqtisadiyyatın başqa-başqa sferaları və sahələri arasındakı perspektivli (gələcəyə yönəlmiş) və rentabelli formada, dinamik şəkildə inkişafda olmuş istehsalların xeyrinə təkrarən bölüşdürülməsini təmin etmədədir.*

***Açar sözlər:*** *qiymətli kağızlar bazarı dövriyyəsinin inkişafı, kapital qoyuluşu*

**Giriş.**İlkin olaraq da QKB dövriyyəsinin yaranması iqtisadiyyat və hüquq sahəsində aparılan islahatların və bazar infrastrukturunun təşkil olunması sayəsində mümkündür. İnvestisiya (kapital qoyuluşu) və yığımın fərqli şəxslər tərəfindən reallaşdırıldığı bir dövrdə yaşayırıq ki, yığımların investisiyaya çevrilməsini reallaşdıran sabit bir mexanizmin yaranması dövrümüzün aktual məsələsinə çevrilir.

Əsas olaraq da, onu vurğulamaq yerinə düşərdi ki, QKB-yə daxil olan tərkib hissələri bu mexanizmin vəzifəsini realaşdırmaqla yanaşı iqtisadiyyatın fəaliyyət tərəfləri arasında qarşılıqlı kapital resurslarının effektiv formada yenidən bölüşdürülməsini təmin etməkdədir. Hazırda olan islahatların aparıldığı mühitdə maliyyə dövriyyəsinin ümumi seqmentlərinin inkişaf etdirilməsi və təkmiləşdirilməsi məsələsi olduqca mühüm yer tutmaqdadır. Buda ki, öz növbəsində maliyyə dövriyyəsinin bank sahəsilə yanaşı formada iqtisadiyyatda pul axınlarının ötürücüsü vəzifəsində bu günkü , sektorun canlanıb inkişafında əhəmiyyətli rol almasından irəli gəlir [2].

Ən əsas da ölkəmizdə neft sektorunda birləşmiş gəlirlərin başqa neft sektorlarına yönləndirilməsi probleminin mövcudluğu respublikamızın maliyyə dövriyyəsinin inkişaf edib yüksəlməsinə xüsusi şəkildə önəm verilməsini ön plana çıxarır.

Onu da qeyd etmək olar ki, mövcud bazar iqtisadiyyatı və bazar iqtisadi sahəsinə keçid şəraitində yaşayan dövlətlərdə, eləcə də ölkəmizdə iqtisadiyyatın önünüdə duran əsas öhdəliklərdən biri də qarşılıqlı borc problemlərinin, eləcə də, müəssisə və təşkilatlar arasında ödəmələr məsələsinin həll olunmasıdır. Çünki, qarşılıqlı şəkildə borc probleminin mövcudluğu özü ilə yanaşı yeni-yeni dövrü problemlər də gətirir. əsas müəssisə, təşkilat vergiləri ödəyə bilmir, bu halda mal alıcıları (müştərilər) aldıqları mala görə vergi borclarını ödəmirlər. Bu hal isə dövlətə öz növbəsində belə əks olunur; vergi daxilolmalarının yetərincə olmamasından büdcə planını yerinə yetirməkdə çətinlik çəkirlər və iqtisadiyyatın bəzi istiqamətlərinə dövlət yardımında gecikmələr olur və yaxud bir sözlə yardım kəsilir. Bütün bu olanlar isə ümumilikdə iqtisadi sferaya öz təsir gücünü göstərir və dövlətin həm siyasi, həm iqtisadi, həm də digər sahələr üzrə də gücü zəifləyir. Dövrümüzdə bu məsələlərin həll olunmasının mümkün həlli yolları barədə dövlət müəssisə və dairələrində buna uyğun tədbirlər həyata keçirilir.
Mövzunun aktuallığı: Ölkə bu məsələlərin həlli yolunda QKB dövriyyəsinin inkişafını məqsədəuyğun hesab etmişdir. Sırf buna görə də, bu bazarın təşkil olunması eləcə də, ölkədə mövcud olan bu günkü iqtisadiyyatın inkişafına olduqca əhəmiyyətli şəkildə təsir göstərən həmin məsələlərin həllinə təsir edə

№ 3/2023 səh.16-21

bilər, həm iqtisadi tərəflərin iqtisadi fəaliyyətə daha çox maraq göstərmələrinə və ondan səmərəli şəkildə işgüzar fəallığa cəlb edilmələrinə imkan verər. İndiki yeni dövrdə QKB dövriyyəsinin iqtisadiyyat üçün də bu qədər əhəmiyyətli olmasına və dövlətin bu barədə irimiqyaslı islahat işləri aparmasına baxmayaraq, dövlətimizdə bu barədə hələ də məlumat qıtlığı vardır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, tədqiqat işinin mövzusu olduqca aktualdır.

**Tədqiqatın məqsədi:** Tədqiqat işinin əsas məqsədi ölkəmizdə QKB-də baş qaldıran problemlər və onların inkişaf yollarının müəyyən edilməsidir.

**Tədqiqat obyekti:** Ölkəmizdə formalaşmış QKB və onun tərkib elementləri təşkil etməkdədir.

**Tədqiqat metodları:** İşin yazılmasında analiz - sintez, həmçinin induksiya – deduksiya metodlarından istifadə olunmuşdur. Analiz metodunda mövzu tam olaraq da götürülmüş daha sonra başlıqlara bölünərək ayrılıqda təhlil olunmuşdur. Sonra da sintez metodu ilə bu başlıqlar iqtisadi sistemdə toplanmışdır. İnduksiya metodu ilə iqtisadi faktlar yığılmış, sistemləşdirilmiş və araşdırılmışdır. Sonra isə deduksiya metodu vasitəsilə həmin toplanan faktlarla nəzəri nəticə, prinsiplər, başqa sözlə, əməli fəaliyyətlərə görə lazımi tövsiyyələr müəyyənləşdirilmişdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

QKB-lər çox qədim tarixi dövrlərdəki bazarlarda qiymətli mədənlərin alqı- satqısı ilə başlanmış və bu dövrdəki vasitəçilərin dövriyyəyə girməsi ilə genişlənərək, kredit vəsiqələri vasitəsilə ticarət sənədlərinin alınıb satıldığı bir bazar olmuşdur. Bütün bu deyilənlərə görə - "birja" ifadəsini, Brugge şəhərində pul ticarətini özünə peşə halına gətirən Vander Bursenin ailəsinin adından meydana gəlmişdir (Belçika). Bu bazarlar əvvəlcə Avropada 1478-ci ildə Anvers şəhərində yaranmış, XVI əsrdə Amsterdamda, XVI əsrin axırına yaxın isə Lion və başqa fransız şəhərlərində də qurulmuşdur. Londonda, QKB-nin alqı-satqısının reallaşdığı bir bazar mövcud olmuşdur, ancaq onun başlanğıc tarixi dəqiq bilinmir. Ancaq 1771-ci ildə, qiymətli kağızların alqı-satqısı əməliyyatlarının reallaşdırıldığı, bir məkanın üstünə - "The Stock Exchange" (QKB birjası) lövhəsi asılmış, giriş pullu olmuş və bununla da ilk QKB qurulmuşdur. XVI əsrdə birja- London və Paris, XVII əsrdə Vyana, Berlin, XVIII əsrdə - Nyu York, XIX əsrdə - Roma, Brussel, Madrid, Milan, Tokio və İstanbulda birjalar qurulmuşdur [3].

QKB-lər təklif və istəyin qarşılandığı bir bazar olub, sərmayənin mülkiyyətini çox geniş xalq kütləsinə yayır, yığımlara hərəkət qazandırır, iqtisadiyyatda barometr vəzifəsini həyata keçirir, bazarda tək qiymətin təşkilini saxlayır, sənayedə struktural dəyişikliyi asanlaşdırır, bazarda təminat işlərini yerinə yetirir, ictimai uzlaşmanı saxlayır və bununla da, iqtisadisosial baxımdan çox önəmli bir yer təşkil etməkdədir.

1.QKB-lər yığımlara yüksək hərəkət qazandırır, qiymətli kağızlar təklif və istəyinin qarşılandığı alıcı və satıcıların alqı-satqı əməliyyatlarını reallaşdırdığı, şəxsi və qurumların iştirakçılarının da yer aldığı bazardır. QKB-lər investorlar, yığım sahibləri, bunlar adına olan əməliyyat aparan vasitəçi fərd və qurumlar, sadəcə QKB satışı ilə məşğul olanlar kimi dəyişkən mənfəət qruplarının ehtiyaclarını ən optimal şəkildə qarşılamaq məqsədi güdür. Bu cür, fond ehtiyacı olanlar və bu səbəbdən də, QKB ixrac etmək istəyən şirkətlər də FB-nı axtaranları sabit məkanda bir araya gətirən və gerçəkləşdirilən bütün əməliyyatlar iki tərəfdə mənfəət əldə etməkdədir. Bununla da, fonda ehtiyacı olan şirkətlər QKB ixrac edərək daha ucuz yollu fond əldə etdikləri kimi, xeyli yığımları olub bundan istifadə etmək istəyənlər də ən uyğun və ən yüksək gəliri özündə saxlamağı planlı şəkildə dəyərləndirmə imkanı əldə etməkdədir. Deyilənlərdən göründüyü kimi, QKB-lər qiymətli kağızların lazımi anda pula çevrilməsini, yəni ki, likvid durumuna gəlməsində vasitəçilik rolunu öz üzərinə götürür. Bu xüsusiyyəti ilə də bazarda əməliyyat görən bütün bazar iştirakçıları fayda əldə etmiş olur. Qısa şəkildə desək, QKB-ları bu bazarlarda yer alan investorların likvid ehtiyacını tam qarşılayır və fond çoxluğu olan şəxslərin bu fondları səmərəli və sürətli bir formada dəyərləndirərək yatırıma (investisiyaya) dönüşdürülməsinə imkan verir [4].

№ 3/2023 səh.16-21

2.Bu birjanın bir başqa önəmli funksiyası da ondan ibarətdir ki, sərmayənin mülkiyyətini çox geniş xalq kütləsinə yayır, şirkətlər qiymətli kağızları FB-dakı listinqdən keçirmək yolu ilə, şirkətin yerli və beynəlxalq səviyyədə tanıtımına imkan verir. Bundan əlavə şirkətlər öz sahələrində bacarıqlı olmaq sayəsində, bazarın bu mühitindən daha da faydalanaraq çıxardıqları qiymətli kağızlarını asanlıqla bazarlara apara bilərlər. Ümumiyyətlə, , QKB orta sinfın təşkilinə və güclənməsinə təsir etməkdədir. İnkişaf etmiş ölkələrdəki (İEÖ) xalq kapitalizmi bu şəkildə gerçəkləşmişdir.

3.FB-da yüzlərcə istiqraz və aksiya funksiyalaşdığından, bunların da qiymətləri bir anda yayımlanır. Qiymətli kağızları emissiya edən şirkətlər, davamlı dəyərləndirmə və imtahan altında olurlar. Beləliklə də, mikrobazada ölkənin barometri rolunu görürlər. Qiymətli kağızlara olan tələb və təkliflərə görə qiymət hərəkətləri davamlı olaraq da dəyişir. Ancaq qiymətli kağızların məzənnəsinə təsir edən təməl faktor, onları ixrac edən şirkətlərin maliyyə strukturlarındakı mənfəət və güclülük durumlarıdır. Bu şirkətlərin nümayiş etdirdiyi yüksək performans, qiymətli kağızlara olan istəyi artırdığından, son nəticədə qiymətlər də artır. Bütün bu göstəricilər şirkət səhmdarları üçün də çox faydalı və yararlıdır. Həmçinin, səhmlərin orta performansını əks etdirən indeks ölkənin ümumi şəkildə iqtisadi durumu barəsində məlumat verir və bundan da istifadə olunaraq gələcəyə yönəlmiş proqramlar hazırlamaq mümkün olur. Hansısa bir şirkətin QKB-də dəyər itirməsi və yaxud qazanması, şirkətin performans və etibarlılığının ən önəmli göstəricisidir. Bundan başqa, həmçinin şirkətlərin bacarıq və qabiliyyət dərəcələrini də müqayisə etmək mümkün olur.

4.Şirkətin maliyyə gücünün azalması nəticəsində, eyni istiqamətdə fəaliyyət göstərən başqa şirkətlərin də bu şirkətə aid olan səhmlərini cəmləşdirmə və yaxud ələ keçirmə (takeover) formasındakı əməliyyatları çox xırda şirkətlərin yox olmasının da qarşısını almaqdadır.

5.Bütün satıcı və alıcıların QKB-da rastlaşması qiymətli kağızların konkret olaraq müəyyən olunmuş bir satış və alış qiymətinin əmələ gəlməsini təmin edə bilməkdədir. Bildiyimiz kimi, konkret bir qiymət tam rəqabət olan bazarlarda əmələ gəlir. Birja bülletenləri yolu ilə dünyanın və ölkənin hər tərəfinə bazarda müəyyən edilmiş qiymət vərəqi göndərilir. Bu üsulla QKB ilə maraqlananlar üçün qiymətdə aldanma hadisələrinin qarşısı da alınır.

6.Təşkilatlandırılmış QKB-da istənilən firmanın öz aksiyasını sata bilməsi mümkün deyildir. Listinq prosesindən keçə bilmələrini təmin etmək üçün QKB üzrə komitənin müəyyənləşdirdiyi şərtləri yerinə yetirə bilmək kimi məcburiyyəti vardır. Beləliklə də, fond birjasında qiymətli kağızların alışı və satışı ilə məşğul olan şəxslərə böyük təminat verilir.

7.QKB-ları sənayeçilərlə kiçik yığım sahibləri arasında körpü vəzifəsini həyata keçirir.

QKB-larının kapital bazarına olan mənfı təsiri:

1.QKB-lərin iri şirkətlərin lehinə fəaliyyət göstərməsinin nəticəsində kiçik şirkətlərin iri və məşhur firmalara nisbətən maddi qaynaq tapması hədsiz çətindir.

2.şirkətlərin yığım gücünün çox zəif olduğu ölkələrdə (ölkəmizdə bu siyahiya aiddir) sərmayə bazarları faydalanmır, yəni ki, yüksək gəlirli qrupların gəlir dərəcələri daha da yüksəlir.

3.Bütün şirkətlərin top menecerləri mənfəət, satış, dividend kimi məsələlərdə əldə etdikləri bilgiləri öz mənfəətləri üçün - "insider tradink" adı verilən əməliyyat proseslərində gerçəkləşdirə bilərlər (ölkəmizdə çek hadisəsi). Nümunə, 11 noyabr -2002- ci il tarixli "Vedomost" qəzetinin qeyd etdiyi xəbərə görə - "Fransız bankının - Societe Cenerale"nin özəlləşdirməsi istiqamətində, insayder məlumatın ticarəti üzrə də bir qrup biznesmenə qarşı dörd ildir ki, məhkəmə araşdırması davam etməkdədir".

Bəzi vəziyyətlərdə şirkətin iri həcmə sahib səhmdarları, firmanın finansal cədvəllərində dəyişikliklər etmək üsulu ilə, yəni ki, hər hansı şirkətin mənfəətini daha az göstərmək ilə, həmin firmanın qiymətli kağızlarının qiymətinin enməsinə yol açır və daha sonrasında isə bundan istifadə edərək mövcud şirkətin kağızlarını daha ucuz almaqla, nəticədə yüksək şəkildə qazanc fürsətinə nail olurlar.

Ölkədə QKB dövriyyəsinin inkişafına müxtəlif amillər öz təsirini göstərə bilməkdədir. Bunlardan birincisi, dövlət bazarındakı qarşılıqlı münasibətlərin inkişafı ilə əlaqəlidir. Ölkədə iqtisadi qərarların qəbulu mexanizminin inkişafı və qeyri-mərkəzləşdirilmiş qərara gəlmək ənənələrinin

№ 3/2023 səh.16-21

formalaşması QKB-nın inkişafına ciddi formada təsir etməkdədir. Ölkədə kapitalın mərkəzləşdirildiyi və mülkiyyətin strukturunda iri sahibkarların üstünlük təşkil etdiyi şəraitdə QKB dövriyyəsinin inkişaf imkanları məhdud ola bilməkdədir. Bura həmçinin dövlətdə fəaliyyətdə olan şirkətlərin ölçüsü də təsir etməkdədir. Ölçücə kiçik və orta fırmalar nisbətən kiçik sayda payçılara məxsus olmaqdadır. Belə şirkətlərin ictimaiyyət üçün də maliyyə hesabatlarının və digər məlumatın açıqlanmasına dair öhdəlikləri məhdud olur. QKB dövriyyəsinin inkişafına ölkədə formalaşmış ənənələr də əhəmiyyətli formada təsirini göstərir. Belə ki, nisbətən qapalı mülkiyyətə üstünlük verən, şərik fəaliyyətə üstünlük verilməyən cəmiyyətlərdə QKB çox zəif inkişaf etməkdədir. Bank sahəsindən fərqli olaraq da QKB-nın fəaliyyətini reallaşdıran infrastruktur nisbətən mürəkkəb və çoxsahəli ola bilməkdədir. Bu, qiymətli kağızların uçotunu, köçürülməsini, onlara və onları buraxan emitentlərə xüsusi şəkildə istəklərin müəyyən edilməsini və bazar iştirakçılarının bu istəklərə riayət etməsinə nəzarəti həyata keçirməyi və s. tələb edir. Belə halda məlumatın açıqlanmasının əhəmiyyəti böyükdür. Bu səbəbdən də, QKB-nın inkişafının vacib şərtlərindən biri də qiymətli kağızları buraxan emitentlərin özlərinə dair məlumatı açıqlamalarının aydın qaydalarının olmasıdır [5].

QKB-nın inkişafı şirkətlərin iri layihələri maliyyələşdirmələri üçün həm xüsusi, həm də borc vəsaitlərini cəlb etmələri məqsədilə çox geniş imkanlar verir. Bu cür şəraitdə, fırmalar xüsusi şəkildə vəsaitlərlə borc vəsaitlərinin optimal nisbətini seçmək imkanı əldə etməkdədirlər. Eləcə də, qiymətli kağızların dəyəri qiymətli kağızların emitenti ilə bağlı məlumat əsasında formalaşmaqdadır. Belə halda, QKB-nın inkişaf resurslarının daha da səmərəli bölgüsünə və səmərəli investisiya (kapital qoyuluşu) qərarlarının verilməsinə səbəb olmaqdadır. Bu amil QKB dövriyyəsinin bank sahəsinə nisbətən üstünlüyünü müəyyənləşdirir. Belə ki, QKB-da şirkətlərin məlumatı açıqlamaq zərurəti bu məlumatın yayılmasına və daha da səmərəli investisiya (kapital qoyuluşu) qərarlarının verilməsinə səbəb olur. Banklar isə məlumatı təkcə özləri alırlar və bu məlumat əsasında təkcə özləri qərar verirlər. Həmçinin, QKB şirkətlərin fəaliyyətinin səmərəliliyinə uyğun olaraq reaksiya verir, , real olaraq, şirkətlərin menecmenti üzərində nəzarət vəzifələrini də həyata keçirirlər.

## Nəticələr

Ölkədə maliyyə bazarlarının inkişafı mövcud iqtisadi resursların səmərəli istifadəsinə səbəb olur. Maliyyə vasitəçiləri miqyasdan qənaət və ixtisaslaşma hesabına sövdələşmə xərclərini əhəmiyyətli şəkildə azaldır və kiçik vəsaitlərin bazara cəlb edilməsinə şərait yaradırlar. Bazarda likvid maliyyə alətlərinin formalaşması sövdələşmə xərclərini azaltmaqla maliyyənin alətləri vasitəsilə ticarətin reallaşdırma yeri və vaxtı ilə bağlı çətinlikləri aradan qaldırır. Likvid kapital dövriyyəsinin mövcudluğu sərbəst pul vəsaitlərinə malik iqtisadi subeyktlərə asan satıla bilən səhm, istiqraz və s. kimi maliyyə alətlərini almaqla qeyri-likvid istehsal obyektlərinə investisiya (kapital qoyuluşu) qoymağa imkan verir. Maliyyənin QKB- nın inkişaf prosesi isə məhdud iqtisadi resursları daha da gəlirli sahələrə yönəltməklə bağlı çevik qərar verə bilməyə görə də əlverişli şərait yarada bilməkdədir. Maliyyə bazarlarının funksiyalarına aşağıda qeyd olunanlar aiddir:

- Maliyyə bazarı miqyasına görə kiçik olan pul vəsaitlərini riskə meyilli olmayan iqtisadi agentlərdən sahibkarların lehinə ilk başdan bölgüsünü reallaşdırır;
- Maliyyə vasitəçiləri vacib resursların səfərbər edilmə xərclərini azaltmaqla investisiyanın həyata keçirilməsində mövsümü amillərin təsirini azaldır, coğrafı baxımdan (regionlar, şəhərlər və s. üzrə) və müxtəlif kateqoriyalı borcalanlar əsasında faiz dərəcələrindəki fərqləri aşağı salır və nəticədə, investisiya (kapital qoyuluşu) qoyuluşunu stimullaşdırır;
- Maliyyə institutları sənayeləşmə dövründə kapitalın ilkin ehtiyatının səmərəli bölgüsünü mümkün etməkdədir və texnoloji innovasiyaların formalaşmasına səbəb ola bilməkdədir.

Banklar öz risklərinə sərbəst vəsaitləri səfərbər edərək pul vəsaitlərinə ehtiyacı olanları kommersiya əsasında maliyyələşdirirlər. Bu maliyyələşmə mexanizminin mühüm üstünlüklərindən biri, bankların müştərilərlə uzunmüddətli münasibətlərinin formalaşması hesabına onların borcalanlar barəsində ətraflı məlumatlar əldə etməsinə səbəb olmasıdır. Bu baxımdan, bankların azad pul vəsaitlərinin

№ 3/2023 səh.16-21

sahibləri ilə borcalanlar arasında vasitəçilik etməsi məlumat assimmetriyasını azaldır. Həmçinin, banklarla müştərilərinin maliyyələşdirmə halında problemləri yarandıqda, faizlərin aşağı salınması və yaxud borcun restrukturizasiyasınm həyata keçirilməsi asan olur. İnformasiyanın yığılması ilə əlaqəli peşəkar kadrların olması və bu işin təmərküzləşməsi fərdi borcverənlərə nisbətən bankların miqyasdan qənaət etmələrinə səbəb olur. Ölkədə bank sistemi sahəsinin inkişafı ticarəti asanlaşdırır, kiçik sərbəst vəsaitlərin banklar tərəfindən cəlb olunması bu vəsaitlərin yerləşdirilməsilə əlaqəli əmanətçilərin risklərini aşağı salır. Bununla yanaşı, bankların müştərilərlə nisbətən uzunmüddətli əməkdaşlığı nəticəsində və müştərilərə nisbətən iri kreditlər verdiyindən, bəzi hallarda (onların maliyyə vəziyyətlərinin pisləşdiyi halda) bu cür müştəriləri maliyyələşdirməkdə davam etməkdədirlər. Bu hal isə, resursların bölgüsünün səmərəliliyini azalda bilər. Həmçinin, bankların fırmalarda korporativ idarəetmə səviyyəsinə təsiri QKB-yə baxanda aşağı olur. QKB-da isə şirkətlərin qiymətli kağızları ilə ticarət aparan xeyli sayda investisiya (kapital qoyuluşu) şirkətləri məlumatın yayılmasına və bununla da fırma üzərində yüksək dərəcədə xarici nəzarətin təmin edilməsinə səbəb ola bilməkdədir. Həmçinin, QKB dövriyyəsinin inkişafı şirkətlərin qovuşması və birləşməsini asanlaşdırmaqla yerli iqtisadiyyatda miqyasdan qənaətə nail olmağa və iqtisadi səmərəliliyi artırmağa imkan yaradır [7].

Ölkədə QKB dövriyyəsinin inkişafına müxtəlif amillər öz təsirini göstərə bilməkdədir. Bunlardan birincisi, dövlət bazarındaki qarşılıqlı münasibətlərin inkişafı ilə əlaqəlidir. Ölkədə iqtisadi qərarların qəbulu mexanizminin inkişafı və qeyri-mərkəzləşdirilmiş qərara gəlmək ənənələrinin formalaşması QKB-nın inkişafına ciddi formada təsir etməkdədir. Ölkədə kapitalın mərkəzləşdirildiyi və mülkiyyətin strukturunda iri sahibkarların üstünlük təşkil etdiyi şəraitdə QKB dövriyyəsinin inkişaf imkanları məhdud ola bilməkdədir. Bura həmçinin dövlətdə fəaliyyətdə olan şirkətlərin ölçüsü də təsir etməkdədir.

QKB-nın inkişafı şirkətlərin iri layihələri maliyyələşdirmələri üçün də həm xüsusi, həm də borc vəsaitlərini cəlb etmələri məqsədilə də çox geniş imkanlar verir. Bu cür şəraitdə, fırmalar xüsusi şəkildə vəsaitlərlə borc vəsaitlərinin optimal nisbətini seçmək imkanı əldə etməkdədirlər. Eləcə də, qiymətli kağızların dəyəri qiymətli kağızların emitenti ilə bağlı məlumat əsasında formalaşmaqdadır. Belə hal QKB-nın inkişaf resurslarının daha da səmərəli bölgüsünə və səmərəli investisiya (kapital qoyuluşu) qərarlarının verilməsinə səbəb olmaqdadır. Bu amil QKB dövriyyəsinin bank sahəsinə nisbətən üstünlüyünü müəyyənləşdirir. Belə ki, QKB-da şirkətlərin məlumatı açıqlamaq zərurəti bu məlumatın yayılmasına və daha da səmərəli investisiya (kapital qoyuluşu) qərarlarının verilməsinə səbəb olur. Banklar isə məlumatı təkcə özləri alırlar və bu məlumat əsasında təkcə özləri qərar verirlər. Həmçinin, QKB şirkətlərin fəaliyyətinin səmərəliliyinə uyğun olaraq da reaksiya verir, , real olaraq da şirkətlərin menecmenti üzərində nəzarət vəzifələrini həyata keçirirlər.

**Tədqiqatın elmi yeniliyi:** QKB dövriyyəsinin quruluşunun qiymətləndirilməsi müəyyən olunmuşdur; Azərbaycanda qeyri-neft sahəsi olan QKB dövriyyəsinin inkişaf istiqamətləri müəyyən olunmuşdur. Tədqiqat işinin təhlili nəticəsində əldə edilən yeniliklərin tətbiq olunması Azərbaycanda QKB dövriyyəsinin müəyyən edilməsində, həmçinin sahə quruluşunun qiymətləndirilməsi metodlarının tətbiq edilməsinə imkan yaradacaqdır.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Qiymətli kağızların sürətli inkişafı həmçinin QKB dövriyyəsinin daxilində inkişafın sürətini yüksəldəcək, AR-nın dövlət büdcəsinin neftdən gələn gəlirlər hesabına formalaşdırılmasını aradan qaldıracaqdır.

## ƏDƏBİYYAT


1.AR Vergi Məcəlləsi. Bakı, 2015

2.Agayev A.Q. "Dövlət büdcəsi və onun idarə edilməsi". 2002

3."Qiymətli kağızlar bazarı və fond birjaları haqqında". AR Qanunu.24 noyabr 1992-ci il

4."2011-2020-ci illərdə AR-da qiymətli kağızlar dövriyyəsinin inkişafı" haqqında Dövlət Proqramı. 16 may 2011-ci il

5.Z.F. Məmmədov. "Beynəlxalq kredit-valyuta münasibətləri və xarici ölkələrin kredit-pul sistemi". Bakı, 2008
6.M. Sadıxov, H. Bədəlov . "Maliyyə resursları və maliyyə bazarı". Bakı, 2003
7.Z.F. Məmmədov. "Pul, kredit və banklar". Bakı, 2006.
8.A.H. Abbasov. "Ölkəmizdə maliyyə dövriyyəsinin formalaşması və bazar iqtisadiyyatında kredit-maliyyə sistem sahəsinin problemləri". Bakı, 2003
Bağırov, M. Həsənli. "Maliyyə". Bakı, 2011.

**УДК 338.12:338.34:330.36**

**Влияние развития обращения рынка ценных бумаг в нашей стране на формирование национального капитализма**

**[1]Н. А.Нариманов, [2]П. Г. Каландарлы,**
**[3]Н. И. Султанов**

**Резюме**.В статье рассмотрены процесс быстрого формирования финансового оборота в нашей стране возможен в результате процесса реформ в области экономики и права, в результате создания рыночной инфраструктуры. Одной из важнейших частей формирующейся в новый период рыночной инфраструктуры является ГКБ. В мировом опыте ГКБ является одним из важнейших вариантов обеспечения экономики финансами, наряду с банковским сектором и государственным бюджетом. Повышая заинтересованность в мобилизации финансового капитала, ГКБ обеспечивает многократное распределение финансовых ресурсов между различными сферами и направлениями экономики в перспективной (перспективной) и прибыльной форме, в пользу динамично развивающихся производств.

**Ключевые слова:** развитие обращения на рынке ценных бумаг, капитальные вложения

**UDC 338.12:338.34:330.36**

**The influence of the development of circulation of the securities market in our country on the formation of national capitalism**

**[2]N. A. Narimanov, [2]P. G.Qalandarli**
**[3]N. I.Sultanov**

**Summary.**The article considers the process of rapid formation of financial turnover in our country is possible as a result of the process of reforms in the field of economics and law, as a result of the creation of a market infrastructure. One of the most important parts of the market infrastructure that is being formed in the new period is the GKB. In the world experience, the SCB is one of the most important options for providing the economy with finances, along with the banking sector and the state budget. Increasing interest in the mobilization of financial capital, the SCB ensures the multiple distribution of financial resources between various sectors and areas of the economy in a promising (promising) and profitable form, in favor of dynamically developing industries.

**Key words:** development of circulation in the securities market, capital investments

Redaksiyaya daxilolma: 09.10.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.22-25

UOT 338.1
DOI:10.30546/JIECM.2023.3.22.

# YERLİ ÖZÜNÜİDARƏ ORQANLARININ SƏMƏRƏLİLİYİ VƏ İQTİSADİ ARTIM: AZƏRBAYCAN NÜMUNƏSİ

**Amin Azər oğlu Tağıyev**

**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Bakı şəh., İstiqlaliyyət küç., 6**

amin-taghiyev@unec.edu.az

***Xülasə:*** *Bu məqalədə yerli idarəetmə orqanlarının Azərbaycanda iqtisadi artıma təsiri araşdırılır. Tədqiqat Azərbaycanda yerli özünüidarəetmə orqanlarının və onların strukturlarının iqtisadi rolunu təhlil edir. Ədəbiyyat icmalı əvvəlki tədqiqatların nəticələrini sintez etməklə Azərbaycan nümunəsindəki boşluqları müəyyən edir. Material və müzakirə bölməsində toplanmış məlumatların təhlilini təqdim etməklə yerli özünüidarəetmə orqanlarının iqtisadi artıma təsirləri ətraflı müzakirə olunur. Bu fəsildə yerli özünüidarəetmə orqanlarının uğurları və problemlərinə diqqət yetirməklə strateji əhəmiyyət kəsb edən məsələlər vurğulanır. Nəticələr və tövsiyələr bölməsi Azərbaycanda yerli hökumətlərin iqtisadi artıma töhfələrini qiymətləndirir və potensialın artırılması, şəffaflığın artırılması və yerli iqtisadiyyatın gücləndirilməsi kimi strateji tövsiyələr təklif edir. Bu məqalə iqtisadi artım proseslərində yerli özünüidarəetmə orqanlarının rolunu vurğulayaraq Azərbaycan timsalında konkret qiymətləndirmə təqdim etmək məqsədi daşıyır. Yerli hökumət orqanlarının iqtisadi artıma təsirlərini anlamaq istəyən tədqiqatçılar üçün mühüm istinad mənbəyi ola bilər.*

***Açar sözlər:*** *İqtisadi artım, Azərbaycan, məhsuldarlıq, strateji tövsiyələr.*

**Mövzunun aktuallığı.**Yerli idarəetmə orqanlarının iqtisadi artıma təsiri bu gün getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu vəziyyət müasir cəmiyyətlərin və dövlət strukturlarının iqtisadi inkişaf proseslərində yerli özünüidarəetmə orqanlarının rolunun artdığını göstərir. Bu kontekstdə yerli özünüidarəetmə orqanlarının fəaliyyəti iqtisadi artım və sosial rifah baxımından həlledici ola bilər. (Alakbarov, U., Habibova, Z., & Rahimli, R. 2020)

**Tədqiqatın məqsədi.**Bu tədqiqatın əsas məqsədi Azərbaycanda yerli idarəetmə orqanlarının iqtisadi artıma töhfələrini anlamaq və təhlil etməkdir. Yerli hökumətlərin iqtisadi artıma təsirini onların səmərəliliyini və həyata keçirdikləri strategiyaları müəyyən etməklə daha yaxşı başa düşmək olar. Bu kontekstdə araşdırmanın əsas məqsədi yerli özünüidarəetmə orqanlarının iqtisadi artıma töhfələrini konkret məlumatlarla ortaya çıxarmaqdır. (oglu Hasanov, R. M. 2009)

**Tədqiqat obyekti.**Bu tədqiqat Azərbaycanda iqtisadi artım proseslərində yerli özünüidarəetmə orqanlarının strukturunu, funksiyalarını və rollarını araşdırmaq məqsədi daşıyır. Tədqiqat çərçivəsində yerli özünüidarəetmə orqanlarının hansı sahələrdə təsirli olduğu, hansı siyasətləri izlədiyi və bu siyasətlərin iqtisadi artımda necə əks olunduğu müzakirə ediləcək. (Gasimzade, M. 2022)

**Tədqiqat metodları.**Tədqiqatın əsas tədqiqat metodu keyfiyyət və kəmiyyət məlumat toplama üsullarını birləşdirməklə həyata keçirilən qarışıq metoddur. Ədəbiyyatın təhlili, mövcud tədqiqatların sintezi və sahə tədqiqatları nəticəsində əldə edilən məlumatların təhlili bu tədqiqatın əsas metodologiyasını təşkil edəcəkdir. Bu üsullar yerli özünüidarəetmə orqanlarının Azərbaycanda iqtisadi artıma təsirini hərtərəfli qiymətləndirmək məqsədi daşıyır. (Mikayilov, E. 2007)

**Yerli hökumətlərin iqtisadi rolu.**Yerli idarəetmə orqanları iqtisadi inkişafın əsas aktorları kimi mühüm rol oynayır. Bu orqanlar yerli iqtisadiyyatın inkişafını dəstəkləyən siyasət və strategiyaları həyata keçirməklə regional inkişafa töhfə verirlər. Yerli səviyyədə infrastruktur layihələrinin idarə

№ 3/2023 səh.22-25

olunması, iş dünyası üçün əlverişli şəraitin yaradılması və yerli resurslardan səmərəli istifadə kimi sahələrdə həyata keçirilən fəaliyyətlər iqtisadi artıma təkan verir. (Gasimzade, M. 2022)

**Yerli Hökumətin Səmərəliliyi.**Yerli hökumətlərin iqtisadi artıma töhfəsi onların məhsuldarlıq səviyyələri ilə birbaşa bağlıdır. Səmərəli şəkildə idarə olunan yerli hökumətlər resurslardan səmərəli istifadə etməklə xidmətləri təkmilləşdirir və iqtisadi artımı dəstəkləyir. Yerli özünüidarəetmə orqanlarının idarəetmədə effektivliyi onların səmərəliliyini artırmaq məqsədi ilə şəffaflıq, hesabatlılıq və iştirak kimi amillərlə qiymətləndirilir. (Alakbarov, U., Habibova, Z., & Rahimli, R. 2020)

**Azərbaycanda yerli özünüidarə orqanlarının strukturu.**Azərbaycanda yerli özünüidarəetmə orqanları ölkənin coğrafi və mədəni fərqlərini nəzərə alaraq çoxşaxəli struktura malikdir. Bələdiyyələrin əyalət və regional səviyyələrdə müxtəlif məsuliyyət sahələri var. Bundan əlavə, Azərbaycanda yerli özünüidarəetmələrin iqtisadi artıma təsiri ilə bağlı siyasət və strategiyaların necə formalaşdığı və bu struktur çərçivəsində necə həyata keçirildiyi mühüm tədqiqat sahəsini təşkil edir. Qaydalar və təcrübələr iqtisadi inkişafın uğur və problemlərinin aşkar edilməsində mühüm rol oynayır. (Hajiyev, N. 2020)

**Məhsuldarlıq və İqtisadi İnkişaf Strategiyaları. Azərbaycanda yerli özünüidarəetmə orqanlarında həyata keçirilən strategiyalar.**Azərbaycanda yerli hökumətlər iqtisadi artımı dəstəkləmək və səmərəliliyi artırmaq üçün müxtəlif strategiyalar hazırlayıblar. Bu strategiyalara diqqətin yerli iqtisadiyyatı şaxələndirəcək infrastruktur layihələrinə yönəldilməsi, iş dünyası üçün uyğun biznes mühitinin yaradılması səyləri və yerli resurslardan davamlı istifadəni təmin etmək üçün müxtəlif stimullar daxildir. Bundan əlavə, yerli özünüidarəetmə orqanlarının davamlı inkişaf məqsədlərinə uyğun olaraq strateji planlaşdırma apararaq iqtisadi artıma töhfə vermək səyləri də müşahidə olunur. (Yusifli, E. 2013)

**Ən Yaxşı Təcrübələr və Nümunə Layihələr.**Azərbaycanda yerli özünüidarəetmə orqanları iqtisadi artımı dəstəkləmək üçün həyata keçirdikləri qabaqcıl təcrübə və nümunəvi layihələri ilə diqqəti cəlb edir. Bu layihələr arasında yerli biznes üçün təlim və dəstək proqramları, infrastrukturun inkişafı layihələri və davamlı kənd təsərrüfatı layihələri kimi müxtəlif sahələrdə uğur nümunələri var. Bu təcrübələr yerli iqtisadiyyatın gücləndirilməsi və sosial rifahın yüksəldilməsi istiqamətində konkret addımları əks etdirir. (Gasimzade, M. 2022)

**Təlim və Bacarıqların Artırılması Tədqiqatları.**Azərbaycanda yerli hökumətlər iqtisadi artıma töhfə vermək üçün təhsilə və potensialın gücləndirilməsinə önəm verirlər. Yerli hökumət işçiləri üçün təşkil edilən təlim proqramları effektiv idarəetmə və layihə idarəetmə bacarıqlarını gücləndirmək məqsədi daşıyır. Bundan əlavə, yerli əhali üçün sahibkarlıq təlimləri və kənd təsərrüfatı sektorunda fəaliyyət göstərənlər üçün texniki dəstək proqramları iqtisadi artımı dəstəkləmək üçün potensialın artırılması səylərinə nümunədir. Bu təlim və inkişaf səyləri yerli hökumətlərin səmərəliliyini artırmaqla iqtisadi artıma daha effektiv töhfə verməyə kömək edir. (Fakhri, H., Mikayilov, J., & Aliyev, K. 2016)

**Materiallar və müzakirələr.**Bu bölmədə Azərbaycanda yerli özünüidarəetmə orqanlarının iqtisadi artıma təsirini qiymətləndirmək üçün istifadə olunan materiallar və bu materiallar əsasında aparılan müzakirələr daxildir.

Toplanmış məlumatlar ədəbiyyat araşdırması və yerli hökumətlərin fəaliyyətini qiymətləndirmək üçün istifadə edilən statistik məlumatlar kimi müxtəlif mənbələrdən əldə edilmişdir. Bu materiallar yerli hökumətlərin iqtisadi artıma töhfələrini kəmiyyət və keyfiyyətcə təhlil etmək üçün istifadə edilmişdir.

Tədqiqat prosesi zamanı əldə edilən məlumatlar əsasında belə qənaətə gəlinib ki, Azərbaycanda yerli özünüidarəetmə orqanları iqtisadi artıma müsbət təsir göstərir. Bu təsirin bir neçə əsas sürücüsünə davamlı inkişaf strategiyalarını qəbul edən, yerli biznesləri dəstəkləyən və infrastruktur layihələrini effektiv idarə edən yerli hökumətlər daxildir.

Materialların araşdırılması zamanı Azərbaycanda yerli özünüidarəetmə orqanlarının iqtisadi artıma töhfəsinin müəyyən edilməsində və ölçülməsində çətinliklər də müşahidə olunub. Bu çətinliklərə məlumat çatışmazlığı, resurslardan səmərəli istifadə ilə bağlı şəffaflıq problemləri və yerli hökumətlərin iqtisadi strategiyalarının qeyri-adekvat müəyyənləşdirilməsi kimi amillər daxildir.

№ 3/2023 səh.22-25

Müzakirə bölməsi nəticələrin icmalını təqdim edir. Azərbaycanda yerli özünüidarəetmə orqanlarının iqtisadi artıma təsiri ilə bağlı bu araşdırma yerli hökumətlərin dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında oynadığı rolu başa düşmək üçün vacibdir. Nəticələr yerli hökumətlərin iqtisadi artıma töhfələrini gücləndirmək və gələcək strategiyaları müəyyən etmək üçün qərar qəbul edənlər üçün mühüm bələdçidir.

## Nəticə

Bu tədqiqat Azərbaycanda yerli özünüidarəetmə orqanlarının iqtisadi artıma təsirlərini ətraflı şəkildə araşdırmaq məqsədi daşıyırdı. Təhlillər və tapıntılar göstərdi ki, yerli özünüidarəetmə orqanları iqtisadi artıma müsbət töhfə vermək üçün əhəmiyyətli potensiala malikdir.

Azərbaycanda yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilən strategiyalar xüsusilə yerli iqtisadiyyatın şaxələndirilməsi, infrastruktur layihələrinin səmərəli idarə edilməsi və iş dünyası üçün uyğun mühitin yaradılması kimi sahələrə diqqət yetirir. Bu strategiyalar yerli səviyyədə davamlı inkişaf məqsədlərinə nail olmaq üçün səyləri dəstəkləyir.

Təlim və bacarıqların artırılması üzrə tədqiqatlar yerli özünüidarəetmə orqanlarının səmərəliliyini artırmaq və iqtisadi artıma daha effektiv töhfə vermək üçün mühüm vasitə kimi önə çıxır. Bu tədqiqatlar yerli özünüidarəetmə orqanları əməkdaşlarının və cəmiyyətin iqtisadi proseslərdə daha səmərəli iştirakını təmin etməklə yerli iqtisadiyyatın güclənməsinə mühüm dəstək verir.

Tədqiqatın nəticələrinə baxmayaraq, yerli özünüidarəetmələrin iqtisadi artıma təsiri ilə bağlı müəyyən edilmiş strategiya və siyasətlərin daha səmərəli həyata keçirilməsi üçün müxtəlif çətinliklərin aradan qaldırılmasına ehtiyac olduğu görünür. Məlumat çatışmazlığı, şəffaflıq problemləri və yerli iqtisadiyyatın prioritet sahələrinin müəyyən edilməsində çətinliklər bu çətinliklərdəndir.

Azərbaycanda yerli özünüidarəetmə orqanlarının iqtisadi artıma töhfə verməkdə üzləşdiyi uğur və çətinliklər göstərir ki, bu sahədə daha çox iş və strateji tədbirlərə ehtiyac var. Bu araşdırma yerli hökumətlərin iqtisadi artıma təsirini anlamaq və gələcək strategiyaları müəyyən etmək üçün mühüm əsas yaratmaqla bu sahədə tədqiqatlara töhfə vermək məqsədi daşıyır.

## Ə D Ə B İ Y Y A T


1. Alakbarov, U., Habibova, Z., & Rahimli, R. (2020). The Role of Human Resources in Comprehensive Regional Sustainable Development: The Case of Azerbaijan. International Journal of Economics and Financial Issues, 10(3), 79.
2. Fakhri, H., Mikayilov, J., & Aliyev, K. (2016). Impact of Fiscal Decentralization on Non-Oil Economic Growth in a Resource-Rich Economy.
3. Hasanov, F., Mikayilov, C., Yusifov, S., & Aliyev, K.(2016). Impact of Fiscal Decentralization on Non-Oil Economic Growth in a Resource-Rich Economy. Eurasian Journal of Business and Economics, 9(17), 87-108.
4. Gasimzade, M. (2022). AN ALTERNATIVE LOCAL GOVERNMENT (Doctoral dissertation, Central European University).
5. Hajiyev, N. (2020). PROBLEMS IN INCREASING OF EFFICIENCY OF THE COMPETITION POLICY (THE CASE OF AZERBAIJAN). Economic and Social Development: Book of Proceedings, 4, 251-261.
6. Mikayilov, E. (2007). Intergovernmental fiscal transfers in Azerbaijan: role of tax-sharing in local government financing. Economic Research Center, Central European Initiative.
7. Hasanov, R. M. (2009). Social capital, civic engagement and the performance of local self-government in Azerbaijan. Nationalities Papers, 37(1), 89-114.
8. Yusifli, E. (2013). Impediments to effective decentralization in Azerbaijan: The problem of competencies and resources in local selfgovernment (Doctoral dissertation, Duquesne University).

№ 3/2023 səh.22-25

УДК 338.1

**Эффективность и экономический рост органов местного управления: пример Азербайджана**

**Тагиев А. А.**

***Резюме:*** В данной статье рассматривается влияние органов местного самоуправления на экономический рост в Азербайджане. В исследовании анализируется экономическая роль местных органов власти и их структур в Азербайджане. Обзор литературы выявляет пробелы в случае Азербайджана путем синтеза результатов предыдущих исследований. В разделе материалов и дискуссий подробно обсуждается влияние органов местного самоуправления на экономический рост путем представления анализа собранных данных. В этой главе подчеркиваются вопросы стратегического значения, фокусируясь на успехах и проблемах местных органов власти. В разделе «Результаты и рекомендации» оценивается вклад местных органов власти в Азербайджане в экономический рост и предлагаются стратегические рекомендации, такие как наращивание потенциала, повышение прозрачности и укрепление местной экономики. Целью данной статьи является представить конкретную оценку на примере Азербайджана, подчеркнув роль местных органов власти в процессах экономического роста. Это может быть важным справочным источником для исследователей, которые хотят понять влияние органов местного самоуправления на экономический рост.

***Ключевые слова:*** Экономический рост, Азербайджан, производительность, стратегические рекомендации.

**UDC 338.1**

**Efficiency and economic growth of local government bodies: example of Azerbaijan**

**Taghiyev A. A.**

***Summary.*** This article examines the effects of local government bodies on economic growth in Azerbaijan. The research analyzes the economic role of local governments and their structures in Azerbaijan. The literature review identifies gaps in the Azerbaijani case by synthesizing findings from previous studies. The material and discussion section discusses in detail the effects of local governments on economic growth by presenting the analysis of the collected data. This chapter emphasizes issues of strategic importance by focusing on the successes and challenges of local governments. The results and recommendations section evaluates the contributions of local governments in Azerbaijan to economic growth and offers strategic recommendations such as capacity building, increasing transparency and strengthening the local economy. This article aims to present a concrete evaluation in the case of Azerbaijan, emphasizing the role of local governments in economic growth processes. It can be an important reference source for researchers who want to understand the effects of local government bodies on economic growth.

***Keywords:*** Economic growth, Azerbaijan, productivity, strategic recommendations.

Redaksiyaya daxilolma: 10.09.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.26-32

| UOT 338.12:33834:330.36 |
|---|
| DOI:10.30546/JIECM.2023.3.26. |

# TƏBİƏTİ MÜHAFİZƏ VƏ ƏTRAF MÜHİT KEYFİYYƏTİNİN İDARƏ OLUNMASINA YENİ YANAŞMALAR

**[1]Məhərrəm Cəlal oğlu Hüseynov, [2]Sahil Seyfəddin oğlu Allahverdiyev**
**[3]Vüqar Amil oğlu Fərzəliyev, [4]Səbinə Bəxtiyar qızı Sadiqova**

**Azərbaycan Texnologiya Universiteti**

***Xülasə.****Ətraf mühitin mühafizə edilməsi sistemi təbii resurs və ehtiyatlardan istifadədən, xammalın saxlanmasından, eləcə də, səmərəli istehsalının və istifadəsinintəmin və təşkilindən ibarətdir. . Mühitin mühafizəsi həmçinin hüquqi və inzibati, həmçinin dövlət tədbirlər sisteminə aiddir. Respublikamızda mühitin mühafizəsi və qorunması tədbirləri dövlət orqanları, təbiət qoruqları, meşə və ovçuluq idarələri, təsərrüfatları kimi müəssisələr hesabına həyata keçirilir. Təbiətin mühafizəsi ilk öncə havanın, suyun, torpağın çirkli maddələr və tullantılarla çirklənməsinin qarşını almağa yönələn tədbirlər görür.*

*Bundan başqa mühitin mühafizəsi meşə və otlaqların, nadirən tapılanvə yaxud kəsilməkdə olan xeyirli heyvan cinsi və bitki növlərinin qorunmasını, təbii nemətlərdən səmərəli istifadəni, təbii mühit abidələrini və mineral, termal faydalı mənbələri qorumağı həyata keçirən bir sistemdir. Bu sistem ətraf mühitin vəziyyətini yaxşılaşdırmaq üçün bir çox meliorasiya işlərini, ətraf mühitin bərpa işlərini görür və eroziyaya, deqradasiyaya, dağılmağa qarşı mübarizə aparır.*

***Açar sözlər:*** *ətraf mühit, atmosfer, resurs, təbiət, strategiya, idarəetmə, dövlət proqramı, ekologiya, böhran*

**Giriş.**Təbiətin mühafizəsi həmçinin təbii nemətlərdən səmərəli istifadə etmək və onları bərpa etmək üçün gərəkli normaları, prinsipləri, qaydaları özündə ehtiva edən bir elmdir. Bu elmin bölmələrinə atmosfer havasının, suyun, torpağın, bitki, heyvanın və s. qorunması aiddir.
Azərbaycanda, eləcə də, Xəzəryanı ərazilərdə ətraf mühitin qorunmasını, təbiətdən istifadənin təşkil edilməsini, mineral sərvətlərdən və ehtiyatlardan səmərəli istifadənin təşkilini, onların bərpa edilməsini, hidroloji, hidrometeoroloji proseslərin müşahidə edilib, proqnozlaşdırılmasını həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyidir [2 ].

Təbiətin qorunması haqqında danışarkən öncə atmosferin mühafizəsi haqqında danışmaq gərəkdir. Atmosfer tək bir ölkənin və ya qitənin deyil, bütünlükdə dünyanındır. Bizi əhatə edən atmosfer həm kosmosla həm də ekosistemlə əlaqəlidir. Atmosferin mühafizə edilməsi isə hər birimizin borcudur. Lakin edilən təsirlər havanın çirklənməsinə və nəticədə bizim də zərər görməyimizə səbəbdir. Beləliklə, atmosferin mühafizəsindən yayınmaq, onu çirkləndirmək bitki, heyvan, insan və ümumilikdə biosfer üçün böyük bir bəlaya səbəb olur.

**Mövzunun aktuallığı.** Təbiəti mühafizə və onun keyfiyyətinin idarə olunması üçün ölkəmizdə ekoloji siyasət inkişaf etdirilir. Uzun illər iqtisadiyyatın inkişafı ilə ətraf mühitə edilən antropogen təsirlər mənfi nəticə verməklə yanaşı təbii ehtiyatların da istismar edilməsinə səbəb olmuşdur. Ekoloji tarazlığı normada saxlamaq, təbii resurslardan qənaətlə istifadə etmək, hava, su, torpağı çirklənmədən mühafizə etmək qlobal problemə çevrilmişdir. Ətraf mühitlə bağlı meydana gələn problemlər nəinki indiki zaman üçün həmçinin gələcək nəsillər üçün problemli vəziyyətin yaranması deməkdir. Ekoloji böhran vəziyyətində cəmiyyət, iqtisadiyyat və təbiət arasında olan tarazlığı qorumaq üçün ekoloji təhlükəsizliyi yaratmaq və iqtisadi baxımdan optimal modellər formalaşdırmaq gərəkdir.

Ekoloji idarəetmə orqanları tərəfindən həyata keçirilən tədbirlər hesabınaölkəmizdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi sahəsində qanunvericilik aktlarının tətbiqi

№ 3/2023 səh.26-32

ilə əlaqədar müəyyənləşdirilmiş qaydada tədbirlər görülür. Bununla yanaşı müəssisə, şirkət və təşkilatların xüsusi nümayəndələr tərəfindən hesabat uçotu aparılır. Aparılan ekoloji audit hesabına müəssisənin istehsal etdiyi məhsulun keyfiyyətinə nəzarət edilir.

**Təqdqiqatın məqsədi:** İşin əsas məqsədi təbiətin mühafizə proseslərinin tənzimlənməsi və keyfiyyətinin idarə olunma aspektlərinin izlənilməsidir.

**Tədqiqatın obyekti:** Ətraf mühiti mühafizə və keyfiyyətin idarə olunma mexanizmidir.

**Tədqiqatın metodları:** Təbiətin mühafizəsi və antropogen təsirlərin metodik yanaşmalarla normallaşdırılması istiqamətində bır sıra tədbirlər həyata keçirilir. Ekolojitəhlükəsizlik və ekoloji riskin qiymətləndirilməsi, eləcə də əhalinin sağlamlığının müəyyənləşdirilməsi üçün fəaliyyətlər, nəticəni dəyərləndirib metodlar işləmək üçün tədbirlər həyata keçirilir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Havanın ən çox çirkləndiyi sahələr böyük və iri şəhərlərdir. Çünki burada nəqliyyat, istehsal sahələri, fabrik və zavodlar, onlardan atılan tüstülər, zərərli maddələr havaya olduqca mənfi təsir göstərir. Buradan göründüyü kimi bütün ölkələr, xalqlar eləcə də hər bir şəxs atmosfer havasının qayğısına qalmalıdır.

Atmosfer havası qazların qarışığından təşkil olunmuşdur. Hava canlıların nəfəs mənbəyidir. İnsan yemək və sudan çox sutka ərzində hava qəbul edir. Hava təbəqəsi Yer kürəsini kosmosdan gələn asteroid, meteorit kimi göy daşlarından mühafizə edir. Eləcə də yerin həddindən artıq qızmasının qabağını alır. Atmosferin qaz qatı günəşdən gələn ultrabənövşəyi, infraqırmızı şüaların canlılara zərərli təsir etməsindən qoruyur. Havanın yaradıcıları isə bitki aləmidir. Havanı sərf edənlər isə yenə öz növbəsində flora və fauna sayılır. Hava karbon, azot, hidrogen, oksigen, arqon və s. kimi qazlardan ibarətdir [1],[2].

Mütləq təmiz hava mövcud deyildir. Təbiətdə baş verən hadisələr və havanın istismar edilməsi onun çirklənməsinə səbəbolur.

Atmosferi çirkləndirən daha çox sənaye sahələridir Onlara qara və əlvan metallurgiya sənayesi, neft, kimya, ağac emalı, tikinti materialları sənayesi və s. aiddir. Atmosferə zərərli təsir edən tək sənaye deyil, həm də stansiyalardır. Bu stansiyalara istilik, elektrik enerjisi istehsal edən stansiyalar, İES, DRES-lər aiddir. Bundan başqa dağ və mədən sənayesi də çirkləndirən səbəblərə aiddir. Atmosferin radioaktiv şüalarla çirklənməsinə səbəb çox vaxt AESdə baş verən qəzalar, nüvə silahlarının sınaqlardan keçirilməsi olur. Ən çox mühitə zərər verən havanı çirkləndirənlərdən biri də nəqliyyatdır. Nəqliyyat hesabına avtomobillərdən, eləcə dədigər hava, su yolu nəqliyyatından ətrafa və havaya zərərli qazlar və maddələr atılır.

Havanın qorunmasını və mühafizəsini, eləcə də, çirklənməsinin qarşısını almaq üçün bir sıra tədbirlər vardır. Bura nəqliyyat vasitələrinin habelə avtomobillərin nəzarəti gündəlik edilməlidir. Avtomobil və qurğularını təkmilləşdirmək, texniki vəziyyətə nəzarət hava çirklənməsinin qarşısını az da olsa ala bilər. İri mühərriklərinistehsalı ilə məşğul olan müəssisələrin üzərinə daha çox iş düşür. Belə ki, mühərriklərin təkmil olması və yanacağın tam şəkildə yanması ətrafa daha az zərərli qaz atılması deməkdir. Benzinin keyfiyyətinin yaxşılaşdırılması və ya ümumiyyətlə, istifadə etməmək, onun yerinə elektriklə, hidrogenlə işləyən maşınların istehsal edilməzi ekoloji baxımdan ətraf mühitin qorunması deməkdir. Avtomobillərin qazlavə ya dizellə işləməsi benzin kimi zərərli yanacaqdan qat-qat yaxşıdır.

Atmosferlə bərabər onun qatında yerləşən Ozon təbəqəsi də zərər görür və günümüzdə təbəqədə olduqca çox deşiklər açılmışdır. Qatın zərər görüb dağılmasına təsir edən maddələr həm qazlar həm də freonlardır. Xlorflorkarbohidrogenlərin təsiri nəticəsində ozon deqradasiyaya uğrayır. Ozon qatının mühafizə edilməsi üçün bir sıra konfranslar keçirilmişdir. Konfranslarda qəbul edilən qərarlar və konvensiyalar bir sıra prinsiplərə sahibdir.

Ozonun qorunması üçün ilk dəfə UNEP (BTM – nin Ətraf mühit proqramı) onun mühafizəsi üçün konvensiya layihəsi hazırlamışdır. Konvensiya 1985 – ci ildə Vyanada qəbul edilmişdir. 1987-ci

ildə isə 56 qabaqcıl ölkənin də iştirak etdiyi Monreal(Kanada ) protokolu imzalanmışdır. Burada ozon qatını qorumaq üçün qərarlar alındı və zərər verən freon tərkibli birləşmələrin və ozon dağıdıcı maddələrin istehsalını 2 dəfə azaltmağı öhdəlik kimi götürürdülər. 1997-ci i ildə isə Rusiyada ozon qatını mühafizə etmək üçün komissiya təşkil olunmuşdur [3].

Atmosferə atılam zərərli tullantı, birləşmələrin və ziyan verən təsirlərin aradanqaldırılması üçün həm hüquqi, həm də fiziki şəxslər mühafizə tədbirlərini həyata keçirmək üçün adekvat icra hakimiyyəti orqanlarının icazəsini almalıdırlar. İcra hakimiyyəti təbii olaraq öz üzərinə düşən tədbirlərləri görür. Bura atmosferin monitorinqinin aparılması, ziyanlı maddələrə nəzarət, həmin birləşmələrin yayılmasının qarşısının alınması aiddir. Havanı qorumaq üçün görülən tədbirlər mühitin digər obyektlərinə zərər yetirməməlidir.

Havanın mühafizə fəaliyyəti çərçivəsində hazırlanan proqramlar və görülən tədbirlər, bizə məlum olduğu kimi atmosferə dəyən zərərin və ona edilən fiziki təzyiqlərin qarşısını almağa yönəlib. Bu fəaliyyəti həyata keçirmək üçün də müəyyənmaliyyə tələb olunur. Bu vəsaitlər isə ödəmələrin, yığılan vergilərin, dövlət və yerlibüdcənin, eləcə də büdcədən kənar maliyyə vəsaitinin, şirkətlərin, müəssisələrin, təşkilatların və hüquqi – fiziki şəxslərin könüllü surətdə verdikləri ianələrin hesabına yığılır.

Atmosferin keyfiyyətinin idarə olunmasına gəldikdə isə bir sıra normativlərəəsaslanaraq uyğun şəkildə icra orqanları hesabına qəbul olunmuş qayda və qanunlara görə yerinə yetirilir. Burada gigiyenik və ekoloji normativləri nəzərə alaraq, havayaedilən fiziki təsirlərə, heyvanlara, bitkilərə və onların qorunduğu ərazilərə təsir edən fiziki-kimyəvi və bioloji faktorlara, havanın vəziyyətinə nəzarət edərək durumu qiymətləndirilir.

Bildiyimiz kimi su qiymətli nemətdir. Su həyat prosesi olan maddələr mübadiləsinin aparılması üçün vacib komponentdir. Su həm istehsalda, həm də təsərrüfatda böyük rol oynayır. Bütün canlılar, o cümlədən bitki, heyvan, insan və mikroorqanizmlər su olmasa mövcud ola bilməzlər. Su tsikl üzrə dövr edərək Yerin formalaşmasını, eləcə də, torpağın əmələ gəlməsini və yağışın yaranması kimi iqlim proseslərini yaradır. Sudan həm də ekoloji cəhətdən təmiz olan elektrik enerjisi əldə etmək olur. Dünyanın bir çox yerində sudan müxtəlif məqsədlər üçün istifadə edirlər. Belə ki, su ən çox kənd təsərrüfatı sahəsində suvarma məqsədli istifadə edilir, Bundan başqa ikinci ən çox işlənmə yeri kommunal və məişət də istifadəsidir. Su elektrik stansiyalarında da tonlarla su işlənir və elektrik əldə edilir.

Yerin altında və üzərində olan bütün su kütlələri hidrosferi yaradır. Su bizlərə həyat bəxş edir. Lakin suyun mühafizə edilməməsi, istismarı, mənasız və şüursuz şəkildə çirklənməsi biosferə ümumilikdə zərər verir. Dünya okeanı və dənizlər, çay və göllər çirklənməyə məruz qalır. Suya atılan istehsal tullantıları, əsasında neft, məişət və kanalizasiya sularının atılması suyu zibilləyir. Gün keçdikcə dünya üzrə içməli su tələbatı da azalır. Bu kimi halları nəzərə alaraq hidrosferin qorunması üçün tədbirlər həyata keçirilməlidir.

Hidrosferin qorunması üçün keçirilən ilk konfrans Cenevrə idi. Burada dənizi qorumaq üçün neft, radioaktiv və digər zərərli tullantıların atılmasının qadağan edilməsi və bu kimi halların qabağını almaq üçün təkliflər irəli sürülmüşdür. Bundanbaşqa 1973- cü ildə isə Londonda beynəlxalq konfrans keçirilmişdir. Konvensiyayaəsasən gəmilərdən atılan zibillərin və tullantıların qabağını almaq üçün qadağalar qoyulsun və tək neft yox, digər zərərli maddələr də suya atılmasın [6].

Hidrosferin mühafizəsi və keyfiyyətinin yüksəldilməsi üçün tədbirlər bugünkü , gündə də işlənib hazırlanır. Keçirilən konfranslar, konvensiyalar və alınan qərarlar hidrosferin vəziyyətinin yaxşılaşmasına yönəlmişdir. Lakin bu qaydalara əməl edilməsi hələ də ürək açan deyil, çünki insanlar mühafizə qaydalarını və qoyulan qadağaları pozur və əməl etmirlər. Belə olduğu halda cəzalandırırlar. Cəza tətbiq edilməsi keyfiyyətinin normallaşmasına müsbət təsir edə bilər, lakin məsələni kökündən həll etmir. Mühafizəni yerinə yetirmək və qaydalara əməl etmək üçün üsullar tətbiq etmək gərəklidir. Yoxsa, içməli su ehtiyatlarının tükənməsi ilə bu su canlılarının məhvi qaçı-nılmazdır.

Su hövzələrinin və obyektlərinin istifadə edilməsi və mühafizə olunması idarəetmə sistemində

fəaliyyəti icra hakimiyyəti orqanları tərəfindən müvafiq olaraq təyin olunur. Su obyektlərinin mühafizəsini planlaşdırmaq və obyektlərin istifadəyə verilməsinə görə qərarlar almaq üçün su balansını və obyektlərin su ehtiyatlarını eləcə də suyun istifadəsini qiymətləndirirlər. Suyun mühafizəsi üçün su balansları respublikanın icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilmiş qərarlara əsasan tərtib olunur. Su ehtiyatlarının ümumi istifadəsi və qorunması üçün tədqiqat və layihə sənədləri işlənib hazırlanır. Suyun qorunması və kompleks istismarı üçün tədbirlər görmək, suya olan tələbatları müəyyənləşdirmək, qənaətlə istifadəsini təmin etmək, suyun zərərli təsirlərini və onun doğurduğu fəsadları aradan qaldırmaq kimi işlər tərtib edilir və hazırlanır. Bu sxemlər, onların hazırlanması, təsdiqi və reallaşması hakimiyyət orqanları tərəfindən müəyyən olunur.

Yer qabığının xarici bərk qatı və mantiyanın bir hissəsi litosferdir. Litosfer təbəqəsi atmosfer, hidrosfer və ultrasəs substratla əhatələnmişdir. Yer qabığı kontinental və okean adlı iki hissəyə ayrılmışdır. Onun kontinental hissəsindən ( sondövrlərdə daha çox) daş kömür, digər dəyərli metallar qazılaraq çıxarılır, lakin çıxarılan qazıntının ancaq 2% i yararlı olur. Belə olduqda yerin üst və alt qatları deformasiyaya uğrayır. Buda torpağın tamlığını pozur. Yeri gəlmişkən yerin torpaqla örtülü qatı isə pedosfer adlanır [5].

Torpaq qatı öz özünü tənzimləmə xüsusiyyətinə malik olduğu halda dövrümüzdə ona o qədər təzyiqlər edilir ki, torpaq funksiyasını itirir. Ekosistemə edilən mənfi təsirlər, əsasən də meşələrin qırılması, səhralaşma kimi proseslər torpaqqatına olduqca pis təsir edir.

Torpağın çox az faizi əkinə yararlıdır. Əksər faizini səhralar, bozqırlar bir sözlə yararsız torpaqlar tutur. Buna baxmayaraq artan dünya əhalisi torpaqları öz mənafeləri üçün istifadə edirlər. İnsanlar yollar çəkir, əsasən də nəqliyyat yolları vəonların dayanacaqları, zibilxanalar və onların utilizasiya edildiyi yerlər, yaşayış yerləri, eləcə də əkin sahələri yaradırlar. Bütün bunlar üçün böyük torpaq sahələri istismar edilir. Tikilən elektrik stansiyalarının altında qalan münbit torpaqlar isə tamam başqa bir problemdir. Üzərində bu qədər yaşayış yerləri, zavod və fabriklər, eləcə də stansiyalar tikilən torpağın alt qatlarında külli miqdarda təbii nemətlər yatır, yaxud istismar edilən yerlərin rekultivasiyasını həyata keçirmirlər və torpaq istifadəyə yararlı olmur. Həmçinin gübrələrdən, pestisidlərdən təsərrüfatda yöndəmsiz şəkildə istifadə etmək torpağı kanserogen birləşmələrlə çirkləndirir. Bütün bu məsələlər nəzərə alınmalıdır [4].

Torpağın mühafizə edilməsi kiçik bir məsələnin həlli ilə belə edilə bilər. Belə ki, suvarılan torpaqlara nəzarət edilsə, həmin torpaqda su eroziyası yaranmaz. Küləkeroziyası təbii bir hadisədir, onun qarşısını almaq olmur. Lakin insanlar öz antropogen təsirlərini azaltsalar və torpağı mühafizə etsələr, bu problemlər az da olsaminimuma enə bilər.

Kənd təsərrüfatı torpaqlarında mühafizə və qoruma tədbirlərini həyata keçirmək üçün bir sıra aqrotexniki tədbirlər görülə bilər:

1. Kənd təsərrüfatı ərazilərində eroziyaya qarşı qorunması üçün, meyilliyi 16 dərəcədən çox olan yerlər əkin yeri kimi istifadə edilməməli, xüsusi tədbir gördükdən sonra əkin, bağ və meşələrin salınması üçün istifadə oluna bilər ;
2. Tarlaların qorunması üçün əkin dövriyyəsinə, çoxillik ot bitkilərinə üstünlük verilməli, əkin sahələri gübrələnməlidir;
3. Yamaclarda su axınının və torpağın yuyulmasının qarşını almaq, torpağın münbitliyini mühafizə etmək üçün rekultivasiya işləri aparmaq və yuyulmanı azaltmaq üçün tirə və şırımlar çəkmək ;
4. Dik yamaclarda eroziyanın zəifləməsi üçün dağ kitablarından istifadə olunmalı və dərindən şumlanmaya üstünlük verilməlidir.

Xəzəryanı ərazilərin əksər yerində qumluqlar yayılmışdır. Burada mütəmadikülək eroziyası baş verir, bunun qarşısını almaq üçün isə püstə, badam kimi plantasiyaların eləcə də meşəliklərin, üzümlüklərin salınması gərəkdir. Beləliklə, adlarını çəkdiyimiz tədbirləri kompleks şəkildə tətbiq etsək torpağın mühafizəsini həyata keçirmiş olarıq.

Biosferin üzvi maddə yarada bilən komponenti bitki örtüyüdür. Biosferin taraz olması,

№ 3/2023 səh.26-32

heyvanlar aləminin var olması , təsərrüfat sahələrinin məhsuldar olması, insanların sağlam olması bitkilərin mövcud olmasından asılıdır. Biosferin müəyyən bir hissəsini də meşələr təşkil edir və onun mühafizəsində rol oynayır. Meşələrdə daim bitkilər, otlar, kollar, ağaclar inkişaf edir, öz qanunları ilə inkişafını davam etdirir. Bitkilər fotosintez hesabına dünyanın oksigen balansını saxlayırlar. Meşələrin ekosistemə rolu əvəzolunmazdır, çünki meşələr təbiətə hər dəfə yeni sərvətlər bəxş edir. Lakin insanların ətraf mühitə dağıdıcı təsiri yəni meşələrin qırılması, baş verən meşə yanğınları ağacların kəsilməsi ciddi problemlər yaradır. Hazırkı , dövrdə insanların ətraf mühitə təsiri çox güclənmişdir. Meşə sahələri, yaşayış yerləri, otlaqlar, zavod və fabriklər torpaq sahəsində yer tuturlar. Lakin insanlar meşələri məhv edərək, intensiv otarılma edərək otlaq sahələrinin sıradan çıxmasına, torpağın eroziya və aşınmasına səbəb olur. Torpağın, bitki örtüyünün, heyvanat aləminin, o cümlədən, meşələrin qorunub saxlanılması mühüm bir məsələdir.

Torpağın səmərəli istifadəsi, ona nəzarətin cevik olması, meşə zolaqlarının salınması, torpağın zərərli birləşmələrdən mühafizəsi, heyvanların düzgün qaydada otarılması , suvarma sisteminə nəzarət edilməsi, bataqlaşmaya, səhralaşmaya qarşı tədbirlər görmək, sanitar gigiyenik qaydalara riayət, yolların salınması və binaların tikilməsində mövcud qaydaları gözləmək və s. görülən işlər və tədbirlər hamısı birlikdə torpağın mühafizəsi üçündür.

Torpaq mühafizə edilərkən onun region xüsusiyyətləri, ehtiyatlara qənaət, resursun qorunub saxlanması, bitki və heyvanat aləminə nəzarəti, mühitə dəyən zərərin ödənilməsi və qadağan edilməsi kimi hallar mütləq şəkildə nəzərə alınır. Meliorativ işlər görülüb münbitləşmiş torpaqların qənaətlə istifadəsinə və münbitliyinin qorunub saxlanılmasına, keyfiyyətinin idarə olunmasına uyğun olaraqproqramlar hazırlanıb tətbiq olunur.

Təbiətin mühafizə edilməsinin vəzifələri diferensial xarakter daşıyır, lakin burada məqsəd eynidir. Belə ki, mühafizə sistemində estetik, elmi və ya tarixi önəm daşıyan abidələr, yerlər, komplekslər, eləcə də heyvan və bitki növləri məhv edilməkdən mühafizə edilir. Təbiətin dəyərli üzvü olan bitkilərin mühafizəsi haqqında məlumat verək. Bitkilərin qorunması dedikdə onların zərərvericilərdən, xəstəliklərdən mühafizəsi başa düşülür. Bir sıra dövlət proqramları mövcuddur ki, həmin proqramların hesabına ətraf mühitin və əhalinin sağlamlığının, fauna və floranın zərərli təsirlərdən mühafizə edilməsini həyata keçirir. Bitkilərin mühafizəsi üçün qanunvericilikdə bir sıra vəzifələr vardır ki, onlara əməl edilməlidir. Bu vəzifələrə əməl edənlərə aiddir : bələdiyyələr, müəssisələr, təşkilatlar, fermer təsərrüfatları torpaqdan istifadə edən əhali və digər şəxslər.

Bitkilərin mühafizəsi tədbirlərinin həyata keçirilməsi bitki mühafizə xidmətinin fəaliyyəti hesabına yerinə yetirilir. Dövlət bitkilərin mühafizəsini, tabeli qurumların vasitəsilə həyata keçirir. Fiziki şəxslər isə bitkilərin ziyanvericilərə qarşı qorunmasını və alaq otlarından mühafizəsini verilən lisenziya (icazə) hesabına edirlər.

Təbiətdə bitkilər, mikroorqanizmlər olduğu kimi, heyvanlar da mövcuddur ki,onlar yer üzündə geniş yayılmışlar. Heyvanlar qruplaşaraq populyasiyalar yaradır vəmüəyyən arealı tutaraq həyatlarını davam etdirirlər. Eləcə də, bitki və heyvanların qruplaşması ilə də biz qarşılaşırıq. Onlar daim bir-birindən asılı olur. Belə ki, bitkilərinhazırladığı üzvi mənşəli qidalarla elə heyvanlar qidalanır. Həm heyvanların, həm bitkilərin birbirilərinə təsiri birbaşa və yaxud dolayı ola bilər. Burada ən çox təbiətə təsir göstərən canlı isə insandır. Məhz insan təbiətin tarazlığını dəyişir, ekosistemə təsir edir. Əlxüsus da kənd təsərrüfatı ilə məşğul olan əhali, pestisid və gübrələrdən istifadə edərək zərərvericiləri məhv etmək adı altında lazımlı bitki və heyvanlara zərər verir, onların məhvinə səbəb olurlar. Heyvanların qanunsuz ovlanması, öldürülməsi və təsirlərə məruz qalması kimi halların qarşısını almaq üçün tədbirlər görülür. Əks təqdirdə müxtəliflik azala bilər.

Heyvanları qorumaq və mühafizə etmək hər bir şəxsin borcudur. Heyvanların müxtəlifliyinin qorunub saxlanılması üçün 1999-cu ildə “Azərbaycanda heyvanlar aləmi” haqqında qanun qəbul olunmuşdur. Qanunun tələblərinə növlərin nəslinin kəsilməsinə yol verməmək, müxtəlifliyi qoruyub saxlamaq, onlardan məqsədli şəkildə istifadə etmək aiddir [4].

Təbiətdən istifadəni dayandırmaq təbiəti qorumaq demək deyildir. Təbiətdən istifadə edərək onu mühafizə etməyi bacarmaq lazımdır. Dövlət təbiəti və onun nümayəndələri olan bitkiləri,

heyvanları eləcə də abidələri, xüsusi qorunmalı təbii əraziləri mühafizə üçün qoruq, yasaqlıq və milli parklar yaradıb. Təbiəti mühafizə üçün yaradılan qoruqlarda mühafizə sistemi yüksək səviyyədədir. Burada kökü kəsilmə təhlükəsi olan, nadirən rast gəlinən növlər, təhlükə altında olan komplekslərvə s. qorunur. Qoruqlara həmçinin canlı laboratoriya da deyirlər. Qoruqların ətrafında mühafizə zolaqları da yaranır. Ora insanların girişi qadağan edilir. Qoruqlardan başqa təbiəti mühafizə sahəsi olan yasaqlıqlar var. Yasaqlıqlar həm müvəqqəti, həm də daimi ola bilir. Yasaqlıqdakı rejim qoruğa nisbətən daha da zəifdir. Eləcə də, yasaqlıqlarda tədqiqat işləri aparılmır. Qoruqlardan fərqli olaraq yasaqlıqlarda istirahət guşəsi həmçinin bazarların tikilməsinə icazə verilir. Burada bir sıra fəaliyyətlərə icazə verilir, amma istirahət edənlər xüsusi təbiət ərazisində olduqlarını yaddan çıxarmamalıdırlar. Təbiət ərazilərinin qorunmasının başqa bir forması da milli parklardır. Milli parklarda qadağalar sərt deyildir. Orada insanlar rahat gəzə bilirlər, təbiətdən zövq ala bilirlər və s. Milli parklar düzgün təşkil edildikdə ətraf mühiti normal şəkildə mühafizə edə bilir.

## Nəticə

1. Ətraf mühitin qorunması və idarə olunması sistemində məsələləri həlli ilə məşğul olan, eləcə də, qərarları verən hakimiyyətin idarə orqanları və nümayəndələri iştirak edir.
2. Təbiətin qorunması və keyfiyyətinin idarə olunmasında müəssisələrin və şirkətlərin aktivlərinin, maliyyə xərclərinin və bir sıra xüsusiyyətlərinin auditor tərəfindən illik hesabatı uçotu aparılır.
3. Ətraf mühitin keyfiyyətinin idarə olunmasında mühitin çirklənməvəziyyətini müşahidə etmək üçün ekoloji monitorinq aparılır. Monitorinq əsasən mühitin antropogen təsir hesabına nə dərəcədə çirkləndiyini müəyyən edir və qiymətləndirir.
4. Təbiətin qorunması və keyfiyyətinin idarə olunmasında yeni yanaşmalar kimi mühiti çirkləndirən maddə və elementləri yox etmək tamamilə mümkün olmadığından tullantısız və ya az tullantılı texnologiyalar tətbiq etməyin gərəkli olduğu qeyd edilmişdir.
5. Təbiətin mühafizəsi və keyfiyyətinin idarə olunması istiqamətində idarə edilən obyektlərin və qarşıya qoyulan öhdəliklərin yerinə yetirilməsi üçün məsuliyyət daha da artırıla bilər.
6. Atmosferin, suyun , torpağın, flora və faunanın, habelə yerin təkində olan resursların mühafizə edilməsi üçün norma və qaydaların təkmilləşdirilməli və dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilməlidir.
7. Ətraf mühitin mühafizəsində ekoloji monitorinq sistemi təkmilləşə və kompleks laboratoriyalar yaradıla bilər.

**Tədqiqatın elmi yeniliyi:** Azərbaycan Respublikasında təbiətin mühafizəsi və keyfiyyətinin idarə olunması aspektləri qanunvericiliyə əsasən hazırlanmış baza hesabına təhlil edilmişdir. Bu aspektdə idarəetmə orqanları, onların hüquqları, vəzifələri keyfiyyətin idarə mexanizmləri, onların normallaşma istiqamətləri, eləcə də təbiətin mühafizə edilməsi və idarə edilməsi sahəsində əhalinin hüquqi təminatı məsələləri tədqiq olunmuşdur.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Ölkəmizdə təbiətin mühafizə olunması və keyfiyyətinin idarə edilməsi hesabına tətbiq edilən norma və qaydalar özünüdoğruldacaqdır. Ekoloji təmiz məhsul əldə etmək, antropogen çirklənmənin bütün hallarını aradan qaldırmaq və təbiəti qoruma metodlarını həyata keçirmək üçün, eləcə də, ekoloji təhlükəsizliyi təmin edib əhalinin sağlamlığında riski minimuma endirmək üçün tədbirlər görüləcəkdir.

## ƏDƏBİYYAT

1. Abdullayev A. Abdullayev V. “Inzibati hüquq”. III hissə. Dövlət orqanlarındaidarəetmə. Dərs vəsaiti. Bakı, Qanun, 2006.
2. Azərbaycan Respublikasının Ekologiya qanunvericiliyi ( normativ – hüquqiaktlar toplusu). II cild, Bakı, Qanun, 2007

**№ 3/2023 səh.26-32**

3. Azərbaycan Respublikasının Ekologiya qanunvericiliyi ( normativ – hüquqiaktlar toplusu). I cild, Bakı, Qanun, 2006
4. Quliyev T.S. "Təbiətdənistifadənin və ətraf mühitin mühafizəsinin iqtisadiyyatı". Bakı 2008.
5. Sadıqov A. S. Xəlilov İ. B. "Ekologiya və ətraf mühitin mühafizəsi". Bakı, 2009.
6. Şimova O. S. Sokolovskiy N. R. " Təbiətdən istifadənin iqtisadiyyatı". Bakı,2013.

**УДК 338.12:338.34:330.36**

## Новые подходы к охране природы и управлению качеством окружающей среды

**[1]М. Дж.Гусейнов, [2]С. С.Аллахвердиев, [3]В. А.Фарзалиев,[4]С. Б.Садыгова**

**Резюме.**Система охраны окружающей среды – это обеспечение и организация использования природных ресурсов. Охрана окружающей среды также относится к системе правовых и административных, государственных мер. Мероприятия по охране и сохранению окружающей среды в нашей республике осуществляются за счет средств государственных органов, заповедников, лесных и охотничьих управлений, предприятий типа фермерских хозяйств. В статье проанализированы новые подходы к охране природы и управлению качеством окружающей среды.

**Ключевые слова:** окружающая среда, атмосфера, ресурс, природа, стратегия, управление, государственная программа, экология, кризис.

**UDC 338.12:338.34:330.36**

## New approaches to nature protection and environmental quality management

**[1]M.J.Huseynov, [2]S.S.Allahverdiyev, [3]V.A.Farzaliyev, [4]S. B. Sadiqova**

**Summary.**The environmental protection system is the provision and organization of the use of natural resources. Environmental protection also refers to the system of legal and administrative, government measures. Measures for the protection and preservation of the environment in our republic are carried out at the expense of state bodies, nature reserves, forestry and hunting departments, enterprises such as farms. The article analyzes new approaches to nature protection and environmental quality management.

**Keywords:** environment, atmosphere, resource, nature, strategy, management, government program, ecology, crisis.

Redaksiyaya daxilolma: 29.10.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.33-38

UOT 338.12:33834:330.36

DOI:10.30546/JIECM.2023.3.33.

# İQTİSADİ RİSK DƏRƏCƏSİNİN AŞAĞI SALINMASI İSTİQAMƏTLƏRİ

[1]Məhərrəm Cəlal oğlu Hüseynov, [2]Sevinc Elman qızı Bayramova
[3]Gülöyşə Şöhrət qızı Vəliyeva, [4]Türkan Mehti qızı Hüseynova

**Azərbaycan Texnologiya Universiteti**

***Xülasə.****Müasir dövrdə biznes fəaliyyətinin idarə olunması həm xarici və həm də daxili amillərlə şərtləşən çoxsaylı problemlərin kompleks həllini tələb edir. Əsas xarici amillərə makroiqtisadi vəziyyətin dinamikliyini, beynəlxalq maliyyə-iqtisadi sferada baş verən proseslərin Azərbaycan iqtisadiyyatına təsirinin artmasını, daxili bazarda rəqabətin güclənməsini, habelə biznesin idarə olunmasının hüquqi sahəsindəki qeyri- müəyyənliyini aid etmək lazımdır. Biznesmenlər üçün qeyri müəyyənliyin daxili amillərindən biri biznesin həm mövcud vəziyyəti və həm də perspektiv inkişafı haqqında tam həcmdə informasiyanın olmamasıdır. Belə bir vəziyyətdə biznesin idarə olunması yeni yanaşmanın formalaşmasını tələb edir. Menecmentin informasiya təminatı sisteminə tələbat artır. Müasir bazar iqtisadiyyatı şəraitində informasiya rəhbərliyi təkcə mövcud vəziyyəti qiymətləndirmək üçün deyil və eləcə də, yaxın gələcəkdə xarici və daxili mühitdə baş verəcək dəyişiklikləri proqnozlaşdırmaq üçün lazımdır.*

***Açar sözlər:*** *informasiya təminatı sistemi, iqtisadi risk, strateji risk, inflyasiya, istehsal xərcləri, maliyyə, biznes fəaliyyətinin idarə olunması*

**Giriş.**Dövlət iqtisadiyyatın əsas subyektlərindən biri olmaqla bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatda əsasən nəzarət və tənzimləmə funksiyasını yerinə yetirir. Tənzimləmə funksiyasını dövlət iqtisadi proseslərdə inzibati və iqtisadi mexanizmlər vasitəsilə həyata keçirir. Dövlətin tənzimləmə funksiyası iqtisadi proseslərdə səmərəliliyin artırılması məqsədilə yaranmış müəyyən çatışmazlıqlar, pozuntular, iqtisadi inkişafda durğunluq yaradacaq amillər müşahidə edildikdə və ya gözlənildikdə həyata keçirilir. İqtisadi risklər iqtisadiyyatda fəaliyyətin təşkilinə, iqtisadi və idarəetmə qərarlarının qəbul olunmasına, eləcə də, yekunda iqtisadi fəaliyyətin nəticələrinə ciddi təsir göstərə bilir. Belə ki, əksər insanlar qeyri-müəyyənlikləri, gözlənilməz dəyişiklikləri əsasən müsbət hal kimi qəbul etmirlər. İqtisadi fəaliyyətin yekununda itirmə ehtimalının yüksək olması bir çox hallarda insanları fəaliyyətdən çəkindirir. Ölkədə qeyri-stabillik olduqda insanlarda iqtisadi fəaliyyətə maraq azalır, təşəbbüskarlıq səviyyəsi aşağı düşür. Bu isə ümumilikdə cəmiyyət üçün gələcək inkişafı ləngidə bilər. Sadə bir misal göstərə bilərik ki, ərəb baharından sonrakı dövrdə ərəb baharı baş vermiş ölkələrə səyahət edən turistlərin sayı kəskin azalmışdır. Yaranmış qeyri-stabil vəziyyətlə bağlı bu ölkələrin əhalisi mövcud çətinliklərə görə öz ölkələrinin gələcək inkişafına inamsız yanaşaraq Avropa ölkələrinə miqrasiya etməyə başlamışdır. Türkiyədə son zamanlarda baş verən terror hadisələri və Rusiya ilə yaranan gərginlikdən sonra turizm sektorunda müəyyən durğunluq yaranmışdır. Rusiyanın Türkiyənin kənd təsərrüfatı məhsullarının əsas alıcılarından biri olması ölkədə kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən sahibkarlara da təsirsiz ötüşmədi.

**Mövzunun aktuallığı.** Bu gün müəssisə və təşkilatların iqtisadi müstəqilliyi kreditorlar, sahibkarlar və işçiləri qarşısında məsuliyyət daşıdığını özündə xarakterizə edir. Eyni zamanda, kommersiya təşkilatlarının menecerləri öz partnyorlarının etibarlı olmalarına və öz öhdəliklərini vaxtında yerinə yetirə bilmələrinə əmin olmaq istəyirlər. Çünki, şirkətlər hər zaman tədiyyəqabiliyyətli olmaya bilərlər. Ona görə də, müflisləşmə institutu müasir şəraitdə daha çox məna kəsb edir. Belə ki, müəssisə rəhbərliyi müflisləşmə riskinin maliyyə təhlilini və proqnozlaşdırılmasını bacarmalı və bu sahəyə diqqəti artırmalıdırlar. Buna görə də, onlar həm müflisləşmə proseduru ilə tanışolmalı, qarşıya

№ 3/2023 səh.33-38

çıxan arzuolunmaz amilləri müəyyən etməli və maliyyə sağlamlaşdırması yollarını tapmağı bacarmalıdırlar. Yuxarıda deyilənləri nəzərə alsaq, mövzunun aktual bir problemə həsr olunduğunu görərik.

**Tədqiqatın məqsədi:** Respublikamızda həyata keçirilən müəssisənin risklərinin idarə olunması strategiyalarının mahiyyətinin tədqiq edilməsi tədqiqatın əsas məqsədini təşkil edir. Burada əsas məqsəd ölkəmizin sistemində yaranan iqtisadi risklərin öyrənilməsi, təsnif edilməsi, iqtisadi risklərin müəyyən edilməsi metodlarının və eləcə də, stress testinin araşdırılması və bu risklərlə hansı şəkildə mübarizə aparmasının tədqiq edilməsidir.

**Tədqiqat obyekti:** Müəssisələrin fəaliyyəti zamanı yaranan risklər və böhran şəraitində dayanıqlığı təmin etməyə yönəldilmiş iqtisadi risklərin idarə olunması metodlarıdır.

**Tədqiqat metodları:** Məqalədə sistemli təhlil və tədqiqat metodlarından istifadə olunmuşdur.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

90-cı illərin əvvəllərində Azərbaycanda yaranmış xaos vəziyyəti, siyasi-iqtisadi istiqrarsızlıq ölkədə təsərrüfatçılığın çökməsinə səbəb olmuşdu. Ölkədə həmin dövrdə xüsusi mülkiyyətə əsaslanan sahibkarlıq təsərrüfatlarının üstünlük təşkil etdiyi bazar iqtisadi sisteminə keçidin əsası qoyulsa da, dövrün reallıqları göstərdi ki, dövlətin tənzimləmə siyasəti olmadan, əlverişli, iqtisadi risklərin aşağı səviyyəyə salındığı fəaliyyət mühiti yaradılmadan iqtisadi inkişafa nail olmaq mümkün deyil [1].

Dövlət iqtisadi riskləri tənzimləyərkən cari və strateji riskləri bir-birindən fərqləndirməlidir. Cari risklər cari dövr üzrə nəzərdə tutulan fəaliyyətin yerinə yetirilə bilməməsi, nəzərdə tutulan nəticələrin əldə olunmaması ilə bağlı yaranan risklərdir. Strateji risklər strateji hədəflərin düzgün seçilməməsi və ya strateji hədəflərə (nəticələrə) çatmaq üçün yerinə yetirilən fəaliyyətin uğursuzluğu halında yarana biləcək risklərdir.

Cari dövrdə həyata keçirilən düzgün iqtisadi fəaliyyətlə strateji riskləri azaltmaq mümkündür. Ancaq biz birmənalı şəkildə cari risklərin səviyyəsinin azaldılmasının strateji risklərin səviyyəsinin azaldılmasına müsbət təsir göstərəcəyini deyə bilmərik. 2008-ci ildə dünyada neftin 1 barrelinin qiyməti 120 dollar civarında olarkən ölkəmizdə dövlətin cari xərclərini yerinə yetirə bilməməklə bağlı risklərin səviyyəsi aşağı düşmüşdü. Bununla belə ÜDM-in strukturunda neft sektorunun payının yüksək olması, xarici ticarətin strukturunda iqtisadiyyatın digər sahələrinin payının aşağı olması, neft ehtiyatlarının gələcəkdə azalması, neftin qiymətinin dünya bazarında müəyyən olunması və ölkəmizin bu qiymətlərə təsir göstərmə imkanlarının olduqca məhdud olması, neftdən asılılıqla bağlı strateji risklərin səviyyəsini həmin dövr üzrə neftin qiymətinin yüksək olması aşağı salmamışdır [2].

Müasir dövrdə dünyada gedən qloballaşma prosesi, ayrı-ayrı ölkələrin iqtisadiyyatlarının bir-birinə inteqrasiyası prosesləri nə qədər sürətlənsə də, hər bir ölkənin öz milli iqtisadiyyatı, milli iqtisadi strategiyası mövcuddur. Hər bir ölkənin qloballaşma prosesindəki rolunu onun milli iqtisadiyyatının mövcud vəziyyəti müəyyən edir. Ölkələrin bu prosesdə gələcək üçün daha yaxşı nəticələr əldə etməsi onların öz milli iqtisadiyyatlarını hansı istiqamətdə və hansı səviyyədə inkişaf etdirə bilməsi, inkişaf strategiyasının düzgün qurulmasından asılıdır. Eyni zamanda, qloballaşma prosesindən yaranan risklər sağlam milli iqtisadiyyata malik olmayan ölkələrin bu proses nəticəsində iqtisadiyyatının ağır vəziyyətə düşməsinə gətirib çıxara bilər.

Azərbaycanın müstəqillik qazandıqdan sonra bazar iqtisadi sisteminə keçməsi, dünya iqtisadiyyatına inteqrasiyasının sürətlənməsi ölkəmizi də qlobal iqtisadi sistemin tərkib hissəssinə çevirmişdir. Bu baxımdan mövcud sistemdə yaranacaq risklərin qarşısının alınması üçün bu cür risklərin yaranmasının səbəblərinin öyrənilməsi, risklərə davamlı, sağlam milli iqtisadiyyatın qurulması həm ölkə iqtisadiyyatını qlobal iqtisadi proseslərin mənfi təsirlərindən qoruya bilər, həm də bu prosesin müsbət tərəflərindən istifadə etməyə imkan yaradar. .

Ölkə iqtisadiyyatının sahə strukturunda düzgün proporsiyalarının müəyyən olunması və bu

№ 3/2023 səh.33-38

proporsiyalara uyğun iqtisadiyyatın hərtərəfli və səmərəli şəkildə inkişaf etdirilməsi, risklərə davamlı, sağlam milli iqtisadiyyatın qurulmasının əsas şərtlərindəndir [3].

Azərbaycanda iqtisadiyyatın strukturunda neft sektorunun üstünlüyü ölkə iqtisadiyyatının neftdən, neft gəlirlərindən asılılığının yüksək olmasına səbəb olur. Bu isə ölkə iqtisadiyyatı üçün müəyyən risklər yaradır. Bu risklərin yaranması aşağıdakı səbəblərlə əlaqədardır:

- Neftin satışı dünya bazarında həyata keçirilir və satış qiyməti tələb təklif əsasında formalaşır. Bu halda neft ixrac edən bir ölkə kimi Azərbaycanın dünya üzrə neft ixracındakı payını da nəzərə alsaq neftin satış qiymətinə təsir imkanları olduqca məhduddur. Qiymətə nəzarət imkanlarının olmaması qiymətlərlə bağlı qeyri-müəyyənliyi artıraraq doğru proqnoz vermə ehtimalını azaldır və bu da iqtisadiyyatı əsasən neft gəlirlərinə bağlı bir ölkə üçün iqtisadi riskləri artırır.
- Neft ehtiyatlarının tükənən təbii ehtiyatlardan olması və yaxın gələcəkdə ehtiyatlarının həcminin kəskin şəkildə aşağı düşəcəyi ilə bağlı verilən proqnozlara əsasən neft ixrac edən ölkə kimi bu sahə üzrə ölkənin gəlirlərinin azalması ehtimalını artırır.

Bu halda dövlətin strateji maraqlarının qorunması üçün mövcud və gözlənilən riskləri tənzimləməsi vacibdir. Azərbaycanda 2015-ci ildə baş verən devalvasiya bir daha göstərdi ki, ölkədə strateji risklərdən yaranan mənfi təsirləri azaltmaq üçün əvvəlcədən ölkə iqtisadiyyatı təkmilləşdirilməlidir. Bu istiqamətdə Azərbaycanda dövlət tərəfindən qanunvericilik bazasının və sisteminin təkmilləşdirilməsi, iqtisadiyyatın əsasən qeyri-neft sahələrinin inkişaf etdirilməsi üçün bir sıra proqramların qəbulu və icrası öz müsbət təsirini göstərmişdir.

Dövlət iqtisadi fəallığı artırmaqla iqtisadiyyatı inkişaf etdirə bilər. Nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatı şəraitində iqtisadi fəallıq təsərrüfat subyektlərinin mənfəət əldə etmək imkanları genişləndikcə daha da artır. Ancaq hər bir fəaliyyət, hər bir qərar müəyyən riskləri nəzərə almağı tələb edir. Demək olar ki, bütün fəaliyyət sahələrində risklər mövcuddur.

Məqsədi yüksək qazanc əldə etmək olsa da, sahibkar riskin müəyyən həddindən sonra fəaliyyətdən imtina edir. Sahibkarın fəaliyyətdən imtina etməsi iqtisadi fəallığı azaldır. Bu isə müəyyən mənada fəaliyyət nəticəsində mümkün ola biləcək yüksək mənfəətin itirilməsinə səbəb olur. Bu mənada dövlətin əsas funksiyası ondan ibarətdir ki, riskin dərəcəsini sahibkarlar üçün qəbul edilə bilən səviyyəyə qədər aşağı salsın. Xüsusilə iqtisadiyyatın ölkə üçün strateji əhəmiyyətə malik olan elə sahələri olur ki, burada risk dərəcələri yüksək olur və sahənin inkişafı dövlət dəstəyi olmadan lazımi səviyyəyə çata bilməz. Buna misal olaraq biz kənd təsərrüfatında taxılçılıq sahəsini qeyd edə bilərik. Hansı ki, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilmədiyi halda xarici ölkələrdən asılılıq milli iqtisadi təhlükəsizliyin təmin edilə bilməməsi riskini artıracaqdır. Buna görə də, bir çox dövlətlər ən azı zəruri ərzaq məhsullarının yerli istehsal hesabına təmin edilməsi üçünbu sahədə fəaliyyət göstərən sahibkarlara müəyyən güzəştlər tətbiq etməklə, yardımlar göstərməklə, onların risklərini azaldırlar. Bu isə öz növbəsində iqtisadiyyatın risk dərəcəsi yüksək olan sahələrində iqtisadi fəallığın azalmasının qarşısını alır [4].

Sahibkarlar üçün əsas məqsəd yüksək mənfəət əldə etmək olduğu üçün əsas risk gözlənilən mənfəətin əldə edilə bilməməsi, itkilərlə üzləşməkdir. İstehsal xərclərinin istehsal olunmuş məhsul vahidinə düşən hissəsinin artması məhsulun qiymətinin artmasına bu isə satışın azalması ilə gəlirlərin, mənfəətin azalmasına səbəb ola bilər. Bu da öz növbəsində sahibkar üçün risk yaradır. Ölkə üçün xüsusi əhəmiyyət kəsb edən bir sıra sahələrdə fəaliyyət göstərən sahibkarlara dövlət vergi güzəştləri tətbiq etməklə, güzəştli şərtlərlə kreditlər verməklə, ssudalar və subsidiyalar verməklə onların risklərini azaldır. Bu isə həmin sahələr üzrə iqtisadi fəallığı artırmaqla həm də ölkənin strateji maraqlarına xidmət edir.

İqtisadiyyatda riskləri artıran bir digər amil isə inhisarçılıq fəaliyyətidir. İnhisarçılıq fəaliyyəti mövcud olan sahələrdə inhisarçı mövqeyə malik təsərrüfat subyektləri fəaliyyət göstərdikləri sahəyə yeni subyektlərin daxil olmasını və fəaliyyət göstərməsini hər vasitə ilə əngəlləməyə çalışırlar. Bu həmin sahə (bazar) üzrə fəaliyyətlə bağlı riskləri artırır. Bu isə inhisarçı fəaliyyətlə məşğul olan

təsərrüfat üçün müsbət olsa da, nə cəmiyyət üçün, nə də dövlət üçün səmərəli deyildir. Azərbaycanda inhisar fəaliyyətinin qarşısının alınması üçün qanun qəbul edilmişdir və bu məsələlərin tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir.

İnflyasiya yüksək həddə olduqda və dövlət tərəfindən idarə oluna bilmədikdə ölkədə maliyyə sabitliyi pozulur və təsərrüfat subyektləri üçün risklər daha da artır. Bu isə iqtisadi fəallığı azaltmaqla həm işsizlik səviyyəsinin, yoxsulluğun artması, həm də dövlətin gəlirlərinin azalması riskini artırır. İnflyasiya dövlət səviyyəsində tənzimlənən iqtisadi prosesdir. Buna görə də, dövlətin antiinflyasiya siyasəti nə qədər əsaslı və düzgün şəkildə həyata keçirilərsə, inflyasiya ilə bağlı iqtisadi risklərin azaldılmasında bir o qədər effektli olacaqdır.

## Nəticə

Bazar iqtisadiyyatına keçidlə əlaqədar Azərbaycan Respublikasında geniş miqyaslı islahatların aparılması zamanı "Maliyyənin idarə olunması" anlayışının tətbiqinə ehtiyac yaranmışdır. Keçid dövrünün ilk illərində ölkənin bir çoxmüəssisələri müflisləşərək ağır böhran vəziyyətinə düşmüşlər ki, bu da aktivlərin və kapitalın strukturunun optimallaşdırılmasını zəruri etmişdir. Müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin idarəetmə sisteminin təkmilləşdirilməsi, maliyyə bazarlarında əməliyyatların uğurla başa çatdırılması, iqtisadi resurslardan daha səmərəli istifadə edilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi önəmli məsələyə çevrilmişdir [6].

Müasir dövrdə iqtisadi təhlilə dair iki yanaşma mövcuddur. Birinci yanaşmada iqtisadi təhlil geniş aspektdə başa düşülür, yəni kapital bazarı da daxil olmaqla ətraf mühit kontekstində təsərrüfat subyektlərinin idarə edilməsi ilə əlaqədar analitik işlərin bütün bölmələrini əhatə edir, ikinci yanaşma iqtisadi təhlilin əhatə sferasının mühasibat uçotunun təhlili ilə məhdudlaşdırılmasını nəzərdə tutur. İqtisadi təhlilin başlıca məqsədi müəssisənin maliyyə vəziyyətini obyektiv şəkildə xarakterizə edən əsas parametrləri, yəni aktiv və passivlərin strukturunda, debitor və kreditor borclarında, mənfəət və zərərin tərkibində baş verən dəyişiklikləri aşkara çıxarmaqdan ibarətdir. İşgüzar təşkilatların fəaliyyətlərinin səmərəliliyi birbaşa xarici mühitdə baş verən dəyişikliklərə adekvat idarəetmə reaksiyasından asılıdır. Xarici mühitdə baş verən qeyri-müəyyən və gözlənilməyən dəyişikliklərə uyğun olaraq strategiyaların hazırlanması və istifadəsi bu işə yardımçı qismində çıxış edir. Tədqiqatlar aşağıdakı nəticələri çıxarmağa imkan verir.

1. İqtisadi sistemdə investisiya layihələrinin reallaşdırılmasında investorların məqsədi mənfəət götürməkdir. Layihələrin xərcləri və gəlirlərinin kəmiyyətinə, onların səmərəliliyinə çox saylı risklər əhəmiyyətli dərəcədətəsir göstərə bilir. Yüksək kapitaltutumlu neft-qaz sənayesində resursların işlənməsində risklərin təsiri və qiyməti daha yüksəkdir. Belə layihələr üzrə idarəetmə qərarları böyük risk vəqeyri-müəyyənlik şəraitində qəbul edilir. Ona görə də, "Əsrin müqaviləsi" əsasında sürətlə inkişaf edən neft və qaz sənayesində riskin tədqiqi və nəzərə alınması layihələrin səmərəliliyinin yüksəldilməsini təmin edən amillərdəndir.

2. Hal-hazırda investisiya layihələrində «risk» anlayışını mütəxəssislər müxtəlif mənalarda qəbul edirlər. Bəziləri risk ifadəsi altında nəticələrin istər müsbət və istərsə də mənfi alınması ehtimalını, başqaları isə mümkün itkiləri başa düşürlər. Müəllifin fikrincə risk anlayışı iqtisad elminə məxsusdur və idarəetmə nəzəriyyəsinin terminləri ilə sahibkarlıq fəaliyyətindən istər müsbət və istərsə də, mənfi nəticələrin ehtimalını göstərir. Bu və ya digər riyazi modelin istifadə edildiyi formalaşdırmanın sonrakı səviyyəsində risk ehtimal nəzəriyyəsinin terminləri ilə təsvir edilir.

3. Risk səviyyəsinin təyin edilməsində istifadə olunan risk əyrisi metodikasının prinsipial nöqsanlarını aradan qaldırmaq məqsədi ilə risk əyrisinin qurulmasının iddiaçı tərəfindən təkmilləşdirilmiş metodikasının investisiya layihələrində tətbiqi aşağıdakılara imkan verir:

- risk əyrisinin qurulmasında nisbi göstəricinin əvəzində itkilərin səviyyəsinin yaranması tezliyindən və ya itkilərin həmin səviyyəsinin yaranmasıehtimalından istifadə olunmasına;
- layihənin reallaşdırılmasında əlverişli sonluq ehtimalının adekvat əks etdirilməsinə;
- risk səviyyəsinin qiymətinin dəqiq təyin edilməsinə;

№ 3/2023 səh.33-38

**Tədqiqatın elmi yeniliyi:**

1) İstehsal müəssisələrində risklərin idarə olunması siyasətinin məqsədi, vəzifələri və iqtisadi siyasətdə rolu kompleks şəkildə araşdırılmışdır;

2) İqtisadi risklərin idarə olunması siyasətinin tənzimləmə mexanizmlərinin geniş şəkildə müəyyən edilməsi onun daha aydın anlaşılmasına imkan vermişdir;

3) İqtisadi risklərin idarə olunması siyasətinin formalaşmasının əsasxüsusiyyətləri müəyyənləşdirilmişdir;

4) iqtisadi risklərin idarə olunması siyasətinin başlıca istiqamətləri təhliledilmişdir;

5) Müəssisənin risklərin idarə olunması siyasətinin hazırlanması, reallaşdırılması və onun makroiqtisadi siyasətdə rolunun təkmilləşdirilməsinə dair təkliflər işlənib hazırlanmışdır.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Əsas müddəalar, nəticələr və irəli sürülən təkliflər müəssisənin idarə edilməsi siyasətində, o cümlədən, maliyyə menecmentinin həyata keçirilmsi zamanı risklərin tarazlaşdırılması və optimallaşdırılması ilə bağlı istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. "Azərbaycanın neft və qaz kəmərləri sistemi". Azərbaycanın Neft Sənayesi üzrə İnformasiya və Resurs Mərkəzi. Bakı, 2006.
2. A.S.İsayev " İstehsalın təşkili əsasları". Dərslik. Bakı. Azərnəşr, 2009, 151 s.
3. Daniel Yergin. "Neft fəlsəfəsi". 2cilddə. Bakı, 2006.
4. X.H.Kazımlı. "Qiymətləndirmənin əsasları". Bakı, 2008.
5. E.M.Hacızadə, Z.S.Abdullayev. "Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası". Bakı, 2003.
6. X.M.Yahudov. "Müəssisənin iqtisadiyyatı". Dərslik. Bakı, "Çıraq" , 2005, 504 s.


**УДК 338.12:338.34:330.36**

## Пути снижения степени экономического риска

**[1]М. Дж. Гусейнов, [2]С. Э.Байрамова, [3]Г. Ш.Велиева,[4]Т. М.Гусейнова**

**Резюме.**В статье отмечено, управление бизнесом в современную эпоху требует комплексного решения многих проблем, вызванных как внешними, так и внутренними факторами. К основным внешним факторам можно отнести динамизм макроэкономической ситуации, возрастающее влияние процессов, происходящих в международной финансово-экономической сфере, на экономику Азербайджана, усиление конкуренции на внутреннем рынке, а также неопределенность в правовой сфере управления бизнесом. Одним из внутренних факторов неопределенности для предпринимателей является отсутствие полной информации как о текущем состоянии, так и о перспективах развития бизнеса. В такой ситуации требуется формирование нового подхода к управлению бизнесом. Спрос на информационную систему управления растет. В современной рыночной экономике управление информацией необходимо не только для оценки текущей ситуации, но и для прогнозирования изменений, которые произойдут во внешней и внутренней среде в ближайшее время.

**Ключевые слова:** система защиты информации, экономический риск, стратегический риск, инфляция, себестоимость продукции, финансы, управление бизнесом.

№ 3/2023 səh.33-38

UDC 338.12:338.34:330.36

**Ways to reduce the degree of economic risk**

[1]M. J.Huseynov, [2]S. E.Bayramova, [3]G. Sh.Veliyeva,[4]T. M.Huseynova

**Summary.**The article notes that business management in the modern era requires a comprehensive solution of many problems caused by both external and internal factors. The main external factors include the dynamism of the macroeconomic situation, the growing influence of the processes taking place in the international financial and economic sphere on the economy of Azerbaijan, increased competition in the domestic market, as well as uncertainty in the legal sphere of business management. One of the internal factors of uncertainty for entrepreneurs is the lack of complete information about both the current state and the prospects for business development. In such a situation, a new approach to business management is required. The demand for information management system is growing. In a modern market economy, information management is necessary not only to assess the current situation, but also to predict changes that will occur in the external and internal environment in the near future.

**Keywords:** information security system, economic risk, strategic risk, inflation, production cost, finance, business management.

Redaksiyaya daxilolma: 29.05.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.39-44

| UOT 338.12:33834:330.36 |
| --- |
| DOI:10.30546/JIECM.2023.3.39. |

# BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ BİZNESİN TƏNZİMLƏNMƏSİNDƏ İQTİSADİ SƏMƏRƏLİLİYİN YÜKSƏLDİLMƏSİ

**[1]Elay Cəlal oğlu Zeynallı, [2]Elməddin Elşad oğlu Rzayev, [3]Sübhan Səbuhi oğlu Mustafayev**

**Azərbaycan Texnologiya Universiteti**

***Xülasə.****Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatına keçməsilə iqtisadiyyatda bir sıra dəyişikliklərin baş verməsinə, eləcə də dövlətin iqtisadiyyata müdaxiləsinin yeni prinsip və istiqamətlərinin yaranmasına gətirib çıxarmışdır. Hal-hazırda dövlətin iqtisadiyyata müdaxiləsinin, eyni zamanda biznesə müdaxiləsinin səmərəliliyinin artırılması üçün müxtəlif metodlar, prinsiplər, funksiyalar müəyyən etməklə daim bu məsələni gündəmdə saxlayaraq mühüm işlər görülür.*

***Açar sözlər:*** *biznesin tənzimlənməsi, iqtisadi səmərə, investisiya prosesi, innovasiya prosesi.*

**Giriş.**Bazar iqtisadiyyatı yolu tutan Azərbaycan Respublikasında istehsalın təşkili və aparılmasına, onun sferasının genişləndirilməsinə, yeni texnika və texnologiyanın tətbiqinə böyük məbləğdə investisiyalar tələb olunur. Bu tələbatın ödənilməsi, ölkə iqtisadiyyatının sahələrinə, xüsusilə aqrar bölməyə xarici investisiyaların cəlb edilməsi dövlətin həyata keçirdiyi investisiya siyasətindən bilavasitə asılıdır. Bazar iqtisadiyyatı şəraitində investisiya siyasəti aşağıdakı prinsiplər əsasında həyata keçirilməlidir:

- investisiya prosesinin ardıcıl olaraq mərkəzləşdirilməsi, kapital qoyuluşlarının ümumi həcmində müəssisələrin şəxsi vəsaitlərinin, paylarının artırılması, investisiyaların maliyyələşdirmə mənbələrindən biri kimi amortizasiya ayırmalarının rolunun artırılması;
- dövlət investisiyalarının müsabiqə əsasında istehsal məqsədlərinə yerləşdirilməsi;
- mərkəzləşdirilmiş kapital qoyuluşlarının qaytarılması;
-layihələrin birgə dövlət kommersiya maliyyələşdirilməsi praktikasınıngenişləndirilməsi;
-investisiyalara yönəldilmiş dövlət büdcə vəsaitlərinin məqsədli xərclənməsinə dövlət nəzarətinin gücləndirilməsi;
-dövlət tərəfindən himayə edilən investisiya layihələrinin sığortalanma və təminat praktikasının genişləndirilməsi;
- xarici investisiyaların stimullaşdırılması.

**Mövzunun aktuallığı:** Müasir dövrdə dövlətin iqtisadiyyata qarışmasının konseptual əsasları, indiki şəraitdə biznesə dövlət müdaxiləsinin faydalı, səmərəli hədd və funksiyaları barəsində Azərbaycanda iqtisadiyyatın tənzimlənməsinin ölkədəki qanunauyğunluqlarını və xüsusiyyətlərini anlamağa, milli iqtisadiyyat səviyyəsində buna müvafiq qərarların qəbulu ilə həyata keçirilməsi prinsipləri, mexanizmləri, o cümlədən davamlı inkişafa keçidin təmin edilməsində dövlətin rolu barəsində sistemli nəzəri və əməli cəhətdən tədqiqatların aparılmasına yönəldilir. Bu səbəbdən də, iqtisadiyyatın inkişafı naminə biznes subyektlərinin tənzimlənməsi siyasəti həmişə olduqca aktualdır.

**Tədqiqatın məqsədi:** Tədqiqat işinin əsas məqsədi bazar münasibətləri şəraitində dövlət tənzimlənməsinin zəruriliyi, biznesin inkişafında investisiya siyasəti və onun stategiyası, bazar münasibətləri şəraitində biznesin tənzimlənməsində iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləridir.

**Tədqiqat obyekti:** Həcmindən və fəaliyyət göstərdiyi sahəsindən asılı olmayaraq Azərbaycanda mövcud olan biznes subyektləri tədqiqatın obyektini təşkil edir.

**Tədqiqat metodları:** Mövzü əsas etibarı ilə Azərbaycan Respublikasına aid olduğundan, təbii olaraq, bu tədqiqatın nəzəri və metodoloji əsasları da Azərbaycan Respublikasının qanunvericiliyi

№ 3/2023 səh.39-44

başda olmaqla, Azərbaycanda kifayət qədər tanınan iqtisadi xadimlərin və alimlərin elmi əsərləri, dərc olunmuş məqalələr və qəbul edilmiş qanunlara məşhur iqtisadçılar tərəfindən verilmiş şərhlərdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Bazar iqtisadiyyatı yolu tutan Azərbaycan Respublikasında istehsalın təşkili və aparılmasına, onun sferasının genişləndirilməsinə, yeni texnika və texnologiyanın tətbiqinə böyük məbləğdə investisiyalar tələb olunur. Bu tələbatın ödənilməsi, ölkə iqtisadiyyatının sahələrinə, xüsusilə aqrar bölməyə xarici investisiyaların cəlb edilməsi dövlətin həyata keçirdiyi investisiya siyasətindən bilavasitə asılıdır. Bazar iqtisadiyyatı şəraitində investisiya siyasəti aşağıdakı prinsiplər əsasında həyata keçirilməlidir [1]:

- investisiya prosesinin ardıcıl olaraq mərkəzləşdirilməsi, kapital qoyuluşlarının ümumi həcmində müəssisələrin şəxsi vəsaitlərinin, paylarının artırılması, investisiyaların maliyyələşdirmə mənbələrindən biri kimi amortizasiya ayırmalarının rolunun artırılması;
- dövlət investisiyalarının müsabiqə əsasında istehsal məqsədlərinə yerləşdirilməsi;
- mərkəzləşdirilmiş kapital qoyuluşlarının qaytarılması;
- layihələrin birgə dövlət kommersiya maliyyələşdirilməsipraktikasının genişləndirilməsi;
- investisiyalara yönəldilmiş dövlət büdcə məbləğinin məqsədli xərclənməsinə dövlət nəzarətinin artırılması;
- dövlət tərəfindən qorunan investisiya layihələrinin sığortalanma həmçinin təminat praktikasının genişləndirilməsi;
- xarici investisiyaların stimullaşdırılması.

Dövlətin innovasiya siyasəti innovasiya fəaliyyətinin inkişafına və stimullaşdırılmasına yönəldilmiş sosial-iqtisadi siyasətin tərkib hissəsi olub, elmi tədqiqatlardan, işləmələrdən, təcrübi konstruktor işlərindən və ya digər elmi-texniki nailiyyətlərdən istifadə etməklə iqtisadi dövriyyədə reallaşdırılan yeni və yatəkmilləşdirilmiş məhsulların, habelə texnoloji prosesin yaradılması deməkdir. Bu siyasət yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi, dayanıqlı iqtisadi artımın təmin olunması, əhalinin həyat səviyyəsi və keyfiyyətinin, ölkənin müdafiə texnoloji və ekoloji təhlükəsizliyinin təmin edilməsi üçün innovasiya fəaliyyəti prioritetliyi razılaşdırılmaqla formalaşdırılır və həyata keçirilir. Dövlət özünün innovasiya siyasətini qurarkən onun əsas məqsədləri aşağıdakılardan ibarət olmalıdır:

- yerli məhsulların rəqabətqabiliyyətliliyinin artımını təmin edən innovasiya fəaliyyəti üçün iqtisadi, hüquqi və təşkilati şəraitin yaradılması, elmi-texniki nəticələrin effektiv ifadəsi, sosial-iqtisadi məsələlərinin həlli;
- elmi-texniki potensialın inkişafı, səmərəli yerləşdirilməsi və effektiv istifadəsi onun strukturunun formalaşdırılması;
- elm və texnikanın ölkə iqtisadiyyatının inkişafına, ən mühüm sosial vəzifələrin reallaşdırılmasına, maddi istehsal sferasında mütərəqqi struktur dəyişikliklərinin təmin olunmasına təsirinin artırılması, onun effektivliyinin və rəqabətqabiliyyətinin yüksəldilməsi;
- ölkənin müdafiə qabiliyyətinin, şəxsiyyət, cəmiyyət və dövlət təhlükəsizliyinin möhkəmləndirilməsi.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün dövlət innovasiya siyasətinin aşağıdakı vəzifələrini həll etməlidir[3]:

-dövlət innovasiya siyasəti prioritetlərinin müəyyən edilməsi və reallaşdırılması;
- iqtisadiyyatda mütərəqqi struktur dəyişikliklərinin təmin edilməsi;
- innovasiya fəaliyyəti infrastrukturunun yaradılması və inkişafı;
- dünya bazarında yerli innovasiya məhsullarının təhlükəsizliyinin, eləcə də xarici iqtisadi innovasiya işinin inkişafı üzrə tədbirlərin həyata keçirilməsi;
- innovasiya fəaliyyətinin inkişafında elm, təhsil, istehsal və maliyyə-kredit sferalarının qarşılıqlı

təsirinin təmin edilməsi;
- xalq təsərrüfatının inkişafı strategiyasını, temp və proporsiyalarını müəyyən edən başlıca istiqamətlərdə iqtisadiyyatın inkişafının stabilləşdirilməsi üçün elmi-texniki potensialın effektiv istifadəsinin və onun strukur tarazlığının təmin olunması.

İnnovasiya sferasında dövlət orqanlarının əsas funksiyalarına aşağıdakıları aid etmək olar:
-dövlət innovasiya siyasətinin formalaşdırılması;
-innovasiya proseslərinin hüquqi bazasının yaradılması, xüsusilə innovatorların müəlliflik hüquqlarının qorunması və intellektual mülkiyyətin mühafizəsi;
- bu sferada innovasiyanın, rəqabətin stimullaşdırılması, innovasiya risklərinin sığortası, köhnəlmiş məhsulların buraxılışına görə dövlət sanksiyasının tətbiqi;
- innovasiya sferası infrastrukturunun formalaşdırılmasında iştirak;
- innovasiyanın sosial və ekoloji yönümlüyü təmin olunmaqla elm, texnika və texnologiyanın prioritet istiqamətlərinin müəyyən edilməsi;
-prioritet elmi tədqiqatlara və innovasiyalara resursların ayrılması;
-dövlət sektorunun təşkilatlarında innovasiya proseslərinin institusional təminatı;
-innovasiya və elmi-texniki fəaliyyət ilə məşğul olan şəxslərin ictimai statusunun yüksəldilməsi;
- innovasiya sferası üçün kadrların hazırlanması;
- Azərbaycan regionlarında innovasiya proseslərinin tənzimlənməsi;
- innovasiya proseslərinin beynəlxalq aspektlərinin tənzimlənməsi;
- milli innovasiya sahibkarlığının maraqlarının müdafiə edilməsi.

Dövlətin innovasiya siyasətinin ən mühüm prinsipləri aşağıdakılardır:
-milli elmi potensiala dayaq olmaq;
- elmi yaradıcılıq azadlığı, elmi sferanın ardıcıl demokratikləşdirilməsi, elmi siyasətinformalaşması və reallaşması zamanı açıqlıq və aşkarlıq;
- fundamental elmi tədqiqatların inkişafının stimullaşdırılması;
- aparıcı milli elmi məktəblərin qorunub saxlanması və inkişafı;
-elm və texnika sferasında sağlam rəqabət və sahibkarlıq üçün şərait yaradılması, innovasiya fəaliyyətinin stimullaşdırılması və ona köməklik göstərilməsi;
- ölkənin zəruri müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin təmin edilməsi məqsədilə elmi tədqiqatların və işləmələrin təşkili üçün şərait yaradılması;
- elm və təhsilin inteqrasiyası, bütün səviyyələrdə ixtisaslaşmış elmi kadrların hazırlanmasının bütöv sisteminin inkişafı;
- tədqiqatçının, təşkilatın və dövlətin intellektual mülkiyyət hüquqlarının müdafiəsi;
- açıq informasiyaya maneəsiz girişinin və onunla azad mübadilə hüququnun təmin olunması;
- müxtəlif mülkiyyət formasına malik elmi- tədqiqat və təcrübi-konstruktor təşkilatlarının inkişafı;
- elmin nailiyyətlərindən geniş istifadə üçün iqtisadi şəraitin formalaşdırılması Azərbaycan iqtisadiyyatı üçün əsas elmi-texniki nailiyyətlərin yayılmasına yardım göstərilməsi;
- elmi əməyin nüfuzunun yüksəldilməsi, alim və mütəxəssislər üçün layiqli həyat və iş şəraitinin yaradılması;
- müasir elmi nailiyyətlərin və onların Azərbaycanın gələcəyi üçün əhəmiyyətin tətbiqi.
- İnnovasiya siyasəti real iqtisadi, sosial və siyasi vəziyyətə uyğun qanunvericilik aktlarının qəbul edilməsi yolu ilə qoyulur. Məhz bu aktlarda idarəetmə subyektləri və obyektləri, onların hüquqları, vəzifə və məsuliyyəti müəyyən edilir. Qanunvericilik innovasiyanın və elmi-texniki fəaliyyətin əsas tənzimləyicisi sayılır.

Müasir şəraitdə innovasiya fəaliyyətinin normativ-hüquqi tənzimlənməsi qanun və normativ aktların işlənib hazırlanmasını və işə salınmasını nəzərdə tutur.

Son illər ərzində, həyata keçirilmiş uğurlu iqtisadi islahatlar cəmiyyətin bütün həyat fəaliyyəti sahələrinə, o cümlədən də müsbət elmə yaxşı təsir göstərmişdir. Ölkə Prezidenti tərəfindən elmin

inkişafına dair 20-dən artıq qərarın qəbul edilməsi innovasiya yönümlü inkişaf üçün stimullaşdırıcı amil oldu. Ümumiyyətlə, elm hər zaman dövlət qayğısının mərkəzində olub və olmaqdadır. Prezidentin «Azərbaycan elmi sahəsində islahatların həyata keçirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında» 10 aprel 2008-ci il tarixli Sərəncamına müvafiq olaraq, müxtəlif nazirliklərin nümayəndələrindən ibarət olan işçi qrupunun fəaliyyət göstərdiyi müvafiq Dövlət Komissiyası yaradılmışdır. Qrup tərəfindən respublikanın elmi-tədqiqat müəssisələrinin potensialının ilkin qiymətləndirilməsi aparılmış, müxtəlif nazirlik və idarələrdən daxil olmuş təkliflər əsasında «Azərbaycan Respublikasında elmin inkişafı üzrə milli strategiya (2009-2015-ci illər)» və «Azərbaycan Respublikasında elmin inkişafı üzrə milli strategiyanın (2009-2015-ci illər) reallaşdırılmasına dair Dövlət Proqramı» adlı layihələr hazırlanmışdır. Adıçəkilən sənədlər dövlət başçısına təqdim olunmuşdur [səh. 5-7, 6]

Dövlətin innovasiya siyasətinin reallaşdırılması birbaşa və dolayı tənzimləmə metodlarından istifadə etməklə həyata keçirilir. İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin birbaşa metodlarına aşağıdakılar aid edilir:

-dövlət büdcəsi hesabına ETTKİ-nin və innovasiya layihələrinin(üstün olaraq ümumdövlət, sahələrarası və sosial təyinatlı fundamental və tətbiqi tədqiqatların) maliyyələşdirilməsi;

- uzunmüddətli perspektivə elm və texnikanın inkişaf proqnozlarının işlənib hazırlanması, eləcə də innovasiya proseslərinin orta müddətli inkişaf meyillərininqiymətləndirilməsi;

- dövlət innovasiya infrastrukturunun(yeniliyin yayılması mərkəzləri, məsləhət mərkəzləri, innovasiya birjaları, elmi-texniki kitabxana, informasiya şəbəkələri və s.) formalaşdırılması;

- sənaye mülkiyyətinə hüquqların müdafiəsi, eləcə də elmi-texniki fəaliyyətnəticələrinin verilməsinə hüquqların təmin olunması;

- innovasiya təkliyinin rəqabətəqədərki fazasında inhisara qarşı tədbirlərin görülməsinin məhdudlaşdırılması;

-iqtisadiyyatın özəl sahibkarlıq sektoru üçün innovasiya menecmenti sferasında kadrların hazırlanması;

- ETTKİ nəticələrinin istehsala tətbiqinə yardım göstərmək.

Dövlətin innovasiya proseslərinə birbaşa iqtisadi təsir sistemində elmi- tədqiqatlar sahəsində son məqsədi sənaye korporasiyalarının kooperasiyasını stimullaşdırmaq olan alətlər, eləcə də innovasiya universitetlərinin real sektor, hər şeydən əvvəl isə, sənaye subyektləri ilə qarşılıqlı təsiri üstün əhəmiyyət kəsb edir. İnnovasiyanın birbaşa stimullaşdırılması aləti kimi, məsələn, Kanadada kommersiya banklarında kreditlərin alınması zamanı dövlət zəmanətləri və ya innovasiya prosesinin birbaşa dövlət maliyyələşdirilməsi istifadə olunur. Yaponiyada innovasiyanın birbaşa stimullaşdırılması aləti kimi dövlət-özəl partnyorluğu prinsipləri əsasında özəl-firmalarla birgə innovasiyanın yaradılmasını və mənimsənilməsini həyata keçirən dövlət sahəvi elmi-tədqiqat institutlarının, dövlət korporasiyalarının və mərkəzlərin büdcə subsidiyalaşdırılması və güzəştli kreditlərşdirilməsi tətbiq olunur [7].

İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin dolayı metodları arasında aşağıdakıları ayırmaq olar:

-vergi güzəştləri;

- sürətli amortizasiya siyasəti;

- güzəştli kreditləşmə;

- maliyyə lizinqinə dövlət köməyi;

- françayzinqin stimullaşdırılması tədbirləri və s.

Kiçik və orta sahibkarlığın güzəştli kreditləşdirilməsi, sahibkarların fəaliyyətinə aidiyyatı olmadan müdaxilələrin qarşısının alınması, eləcə də özəl sektorda inkişafa təsir edən problemlərin həlli istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycan Prezidenti hələ 1 fevral 2004-cü il tarixdə Bakı Biznes Mərkəzində yerli sahibkarlarlakeçirdiyi görüşdə bu sahədə mövcud problemlərin həlli ilə bağlı konkret tapşırıqlar vermiş, sonrakı mərhələdə bu məqsədlə imzaladığı bütün fərman və sərəncamların icrasını daim diqqət mərkəzində saxlamışdır. Həmin görüşdən az sonra, 11 fevral 2004-cü ildə

№ 3/2023 səh.39-44

imzalanaraq qüvvəyə minmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrası isə regionların tarazlığı, davamlı inkişafına, onların potensialının bir-birinə kömək mexanizmi üzərində qurulmasına, qeyri-neft sektorunun möhkəmlənməsinə, infrastrukturun yeniləşməsinə müsbət təsir etməklə yanaşı, bölgələrdə özəl sektorun və sahibkarlığın inkişafını sürətləndirmişdir.

## Nəticə

Biznesin dövlət tərəfindən tənzimlənməsinin iqtisadiyyata təsir etməsinin maksimal və minimal hədləri var. Müdaxilənin minimal həddi o deməkdir ki, dövlətin iqtisadiyyatı tənzimləməyə aid həyata keçirdiyi 3 funksiya başa düşülür. Bunlar aşağıdakılardır: əhalini onun tələbinə uyğun ictimai məhsullarla təmin etmək; eləcə də, iqtisadiyyatı lazımi olan miqdarda pul ilə təmin etmək və xarici effektləri tənzimləmək.

Dövlətin iqtisadiyyata maksimal həddi, öncə, onun həyata keçirdiyi iqtisadi siyasətin strukturunda özünü büruzə verir. Bu həddə makroiqtisadi siyasət, həmçinin pul-kredit siyasəti ilə büdcə-vergi , investisiya siyasəti, digər başqa sənədləri aid etmək olar.. İqtisadi siyasətin sadalanan istiqamətləri dövlətin iqtisadiyyata maksimal dərəcədə təsirini əks etdirməklə bərabər xüsusi iqtisadi tənzimləmə mexanizmləri, eləcə də vasitələri və metodlarını birləşdirir.

Dövlət tənzimlənməsinin başlıca funksiyaları ümumi halda istiqamətləndirici və koordinasiyaedici, stimullaşdırıcı ilə nəzarətedici, sosial funksiyalar kimi təsnifləşdirilə bilər. Onlardan ən mühümlərini aşağıdakı ardıcıllıqla qeyd etmək olar: qanunvericiliyin formalaşdırılması kimi; milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunması, eləcə də xarici təhlükələrdən müdafiə ilə makro-iqtisadi sabitliyin təmin edilməsində inflyasiyaya yol verməmək, Valyutanın daim sabitliyini təmin etmək; institusional islahatların aparılmasını və digərlərini vurğulamaq olar.

İnvestisiyanın inkişafının tənzimlənməsi hadisəsində xüsusi rol dövlətə aiddir. Təsərrüfat subyektlərinin investisiya fəaliyyəti daim dövlətin nəzarətində olan obyektidir. Bu ilk olaraq investisiyanın özünün mahiyyətində aydın olur. Beləliklə, investisiya fəaliyyəti iqtisadiyyatın əsasən dinamik və rəqabət qabiliyyətli inkişafının mənbəyidir, cəmiyyətin inkişafının daha yüksək sosial səviyyəsinin təmin edilməsi amilidir, dövlətin iqtisadi və ən əsası ərzaq təhlükəsizliyinin əsasıdır.

Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatına keçməsilə iqtisadiyyatda bir sıra dəyişikliklərin baş verməsinə, eləcə də dövlətin iqtisadiyyata müdaxiləsinin yeni prinsip və itsiqamətlərinin yaranmasına gətirib çıxarmışdır. Hal- hazırda dövlətin iqtisadiyyata müdaxiləsinin, eyni zamanda biznesə müdaxiləsinin səmərəliliyinin artırılması üçün müxtəlif metodlar, prinsiplər, funksiyalar müəyyən etməklə daim bu məsələni gündəmdə saxlayaraq mühüm işlər görülür.

**Tədqiqatın elmi yeniliyi:** Biznesin Dövlətin biznesi tənzimlənməsi zamanı istifadə olunan konsepsiyaları eləcə də, metodları müəyyən edilmiş, biznesin hüquqi tənzimlənməsi təhlilləri aparılmış, qiymət siyasətindəki dövlətin istifadə etdiyi istiqamətlər və metodları təhlil edilmiş, Azərbaycanda investisiya resursları bazarının tənzimlənməsində investisiya siyasətinin təsiri qiymətləndirilmiş, investisiya potensialından istifadənin müasir vəziyyəti və ölkənin iqtisadi inkişaf müstəvisində investisiya fəallığının təsiri təhlil edilmiş, büdcə -vergi siyasətində biznesin inkişaf yolları araşdırılmışdır.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Dövlətin iqtisadiyyatın tənzimlənməsində, biznesin inkişaf etdirilməsində investisiya və büdcə- vergi siyasətlərinin rolunun və iqtisadiyyatda səmərəliliyinin artırılması üçün bir elmi mənbə kimi istifadə edilməsidir. Dövlətin iqtisadiyyata aid olan qanunlarını daha da təkmilləşdirərək, səmərəliyə nail olunması üçün elmi əsası olan təkliflərin verilməsi olduqca əhəmiyyətlidir.

## ƏDƏBİYYAT

1. Abdullayeva Ş.H. İnnovasiya yönümlü iqtisadi inkişafın nəzəri və metodoloji məsələləri. Az.ETKTİ və Tİ, Elmi Əsərləri. № 2, 2012. səh.184-189

2. Qasımov F.H., Nəcəfov Z. M. Innovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, "Elm", 2009, 416 s.

3. Əliyev F.B.İnvestisiya layihələrinin təhlili və dəyərləndirilməsi. Bakı, "Azər"nəşriyyatı, 2003 s.
4. Hüseynov T.H. Azərbaycanda bazar sisteminin iqtisadi problemləri (Monoqrafıya). Bakı, Elm, 2004, 228 səh.
5. İqtisadi nəzəriyyə. Dərslik. T.S.Vəliyevin, Ə.R.Babayevin, M.X.Meybullayevin ümumi elmi redaktəsi ilə. Bakı, 2001, 684 s.
6. Kazımlı X.H. Qiymətləndirmənin əsasları. Dərslik, Bakı: «İqtisadUniversiteti», 2008, 430 s.
7. Kəlbiyev Y.A."Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri" (Monoqrafiya). Bakı, "Elm", 2005, 468 s.

**УДК 338.34**

**В регулировании бизнеса в условиях рыночных отношений повышение экономической эффективности**

**[1]Э. Дж.Зейналлы, [2]Е.Е.Рзаев, [3]С. С.Мустафаев**

**Резюме.**Переход экономики Азербайджана к рыночной экономике привел к ряду изменений в экономике, а также вмешательство государства в экономику привело к появлению новых принципов и направлений. В настоящее время, если мы будем постоянно держать этот вопрос в повестке дня, определяя различные методы, принципы и функции для повышения эффективности государственного вмешательства в экономику, в то же время будет проделана важная работа.

**Ключевые слова:** регулирование бизнеса, экономическая эффективность, инвестиционный процесс, инновационный процесс

**UDC 338.34**

**IN the regulation of business in the conditions of market relations increase in economic efficiency**

**[1]E. J.Zeynalli, [2]E. E.Rzayev, S. S.MustafayeV**

**Summary.**The transition of Azerbaijan's economy to a market economy has led to a number of changes in the economy, as well as state intervention in the economy has led to the emergence of new principles and directions. At present, if we constantly keep this issue on the agenda, defining various methods, principles and functions to increase the effectiveness of state intervention in the economy, at the same time, important work will be done.

**Keywords:** business regulation, economic efficiency, investment process, innovation process

Redaksiyaya daxilolma: 11.10.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.45-51

UOT 330.36
DOI:10.30546/JIECM.2023.3.45.

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNİN MAHİYYƏTİ

[1]Sevda Tofiq qızı Hacıyeva, [2]Vüsalə Faiq qızı Cənnətova

Azərbaycan Texnologiya Universiteti

vusale.c@gmail.com

***Xüsalə.****İnsan resurslarının idarə edilməsi amili bütün təşkilatlarda olduğu kimi kütləvi informasiya vasitələrində də ən yüksək vəzifəli, səlahiyyətli şəxsdən ən aşağı vəzifəli şəxsə qədər bütün işçiləri əhatə edən strateji mühüm funksiyadır. Heç şübhəsiz məqsədlər, planlaşdırma, nəzarət, strateqiya, fəaliyyət, uğurlu nəticə qədər insan, onun potensialı, ideyaları, gücü, fəaliyyəti də təşkilatın özəyini təşkil edir. İnsan resurslarının beynəlxalq təcrübəyə əsaslanan, doğru, səmərəli idarəsi bu baxımdan mühümdür. İnsan resurslarının idarə olunması peşəkarlıq, bilik və bacarıq, istedad, idarəçilik qabiliyyəti, analiz, doğru proqnozlaşdırma, təşəbbüs, qərar qəbuletmə, emosiya və hisslərin vaxtında, lazımınca idarə olunması ilə insan potensialından düzgün istifadə bacarıqlarını tələb edir. Bu funksiya təkcə müəssisədə işləyən, fəaliyyət göstərən işçilərin iş gücünü deyil, həm də müəssisə üçün fayda təşkil edəcək kənar şəxslərin də potensialını, faydasını, səmərəsini, töhfəsini nəzərdə tutur.*

***Açar sözlər:*** *KİV, kütləvi informasiya vasitələri, media, insan resursları, idarəetmə, ideya, yenilik, mahiyyət, fəaliyyət, peşəkarlıq, beynəlxalq təcrübə.*

**Giriş.**Ulu Öndər Heydər Əliyevin dediyi kimi, kütləvi informasiya vasitələri zəngin və şərəfli tarixi boyu həmişə böyük ictimai ideallarn carçısı olub, xalqımızın müstəqillik amalının güclənməsində, mənəvi tərəqqisində, yüksək əxlaqi dəyərlərinin qorunub saxlanılmasında və daha da inkişaf etdirilməsində, dövlətimizin tərəqqisində müstəsna xidmətlər göstərib. Azərbaycan müstəqillik qazanandan sonra medianın üzərinə bu yüksək amalların təbliğatı baxımından daha böyük iş düşüb. Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində Azərbaycan mətbuatı, ölkə mediası mühüm rol oynayıb. 1992-ci ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu yeni mətbu orqanların, KİV-lərin yaranmasına rəvac verib. Zamanın və dünyada informasiya cəmiyyətinin tələbi ilə ölkəmizdə də KİV-lərin sayı günü-gündən artıb və bu proses indi də davam etməkdədir. Platformaların fərqli və ya ənənəvi olmasından asılı olmayaraq media qurumlarının artımı, qeyd olunan məqamlar da KİV-lərdə insan resurslarının yaradılması və onların səmərəli idarəedilməsini vacib edib. . Odur ki, kütləvi informasiya vasitələrində insan resurslarının idarə olunmasının mahiyyəti böyükdür və zamanın tələbidir. [1]

**Mövzunun aktuallığı.** Bütün təşkilatlarda, o cümlədən media qurumlarında insan resurslarının səmərəli idarə edilməsi onların qarşısında qoyulan tələblərin lazımınca yerinə yetirilməsinə, göstərilən etimadın doğruldulmasına, onlara çəkilən xərclərin öz töhfəsini verməsinə, məhsuldarlığın, iş keyfiyyətinin, işçi və oxucu, dinləyici, tamaşaçı məmnuniyyətinin artmasına, motivasiyanın və daha yaxşı çalışmaq arzusunun təşviq edilməsinə, o cümlədən, iş stresinin, münaqişələrin aradan qalxmasına səbəb olur. Müəssisədə insan resurslarını idarə edən şəxslər peşəkarlardırsa, , qabiliyyəti, potensialı aşağı, iş gücü zəif olan resurslarla kifayətlənməyəcəklər, tam əksinə, onları inkişaf etdirməyə çalışacaq, eyni zamanda kənardan təşəbbüskar, yenilikçi, müasir, səmərəli ideyalarla zəngin olan namizədlərə də şans verəcəklər. Heç şübhəsiz müəssisə nə qədər standartlara cavab verən olsa da, dünyanın qabaqcıl media qurumlarının müasir dizayn və üslub, zamanın tələbləri səviyyəsində yanaşma təcrübəsini, yüksək texnologiya və avadanlıqlar baxımından zəngin bazasını örnək alsa da, insan resurslarının gücü və potensialı yetərincə deyilsə, işində keyfiyyət və inkişafa nail ola

bilməyəcək. Yəni maddi qaynaqlar nə qədər sağlam olsa da, insan resursları lazımi qabiliyyətlərə, məziyyətlərə malik deyilsə, uğur qazanmaq ehtimalı da şübhəsiz aşağı olacaq.

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi müasir dövrdə media qurumlarının bolluğu şəraitində onlarda insan resursları kimi vacib və strateji gücün idarəedilməsinin mahiyyətini üzə çıxarmaq, işçi qüvvəsinin idarə edilməsi ilə insan resurslarınm idarə edilməsi arasındakı fərqli cəhətləri təhlil etmək, insan resurslarının idarə edilməsində sistem anlayışının, iş analizinin vacibliyinə diqqət çəkmək, insan resurslarının idarə edilməsinin əsas funksiyalarını, xüsusiyyətlərini araşdırmaq və qiymətləndirilməsini beynəlxalq təcrübə əsasında müqayisəli təhlil etməkdən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Media qurumları qloballaşmanın mövcud olduğu bir zamanda heç şübhəsiz öz rəqabət gücünü artırmaq məcburiyyətindədir. Bunun üçün keyfiyyətli iş, inam, etibar, nüfuz qazanmaq, obyektivlik, operativlik, çeviklik, doğruluq, tərəfsizlik, peşəkarlıq vacib məqamlardır. Rəqabət gücü xəbər, informasiya, proqram və verilişlərin istehsal səviyyəsini və keyfiyyəti artırmaq, xərcləri azaltmaqla mümkün olur. Bunları reallığa çevirmək insan resurslarına bağlıdır. Əmək fəaliyyətinin, insanların və ya ətraf mühitin idarə edilməsindən asılı olmayaraq, idarəetmə sağlam düşüncə və sağlam yanaşma, əqli qabiliyyət tələb edir. Müəssisənin uğurlu idarə edilməsi insan resurslarınm idarə edilməsi, onların işindən maksimum yüksək nəticələr əldə edilməsi deməkdir. İnsan resurslarının idarə olunmasının mahiyyətinə varmaq, məqsədinə nail olmaq üçün bir sıra əsas vəzifələr mövcuddur. Bu vəzifələri rəhbər tutaraq səmərəli yanaşmaya, müsbət nəticəyə nail olmaq olar.

İnsan resurslarının idarə olunması məqsədinə nail olmaq üçün əsas vəzifələr bunlardır:

* Yeni və təcrübəsiz kadrların bacarıq və biliklərinin artırılması

* Adaptasiya prosesinin düzgün qurulması, gələn yeni əməkdaşın sıxışdırılması əvəzinə komanda quruculuğu işlərinə adaptasiya;

* Yeni ideya və təşəbbüslərə imkan yaratmaq;

* Yüksək hazırlıqlı mütəxəssislərin işə cəlbi, ən yaxşı namizədlərin seçimi;

* Mütəxəssislərin dogru vəzifələrə yerləşdirilməsi, onların potensiallarından, qabiliyyət və təcrübələrindən düzgün istifadə edilməsi;

* Qiymətləndirmənin obyektiv, konstruktiv şəkildə aparılması, işçini ruhdan salmaq əvəzinə motivasiya edərək inkişafına nail olmaq, işdəki nöqsanlarını aradan qaldırması üçün stimul vermək;

*Motivasiyanı, həvəsləndirməni, təşviq etməni yalnız maddiyatda, mükafatda görməmək. Səmərəli, lüzumlu motivasiya mexanizmi hazırlamaq. Əməkdaşların fərdi motivasiya strukturunu təhlil edərək hərənin özünə uyğun motivasiya mexanizminin qurulmasında iştirak etmək;

* Kollektivi komandaya çevirmək, korporativ ruhu yaradıb inkişaf etdirmək. Komanda qurmaq bacarığı, buna görə də, insan resurslarını idarə edən şəxsə hava, su qədər vacibdir. Əks təqdirdə o, təşkilatda ancaq öz komandasını və özünün olmayan komandaları görəcək. İkitirəlik yaranacaq. Işə biganəlik əmələ gələcək. Şəxsi maraqlar ortaya çıxacaq və dominantlıq edəcək. Bu zaman isə nəinki komandadan, heç kollektivdən də bəhs etmək mümkün olmayacaq. Uğurlu nəticədən isə danışmağa belə dəyməz.

*Əməkdaşların müntəzəm hazırlıq keçməsini təmin etmək. Əməkdaşı təlimlərə, kurslara sadəcə olmalıdır deyə deyil, ehtiyacların təhlilinə əsasən göndərmək və gəldiyində ondan müvafiq hesabat-məruzəni təqdim etməsini, biliklərini ötürməsini tələb etmək mexanizminin qurulması;

* Xarici və yerli təlim və tədris kurslarına əsaslı motivasiya və inkişaf alətləri kimi baxmaq. Xüsusən də xarici ölkələrdəki kurslara, təlimlərə "layiq görüləni" yox, inkişafa ehtiyacı olanı, getdiyi kursdan öyrənmək qabiliyyəti və o bilikləri gəlib digər əməkdaşlara ötürmək və işində tətbiq etmək qabiliyyəti olanları göndərmək;

* Loyallığı təbliğ etmək və özünün şəxsi nümunəsində onu nümayiş etdirmək. Rəhbərliyin qərarlarını, siyasi prosesləri və müəssisə daxili məsələləri, əməkdaşların şəxsi və özəl həyatlarını,

№ 3/2023 səh.45-51

problem və planlarını müzakirə mövzusuna çevirməyə yol verməmək və s. Təbii ki, siyahını uzatmaq da olar [2]

İnsan resurslarının idarə olunması funksiyaları da əhəmiyyətlidir. Əsas funksiya əvvəllər ədəbiyyatlarda "heyətin idarə olunması" adlandırılırdı və texniki, yardımçı xarakter daşıyırdı. Yəni, müəssisənin əsas işlərini görənlərin iş yükünü azaltmaq məqsədi ilə formalaşdırılırdı. Heyəti idarə etmək funksiyası müəssisə üçün aşağı səviyyədə işləyəcək şəxslərin işə qəbulu, seçilib yerləşdirilməsi, əməyin qiymətləndirilməsi və işçinin məvacibinin müəyyənləşdirilməsi kimi o qədər də qəliz olmayan, texniki və mexaniki işlərin görülməsini ehtiva edirdi. Bu funksiyanı yerinə yetirənlər müəssisənin strateji qərarlarının idarə olunması prosesində iştirak etməyiblər, strateji idarəetmə, planlaşdırma, eləcə də proqnozlaşdırma kimi funksiyaların onların işinə heç bir dəxli olmayıb. Müasir dövrdə isə vəziyyət və tələblər tam fərqlidir. İşçilərlə, insan resursları ilə işləyən şəxslərin fəaliyyətinin statusu və metodları, eləcə də əhatə dairəsi əsaslı şəkildə dəyişib. Hazırda bu funksiya bir media qurumunun ən strateji funksiyalarından biridir və strukturu əhəmiyyətli dərəcədə genişlənib, təkmil formaya düşüb. Bu gün "heyətin, kadrların idarə olunması" funksiyaları öz yerini "İnsan Resurslarının İdarə olunması" funksiyasına verib ki, bu funksiyalar mühüm rola, gücə, əhəmiyyətə malikdir. İnsan resurslarının idarəedilməsinin funksiyalarını əsas, yəni rəhbər tutmaq müəssisənin əsas güclərindən birini, insan resurslarını doğru idarə etmək, komanda ruhu yaratmaq, uğurlu menecerlik, əsl liderlik bacarığını nümayiş etdirmək deməkdir [3].

İnsan resurslarının idarə edilməsi funksiyaları aşağıdakılardır:

1 .İş analizləri;
2. İnsan resurslarının planlaşdırılması;
3. İnsan resurslarının seçilməsi və yerləşdirilməsi;
4. İnsan resurslarının təhsili və ixtisaslaşdırılması;
5 .Oriyentasiya;
6. Xidməti fəaliyyətin qiymətləndirilməsi;
7. Əməyin ödənilməsi;
8. Əməyin motivləşdirilməsi və stimullaşdırma;
9. Əməyin mühafizəsi;
10. Davranış məcəlləsi.

Yaşadığımız zaman sürətli dəyişikliklər dövrüdür. Sözü gedən amil, yəni dəyişikliklərə meyil və tələb, demək olar ki, həyatımızın hər sahəsini əhatə edir. Zamanla insanların həyat və düşüncə tərzi, iş üslubu və peşəkarlıq anlayışı, həyata baxışı, bir növ təbiəti də dəyişir. Bu gün bol informasiyalı və sürətli inkişaf tələb edən bir dövrdəyik. İnsanların gözləntiləri, məqsəd və hədəfləri, təfəkkür tərzi, yanaşması, tələbatı, bilik və bacarıq qabiliyyətləri, təlimə olan tələbatları da fərqli şəkil alır. Belə olan halda, heyəti, insan resurslarını doğru idarətmə üçün strateji qabiliyyətlər, düzgün motivasiya, həvəsləndirmə, doğru və günün tələblərinə uyğun yanaşma labüddür. Axı, indiki işçi dünyaya açıq bir insandır. Beynəlxalq təcrübənin nə olduğunu bilir. Müdir anlayışı ilə yanaşı, lider anlayışı ilə tanışdır. Yalnız maaş, onun məbləği ilə deyil, düzgün yanaşma, insana dəyər, insan əməyinə qiymət, motivasiya, təşəbbüslərlə, yeni ideyalarla xəyalları reallaşdırmaq, irəliləmək bacarığının nə olduğundan xəbərdardır. Dünya təcrübəsinə nəzər salsaq, görərik ki, artıq bir çox şirkət rəqabətdə geri düşməmək üçün, insanı idarə edilməli olan bir resursdan çox, investisiya qoyulması lazım olan bir sərmayə olaraq görməyə başlayıb ki, bu düşüncə tərzi insan resursları idarəsinin departamentin, şirkətlərin ən əsas şöbələrindən biri halına gəldiyinin ən yaxşı göstəricisidir. Xüsusən bu sahədə insan resurslarının əsas funksiyaları olan müasir standartlara uyğun işçilərin seçilməsi üçün hazırlanan, peşə-ixtisas və yüksək səviyyəli menecerlər üçün tətbiq olunan müxtəlif testlər, peşələr üzrə karyera və motivasiya, əməyin analitik üsullarla qiymətləndirilməsi sistemlərinin qurulması və onların baza tarif sistemi ilə əlaqələdirilməsi, həmçinin vahid elektron mərkəzdən idarə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz insan resursları ilə bağlı layihələrin həyata keçirilməsində vacib rolu insan faktoru, insan amili oynayır. İşçi qüvvəsinin idarə edilməsi ilə yanaşı, tərəqqiyə nail olan bütün nəzəriyyələrin təməlini işçilərlə iş təşkil edir. İşçilərin tapılması, təhsili, əməkhaqqı sistemlərinin təşkili və əmək

şəraitinin yaxşılaşdırılması kimi işçi qüvvəsi və iş ilə əlaqədar olan bütün fəaliyyətlər əsas götürülür. İşçi qüvvəsinin idarə edilməsi fəaliyyəti idarəçilik ilə paralel təzahür etmir. Buna görə də, işçilərlə rəhbərlik arasında əlaqə yaradıcı rolunu həyata keçirir. İnsan resurslarının idarə edilməsi rəhbərliyin ehtiyac duyduğu insan resurslarını təmin etmək istiqamətində fəaliyyətlərin həyata keçirilməsinə əsaslanır. İnsan gücünə, işinə, potensialına, ideyasına olan tələbat mühüm amillər olaraq götürülür. Planlaşdırma və nəzarət fəaliyyətləri bu məqamda daha çox əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, planlaşdırma və nəzarət idarəetmə kimi vacib mexanizmin ayrılmaz əkizləridir. İnsan potensialının idarə edilməsinin mahiyyəti ondan ibarətdir ki, insanlar rəqabət obyekti olaraq məqsədə çatmaq naminə digər resurslarla bərabər səmərəli yerləşdirilməli, inkişaf etdirilməli, o cümlədən motivləşdirilməlidir. Müəssisə heyətinin formalaşdırılmasında mühüm məqamlardan biri də onun tələb olunan səviyyəyə, yəni hər bir işçinin maraqları ilə müəssisə tələbatının uyğunluq səviyyəsinin adekvatlığının təminidir. Bunun üçün işçilərin və iş yerlərinin attestasiyasının həyata keçirilməsi labüddür. Peşə, funksiya və sosial struktur baxımından insan resurslarının kateqoriyalar üzrə daxili əmək bazarında təhlili aparılır. Bu arada, insan resurslarının idarə edilməsinə təsir edən ətraf mühit amilləri əsasən rəqabət, dövlət, hüquqi normalar, sosial mühit, iqtisadi mühit və sairdir. Düzgün idarəetmə bu amilləri və onların təsirlərini də nəzərə almalıdır [4].

Azərbaycan və xarici ölkələrin media qurumlarının təcrübəsinin ümumiləşdirilməsi KİV-də insan potensialının idarə edilməsinin qlobal məqsədinin formalaşdırılmasına, yəni mövcud əmək potensialının daha səmərəli formalaşması, inkişafı və reallığa çevrilməsinə imkan verir. KİV-də hər bir əmək qabiliyyətli adamın iş fəaliyyətinin yaxşılaşması, öz əmək potensialını inkişaf etdirməsi və ondan optimal qaydada istifadə etmək imkanının artması bütünlükdə medianın inkişafına töhfə verər. Bu fəaliyyətlər həm bir-birinə təsir edir, həm də ətraf mühit amillərinin təsiri altında çalışmalarını davam etdirirlər. Hər bir sistemin alt sistemləri olduğu kimi insan resursları fəaliyyətlərinin də alt sistemləri var və bu sistem halında yanaşma kütləvi informasiya vasitələrində insan resurslanın məqsədlərinin, funksiyalarının, metodlarının tam vəhdət halında qarşılıqlı olaraq əlaqələndirilməsini ehtiva edir. Kompleks, sistem halında yanaşmanı yalnız metod deyil, prinsip də adlandırmaq yerinə düşərdi. Çünki idarəetmə prosesində idarəetmə obyektinin vəhdət halında öyrənilməsi bütün vacib məqamların, əhəmiyyət daşıyan amillərin, idarəetmənin xırdalıqlarının nəzərə alınmasını tələb edir. Bu isə o deməkdir ki, media qurumunun başında duranlar, konkret desək idarəetmə prosesini idarə edənlər hər hansı bir vəziyyəti yalnız bütün prosesləri əlaqəli şəkildə öyrəndiyi tərzdə düzgün qiymətləndirə və optimal qərar qəbul edə bilərlər. Bu, hər hansı qərarın qəbul edilməsində birtərəfli yanaşma meyillərinin aradan qaldırılması naminə birinci təminatdır. İnsan resursları fəaliyyətləri də müəyyən limitləri mövcud olan açıq sistemdir. Şübhəsiz, alt sistemlər də bir-birinə qarşılıqlı təsirə malikdir. Nümunə olaraq qeyd edək ki, seçmə alt sistemi inkişaf və qiymətləndirmə alt sistemlərinə təsir etməkdədir. Sistem halında yanaşılma isə işçi heyəti ilə aparılan işin müəssisədə yerinə yetirilən işlərin planlaşdırılması, təşkili və stimullaşdırılmasının kompleks şəkildə, idarəetmənin ayrı-ayrı aspektləri və son məqsədə çatmağın üsul və yolu üzrə kompleks tədbirlər sisteminin aparılmasını ehtiva edir. Daha öncə də qeyd etdiyimiz kimi, insan resurslarının idarə edilməsi sisteminin başlıca ünsürü - kadrlardan ibarətdir. Belə demək mümkündür ki, kadrlar eyni vaxtda idarəetmənin həm obyekti və həm də subyekti kimi çıxış edir. Müəssisənin işçiləri media fəaliyyəti prosesinin mühüm hissəsini təşkil etdikləri üçün idarəetmənin obyekti sayıla bilirlər. Buna görə də, insan resurslarının planlaşdırılması, təşəkkül tapması, yenidən bölünməsi və səmərəli istifadəsi mühüm və hətta strateji sayılan media fəaliyyətində işçi heyətinin idarə edilməsinin əsas məzmununu təşkil edir və bu nöqteyi-nəzərdən ona işin idarə edilməsinin analogiyası kimi nəzər yetirilir. İşçi heyəti hər şeydən öncə insanlardan ibarət olduğu üçün, onların mürəkkəb fərdi keyfiyyətlərinin kompleksini özündə cəmləşdirdiyini nəzərə alsaq, burada sosial-psixoloji amillər mühüm və qabaqcıl rola malikdir. Şəxsin media müəssisəsi və cəmiyyətə, media müəssisəsinin cəmiyyətə təsirləri sistem daxilində dəyər qazanır. Deyilənlərdən görünən odur ki, kütləvi informasiya vasitələrində insan resurslarının idarəedilməsinə məsul departamentin fəaliyyət və öhdəlikləri böyükdür. Bu departament əməkdaşları müəssisənin rəhbərliyinin və işçilərinin etibarını qazanmalıdır. Strateji bacarıqlar, insan resursları üzrə

strategiyanın müəyyən olunması və yerinə yetirilməsi, strategiyanın inkişafına xidmət, müəssisə dəyərlərinin, mədəniyyətini anlamaq, müəssisə fəaliyyəti üçün əsas uğur amilinin başa düşülməsi, iş mühitindən və xarici rəqabətdən xəbərdar olmaq, peşəkar səriştə, bacarıq, texniki qabiliyyətlərin olması kimi məziyyətlərə sahib olmalıdır. İnsanları idarəetmə və ünsiyyət qabiliyyətləri, peşəkar etibar yaratmaq, bilik, bacarıq və qabiliyyətlərin fasiləsiz inkişaf etdirilməsi, yeniliklərdən, eləcə də informasiya-kommunikasiya texnologiyaları biliklərindən hali olmaq, nüfuz, qərar vermə, böhran vəziyyətindən çıxma, problem həlletmə də vacib məqamlardır [6].

Ədəbiyyatlarda insan resurslarının idarə olunması kadrlarla aparılan işlərdə istifadə olunan bütün vasitələr kompleksi kimi verilir. Bütün bunlar isə, öz növbəsində, müəssisələri idarə edənlərin bir-biri ilə qarşılıqlı əlaqədə olan təşkilati-iqtisadi və sosial tədbirlər vasitəsi ilə fəal təsir göstərmələrinə xidmət edir. Məqsəd işçinin yaradıcılıq fəallığının yüksəldilməsinə, perspektivli kadr potensialının hazırlanmasına nail olunmasıdır. Tədqiqatçılar Qennadyeviç Yuri Odeqov və Pavel Vitalyeviç Juravlyovun fikrincə, insanlar şirkətlərin rəqabət sərvətləri hesab olunurlar, onların inkişaf etdirilməsi, motivləşdirilməsi, digər resurslarla bərabər istifadə olunması tələb olunur. Əsas məqsəd digər resurslarla yanaşı, insan resurslarından istifadə edərək strateji məqsədlərə nail olunmasıdır. Evqeni Valentinoviç Maslov personalın idarə olunması anlayışının məzmununa insana məqsədyönlü təsir göstərilməsini də daxil edir. Belə ki, insan əmək qabiliyyəti daşıyıcısı sayılır, onun, işinin, fəaliyyətinin başlıca məqsədi mütləq nəticələrə nail olmaqdır, eyni zamanda, müəssisələrdə həyata keçirilən texniki tərəqqinin humanistləşdirilməsidir. Tədqiqatçılar
A. Fliaster, eləcə də R. Marr insan resurslarının idarə olunması dedikdə, onun mühüm elementləri olaraq məhz personala olan tələbatın müəyyənləşdirilməsini, işçilərin cəlb olunmasını və onların fəaliyyətlərinin təşkil edilməsini, işdən azad edilmə, eləcə də onların inkişafının təmin edilməsini, personal üzərində nəzarətin aparılmasını, işlərin strukturlaşdırılmasını, mükafatlandırma siyasətinin həyata keçirilməsini, sosial xidmətlər və mənfəətlərdə iştirakın təşkilini, personala sərf edilən məsrəflərin idarə olunmasını, həmçinin digər heç də mühümlük dərəcəsinə görə geridə qalmayan istiqamətlərin idarə edilməsini başa düşürdülər[7].

Beynəlxalq təcrübə göstərir ki, işçi media qurumuna daxil olarkən onun işinin ən əsas üstünlüklərindən biri ağıllı və istedadlı insanlarla çalışmaq imkanının olmasıdır. İstedada, yenilikçiliyə diqqət, "ideya qazansın" yanaşması, informasiya-kommunikasiya bacarıqlarından istifadə qabiliyyəti, öyrənmə və öyrətmə bacarıqları, liderlik, məsuliyyət və mənimsəmə hissi, intellektual təvazökarlıq hissi, bütün bunlar işçini motivasiya edir. İşçinin işindən aldığı məmnuniyyət hissi, sağlam işçi və rəhbərlik münasibəti, əməkdaşın işində irəliləmək arzusu, bunun üçün münbit şərait, sağlam iş şəraiti, iş yoldaşları ilə uyğunlaşma, işçiyə işinin nədən ibarət olduğunun açıq və aydın şəkildə izah olunması, bacarıqlarından maksimum dərəcədə istifadə və bunun qiymətləndirilməsi, vəzifə bölgüsü və qaydaları tətbiq edərkən ədalətli, insaflı olunması da uğurlu insan resursları strategiyasının təməlini təşkil edir. Günümüzdə bu amilləri nəzərə alan media orqanları az deyil. Onların da uğurlu fəaliyyəti göz önündədir. Digər qurumların da işini dünya təcrübəsinə əsaslanaraq qurması onların inkişafına təkan verər. İş insanın cövhəridirsə, insan da işin aparıcı qüvvəsidir. İnsanla, insan resursları ilə işin əhəmiyyəti isə bu baxımdan danılmazdır.

## Nəticə

Tədqiqatımız göstərdi ki, klassik kadrların idarəedilməsi sisteminin müasirləşdirilməsi, həmçinin yeni idarəetmə modellərinin tətbiqi, media qurumlarında, müəssisələrində intellektual, mədəni, yaradıcı potensialın fasiləsiz inkişafı xüsusi əhəmiyyət kəsb edir. Personalın inkişaf etdirilməsinin səmərəli idarə olunması istənilən müəssisənin gələcək uğurlarının əsas amilidir. İnsan resurslarının düzgün idarə olunması işçinin gizli potensial imkanlarının müəyyən edilərək, aşkara çıxarılmasına, reallaşdırılmasına və müsbət nəticələrin əldə olunmasına xidmət edən üsulların məcmusu, toplusudur. Bu prosesin məqsədi kadrların, personalın keyfiyyət xüsusiyyətlərinin, həmçinin müəssisələrin mədəni, sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinə nail olunmasıdır. Müasir dövrdə cəmiyyətlərin özünün transformasiya prosesi zamanı qlobal informasiya axınının təminatında media

vasitələri, onların informasiya siyasəti böyük rol oynayır. Tərəqqipərvər ideyaların hərəkətverici qüvvəsi kimi informasiya bütün sərhədləri aradan qaldırır. İnformasiya texnologiyaları vasitəsilə inkişafa xidmət edən ideya istənilən həddi maneəsiz aşaraq qlobal miqyasda tərəqqini daha sürətli hala gətirir. Elə bu məqam bir daha təsdiq edir ki, qloballaşma prosesinin geniş vüsət almasında, onun daha sürətlə həyata keçməsində əsas vasitələrdən biri məhz mediadır. Medianın hərəkətverici qüvvəsi isə insan və insan resurslarıdır, daha doğrusu bu resursların düzgün idarə edilməsidir. İnsan resurslarının idarəedilməsində işçilərin peşəkarlıq səviyyəsinin, işə yaxşı, verimli münasibətinin yüksəldilməsi tələbi qarşıya yeni hədəflər çıxarır, xüsusən də çox geniş əhatə dairəsi olan informasiya bazası və axınlarından yararlanma vacib məsələyə çevrilir. Dünya təcrübəsindən, tədqiqatçıların mayak rolunu oynayan araşdırmalarından, mövcud qaydalardan və onların təkmilləşmiş formalarından istifadə etmək, bununla yanaşı, yenilikçi olmaq, yeni ideyalara da rəvac vermək işin açarı rolunu oynayır [12].

Tədqiqatımızdan o da bəlli oldu ki, personalın idarə olunması prosesisi müxtəlif mərhələlərdən keçir. Düzgün və optimal idarəetmə qərarlarının qəbul edilməsi keçilməsi vacib həmin mərhələlərin düzgün və optimal təşkil olunmasından xeyli asılıdır, çünki, onlar hər şeydən öncə personalın idarəedilməsinin strateji məqsəd və vəzifələrinə nail olunmasına xidmət edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir

- Kütləvi informasiya vasitələrində insan resurslarının idarəedilməsi anlayışının açıqlanması;
- Kütləvi informasiya vasitələrində insan resurslarının idarəedilməsinin mahiyyətini aydınlaşdıran amillərin müəyyən edilməsində dəqiqləşdirmələrin aparılması;

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti medianın hərəkətverici qüvvəsi olan insan resurslarının düzgün idarə edilməsinin mahiyyətinin, əhəmiyyətinin dərk edilməsi, mövcud təcrübə ilə yeniliklərin tətbiqi kütləvi informasiya vasitələrinin, KİV-də insan resurslarının idarəedilməsi sahəsinin inkişafını təmin edəcəkdir.

**Tədqiqat işinin səmərəsi.** Strateji inteqrasiya, yəni media qurumunun hədəfləri, strateji planları ilə insan resurslarının idarəedilməsi siyasətinin vəhdət təşkil etməli olduğu aydınlaşdırılır. İnsan resurslarının idarə edilməsi siyasəti müəssisənin ümumi məqsədləri üçün xidmət etməlidir, daha məmnun, daha sadiq işçilərin bağlılıq səviyyəsi yüksək olacaq, bu da şirkətin ümumi göstəricilərində əksini tapacaq anlayışları açıqlanır. Təbii ki, şirkətlər hədəf auditoriyasına keyfiyyətli xidmət təqdim etmək istəyir. Keyfiyyətli xidməti isə keyfiyyətli, səviyyəli işçilər, mükəmməl komanda ortaya çıxara bilər. Bu baxımdan insan resurslarının doğru idarəedilməsinin mahiyyəti izah edilir. Elastiklik və çeviklik, yeniliklər və innovasiyanın mənimsənilməsinin əhəmiyyəti önə çəkilir.

## ƏDƏBİYYAT

1."İnformasiya azadlığı haqqında"Azərbaycan Respublikasının Qanunu http://ict.az/az/content/112

2. Балашов А.И. и др. “Управление человеческими ресурсами”. Санкт-Петербург, 2012.-320 с.

3. Гришнова А.А. (2001), “Человеческий капитал: формирование в системе образования и профессиональной подготовки”. Москва, Т-во «Знание», КОО, 254с.

4. Z. G. Jabrailova, S. M. Nobari, “Using Fuzzy Decision Support Systems in Human Resource Management,” International Proceedings of Computer Science and Information Technology (IPCSIT), vol. 36, IACSIT Press, Singapore, 217–220, 2012

5. Еркулова Г.С., (2009), Организационно-экономические аспекты управления персоналом: автореф. дис. ...

6.“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu.http://www.wipo.int/edocs/lexdocs/laws/az/az/
az018az.pdf

7. Марр Р. Флиастер А. (2000), Словарь, Москва, Человек и труд, Том 1, 127 с.

8. Маслов Е.В. (2001), “Управление персоналом предприятия”: Учебное пособие Под. ред. П.В. Шеметова, Москва, ИНФРА-М, Новосибирск, НГАЗиУ, 312с.

9. Маслоу А. (2002), “Мотивация и личность”. СПб., 480 с.

**№ 3/2023 səh.45-51**

10. Одегов Ю.Г., Журавлев П.В. (1997), “Управление персоналом”. : Учебник для вузов, Москва, Финстатинформ, 878 с.
11. Randall S. Schuler and Susan E. Jackson, (2007), Strategic Human Resource Management, New York: Wiley-Blackwell, 2nd edition, 498 p.
12. Altun A. (2005) “Yerel Medya Çalışanlarının Eğitim İhtiyacı ve Yerel Medya Enstitüsü”,İletişim: Araştırmaları Dergisi, Ankara Üniversitesi İletişim Araştırma ve Uygulama Merkezi Yayınları, Ankara.

**УДК 330.36**

## Сущность управления человеческими ресурсами в средствах массовой информации

**[1]С. Т.Гаджиева, [2]В.Ф. Джаннатова**

2. Digər bir çatışmazlıq isə inflyasiya və ya devalvasiya nəticəsində texnikanın dəyəri xarici valyuta ilə olduqda yaranan məzənnə fərqidir. Məsələn, bu gün əldə olunan avadanlığın dəyəri 200,000 dollardır. Maliyyə lizinqi sazişi isə 5 il müddətinə bağlanılır. 2023-cü ildə əgər dollar qalxıb 2 AZN olarsa, o zaman texnikanın qiyməti 200,000 dolların AZN ekvivalenti olan 340,000 AZN-dən 400,000 AZN-ə qalxmış olur. Nəticədə yaranan məzənnə fərqinin ödənilməsi yenə sahibkarın üzərinə düşür və o, burada 60,000 AZN ziyana düşür. Bu zərərin qarşısını almaq üçün ilk növbədə maliyyə lizinqi müqaviləsində hər hansı bu kimi hallarda texnikanın dəyərinin dəyişməyəcəyi, məzənnə fərqindən lizinqalanın zərər görməyəcəyi qeyd edilməlidir. Yəni bir növ lizinqverən buna zəmanət verməlidir.

Ümumilikdə görünür ki, bu cür hallar baş verdikdə, lizinq məsələlərini həyata keçirən təşkilatlarda, müqavilələrdə bu cür çatışmazlıqların olması məhz hüquqi boşluqların göstəricisidir. Bu səbəbdən də, bu prosesin icrası nisbətən riskli hadisəyə çevrilir.

Digər bir maliyyələşdirilmə mənbəyi isə demək olar ki, bütün inkişaf etmiş ölkələrdə istifadə olunan françayzinq hesabına maliyyələşdirilmədir. Yuxarıda françayzinqin müsbət və mənfi cəhətləri, riskləri, növləri və üstünlükləri qeyd edilmişdir. Lakin burada onun Azərbaycanda istifadəsində olan çatışmazlıqlara diqqət yetiriləcəkdir. Ölkəmizdə françayzinq sisteminin inkişafını təmin etmək üçün müəyyən addımlar atılmalıdır. Belə ki [5]:

- Bunun üçün hər şeydən qabaq bu hüququ təqdim edən tərəf müəyyən güvən qazanmalıdır. Bu o deməkdir ki, françayzinqi əldə edən sahibkar bu biznesə “investisiya” edəcəyi halda ona yatırdığı vəsaitin “batmayacağından” əmin olmalıdır. İri sahibkarlar, yəni, françayzerlər indiyə qədər istehsal olunmuş məhsulların praktikada hansı nəticələri göstərdiyi barədə qarşı tərəfdə əminlik yaratmalıdır.
- Françayzer istehsal prosedurunu, eləcə də, müxtəlif strategiyaları françayziyə elə formada izah etməlidir ki, bu məhsul istehsalının gedişatına və keyfiyyətinə təsir etməsin. Yəni françayzi olan müəssisə proseduru elə yerinə yetirməlidir ki,françayzerin bazarda formalaşdırdığı imici qorusun, onun piarını zəiflətməsin. Habelə, bazara çıxartdığı əmtəəyə olan tələbi ödəyə bilsin, istehsal prosesinin sürətini olduğu kimi saxlamağı bacarsın.
- Bu formada həyata keçirilən istehsal və satışdan elə bir qazanc əldə olunmalıdır ki, həm françayzerin, həm də françayzinin mənafeyinə uyğun olsun və hansısa başqa bir alternativdən və ya investisiyadan əldə edəcəyi vəsaitin məbləğini təmin edə bilsin.
- Ümumiyyətlə, bütün bunların sonunda françayzinqin Azərbaycanda inkişafını təmin etmək üçün atılmalı addımlardan biri bu fəaliyyəti icra etmək üçün uyğun mexanizmin yaradılmasıdır. Daha sonra isə françayzerlər olan iri sahibkarlıq müəssisələri elə bir biznes-plan hazırlamalıdır ki, məqsədlərinə uyğun və istədikləri an françayziləri tapa bilsinlər.

Dünya praktikasında işlədilən bir çox metodlar Azərbaycanda demək olar ki, istifadə edilmir və ya bunun üçün kifayət qədər imkan yoxdur. Belə metodlardan biri xarici təcrübədə istifadə edilən “crowdfunding”, yəni hərfi tərcümədə “kütləvi maliyyələşdirmə”-dir. “Kütləvi maliyyələşdirmə” 2008-ci il krizis dövründə Avropada yeni-yeni ortaya çıxan, onlayn bazalı bir maliyyələşdirilmə metodu idi. 2008-ci ildə Avropada baş qaldıran maliyyə böhranı səbəbi ilə artıq kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyələşdirilməsində də müəyyən çətinliklərin meydana gəlməsinə

№ 3/2023 səh.75-81

səbəb oldu.

Beləliklə, maliyyəçilər vəziyyət belə olduqda, yeni trend olan bu metoda diqqət verməyə başladılar.

Kütləvi maliyyələşdirmə - bir fikrin, layihənin və ya bir şirkətin maliyyələşdirilməsi üçün bir çox kapital təminatçısından ( kütləvi şəkildə ) internet vasitəsilə maliyyə resursları toplayaraq kapital axtaran tərəflər üçün qeyri-bank maliyyələşməsinin yeni bir formasıdır. Ümumiyyətlə, bu metod bazar iştirakçıları üçün standart prosedur təmin edən xüsusi bir platforma yaradır. Baxmayaraq ki, mürəkkəblik və risk səviyyəsinə görə bir sıra kütləvi maliyyələşdirmə modelləri var və bu ümumi olaraq istifadə olunur. Dörd növ əsas kütləvi maliyyələşdirmə növü vardır. Bunlar: donor əsaslı, mükafat əsaslı, kredit bazalı və kapitala əsaslanan kütləvi maliyyələşdirmədir. Bu növlər maliyyə resurslarının istifadəsinə və investorlara gətirdikləri gəlirə əsasən bir-birlərindən fərqlənir [7].

Bağışa əsaslanan, yəni donor əsaslı kütləvi maliyyələşdirmə internetdən pul qazanmaq üçün ideal metoddur.

Mükafata əsaslanan növdə isə, sahibkarlar kütləvi maliyyələşdirmə vasitəsilə istehsallarını əvvəlcədən maliyyələşdirmək imkanı əldə edirlər.

İnvestorlar belə növ maliyyələşdirmə zamanı gəlir əldə etmirlər, lakin bu prosesdə iştirak etdikləri üçün, onlar hazır məhsulları mükafat olaraq əldə edirlər.

Bunun əksinə olaraq, borc verməyə əsaslanan yəni kredit bazalı növdə isə qazanc qarşılığında çox sayda borc verənlərin kredit verməsini nəzərdə tutur. Bu metodda investisiyanı təmin etmək üçün investorlara sabit faiz dərəcəsi ilə və ödəmə müddətinin sonunda qoyulan sərmayənin geri ödənilməsi nəzərdə tutulur.

Kapitala əsaslanan kütləvi maliyyələşdirmədə sərmayə şirkətləri şirkətdən səhm alır və onların qazancları şirkətin mənfəətinə qoşulmaq olur. Yəni onlara dividend ödənilir.

Ümumiyyətlə, kütləvi maliyyələşdirmə internet bazalı bir sistem olduğu üçün və dövrümüzün də internet dövrü olması səbəbi ilə Azərbaycanda da belə bir platformanın qurulması sahibkarlığın inkişafına böyük təkan verə bilər.

Yeni fəaliyyətə başlayan hər bir sahibkar mənfəət əldə etmək məqsədindən əvvəl ilk növbədə şirkətini böyütmək, onun fəaliyyətini genişləndirmək üçün çalışır. Belə olduqda, ənənəvi maliyyə mənbələrinə hər zaman diqqət yetirmək çətin olur. Banklara müraciət edərək kreditlə və ya sahibkarın özü tərəfindən investorların axtarışı ilə müqayisədə, maliyyələşdirilən və ya digər platformada müvəffəqiyyətli bir kütləvi maliyyələşdirmə kampaniyası yaratmaqla sahibkar öz məqsədini və fəaliyyətinin nədən ibarət olduğunu daha tez və düzgün bir şəkildə insanlara çatdıra bilər. Belə platforma ilə sahibkar işinin hekayəsini izah edə bilər, sürətli bir video çəkə bilər, diqqəti cəlb edən mükafatlar təyin edə və potensial investorların onu tapa biləcəyi belə mərkəzi yerdə hər şeydən faydalana bilər [8].

Güclü bir kütləvi maliyyələşdirmə kompaniyası biznesin etibarlılığını vəsosial imicini yüksəldə bilər ki, bu da müəssisənin inkişafında vacib məsələlərdən biridir. Bu cür maliyyələşdirmə platformasından istifadə potensial investorların və müştərilərin yeni firmanın mallarına və əmtəələrinə maraq göstərdiyi zaman bir növ onlara qarşı həmin müəssisənin “sosial sübut”unun formalaşmasına kömək edir. Yəni, bir investor sahibkarın ideyasını bəyənib ona dəstək verir. İşin gedişatı isə digər investorlar üçün müəssisənin necə fəaliyyət göstərdiyi barədə informasiyamənbəyinə çevrilir. Bu da nəticədə digər maliyyə mənbələrinin cəlb edilməsinə kömək olur.

Beləliklə, digər ənənəvi maliyyə mənbələrindən daha çox imkanlar yaradan kütləvi maliyyələşdirmə yeni yaranan şirkətlərdə sahibkarlar üçün bir sıra imkanlar yaradacaqdır. Bunlar aşağıdakılardır:

1. Ənənəvi “fundraising”, yəni bağış toplama fəaliyyətlərindən daha məhsuldardır. Bu da müəssisənin daha tez maliyyə vəsaiti əldə etməsinə səbəb olur.

2. İnvestorların cəlb edilməsini sürətləndirir və firmanın ətraf mühit üçün sosial sübutunu formalaşdırır, imicini yüksəldir.

3. Kütləvi maliyyələşdirmənin əsas nöqtəsinin sahibkarın öz biznesinin hekayəsini insanlara

çatdırmaq olduğunu nəzərə alsaq, görərik ki, , kütləvi informasiya vasitələrindən və sosial mediadan istifadə həmin müəssisənin tez tanınması və marketinq baxımından daha tez inkişafı üçün şərait yaradır.

Azərbaycanda sahibkarlığın inkişafı üçün atılması mümkün olan addımlardan biri də xarici təcrübədə istifadə edilən və sistem qanunvericiliyinin inkişafı üçün qabaqcıl vasitələrdən biri olan qanunvericiliyin təsirinin təhlili sistemidir. Bu təhlilin əsas məqsədi mövcud və ya təklif olunan normativ və qeyri- normativ hüquqi prosedurların müsbət və mənfi aspektlərinin qiymətləndirilməsidir.

Hərtərəfli bir yanaşma təklif edən bu sistem, hökumət qərarlarını dəqiq və düzgün təhlil etməklə və mənfi situasiyaları minimuma endirməklə sahibkarlıq fəaliyyətində rol oynayan mövcud məsələləri araşdırmaqda çox vacibdir. Bu, təhlil aparılmadan alınmış birbaşa qərarların qarşısını alır və hakimiyyət orqanlarını qərarların qəbul edilməsi prosesində təklif edilən tam informasiya bazası ilə təmin edir.

## Nəticə

Qanunvericiliyin əlaqəli tərəflərlə müzakirəsi, onların mövqeləri və təsirləri bu təhlilin mühüm tərkib hissəsidir. Buna görə də, hazırlıq prosesinin rəsmi bir hissəsi olan qanunvericilik aktlarının normativ qanunvericiliyinə təsiri araşdırılmalıdır.

Araşdırmalar əsasən, özəl sektorun normativ-hüquqi normalarının qəbul edilməsinin təsirinə yönəldilməlidir. Yeni qanunvericilikdə, ictimaiyyətin iştirakının düzgün tənzimlənməsi effektivdir. Ona görə ki, bu kiçik və orta sahibkarlıq müəssisələri üçün onların qarşılaşa biləcəyi problemlər barədə informasiya rolunu oynaya bilər. Buna görə də, qanunvericiliyin təsirinin təhlili ölkəmiz və onun qeyri-neft sektorunun bir hissəsi olan sahibkarlıq üçün mühüm əhəmiyyət kəsb edə bilər.

Ölkəmizdə kişik və orta biznesin inkişafından ötrü vacib məqamlardan biri də xarici birbaşa investisiyaların təmin edilməsidir. Azərbaycanda kiçik və orta müəssisələrə birbaşa xarici sərmayələrin cəlb edilməsinə xüsusi diqqət yetirilməlidir. İnvestisiyaların cəlb edilməsi mexanizmləri və imkanları araşdırılmalıdır. Belə sahibkarlıq subyektlərinin potensial investisiya qaynaqları ilə birbaşa əlaqə yaratmaq üçün səy göstərilməlidir.

Xarici investisiyaların və yeni texnologiyaların cəlb edilməsinə dair məsələlər, bazar tədqiqatları, biznes planlarının hazırlanması və statistik məlumatların əldə edilməsi ilə dəstəklənən kiçik və orta biznes müəssisələri tərəfindən müntəzəm olaraq nəzərdən keçirilməlidir. Bu sahədə fəaliyyət göstərən yerli və xarici təşkilatların təcrübəsi vəpotensialı, bu müəssisələrə xarici sərmayələrin dəstəklənməsi üçün istifadə olunmalıdır.

Sahibkarlıq müəssisələrinin maliyyələşdirilməsində digər bir problem isəkreditlərin alınması və ümumiyyətlə, kiçik və orta biznesin kreditləşdirilməsi ilə bağlıdır. Problemin mənbəyində isə borcalan ilə borc verənlər arasında informasiyasimmetriyasının pozulması dayanır. İnformasiya assimmetriyası borcalanın öz maliyyə vəziyyəti və investisiya imkanları barədə borcverəndən daha çox məlumata sahib olduğu zaman yaranır. Bu "kreditorlar bazarında" səmərəsizliyə gətirib çıxarır, çünki kreditorlar potensial müştərilər tərəfindən təmsil edilən riskləri qiymətləndirmək üçün kifayət qədər məlumata malik olmurlar. Məhz, bu səbəbdən də borcalanlar bazarın tələb etdiyi faiz dərəcəsində və hətta daha çox ödəniş etmək qabiliyyətində olsalar belə, bəzən kredit imkanlarından məhrum olurlar. İnkişaf etmiş ölkələrdə bu cür assimmetriyanı aradan qaldırmaq üçün "credit reporting service providers"- yəni, "kredit hesabatı təminatçıları" istifadə olunur. Bu hesabatın tərkibinə kredit məlumatları, kredit büroları və reyestrlər daxildir. Kredit hesabatlılığı vasitəsi ilə kiçik və orta biznes müəssisələri üçün maliyyə imkanlarının artırılması çətinliklərini təhlil edir və onların müəssisələr üçün daha əlçatan olmağı imkanlarını müəyyən edir. Ölkəmizdə bu cür hesabatlardan istifadə edilməsi sahibkarların yuxarıda qeyd edilən maliyyə mənbələrindən əlavə kreditlərlə təmini prosesini də inkişaf etdirə bilər [8].

Beləliklə, ölkəmizdə fəaliyyət göstərən kiçik və orta sahibkarlıq müəssisələrinin

maliyyələşdirilməsi problemlərini həll etmək üçün bir sıra inkişaf etmiş dünya ölkələrinin təcrübəsindən istifadənin labüdlüyü artıq müasir dövrümüzdə də açıq görünür.

**Tədqiqatın elmi yeniliyi:**

1. İlk olaraq, ümumi şəkildə Azərbaycanın iqtisadi inkişafında sahubkarlığın, xüsusilə də, kiçik və orta biznes fəaliyyəti ilə məşğul olan sahibkarlıq müəssisələrinin formalaşması nəzəri baxımdan öyrənilmişdir.

2. Onların maliyyə təminatı mənbələri araşdırılmış və dünya ölkələrinin hansı təcrübədən istifadə etdiyi öyrənilmişdir. Daha sonra bu araşdırmalardan əldə edilən nəticələr müqayisə edilmiş və maliyyələşdirilmə mexanizmlərindəki çatışmazlıqlar aşkarlanmışdır.

3. Ölkədə sahibkarlığın mövcud vəziyyəti təhlil edilmiş, onun maliyyələşdirilməsində istifadə olunan mexanizmlərin cari vəziyyəti öyrənilmiş, bu sahədə edilən dövlət yardımlarının təhlili aparılmışdır.

4. Yuxarıda qeyd edilən təhlillər nəticəsində mövcud mexanizmlərin tək- milləşdirilməsi və onların əlverişliliyinin artırılması üçün fikirlər irəli sürül-müşdür.

5. Sonda isə ölkəmizdə inkişafı zəif olan və hətta istifadə olunmayan maliyyələşdirmə mexanimzlərinin istifadəsi üçün təkliflər işlənib hazırlanmış və əsaslandırılmışdır.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Tədqiqat işinin araşdırılmasından əldə edilən nəticələr ölkəmizdə fəaliyyətini davam etdirən və ya bu sferada yeni olan fiziki və hüquqi şəxslər üçün əhəmiyyətli ola bilər. Belə ki, işin gedişatı za-manı aparılan təhlillər Respublikada fəaliyyət göstərən kiçik və orta biznesin cari vəziyyətini göstərmiş, onların maliyyələşdirilməsindəki çatışmazlıqlar aşkar-lanmışdır. Onların aradan qaldırılması və maliyyə mexanizmlərinin daha da ink-işafı üçün irəli sürülən təkliflər bu sahədə inkişafı təmin edə, yeni fəaliyyətə başlayan sahibkarlar üçün bir "bələdçi" rolunu oynaya, əlaqəli nazirliklər tərəfindən və eləcə də, "Strateji Yol Xəritəsi"ndə prioritetlər sırasına əlavə edilə bilər.

## ƏDƏBİYYAT

1. Abdullayev Ş.Ə. Əsgərova R.V. "Bank işi". Bakı, 2009, 472s.
2. Elnur İslamov, Günel Musayeva, Babək Babaşov, Şirin Ağayeva. "Françayzinq: Kiçik Sahibkarlıq üçün bələdçi". Bakı, 2017, səh. 29.
3. Əliyev T.N. Əhmədli A.M. Məmmədov R.M. "Müştərək müəssisə və sahibkarlıq." Bakı, 200, səh.68
4. Q.N.Manafov. "Sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafının elmi- praktiki problemləri" iqt. e. d-ru a. dər. al. üçün təq. ol. dis.: 08.00.01 /Q. N. Manafov ; Azərb. Dövlət İqtisad Un-ti.Bakı, 2002, səh.324
5. Q.N.Manafovun. "Sahibkarlıq nəzəriyyəsi". Bakı, 2011, səh. 118
6. Niftullayev V. "Sahibkarlığın əsasları". Bakı, 2012, Zaman, 618 s.
7. Блинов А. "Малое предпримиматедьство". М., 2013, стр.202.
8. Кирцнер Израэль (2011) "М. Конкуренция и предпринимательство" / Пер.с англ, под ред. проф. А.Н.Романова. Мд ЮНИТИ-ДАНА, 240 стр.

**УДК 338.12:338.34:330.36**

## Пути повышения эффективности финансирование малого и среднего бизнеса

**[1]Н. А.Нариманов, [2]Ж. Э.Назарли, [3]С.Ш.Дуньямалиева**

**Резюме.**В формировании предпринимательских отношений большое значение имеет его финансирование, а также следует отметить, что в некоторых развитых странах мира в связи с финансированием предприятий малого и среднего бизнеса действуют специальные государственные учреждения и различные фонды. Ограничения финансирования таких предприятий в нашей стране тормозят развитие малого и среднего предпринимательства и

вызывают дальнейшее углубление связанных с ним проблем. В нашей стране существуют различные механизмы государственного финансирования малого и среднего предпринимательства, но при таком финансировании необходимо проводить определенные работы по совершенствованию.
**Ключевые слова:** формирование предпринимательских отношений, механизмы финансирования малого и среднего предпринимательства, лизинговые операции.

**UDC 338.12:338.34:330.36**

## Ways to improve the efficiency of financing small and medium-sized businesses

**[1]N. A.Narimanov, [2]J. E.Nazarli, [3]S. Sh.Dunyamaliyeva**

**Summary.**In the formation of entrepreneurial relations, its financing is of great importance, and it should also be noted that in some developed countries of the world, special government agencies and various funds operate in connection with the financing of small and medium-sized businesses. Restrictions on the financing of such enterprises in our country hinder the development of small and medium-sized businesses and cause further deepening of the problems associated with it. In our country, there are various mechanisms for state financing of small and medium-sized businesses, but with such financing, it is necessary to carry out certain improvements.

**Key words:** formation of entrepreneurial relations, mechanisms for financing small and medium-sized businesses, leasing operations.

Redaksiyaya daxilolma: 09.11.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.82-87

UOT 338.12:338.34:330.36
DOI:10.30546/JIECM.2023.3.82.

# HAZIR QİDA MƏHSULLARININ SERTİFİKATLAŞDIRILMASININ TƏDQİQİ MƏSƏLƏLƏRİ

**[1]Kəmalə Seyfulla qızı Dadaşova, [2]Sədi Tariel oğlu Nəsibov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

kamale.dadasheva.74@mail.ru

***Xülasə.****Məqalədə ölkə üzrə hazır qida məhsullarının sertifikatlaşdırılması məsələlərinə baxılmışdır. Aparılmış araşdırmalar göstərir ki, qida məhsullarının sertifikatlaşdırılması bu sahənin ixrac imkanlarının artırılmasında mühüm rol oynayır. Məqalədə, eyni zamanda mövcud problemlər göstərilmiş, onların həlli yolları təklif olunmuşdur.*

***Açar sözlər:*** *sertifikat, ekologiya, ixrac, istehsal, inkişaf, nəzarət sistemi*

**Giriş.**Son illər qida məhsullarının sertifikatlaşdırılması, əhalinin ekoloji baxımdan təhlükəsiz qida məhsulları ilə təmin olunması Azərbaycan Respublikasında əsas iqtisadi prioritetlərdən hesab olunur. Regionlarda qida müəssisələrinin fasiləsiz surətdə xammalla təmin edilməsi, istehsal olunmuş qida məhsullarının dünya bazarına çıxarılması istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilməkdədir.

Qida sənayesi müəssisələri üzrə sertifikatlaşdırma obyektləri məhsullar, xidmətlər, keyfiyyət sistemləri, vəzifə öhdəlikləri və s. ola bilər, yəni, müəyyən tələbləri olan hər şey ola bilər. Sertifikatlaşdırılmalı olan məhsullar qida xammalı, qida məhsulları, istehlak məhsulları, qeyri-ərzaq məhsulları ola bilər.

İnsanlar üçün zərərli və təhlükəli maddələrin 70%-nin qida ilə, 30%-nin isə su və hava ilə daxil olduğunu nəzərə alsaq, sertifikatlaşdırma sahəsində əsas problemlərdən biri qida təhlükəsizliyinin təmin edilməsidir. Yəni qidalanma insanların sağlamlığını, ölkənin genefondunun qorunub saxlanmasını səciyyələndirən əsas amillərdəndir [1,s.55-59].

**Qida istehsal sənaye müəssisələrinin inkişafının əsas xüsusiyyətləri**

Son illər ölkəmizdə qida məhsulları üzrə məhsul istehsal həcmi bir neçə dəfə artmışdır. Əvvəlki illərdən fərqli olaraq istehlakçı vətəndaşlar artıq yerli məhsullara üstünlük verir, onun keyfiyyətinə və yararlığına güvənirlər. Yerli qida məhsulları beynəlxalq standartlar və normalar əsasında istehsal olunmağa və reallaşdırılmağa başlanmışdır. Həm də, rəqabət prinsiplərinə cavab verən yeni, innovasiya xarakterli müasir təsərrüfat kompleksləri yaradılmışdır [2,s.41-49].

Lakin, bu sahədə müsbət dəyişikliklərlə yanaşı, həll olunmamış bir sıra problemlər də qalmaqdadır. Belə ki, qida məhsulları sənayesi üzrə daxili istehsalda nəzərə çarpacaq müsbət dəyişikliklərə baxmayaraq, ölkəyə qida məhsullarının idxalı hələ də davam edir. Məhz idxaldan asılılığın nəticəsi olaraq, bu məhsulların qiymətlərində artım müşahidə olunmaqdadır.

Digər çətinlik və çatışmazlıqlar da mövcuddur. İstehsal olunmuş qida məhsullarının bölgüsü, onların istehlakçılara doğru hərəkəti, topdan və pərakəndə satış ticarətində çatışmazlıqlar, vahid innovasiya siyasətinin olmaması, bir sözlə, düzgün marketinq sisteminin qurulmaması səbəbindən çoxsaylı əlavə xərclərə şərait yaranır. Həmçinin qida məhsulunun keyfiyyəti, sertifikatlaşdırılması, əlavə xidmətlərə görə sərf edilən əlavə vəsaitlər son nəticədə daxili qiymətlərə təsir edərək, onun qalxmasına səbəb olur.

Düzgün innovasiya siyasəti nəticəsində qida məhsullarının sertifikatlaşdırılaraq keyfiyyətinin yüksəldilməsi,maya dəyərini azaldaraq xidmət səviyyəsinin yüksəldilməsi mənfəət artımının əsas mənbəyidir. Bu amil bazara çıxışın ən etibarlı vasitəsidir.

Marketinq nöqteyi-nəzərindən keyfiyyət məhsulların davamlı olaraq yeniləşməsini, onun çeşidlərinin genişləndirilməsini, həmçinin istehlakçıların zövqünün və tələbatının ödənilməsini əhatə edən göstəricilər sistemindən ibarətdir. Indiki şəraitdə ölkənin qida məhsulları üzrə müəssisələri keyfiyyətin aşağıdakı 3 səciyyəvi xüsusiyyətini nəzərə almalıdırlar:

- məhsulun lazımi standartlara və texniki-iqtisadi göstəricilərə uyğun olması;
- məhsulun, nəzərdə tutulan funksional təyinata və istismar (istehlak) tələblərinə cavab verməsi;
- istehlakçıların faktiki tələblərinin ödənilməsi.

Araşdırmalar göstərir ki, yeni məhsulla bazara çıxan zaman, ticarət qaydalarına uyğun tələblərin gözlənilməsi və məhsul növünün təkmilləşdirilməsində keyfiyyət standartlarına əməl edilməsi olduqca vacibdir. Bu standartlara ilk növbədə, əhalinin sağlamlığının qorunması, onun təhlükəsizlik şərtlərinə və qaydalarına cavab verməsi, məhsulun unifikasiyasının yüksək dərəcəsi, ekoloji tələblərə əməl olunması və s aiddir [3,s.78-86].

Tədqiqatlar göstərir ki, mövcud bazar münasibətlərində məhsulun keyfiyyət səviyyəsi, onun etibarlılığı və istismara davamlılığı, yenilikçi xüsusiyyətləri, orijinallığı və digər bu kimi xüsusiyyətləri, rəqabət qabiliyyətliyinin əsas amilləri kimi çıxış edir. Artıq bu bazarda əmtəənin qiyməti istehlakçılar üçün o qədər də çox əhəmiyyət kəsb etmir. Bu səbəbdən də həm istehsalçılar, həm də istehlakçılar məhsulun şəkildə verilmiş aşağıdakı xüsusiyyətlərinə daha çox diqqət yetirirlər:

- keyfiyyət göstəriciləri;
- erqonomik göstəricilər;
- ekoloji göstəricilər;
- estetik göstəricilər.

Bu prosesdən düzgün istifadə edilməməsi və innovasiya geriliyi nəticəsində, məhsul bazarda rəqabətqabiliyyətliliyini itirə bilər.




**Qrafik 1. Postsovet məkanı ölkələrinin Qlobal İnnovasiya İndeksləri (Qİİ) üzrə sıralaması (2022)**

**Mənbə:** www.worldbank.com məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

№ 3/2023 səh.82-87

Son illər Qlobal İnnovasiya İndeksi üzrə postsovet məkanı ölkələrinin mövqeyində dəyişiklik olmuşdur. Məsələn, postsovet məkanı ölkələri üzrə Rusiya 47-ci, Ukrayna 57-ci, Gürcüstan 74-cü, Qazaxıstan 83-cü, Azərbaycan 93-cü, Tacikistan 104-cü mövqedə olmuşdur. Qeyd edək ki, Azərbaycanda da qida məhsullarının istehsal müəssisələrində də müasir innovasiyalı texnologiyalar uğurla tətbiq olunmaqdadır.

**Qida məhsullarının sertifikatlaşdırılmasının əsas üstünlükləri.** Qida məhsullarının sertifikatlaşdırılaraq satış və rəqabətqabiliyyətliyinin yüksəldilməsinin ən mühüm amillərindən biri də, bazar tələbinə uyğun onun yeni növlərinin və çeşidlərinin hazırlanması və təqdim olunmasıdır. Bazarda rəqabətə davam gətirmək və öz mövqelərini gücləndirmək üçün, hər bir istehsalçı yeni məhsul çeşidlərini yaratmağı bacarmalıdır. Araşdırmalar göstərir ki, qida sənaye müəssisələri üzrə istənilən məhsul növü 4 mərhələdən ibarət olan dövretmə prosesindən keçir. Bunlar aşağıdakılardan ibarətdir: məhsulun bazara təqdim olunma mərhələsi: inkişah mərhələsi: yetkinlik (zirvə) mərhələsi: enmə (köhnəlmə) mərhələsi [4,s.109-115].

Birinici mərhələdə bazara təqdim olunan məhsul növü yeni sayılır və onun istehlakçılar tərəfindən tanınması və qiymətləndirilməsi üçün müəyyən vaxt tələb olunur. Bu prosesdə reklam və tanıtma tədbirləri mühüm rol oynayır. Görülən tədbirlər artıq ikinci mərhələdə öz nəticəsini verməyə başlayır. İstehlakçılara tanış olan məhsula tələbat artmağa başlayır. Üçüncü mərhələdə isə məhsulun satış həcmi ən yüksək nöqtəyə çatır. Sonuncu, dördüncü mərhələdə isə bazara yeni analoji məhsulların çıxması ilə əlaqədar olaraq, əvvəlki məhsula tələbat getdikcə azalır və enmə prosesi baş verir.

İstənilən məhsulun dövretmə (möcudluq) müddətinin təhlili göstərir ki, bu proses zamanı istehlakçılar iki əsas innovasiya problemi ilə qarşılaşır.

- birincisi, onlar köhnəlməkdə olan məhsulların əvəzlənməsi üçün yeni məhsul növlərinin işlənib hazırlanmasını, buraxılışını mütəmadi sürətdə həyata keçirməlidirlər.
- ikinci, istehsalçılar məhsulun dövretmə müddətinin hər bir mərhələsində iş prosesini təkmilləşdirməli və səmərəli təşkil etməlidir.

Bəzən qida məhsulları üzrə istehsal müəssisələri istehsal etdikləri mövcud məhsullara böyük diqqət yetirərək, bazarın gələcək tələblərini unudurlar. Yaxud bəzi istehsalçılar əksinə olaraq, yeni məhsul axtarışına daha çox vaxt sərf edir, mövcud istehsalı bir növ ikinci plana keçirirlər. Ümumiyyətlə, məhsul istehsalçısı bu proseslərdə balanslaşdırılmış siyasət yeritməlidir. Bu zaman düzgün innovasiya siyasəti yeridən səriştəli müəssisə rəhbərinin uzaqgörənliyi və bazarda apardığı təhlillər, ona vəziyyətdən düzgün nəticə çıxarmağa və daha çox mənfəət əldə etməyə imkan verir.

İnnovasiya bazar mexanizminin elə bir iqtisadi alətidir ki, hər bir ölkənin iqtisadi qüdrətini, dünya birliyinə inteqrasiyasını, dünya bazarındakı mövqeyini, ən əsası isə iqtisadi təhlükəsizliyin səviyyəsini onun vasitəsi ilə səciyyələndirmək olar. İnnovasiyanın formalaşdırılması və qorunması ölkənin inkişaf səviyyəsi və ayrı-ayrı sahələrin makroiqtisadiyyatda tutduğu yeri də özündə əks etdirməlidir [5,s.70-78]. Bütün dünyada olduğu kimi Azərbaycanda da sertifikatlaşdırma üzrə dövlət təşkilatı mövcuddur. Məhz bu təşkilatlar beynəlxalq təcrübə nəzərə alınmaqla keyfiyyətin təmin olunması sahəsində təcrübələri öyrənir, təhlil edir və sistemləşdirir. Azərbaycan Respublikasında sertifikatlaşdırma sistemlərinin qeydiyyatı sertifikatlaşdırma üzrə, milli orqan Azərbaycan Standartlaşma İnstitutu tərəfindən aparılır. Qeyd olunan orqanın əsas vəzifələrindən biri sertifikatlaşdırma sistemlərinin qaydalarının ölkə qanunvericiliyinə və normativ sənədlərə uyğunluğunu yoxlamaqdan, nəzarət etməkdən ibarətdir.

Bu təşkilat eləcə də, qeydiyyata alınmış məcburi və könüllü sertifikatlaşdırma sistemlərini reyestrə daxil etmək səlahiyyətlərinə də malikdir.

Aparılmış təhlillər göstərir ki, məcburi və könüllü sertifikatlaşdırma sistemlərinin yaradılmasında məqsəd, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi, onların yerli və beynəlxalq bazarlarda rəqabətqabiliyyətinin yüksəldilməsini təmin etməkdir.

Digər postsovet məkanı ölkələrində olduğu kimi standartlaşdırma üzrə milli, orqan hesab olunan ölkəmizin Azərbaycan Standartlaşdırma İnstitutu öz fəaliyyətini qüvvədə olan, qanunvericilikdə nəzərdə tutulan səlahiyyətlər əsasında reallaşdırır. O, qanunvericilik aktlarına uyğun olaraq, məcburi

№ 3/2023 səh.82-87

sertifikatlaşdırma üzrə tədbirləri həyata keçirir. Sertifikatlaşdırma üzrə mərkəzi orqan öz fəaliyyətini “Məhsulun və xidmətlərin sertifikatlaşdırılması haqqında” Azərbaycan Respublikasının qanunu ilə müəyyənləşdirilmiş funksiyalara və qaydalara uyğun olaraq tənzimləyirlər.

Sertifikatlaşdırma üzrə orqan uyğunluq sertifikatlaşdırılması aparan orqan olmaqla, hüquqi şəxs statusuna malikdir. Azərbaycan Standartlaşma İnstitutu ərazi orqanları və elmi-tədqiqat institutları kimi dövlət təşkilatları, səhmdar cəmiyyətləri, assosiasiyaları və s. sertifikatlaşdırma üzrə orqan kimi akkreditləşdirilmək imkanlarına sahibdir.

Ümumiyyətlə, sertifikatlaşdırma üzrə orqanın əsas funksiyalarına aşağıdakılar aiddir:
- məhsul və xidmətlər üzrə sertifikatlaşdırılmış tələblərin pozulması haqqında əldə olunmuş məlumatlar üzrə operativ tədbirlərin reallaşdırılması;
- verilmiş sertifikatların və uyğunluq nişanlarının fəaliyyətinin dayandırılması və ləğv edilməsi;
- sertifikatlaşdırılmış məhsul və xidmətlərin reyestrinin aparılması, sertifikatlaşdırılmanın yekunları haqqında məlumatların nəşrə hazırlanması;
- sertifikatlaşdırılmış məhsulun keyfiyyət göstəricilərinin düzgünlüyünə nəzarətin təşkili;
- yerli və xarici sertifikatların, müxtəlif uyğunluq şəhadətnamələrinin tanınmasının mümkünlüyü barədə materialların qruplaşdırılması;
- müxtəlif məhsullar üzrə uyğunluq sertifikatının tərtib olunması və verilməsi; uyğunluq sertifikatının AZS Milli sertifikatlaşdırma sisteminin dövlət reyestrində qeydiyyatdan keçməsinin təşkili;
- sertifikatlaşdırma sistemi üzrə təşkilatı metodik sənədlərin tərtibi;
- sertifikatlaşma üzrə tələb olunan sifarişlərin hazırlanması;
- göstəricilər üzrə tələbləri təyin edən standartların və digər normativ sənədlərin seçilməsi;
- sertifikatlaşdırılan məhsulların siyahısının təyin olunması;
- məhsulların sertifikatlaşdırılması zamanı istifadə olunan normativ sənədlər fondunun təkmilləşdirilməsi.

Azərbaycan Standartlaşma İnstitutunun təşkil olunan sınaq laboratoriyası sertifikatlaşdırma məqsədilə konkret məhsulun sınağını, yaxud müxtəlif növ sınaqları həyata keçirir və sınaq protokollarını verir. Onu da nəzərə almaq lazımdır ki, xidmətlərin və keyfiyyət sistemlərinin sertifikatlaşdırılma sistemləri sertifikatlaşdırma prosesində sınaq laboratoriyalarının iştirakını nəzərdə tutmur. Sınaq laboratoriyalarına müxtəlif tələblər qoyulur. Onlara müstəqillik, qərəzsizlik, toxunulmazlıq, texniki səriştəlilik aiddir. Müstəqillik üçüncü tərəf statusu ilə təyin olunursa, qərəzsizlik sınaqların aparılması zamanı, əldə olunan nəticələri əks etdirən protokolların düzgünlüyünü idarə edir. Toxunulmazlıq ondan ibarətdir ki, sınaq laboratoriyaları və orada çalışan işçilər sınağın nəticələrini qiymətləndirən zaman kənar təzyiqlərə məruz qalmırlar. Texniki səriştəlilik isə texniki və idarəetmə strukturunun, yüksək hazırlıqlı mütəxəssislərin, normativ sənədlərin olması ilə səciyyələnir. Sınaq laboratoriyalarının akkreditləşməsi zamanı tələblərə uyğunluq yoxlanılır. Bundan başqa standartlaşma sistemi məhsulun sınaqlarının ancaq akkreditləşmiş laboratoriyalarında aparılmasını təmin edir. Sertifikatlaşdırma üzrə şura sertifikatlaşdırma üzrə mərkəzi orqan tərəfindən texnologiya və texnikanın hər bir istiqaməti üzrə formalaşdırılır. Qeyd olunan şuraya könüllülük əsasında sertifikatlaşdırma üzrə orqanların, sınaq laboratoriyalarının, sertifikatlaşdırılan məhsulun istehsalının və digər təsisatların nümayəndələri əlavə olunur.

Sertifikatlaşdırma üzrə şura aşağıda qeyd olunan əsas vəzifələri icra edir:
- təhlükəli istehsal sahələri, obyektlər və işlər üzrə məhsulun vahid sertifikatlaşdırma siyasətinin formalaşdırılması üzrə təklif və tövsiyələri tərtib edir;
- sertifikatlaşma üzrə sistemlərin işlənməsi vəziyyətini araşdırır, onların təkmilləşdirilməsi üzrə təklif və tövsiyələr hazırlayır, onların reallaşdırılmasına kömək edir;
- milli standartların və müxtəlif normativ sənədlərin layihələrinə, sertifikatlaşdırma və akkreditləşmə üzrə işlərin proqramlarına baxır;
- iqtisadi sahələr üzrə məhsulun sertifikatlaşdırılması sahəsində işlərin effektivliyinin yüksəldilməsi üzrə təkliflər hazırlayır və s.

Mərkəzi standartlaşma orqanının nəzdində elmi-metodiki sertifikatlaşdırma mərkəzi mövcuddur ki, o da bir qayda olaraq sertifikatlaşdırma üzrə orqanlardan birinin bazasında yaradılır. Onların əsas funksiyalarına bunlar aiddir:

- sistemli şəkildə sertifikatlaşdırma obyektlərinin strukturu üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələri hazırlayır;
- məhsul çeşidlərinin sertifikatlaşdırılması üzrə normativ-texniki təminat fondunun fəaliyyətini gücləndirir;
- mərkəz və regionlar üzrə sertifikatlaşma sahəsində orqanların, sınaq laboratoriyalarının akkreditləşdirilməsi, ekspertlərin attestasiyası üzrə kommissiyaların işində fəal iştirak edir;
- məhsul çeşidlərinin sertifikatlaşdırılması üzrə metodların, praktiki işlərin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr hazırlayır;
- qabaqcıl ölkələrin iş təcrübəsi nəzərə alınmaqla sertifikatlaşma üzrə aparılan işlərin effektivliyinin qiymətləndirilməsi, texniki – iqtisadi təhlili üzrə metodiki yeniliklər hazırlayır;
- qeyd olunan istiqamətlər üzrə mərkəzi orqan üçün təklif və tövsiyələr irəli sürür.

Ümumiyyətlə, elmi-texniki sertifikatlaşdırma mərkəzinin funksiyaları müvafiq əsasnaməyə əsasən müəyyənləşir. Bu əsasnamə sertifikatlaşdırma üzrə mərkəz orqan tərəfindən təsdiq olunur.

Azərbaycan Respublikasında apellyasiya üzrə komissiya sertifikatlaşdırma üzrə mərkəzi orqan tərəfindən sertifikatlaşdırmanı aparan zaman yaranmış mübahisələri aradan qaldırmaq üçün yaradılmışdır. Qeyd olunan komissiya birbaşa sertifikatlaşdırma üzrə mərkəzi orqanın, sınaq laboratoriyalarının, sertifikatlaşdırılan məhsulların istehlakçılarının, ictimai təşkilatların nümayəndələrindən təşkil olunmuşdur. Komissiya müəyyən olunmuş müddət ərzində apelyasiya ərizəsinə baxmaqla, qəbul olunmuş qərar haqqında iddiaçını məlumatlandırır.

## Nəticə

Məhz bu baxımdan prioritet istiqamətləri müəyyənləşdirərkən iqtisadiyyatın əksər bölmələrində düzgün innovasiya siyasətinin yürüdülməsi, onun inkişafında əsas istiqamətlərdən birinin olduğu danılmaz faktdır. Qida sənaye müəssisələri üzrə innovasiya siyasətini təkcə yeni məhsul yaratmaq və satmaqla məhdudlaşdırmaq düzgün deyildir. Burada həmçinin yeni təsərrüfatların yaradılması və onların idarə olunması prinsiplərinin yeniləşdirilməsi də nəzərə alınmalıdır. Dünya bazarına çıxmaq və bu bazarda layiqli mövqe üçün qida müəssisələrinin məhsullarının sertifikatlaşdırılaraq istehsalını beynəlxalq standartlara uyğunlaşdırmaq olduqca vacibdir. Bunun üçün isə hər bir təsərrüfatda mövcud tələblərə müvafiq innovasiya tədbirləri planlaşdırılmalı və həyata keçirilməlidir. Qida sənayesi müəssisələri üzrə könüllü sertifikatlaşdırmanın həyata keçirilməsi zəruridir [5,s.69-85]. Könüllü sertifikatlaşmanın obyektləri qanunvericiliyə uyğun olaraq məcburi sertifikatlaşdırılmalı olan obyektlərin siyahısına daxil edilməyən məhsullar, işlər və xidmətlər, habelə keyfiyyət və istehsal sistemləridir. Qida sənaye müəssisələri üzrə könüllü sertifikatlaşdırmanın məqsədi etibarlılıq, davamlılıq, tərkib üzrə düzgünlük və s. kimi xüsusiyyətləri yoxlamaq yolu ilə keyfiyyətsiz məhsulların bazara çıxışını məhdudlaşdırmaqdır. Bununla belə, könüllü sertifikatlaşdırma məcburi sertifikatlaşdırma ilə eyni deyildir. Müştərilərin maraqlarına uyğun tədbirlərin görülməsi xidmətlərin könüllü sertifikatlaşdırılmasına da aiddir. Ümumiyyətlə, yaxın gələcəkdə ölkə vətəndaşlarının keyfiyyətli məhsullarla təmin olunması istiqamətində davamlı olaraq beynəlxalq tələblərə uyğun sertifikatlaşma üzrə tədbirlərin həyata keçirilməsi zəruridir.

## ƏDƏBİYYAT

1. Асланов З.Ю. и др. «Управление качеством продукции», Издательство АГЭУ, 2017, 356
2. Асланов З.Ю. «Методы управления качеством машиностроительной продукции» Монография. Баку, Наука, 2013, 316 с.
3. Мамедов Н.Р. Основы сертификации: Учебник. Баку, Наука, 2001, 312с.
4. Бурдун Г.Д., и др. Основы метрологии. – М.: Изд-во стандартов, 2014, 255 с.
5. Крылова Г.Д. Стандартизация, сертификация, метрология: – М.: Аудит,ЮНИТИ, 2008. 479 с.

№ 3/2023 səh.82-87

УДК 338.12:338.34:330.36

**Вопросы исследования сертификации готовых пищевых продуктов**

**[1]К.С.Дадашова, [2]С.Т. Насибов**

**Резюме.**В статье рассмотрены вопросы сертификации готовой пищевой продукции по странам. Проведенные исследования показывают, что сертификация пищевых продуктов играет важную роль в увеличении экспортных возможностей этой отрасли. В статье также указаны существующие проблемы, предложены пути их решения.

**Ключевые слова:** сертификация, экология, экспорт, производство, разработка, система контроля

UDC 338.12:338.34:330.36

**Research issues on certification of finished food products**

**[1]K.S.Dadashova, [2]S. T. Nasibov**

**Summary.**The article discusses the issues of certification of finished food products by country. The conducted research shows that the certification of food products plays an important role in increasing the export opportunities of this industry. The article also identifies existing problems and suggests ways to solve them.

**Keywords:** certification, ecology, export, production, development, control system

Redaksiyaya daxilolma: 29.05.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.88-94

UOT 338.12:338.34
DOI:10.30546/JIECM.2023.3.88.

# AQRAR-SƏNAYE KOMPLEKSİNDƏ SAHİBKARLIQ SUBYEKTLƏRİNİN MALİYYƏ SABİTLİYİNİ TƏMİN EDƏN XÜSUSİYYƏTLƏR VƏ AMİLLƏR

**Röyal Ruhi oğlu Əliyev**

**AzerBlast MMC**

**royal.alisoy98@gmail.com**

***Xülasə.****Müasir iqtisadi şəraitdə bir çox təşkilatlar şirkətin fəaliyyətinin maliyyə təminatında, onun işgüzar fəallığının artmasında və investisiya cəlbediciliyində strateji amil kimi maliyyə sabitliyinə xüsusi diqqət yetirirlər. Maliyyə sabitliyi təsərrüfat subyektinin maliyyə vəziyyətinin qiymətləndirildiyi əsas iqtisadi amillərdən biridir. O, bütün maliyyə-təsərrüfat fəaliyyəti prosesində formalaşır və təşkilatın ümumi dayanıqlığının əsas komponentidir. Müəssisənin maliyyə sabitliyi - sahibkarlıq subyektinin dəyişən daxili və xarici mühitdə fəaliyyət göstərmək və inkişaf etdirmək, aktiv və öhdəlikləri balansını saxlamaq, məqbul risk səviyyəsində daimi ödəmə qabiliyyətini və investisiya cəlbediciliyini təmin etmək qabiliyyətidir.*

***Açar sözlər:*** *aqrar sənaye kompleksi, təsərrüfat subyektləri, maliyyə sabitliyi, bazar iqtisadiyyatı, kənd təsərrüfatı və s.*

Müasir bazar iqtisadiyyatı şəraitində müəssisənin yaşamasının açarı və sabit vəziyyətinin əsası onun maliyyə dayanıqlığıdır. Əgər müəssisə maliyyə cəhətdən sabit və ödəmə qabiliyyətinə malikdirsə, o zaman kreditlərin alınmasında, investisiyaların cəlb edilməsində, təchizatçıların seçilməsində və ixtisaslı kadrların seçilməsində eyni profilli digər müəssisələrə nisbətən bir sıra üstünlüklərə malikdir.

Müasir bazar iqtisadiyyatı şəraitində hər hansı bir müəssisənin sahibləri öz fəaliyyətlərinin başlanğıc nöqtəsi və son nəticəsi olan onun maliyyə vəziyyətinin rifahının qayğısına qalırlar. Buna görə də etibarlı maliyyə vəziyyəti olan təşkilat ölkə iqtisadiyyatını yaxşılaşdıran, bazar transformasiyalarını sürətləndirən lokomotivin bir hissəsidir.

Kommersiya müəssisəsinin arzu olunan maliyyə nəticələrinə əldə edilən gəlirin məsrəflərə nisbəti, habelə onun maliyyə sabitliyinin qiymətləndirilməsi ilə nail olmaq olar. Kənd təsərrüfatı müəssisəsinin maliyyə sabitliyinin təhlili və qiymətləndirilməsi aşağıdakı suallara cavab verməyə kömək edə bilər:

- nəzərdən keçirilən dövrdə müəssisə öz maliyyə resurslarını düzgün idarə edirmi;
- mülkiyyətindən nə dərəcədə səmərəli istifadə edir;
- kapitalın rasional istifadə edilib-edilməməsi;
- şirkətin debitorlar, kreditorlar, büdcə, səhmdarlar və kredit təşkilatları ilə yüksək keyfiyyətli münasibətləri olub-olmaması.

Kənd təsərrüfatı müəssisələrinin maliyyə sabitliyinə aqrar sektorun spesifik xüsusiyyətləri əhəmiyyətli dərəcədə təsir göstərir:

- istehsal mövsümi xarakter daşıyır;
- vəsaitlərin qoyuluşu ilə istehsal nəticələrinin alınması arasında vaxt fasiləsi var;
- istehsal risklidir;
- sənayenin texnoloji avadanlıqları kifayət qədər aşağı səviyyədədir;

№ 3/2023 səh.88-94

- müəssisə tərəfindən kənd təsərrüfatı məhsullarının bir hissəsi satıla bilməz, lakin təsərrüfatda gənc heyvan, yem, toxum və ya üzvi gübrə kimi qala bilər ki, bu da öz-özünə çoxalma adlanır;
- kənd təsərrüfatı məhsulları tez xarab olur və s. [8].

Təsərrüfat subyektlərinin maliyyə fəaliyyəti müxtəlif amillərdən asılı olan bir-biri ilə əlaqəli proseslərin məcmusudur. Eyni zamanda, maliyyə sabitliyi müxtəlif amillərdən asılı olaraq müəssisənin maliyyə fəaliyyətinin kompleks xarakteristikasıdır. Bu amillərin müxtəlifliyi onların sistemləşdirilməsini tələb edir, çünki bu, aşağı davamlılıq problemlərini və onun təkmilləşdirilməsi yollarını müəyyən etmək üçün vacibdir.

Faktorlar bir-biri ilə sıx əlaqəli olduğundan, çox vaxt subyektin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə müxtəlif istiqamətlərdə təsir göstərir, yəni bəziləri müsbət, digərləri isə mənfi təsir göstərir. Eyni zamanda, bəzi amillərin müsbət təsiri digərlərinin mənfi təsirini azalda bilər.

Müəssisənin maliyyə sabitliyinə təsir edən amillər. Təsərrüfat subyektinin maliyyə sabitliyinə və ayrıca bir göstəriciyə (və ya bir qrup göstəriciyə) çoxsaylı və müxtəlif səbəblər təsir edir [2].

Müəssisənin qeyri-sabit vəziyyətinin səbəbləri əsasən bugünkü qeyri-sabit iqtisadi şəraitdə əsasən sistemli makroiqtisadi hadisələrdir [3].

Müəssisənin maliyyə sabitliyinə aşağıdakı kimi təsnif edilə bilən bir qrup amillər təsir göstərir:

- mənşə yerinə görə – xarici və daxili;
- nəticənin əhəmiyyətinə görə - əsas və ikinciliyə;
- quruluşuna görə - sadə və mürəkkəbə;
- fəaliyyət zamanına görə - daimi və müvəqqəti.

Nəticə etibarı ilə hər bir müəssisənin kommersiya fəaliyyəti yuxarıda sadalanan çoxsaylı və müxtəlif amillərdən asılı olan bir-biri ilə əlaqəli iqtisadi proseslərin geniş spektridir.

Təsərrüfat subyektinin işində daxili amillərin hərtərəfli təhlili həmin sahələrin müəyyənləşdirilməsinə kömək edə bilər ki, onların inkişafı uzunmüddətli perspektivdə maksimum iqtisadi effektə səbəb olacaqdır. Müəssisənin təsərrüfat fəaliyyəti sadəcə olaraq onun maliyyə sabitliyinə bu kimi amillərin təsirini yaradır, ona görə də bu problemin nəzərdən keçirilməsi prosesində müəssisələrin maliyyə sabitliyi ilə daxili amillər arasındakı əlaqə ən yaxından araşdırılmalıdır [6].

Müəssisənin maliyyə sabitliyini formalaşdıran xarici amillərin öyrənilməsi zamanı aşağıdakı əsas prosesləri müəyyən etmək olar:

- bütün xarici amillərin öz aralarında və daxili amillərlə sıx əlaqəsi;
- xarici amillərin mürəkkəbliyi, onların keyfiyyət və kəmiyyət ifadələrinin qeyri-müəyyənliyi və ya olmaması;
- hər bir konkret amil haqqında müəssisədə mövcud olan məlumatların etibarlılığının kəmiyyət funksiyası olan qeyri-müəyyənlik. Nəticə etibarilə, xarici mühit nə qədər qeyri-müəyyən olsa, bu və ya digər xarici amilin təsirinin hansı nəticələrə gətirib çıxaracağını öyrənmək bir o qədər çətindir.
- Xarici mühitin qeyri-müəyyənliyi tərəfdaşların və qarşı tərəflərin ümumi sabitliyi, regionun (dövlətin) qeyri-sabit kredit və maliyyə siyasəti, qeyri-sabit xarici siyasət, müxtəlif sanksiyalar tədbirləri və bir çox digər neqativ amillər haqqında etibarlı məlumatın olmaması ilə ifadə edilə bilər.

Əlbəttə, ayrı-ayrı təşkilatlar çoxsaylı xarici amillərin öhdəsindən gələ bilmirlər, lakin indiki vəziyyətdə onlar iqtisadi inkişafın ümumi tənəzzülünün arzuolunmaz nəticələrini yumşaltmağa imkan verəcək iqtisadi strategiyanı həyata keçirməkdə qalırlar [10].

Xarici amillərin təsirinin mənfi nəticələrini yumşaltmağın yollarından biri korporasiyaların və ya holdinqlərin yaradılması ola bilər. Belə birliklərin nəinki əlverişsiz iqtisadi mühitdə yaşamaq, həm də birgə səylərlə xarici amillərin ayrı-ayrı təzahürlərinə (iqtisadiyyatda, siyasətdə və ümumilikdə sosial cəmiyyətdə) təsir etmək şansı artır. Təşkilatın iradəsindən asılı olmayan xarici amillər və fəaliyyət formalarından asılı olaraq daxili amillər baş verdiyi yerə görə təsnif edilir (Sxem 1).

№ 3/2023 səh.88-94

Tədqiqat aparılarkən müəssisənin təsərrüfat fəaliyyətindən asılı olan, onun faktiki təsir göstərə, təsirini dəyişdirə və hətta müəyyən dərəcədə idarə edə bilən daxili amillərə mühüm diqqət yetirilir [4].

Daxili amillərə aşağıdakılar daxildir:

- müəssisənin sahəvi mənsubiyyəti;
- istehsal olunan məhsulun (xidmətlərin) strukturu, onun ümumi effektiv tələbdə payı;
- ödənilmiş nizamnamə kapitalının məbləği;
- xərclərin həcmi, onun mənfəətlə müqayisədə dinamikası;
- aktivlərin və pul vəsaitlərinin ehtiyatlarının, o cümlədən ehtiyatların və ehtiyatların vəziyyəti, onların tərkibi və strukturu.

Xarici amillərə fəaliyyətin iqtisadi şəraitinin təsiri, cəmiyyətdə üstünlük təşkil edən texniki və texnoloji həllər, alıcıların effektiv tələbi və gəlirlilik səviyyəsi, dövlətin vergi-kredit və maliyyə siyasəti, fəaliyyətə nəzarət üçün normativ və qanunvericilik aktları, müəssisənin fəaliyyəti, xarici iqtisadi əlaqələr, sosial cəmiyyətdə dəyərlər sistemi və s. daxildir. Təsərrüfat subyekti xarici amillərə təsir edə bilməz, o, yalnız onların təsirinə uyğunlaşa bilir [1].

Müasir bazar xarici və daxili amillərin korreksiyasına müəssisə rəhbərliyinin təcili reaksiyası ilə xarakterizə olunur.

Faktorlardan hansının daha vacib olması sualında alimlərin fikirləri fərqlidir: məsələn, iqtisadçı N.V.Kolçina hesab edir ki, ən mühümü xarici amillərdir. İqtisadçı L.M.Qiyarovskinin nöqteyi-nəzərindən maliyyə sabitliyi ilk növbədə daxili amillərdən asılıdır.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı müəssisələri üçün daxili amillər daha vacibdir, çünki onlara təsir etmək olar, həm də onların köməyi ilə xarici amillərin mənfi təsirini aradan qaldırmaq və təsərrüfat subyektinin maliyyə sabitliyinin artmasına nail olmaq [7, s.287].




**Sxem 1. Müəssisənin davamlılığına təsir edən amillər**

Belə ki, kənd təsərrüfatı istehsalçılarının maliyyə göstəriciləri onların yetişdirdiyi məhsulların məhsuldarlığından çox asılıdır. Kənd təsərrüfatı müəssisələrinin maliyyə sabitliyinə xarici amil olan təbii-iqlim şəraiti, eləcə də istehsalda tətbiq olunan texnologiyalar, toxumların səpin keyfiyyəti və s. təsir göstərir və bunlar daxili amillərdir. İstehsalçılar məhsuldarlığı artırmaq üçün təbii şəraitə təsir göstərə bilmirlər, eyni zamanda daxili amilləri manevr etməklə istehsalın nəticəsini artıra bilirlər: əkin toxumlarının keyfiyyətini yaxşılaşdırmaq, müasir enerjiyə qənaət edən bitki becərmə texnologiyalarından istifadə etməklə istehsalın səmərəliliyini artırmaq və s. aiddir.

№ 3/2023 səh.88-94

Kənd təsərrüfatı istehsalçısının maliyyə sabitliyini formalaşdıran xarici amilləri öyrənmək üçün onların əsas xüsusiyyətlərini ayırmaq olar:

1. Xarici amillərlə daxili amillər arasında sıx əlaqə. N.P.Lyubushinə və Sevastyanova A.V. görə xarici amillər əsasən daxili amillərə proyeksiya edir, onlar vasitəsilə özünü göstərir, sonuncunun kəmiyyət ifadəsini dəyişdirir. Məsələn: ölkə iqtisadiyyatında ödənişsizliyin yayılması debitor və kreditor borclarının daxili amillərinin artmasına səbəb olur. Bu da öz növbəsində müəssisədən şübhəli borclar üçün ehtiyat yaratmağı, eyni zamanda cərimələrin tətbiqi üçün qarşı tərəflərlə müqavilə intizamını gücləndirməyi tələb edir. Borcluların müflisləşməsi həmişə kənd təsərrüfatı istehsalçısının debitor borclarının həcminin artmasına, strukturuna görə isə təsərrüfat subyektindən vaxtı keçmiş və şübhəli borclarının həcminin artmasına səbəb olur [5, s. 116].

2. Xarici amillərin əhəmiyyətli sayına və onların hər birinin dispersiya səviyyəsinə görə onların nəzərə alınmasında çətinlik yaranır. Öyrənilən xarici amilləri rasionallaşdırmağa və onları müqayisəli formaya gətirməyə imkan verən qiymətləndirmə metodundan iqtisadiyyatda istifadə etmək demək olar ki, mümkün deyil, ona görə də kənd təsərrüfatında müəssisənin maliyyə sabitliyinin formalaşması ilə bağlı dəqiq proqnozlar vermək mümkün deyil.

3. Faktorların kəmiyyət ifadəsi çətin və ya yoxdur.

4. Qeyri-müəyyənlik. Təsərrüfat subyekti konkret faktor haqqında müəyyən məlumata malik ola bilər, həmçinin bu məlumatlara arxayın ola bilər. Müəssisə üçün qeyri-müəyyən xarici mühitdə müəyyən xarici amilin onun maliyyə sabitliyinə nə dərəcədə və hansı nəticələrlə təsir etdiyini müəyyən etmək çətindir [9, s. 260].

Aqrobiznes müəssisələrinin maliyyə sabitliyinin formalaşdırılması onun mülkiyyətində öz və borc götürülmüş komponentlərin rasional birləşməsinin ən mühüm problemidir. Buna görə də kənd təsərrüfatı müəssisələrinin maliyyə sabitliyinin əsas problemlərindən biri kapitalın artırılması tədbirlərindən daha çox borclanmanın üstünlük təşkil etməsidir. Vəziyyəti borc vəsaitlərinin qeyri-maliyyə formasında əldə edilməsinə üstünlük verilməsi (yəni maddi sərvətlərin - toxumların, gübrələrin, yanacaq-sürtkü materiallarının nağd şəkildə ödənilməsinin real imkanlarını nəzərə almadan kreditlə əldə edilməsi) daha da ağırlaşır ki, bu da kənd təsərrüfatı müəssisələrinin xarici kreditorlardan asılılığını artırır.

Təchizatçı və podratçılar, müəssisə işçiləri, dövlət qeyri-büdcə fondları, vergi və ödənişlər və digər kreditorlar qarşısında uzunmüddətli borcların yaranması kənd təsərrüfatı müəssisələrinin maliyyə dayanıqlığının azalmasının ikinci problemidir. Kreditor borclarının iqtisadi baxımdan yüksək artımı müəssisənin istehsalının, onun sahə strukturunun və normal təkrar istehsalın bərpası üçün maliyyə mənbələrinin eyni dərəcədə sürətli və əhəmiyyətli dərəcədə azalması deməkdir.

Debitor və kreditor borclarının nisbəti göstəricilərinin mənfi dinamikasının, habelə vaxtı keçmiş borcların ümumi məbləğində sabit artım tendensiyası aqrobiznes müəssisələri üçün səciyyəvi olan səbəblərdən biri məbləğlər artarkən debitor borclarının məbləğinin azalmasıdır. Nəticədə şirkətin öz maliyyə mənbələrinin azalması, ödəmə qabiliyyətinin azalması və nəticədə tədarükçülər, investorlar, kreditorlarla münasibətlərin pozulması, maliyyə riski əmsalının artması baş verir.

Kənd təsərrüfatı müəssisələrinin nizamnamə kapitalının dəyərinin azalması müəssisənin xalis mənfəətinin azalması ilə əlaqədardır ki, bu da müəssisənin dövriyyəsində öz kapitalından istifadənin səmərəliliyinin azalmasının əsas səbəbidir. Öz növbəsində aqrobiznes müəssisələrinin xalis mənfəətinin azalması müəssisənin xərclərinin artım tempinin onun gəlirlərinin artım tempindən artıq olması ilə əlaqədardır. Beləliklə, kənd təsərrüfatı müəssisələri ümumi mənfəətin istehsal həcmindəki dəyişikliklərə həssaslığının aşağı dərəcəsi ilə xarakterizə olunur.

Hər yerdə aparılan konservativ maliyyə siyasəti ona gətirib çıxarır ki, kənd təsərrüfatı müəssisələrinin maliyyə riski dərəcəsi müəssisələrin aktivlərinin cari strukturunda normativ səviyyəni artırır və üstələyir.

Cari istehsalın təmin edilməsi üçün zəruri olan dövriyyə vəsaitlərinin çatışmazlığı aqrar-sənaye müəssisələrinin maliyyə dayanıqlığının azalmasına səbəb olur. Müəssisələrin inkişafına mane olan əsas səbəblər bir tərəfdən alıcıların ödəniş etməməsi, digər tərəfdən təhvil verilmiş məhsula görə

№ 3/2023 səh.88-94

ödənişlərdə pul komponentinin böyük payı ilə bağlıdır. Hesablaşma, valyuta və digər bank hesablarında sərbəst nağd pulun olmaması müəssisələrin maliyyə sabitliyinə mənfi təsir göstərir və praktiki olaraq onların müflisləşməsi deməkdir.

Bu problemlər daha çox kənd təsərrüfatı müəssisələrinin əksəriyyəti üçün xarakterikdir. Bu tendensiya ölkəmizin milli iqtisadiyyatının bütün sahələrinin uzun sürən iqtisadi böhrana düşməsi ilə bağlıdır.

Beləliklə, bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı istehsalçılarının maliyyə sabitliyi əks əlaqənin idarə edilməsinə, yəni təsir edən amillərin dəyişməsinə aktiv reaksiyaya əsaslanır. Aqrobiznes müəssisələrinin fəaliyyətinin təhlili onların maliyyə dayanıqlığının artırılmasına yönəlmiş tədbirlərin işlənib hazırlanmasına imkan vermişdir.

## ƏDƏBİYYAT


1. Ионова А.Ф. (2006), Финансовый анализ /А.Ф. Ионова, Н.Н. Селезнева. – М.: Проспект, 624 с.
2. Кован С.Е. (2015), Методология обоснования восстановления платежеспособности / С.Е. Кован, А.Н. Ряховская // Арбитражный управляющий. № 3. С. 35-38.
3. Курилова А.А. (2011), Хеджирование валютных и товарных рисков с использованием опционов предприятиями автомобильной промышленности / А.А. Курилова, К.Ю. Курилов // Аудит и финансовый анализ. № 2. С. 132–137
4. Любушин Н.П. (2004), Анализ финансово-экономической деятельности предприятия / Н.П.Любушин, В.Б.Лещева, В.Г.Дьякова. М.: ЮНИТИДАНА, 471 с.
5. Любушин Н.П. (2007), Экономический анализ [Текст]: учебное пособие / под ред. Н.П. Любушин, Н.Э. Бабичева. – М.: ЮНИТИ-ДАНА, 159 с.
6. Москвитин Е.Ю. (2015), Внутренний аудит и анализ финансовой устойчивости на предприятиях АПК [Текст]: автореф. дис. канд. экон. наук / Е.Ю. Москвитин. Шахты, 24 с.
7. Савицкая Г.В. (2006), Экономический анализ [Текст]: учебник / Г.В.Савицкая. 12-е изд., испр. и доп. М.: Новое знание, 679 с.
8. Торженова Т.В. (2011), Оценка финансовой устойчивости и ее укрепление на предприятиях АПК [Текст] / Т.В. Торженова, О.И. Ванюшина // Юбилейный сборник научных трудов профессорско-преподавательского состава, аспирантов, соискателей и студентов. Рязань: РГАТУ, С. 58-67.
9. Чернышева Ю.Г. (2005), Анализ финансово-хозяйственной деятельности [Текст] : учеб. пособие / под ред. Ю.Г. Чернышева. – Ростовна-Дону: «Феникс», 284 с.
10. Швандар В.А. (2015), Курс предпринимательства. Швандар В.А. [и др.] ; под ред. В.Я. Горфинкеля. М.: Кнорус, 168 с


**УДК 338.12:338.34**

## Особенности и факторы, обеспечивающие финансовую устойчивость субъектов хозяйствования в агропромышленном комплексе

**Резюме.**В современных экономических условиях многие организации уделяют особое внимание финансовой устойчивости как стратегическому фактору финансового обеспечения деятельности компании, повышения ее деловой активности и привлечения инвестиций. Финансовая устойчивость является одним из основных экономических факторов, по которым оценивается финансовое состояние экономического субъекта. Она формируется в процессе всей финансово-хозяйственной деятельности и является основной составляющей общей устойчивости организации. Финансовая устойчивость предприятия – это способность экономического субъекта действовать и развиваться в меняющейся внутренней и внешней

среде, поддерживать баланс активов и пассивов, обеспечивать постоянную платежеспособность и инвестиционную привлекательность при приемлемом уровне риска.

**Ключевые слова:** агропромышленный комплекс, хозяйствующие субъекты, финансовая устойчивость, рыночная экономика, сельское хозяйство и др.

**UDC 338.12:338.34**

## Features and factors that ensure financial stability of economic entities in the agro-industrial complex

**Summary.**In modern economic conditions, many organizations pay special attention to financial stability as a strategic factor in the financial provision of the company's activities, increasing its business activity and attracting investments. Financial stability is one of the main economic factors by which the financial condition of an economic entity is evaluated. It is formed in the process of all financial and economic activity and is the main component of the overall stability of the organization. The financial stability of the enterprise is the ability of the economic entity to operate and develop in a changing internal and external environment, to maintain the balance of assets and liabilities, to ensure constant solvency and investment attractiveness at an acceptable risk level.

**Key words:** agro-industrial complex, economic entities, financial stability, market economy, agriculture, etc.

Redaksiyaya daxilolma: 11.09.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.95-100

UOT 330.13.6
DOI:10.30546/JIECM.2023.3.95.

# AQRAR İSTEHSALIN SƏMƏRƏLİLİYİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏRİN TƏHLİLİ

[1]Yaqub Feyzulla oğlu Əlifov, [2]Vüsal Yaqub oğlu Əlifov

Azərbaycan Dövlət Aqrar Universiteti
Gəncə şəhəri, Atatürk prospekti 450

yaqubalifov @ qmail.com , alifovvüsal @ qmail.com

***Xülasə:*** *Uzun illər bazar iqtisadiyyatı şəraitində yaşayan ölkələrin aqrar sahəsindəki müasir siyasəti göstərir ki, yalnız torpağı kəndlilərə paylamaqla kənd təsərrüfatının inkişafına və ölkənin ərzaq təhlükəsizliyinə nail olmaq mümkün deyil. Bunun üçün həm də dövlət himayəsi və qayğısı ilə istehsalın həcmini artırmaq və məhsulların keyfiyyətini yaxşılaşdırıb maya dəyərini azaltmaqla istehsalın səmərəliliyini yüksəltmək lazımdır.Lakin nəzərə almaq lazımdır ki,aqrar istehsala mövsümlük, bioloji proseslər, iqlim və coğrafi şəraitdən asılılıq, yüksək kapital tutumluluq, rentabelliyin aşağı səviyyəsi, qeyri-elastik tələb, yüksək səviyyəli risk kimi bir sıra amillər təsir edir.*

*Aqrar istehsalın səmərəliliyinini müəyyən edərkən aşağıdakıların nəzərə alınmasına ehtiyac vardır: kənd təsərrüfatının sahə xüsusiyyətləri, torpağın iqtisadi məhsuldarlığı, sahə vahidinə düşən istehsal həcmi və gəlirin səviyyəsi; istehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması üçün elmi-texniki tərəqqinin nəticələrinin tətbiqi, yüksək keyfiyyətli məhsulların maksimum istehsalı; ərzaq məhsulları istehsalının iqtisadi səmərəliliyinin və ətraf mühitə təsirinin yalnız ayrı-ayrı subyektlər deyil, bütövlükdə iqtisadiyyat baxımından qiymətləndirilməsi.*

*Aqrar siyasətin yeni mərhələsində qarşıda duran bu vəzifələri həyata keçirmək üçün təsərrüfatların maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni istehsal və emal müəssisələrinin yaradılması, müasir texnika və texnologiyaların tətbiqi, sahibkarlığın daha da inkişaf etdirilməsi, bu sahəyə dövlət dəstəyinin genişləndirilməsi və digər tədbirlər davamlı olmalıdır.*

***Acar sözlər:*** *səmərəlilik, təmərküzləşmə, infrastruktur, ixtisaslaşma, disporitet, stimullaşdırma.*

**Tədqiqatın nəticələri:** Aərbaycan Rspublikasında kənd təsərüftında sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi və bu sahədə onun spesifik xüsusiyyətləri nəzərə alınmaqla təklif və tövsiyələrin hazırlanması

**Giriş.** Kənd təsərrüfatı özünün obyektiv xüsusiyyətlərinə, uzun illər ərzində formalaşan resurs bazasına, ənənəvi və ixtisaslaşmış istehsal sahələrinin mövcudluğuna görə spesifik sahələrdən biri olmaqla əhalini ərzaqla və emaledici sənayeni xammalla təmin edir. Kənd təsərrüfatı istehsalının səviyyəsi müxtəlif dalğalanmaların təsirinə məruz qaldığından cəmiyyətin ehtiyaclarını ödəmək üçün lazım olan miqdarda kənd təsərrüfatı istehsalının təmin edilməsinə daim ehtiyac vardır. Lakin istehsalın zəruri səviyyəsinə təbii-iqlim amillərinin mənfi təsiri, resurs potensialından qeyri-səmərəli istifadə edilməsi, istehsal şərtləri və texnologiyasına riayət edilməməsi, məhsulun yığılması, daşınması və saxlanması zamanı itkilərə yol verilməsi və səbəblərdən buna həmişə nail olmaq mümkün olmur. Ona görə də kənd təsərrüfatı istehsalının artırılması, davamlılığının və səmərəliliyinin təmin edilməsi müasir dövrün ən vacib vəzifələrindən biridir. Bu vəzifələrin həlli kənd təsərrüfatının inkişafında davamlı istehsal və istehlak modellərindən, yeni və ətraf mühitə uyğun texnologiyalardan istifadəni, infrastruktur və logistika şəbəkəsinin inkişafını, enerjidən istifadənin səmərəliliyini və enerji təchizatının yaxşılaşdırılmasını tələb edir.

**Mövunun aktuallığı.** Son illərdə aparılan məqsədyönlu iqtisadi siyasət nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilmiş və Azərbaycan regionun lider ölkəsinə çevrilmişdir.Artıq respublikmızda iqtisadiyyatın qeyri-neft sktorunun,o cümlədən kənd təsərrüfatının inkişafında yüksəlş

№ 3/2023 səh.95-100

müşahidə olunmaqdadır.Aqrar sahəyə və bu sahədə sahibkarlığın inkişafına qoyulan investisiyalar,aparılan islahatlar kənd təsərrüfatının sürətli və dayanıqlı inkişafına səbəb olmaqla məhsuldarlığı artırmış,əhalinin ərzaq məhsuları ilə daha dolğun təminatına imkan vermişdir.Respublikamızda ardıcıl olaraq aparılan aqrar iqtisadi islahatlar aqrar sahibkarlığın sürətli və dayanıqlı inkişafına şərait yaratmış,rəqabətqabiliyyətli aqrar istehsalın formalaşması və inkişafı əsasən intensiv amillərdən səmərəli istifadə edilməklə həyata kecirilmişdir.

**Tədqiqatın məqsədi.**Bazar iqtisadiyyatı şəraitində aqrar sahədə istehsalın səmərəlilik göstəricilərini təhlil etmək və bu amillərin sahibkarlığın inkişafına təsirini tədqiq etmək.

**Tədqiqatın obyekti.**Azərbaycan Pespublikasında kənd təsərrüfatı məhsullarının istehsalını həyata kecirən sahibkarlıq qurumları.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı müşahidə, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, məqsədli sistemli yanaşma, qruplaşdırma və digər üsullardan istifadə olunmuşdur.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

**Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində ixtisaslaşmanın əhəmiyyəti.** İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki,aqrar sferada sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün onun spesifik xüsusiyyətlərinin nəzərə alınmsı vacibdir .Aqrar sənaye sistemində sahibkaııq fəaliyyəti üzrə ixtisaslaşma aparılarkən bu sahənin özünəməxsus xüsusiyyətləri nəzərə alınmalıdır. Kənd təsərrüfatı istehsalının səmərəli yerləşdirilməsi və ixtisaslaşdırılması məsələlərinə aqrar sahibkarlığın inkişafı prioritetləri müstəvisində baxılması məqsədəuyğundur. İxtisaslaşma aqrar sahibkarlığın iqtisadi, ekoloji və sosial səmərəliliyinin yüksəldilməsinə yönəldilməklə kənd təsərrüfatının çoxfunksiyalılığının reallaşmasına şərait yaratmalıdır.

Kənd təsərrüfatının ayrı-ayrı sahələrində sahibkarlıq fəaliyyətinin qarşılıqlı əlaqələri üzrə ixtisaslaşma əsaslandırılmalıdır.İxtisaslaşma bazarın şaxələndirilməsi üzrə aparılmalı və aqrar sahibkarlığın inkişafı prioritetləri baxımından səmərililik qiymətləndirilməlidir.

Aqrar sahədə ixtisaslaşmanın xarakteri dövlətin bu sahəni tənzimləmə sistemindən bilavasitə asılıdır. Dövlət tərəfindən subsidiyalar,qiymət tənzimlənməsi,güzəştli kreditlər hesabına kənd təsərrüfatı sahəsind ixtisaslaşmanın stimullaşdırılması mühüm əhəmiyyt əsb edir. Bu aqrar sahibkarlığın struktur potensialının artırılması vasitəsi kimi, miqyas səmərəsi hesabına xərclərin azaldılması xəttidir.

Kənd təsərrüfatında istehsalın təmərküzləşdirilməsi istehsalda gəlirlərin artırılması məqsədi ilə aparılır. Kənd təsərrüfatı məhsulları istehsalçrlarının dövlət tərəfındən himayə edilməsi onların gəlirlərinin artırılmasına səbəb olur. İxtisaslaşmanın xarateri və səviyyəsinə təsir edən amillər aqrar bazarda tələb-təklif tarazlığının dəyişməsinə səbəb olur. Aqrar sahədə sahibkarlığın ixtisaslaşmasında regional xüsusiyyətlərin nəzərə alınması məqsədəuyğundur. Regionlarda kənd təsərrüfatının inkişaf tədbirləri nəzərdə tutularkən inkişaf meylləri, infrastruktur, aqroturizm, ətraf mühitin mühafızəsi məsələləri də nəzərdən qaçırılmamalıdır [4, 63].

Aqrar sahibkarlığın regional xüsusiyyətbrinin ixtisaslaşmadakı təzahürləri baxımından böyük şəhərlərə yaxın ərazilərdə fəaliyyət göstərən aqrar sahibkarlıq subyektlərində istehsal qurluşunun özünəməxsusluğu ,onun mərkəzi şəhərin tələbatına istiqamətlənən ixtisaslaşması ilə əlaqədardır.

Şəhərətrafı kənd təsərrüfatı müəsisələrinin səmərəli istehsal qurluşunun müəyyənləşdirilərkən torpağın keyfıyyəti, tərkibi və ondan istifadənin intensivliyi, əmək resursları ilə təminat, texniki təminat və məhsulun daşınma qabiliyyəti kimi təbii-iqtisadi amillərə üstünlük verilməsi məqsədəuyğundur. Bu amillərin hər birinin müxtəlifliyi və qarşılıqlı əlaqələri şəhərətrafı zonada müxtəlif ixtisaslaşma səviyyəsinə malik təsərrüfatları məlum şərtilik dərəcəsi ilə birsahəli, dar ixtisaslaşmış və geniş ixtisaslaşmış kimi fərqləndirmək olar [3, 204].

Mərkəzi şəhərin yaxınlığı məhsulun satış problemlərini azaldan ixtisaslaşma tələb etsə də ,bu məsələnin həlli infrastruktur elementlərinin kompleks əmələ gətirməsi dərəcəsindən və başlıca olaraq daxili bazarın müvafıq seqmentinə xidmətinin səmərəliliyindən asılıdır. Şəhər ətrafı kənd təsərrüfatı istehsalının ixtisaslaşması birbaşa əlaqələrlə şəhərə daşınan ərzaq məhsullarının istehsal imkanlarının

təbii-iqlim, istehsal və digər parametrlərindən bilavasitə asılıdır. Məhsul göndərmələrin həcmi və strukturu müəyyənləşdirilərkən həmin sahədə hər bir məhsul üzrə adambaşına istehlakın səviyyəsi nəzərə alınmalıdır. Beə bir vəziyyət həm daşinma zonasının, həm də şəhərətrafı zonanın ixtisaslaşması parametrlərindən əhəmiyyətli təshihlər edilməsini tələb edir [3,206].

**İstehsalın səmərəliliyinin yüksəldilməsində maya dəyərinin aşağı salınmasinin əhəmiyyəti.**Məhsulların maya dəyərinə daxili və xarici amillər təsir göstərir. Xarici amillərə inflyasiya, vergiqoymalar, kredit dərəcələri, kənd təsərrüfatı ilə aqrar-sənaye kompleksi sahələri arasında əmtəə mübadiləsindəki qiymətlərdə disporitet aiddir.**Daxili amillər** təsərrüfat fəaliyyətlərindən asılıdır və maya dəyərinə güclü təsir göstərir. Onlara istehsalin texnologiyası, maddi stimullaşdırma, əməyin və vəsaitlərin normalaşdırılması, istehsalın təşkili və idarə edilməsi, ixtisaslaşma və s. aiddir.

Müasir şəraitdə maya dəyərinə xarici amillər güclü təsir göstərir. Bu isə kənd təsərrüfatı məhsullarının bütün növləri üzrə maya dəyərinin artmasına səbəb olur.

**Cədvəl**

**Kənd təsərrüfatı müəsisələrində istehsal olunan bir setner məhsulun maya dəyəri,manatla**

| **Göstoricilərin adı** | 2020 | 2021 | 2022 | 2020-yə nisbətən 2022-ci ildə %-lə |
|---|---|---|---|---|
| Dənli bitkilər | 16,37 | 16,31 | 18,69 | 114,2 |
| şəkər çuğunduru | 2,69 | 2,82 | 3,86 | 143,5 |
| Xam pambıq | 50,39 | 61,86 | 73,10 | 145,1 |
| Tütün | 103,99 | 86,71 | 100,25 | 96,4 |
| Kartof | 14,06 | 13,43 | 21,39 | 152,1 |
| tərəvəz | 19,45 | 16,65 | 20,60 | 105,9 |
| bostan məhsulları | 10,38 | 10,71 | 10,81 | 104,1 |
| meyvə və giləmeyvə | 49,78 | 36,31 | 48,17 | 96,8 |
| Üzüm | 46,29 | 49,41 | 52,68 | 113,8 |
| Yaşıl çay yarpağı | 183,17 | 73,61 | 97,29 | 52,9 |
| **Çəki artımı** | | | | |
| İribynuzlu mal –qara | 348,17 | 422,41 | 438,07 | 113,9 |
| qoyun və keçi | 33 3,44 | 301,44 | 343,42 | 103,0 |
| donuz | 302,01 | 301,27 | 384,12 | 127,1 |
| Quş | 216,88 | 279,18 | 324,05 | 149,4 |
| Süd | 31,87 | 40,29 | 47,59 | 149,3 |
| yumurta (1000 ədədlə) | 117,76 | 143,22 | 99,84 | 84,8 |
| yun | 101,79 | 111,57 | 98,74 | 97,0 |

Mənbə: **Azərbaycanın Kənd təsərrüfatı 2023.**s.110

Cədvəl məlumatlarından göründüyü kimi 2020-ci ilə nisbətən 2022-ci ildə kartofun, xam pambığın, şəkər cuğundurun bir sentnerin maya dəyərində ən cox artım müşahidə olunmuşdur.Belə ki, kartofun bir sentnerin maya dəyəri 52,1%,xam pambığın bir sentnerin maya dəyəri 45,1%, şəkər cuğundurun bir sentnerin maya dəyəri 43,5% artmışdır. Kartofun, xam pambığın, şəkər cuğundurun bir sentnerin maya dəyərində artıma səbəb kimi suvarma sahəsində cətinliyin olmasını,gübrələrin ,yanacağın baha olmasını göstərmək olar. Bu dövrdə yaşıl çay yarpağı üzrə bir sentnerin maya dəyəri 47,1%, meyvə və giləmeyvənin bir sentnerin maya dəyəri 3,2%,tütünün bir sentnerin maya dəyəri 3,6% aşağı düşmüşdür.

Heyvandarlıqda bir sentnerin maya dəyəri quşculuqda 49,4% və südcülükdə 49,3% cox olmuşdur. Maya dəyərinin artması məhsulların qiymətinin də yüksəlməsinə səbəb olmuşdur.Araşdırmalar göstərir ki,üc il ərzində şəhər bazarlarında dana və quzu ətinin bir kiloqramının

№ 3/2023 səh.95-100

qiymətində 5-6 manat artım müşahidə edilir.Bunun bir cox səbəbləri vardır.Belə ki,beynəlxalq normalar əsasən hər nəfərə ilik 78 kq.ət düşməlidir.Azərbaycanda isə yerli istehsal hesabına hər nəfərə ilik 35-36 kiloqram ət düşdüyü ücün də bir o qədər də ət xaricdən idxal ölunur.Ətin giymətini qalxmasının başlıca səbəbi kimi yem bazasının zəif olması nəticəsində yemlərin qiymətlərinin artmasını və örüs yerlərinin zəif olmasını göstərmək olar.

Kənd təsərrüfatında sahibkarlıq subyektlərinin məhsullarının bir sentnerinin satış qiymətinin səviyyəsi onların istehsalının genişləndirilməsinə, maddi bazanı lazımi səviyyədə saxlanmasına və yeniləşdirilməsinə, malgöndərənlər, podratçılar və digər tərəfdaşlarla vaxtlı- vaxtında hesablaşmalar aparmasına tam şərait yaratmır.

Məhsulun maya dəyərinin aşağı salınmasının başlıca amili maddi resurslardan səmərəli istifadədir ki, buna nail olmaq üçün resurslara qənaətlə istifadə edilməsi,yeni məhsuldar texnologiyalarının tətbiqi, yüksək keyfıyyətli toxum və hibridlərin istifadəsi, yemin keyfıyyətinin yüksəldilməsi və s. vacib şərtlərdir.

Məhsulun maya dəyərinin aşağı salınmasında əsas kapitaldan istifadənin səmərəliliyinin yüksəldilməsi mühüm rol oynayır. Belə ki, əas kapitaldan səmərəli istifadə məhsul vahidinə cəkilən xərclərdə əsas kapital xərclərin azalmasına səbəb olur. Əsas kapitaldan istifadənin səmərəliliyini onların strukturunun təkmilləşdirilməsi, istehsaldan artıq vəsaitlərin çıxardılması, onların ümumi həcmində əsas kapitalın aktiv hissəsinin artırılması, maşın və avadanlıqlardan istifadənin yaxşılaşdırılması, traktorun, kombaynın işinin yüksəldilməsi və s. yolu ilə yüksəltmək olar. Son 2020-2022-ciillərdə ölkəmizdə taxılyığan kombaynların sayı artmayaraq 3,6 min ədəd olduğu kimi qalmış,traktorların sayı isə 35 min ədəddən 38,4 min ədədə catmışdır. [1,70].2022-ci ildə kənd təsərrüfatı,meşə təsərrüfatı və balıqcıqda əsas kapitala yönəldilmiş investisiyalar 408,0 milyon manat olmuşdur ki, bu da ümumi investisiyaların 2,3 faizini təşkil edir.Bütövlükdə ölkə iqtisadiyyatında istifadəyə verilmiş əsas fondların 4,6 faizi kənd təsərrüfatı,meşə təsərrüfatı və balıqcığın payına düşmüşdür. [2,511].

Əmək məhsuldarlığının yüksəldilməsi maya dəyərinin aşağı salınmasında xüsusi yer tutur. Əmək məhsuldarlığının yüksəldilməsinin əsas amilləri istehsalın kompleks mexanikləşdirilsı və avtomatlaşdırılması , əməyin ödənilməsinin təkmilləşdirilməsi, iş şəraitinin yaxşılaşdırılması nəticəsində nail olmaq olar.Əmək resurslarından səmərəli istifadəni müəyyən edən vacib amil-yüksək isehsal,əmək motivasiyasıdır. [5,148].

Məhsulun maya dəyərinin aşağı salınmasında kənd təsərrüfatı bitkilərinin və heyvanların məhsuldarlığının yüksəldilməsi geniş imkan yaradır. Azərbaycan Respublikası üzrə 2022-ci ildə taxılın məhsuldarlığı 31,3 sen/ha ,ən cox Mil-Muğan iqtisadi rayonunda 41,6 sen/ha,kartofun məhsuldarlığı 190 sen/ha ,ən cox Qazax-Tovuz rayonunda 222 sen/ha, tərəvəzin məhsuldarlığı 196 sen/ha, ən cox Qarabağ rayonunda 276 sen/ha olmuşdur**.** [2,479-488]. Bitkilərin məhsuldarlığının artırılmasına növbəli əkinin mənimsənilməsi, suvarma və gübrələnmənin tətbiqi, yüksək məhsuldar sortlardan istifadə, bitkilərin mühafızəsinin təşkili və aqrotexniki tədbirlərin həyata keçirilməsinin optimal vaxtının gözlənilməsi nəticəsində nail olmaq olar. Heyvandarlıqda və quşçuluqda məhsuldarlığı artırmaq yaxşı keyfıyyətli yemləndirmə,heyvanların düzgün saxlanılması, cinsləşdirmə və onların təkrar istehsalının aparılması ilə mümkündür.

Aqrar sahibkarlığın idarə edilməsinin təkmilləşdirilməsi torpaq və su ehtiyatlarından səmərəli faydalanmanın optimal metodlarının müəyyənləşdirilməsi, əmtəəlik məhsulun satışı, kənd təsərrüfatında innovasiyalı inkişafı, aqrar istehsalın intensivləşdirilməsi istiqamətləri baxımından reallaşdırılmalıdır.

Aqrar sahibkarlığın stimullaşdırılması prosesinə optimal struktur tələblərindən yanaşdıqda, bütün zəruri hallarda tələb-təklif nisbətinin tənzimlənməsində istehsalçı və istehlakçı mənafelərinin məqbul səviyyədə uzlaşdırıldığını söyləmək çətindir. Ərzaq təhlükəsizliyi baxımından istehsalı stimullaşdırılan kənd təsərrüfatı məhsulları bazarında rəqabət mühitində baş verən prosesləri əks etdirən lazımi informasiya bazası yoxdur.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan Respublikasında aqrar sahədə istehsalın səmərəliliyini şərtləndirən amillər və bu amillərin sahibkarlıq fəaliyyətinə təstri təhlil edilmişdir.

№ 3/2023 səh.95-100

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Tədqiqatın nəticələrindən aqrar sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin maliyyə vəziyyətinin və istehsal-təsərrüfat fəaliyyəti göstəricilərinin yaxşılaşdırılmasında istifadə edilə bilər

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Alınmış nəticələrdən, irəli sürülmüş təklif və tövsiyələrdən gələcəkdə kənd təsərrüfatında sahibkarlığın daha səmərəli inkişaf etdirilməsində və eləcə də, ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məsələlərin həllində istifadə edilə bilər.

## Nəticə

Respublikanın bütün iqtisadi rayonlarında aqrar sahibkarlığın inkişafı üçün ümumi əlverişli mühit şərait formalaşmaqdadır. Bir çox iqtisadi rayonlarda kənd təsərrüfatının inkişafında intensiv amillərdən istifadə üçün lazımi şərait formalaşmışdır.

Müəssisənin maliyyə vəziyyəti onun fəaliyyətinin həm nəticəsi, həm də dövlətin qiymət, kredit, vergi və sosial siyasətində baş verən dəyişikliklərə uyğunlaşmaq bacarığı ilə əlaqədardır.Hazırkı şəraitdə kənd təsərrüfatı müəssisələri və kəndli fermer təsərrüfatları qısa və uzunmüddətli bank kreditlərindən istifadə edirlər. Subsidiyalaşma kreditlərinin faizlərinin aşağı salınması ehtiyatlarının vacib hissəsidir. Vergi yüklərinin azaldılması maya dəyərinin aşağı salınmasında vacib rol oynaya bilər. Respublikamızda da dövlət kənd təsərrüfatı məhsulları istehsalçılarını müəyyən olunmuş müddətdə vergilərdən azad etmişdir .

İqtisadi səmərəlilik təmin olunduqda bu aqrar sahibkarlıq fəaliyyəti dairəsinin genişlənməsinə və əlavə iş qüvvəsi cəlb etməklə məşğulluğa əhəmiyyətli təsir etmiş olur.

Aqrar sahibkarlıq subyektlərinin vahid kontekstində idarə olunması tələb olunur. Dinamik inkişaf edən iqtisadiyyat şəraitində aqrar sahənin iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsinin sosial istiqamətli ölkədə məşğulluq və yoxsulluq kimi problemlərin həll olunmasına yönəldilməlidir

Aqrar siyasətin yeni mərhələsində qarşıda duran vəzifələri həyata keçirmək üçün yerlərdə aqrar sahibkarlığın, o cümlədən fərdi sahibkarlıq subyektlərinin fəallığının yüksəldilməsi üçün tədbirlərin davam etdirilməsi, fəaliyyətinin stimullaşdırılması sistemində modernləşdirilmənin əsaslarının işlənib başa çatdırılması məqsədəuyğundur.

Kənd təsərrüfatının dinamik və innovativ inkişafını təmin etmək, kənd yerlərinin iqtisadi və sosial inkişafını təşviq etmək üçün dövlət dəstəyinin həcminin artırılması və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün ehtiyatlar axtarılması xüsusilə vacibdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının innovativ və investisiya potensialı onlara dövlət dəstəyinin göstərilməsinin əsas amili kimi çıxış edə bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycanın Kənd təsərrüfatı. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı,2023.
2.Azərbaycanın Statistik Gösəriciləri.Bakı,2023.sx
3. Babayev R.Ə.Uranizasiya:şəhər iqtisadiyyatı və ərzaq problemi.Bakı,Elm nəşriyatı,2007,295 s.
4.İbrahimovİ.H.Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri.Bakı,"Səda"nəşriyyatı.2007.296s.
5. QuliyevE.A.Aqrar iqtisadiyyat."Kooperasiya"nəşriyyatı.Bakı-2015.322 s.148

**УДК 330.13.6**

# АНАЛИЗ ФАКТОРОВ, ОПРЕДЕЛЯЮЩИХ ЭФФЕКТИВНОСТЬ СЕЛЬСКОХОЗЯЙСТВЕННОГО ПРОИЗВОДСТВА

**[1]Алифов Я.Ф., [2]Алифов В.Я.**

**Резюме.**Современная аграрная политика стран, многие годы живущих в условиях рыночной экономики, показывает, что невозможно добиться развития сельского хозяйства и

продовольственной безопасности страны только путем раздачи земли крестьянам. Для этого необходимо также увеличивать объемы производства при поддержке и заботе государства и повышать эффективность производства за счет улучшения качества продукции и снижения себестоимости.Однако необходимо учитывать, что сельскохозяйственное производство зависит от сезонности, биологических процессов, климатических и географических условий, высокая капиталоемкость, низкий уровень рентабельности, неэластичный спрос, высокий уровень риска, зависят от ряда факторов.

При определении эффективности сельскохозяйственного производства необходимо учитывать: характеристики сельскохозяйственного района, экономическую продуктивность земли, объем производства на единицу площади и уровень доходов; применение результатов научно-технического прогресса для комплексной механизации и автоматизации производства, максимального выпуска высококачественной продукции; оценка экономической эффективности производства продуктов питания и воздействия на окружающую среду не только с точки зрения отдельных субъектов, но и с точки зрения экономики в целом.

В целях реализации этих задач на новом этапе аграрной политики необходимо укрепление материально-технической базы фермерских хозяйств, создание новых производственных и перерабатывающих предприятий, применение современной техники и технологий, дальнейшее развитие предпринимательства, расширение государственной поддержки сельского хозяйства. это поле и другие меры должны быть непрерывными.

**Ключевые слова:** эффективность, концентрация, инфраструктура, специализация, диспропорция, стимулирование.

**UDC 330.13.6**

## ANALYSIS OF FACTORS DETERMINING EFFICIENCY OF AGRICULTURAL PRODUCTION

**[1]AlifovY.F., [2]Alifov V. Y.**

**Summary.**The modern agricultural policy of countries that have lived in market economy conditions for many years shows that it is impossible to achieve the development of agriculture and food security of the country only by distributing the land to the peasants. For this, it is also necessary to increase the volume of production with the support and care of the state and increase the efficiency of production by improving the quality of products and reducing the cost. However, it is necessary to take into account that agricultural production depends on seasonality, biological processes, climatic and geographical conditions, high capital intensity, low level of profitability. , inelastic demand, high level of risk are affected by a number of factors.

When determining the efficiency of agricultural production, it is necessary to take into account the following: agricultural area characteristics, economic productivity of the land, production volume per unit of area and the level of income; application of the results of scientific and technical progress for complex mechanization and automation of production, maximum production of high-quality products; assessment of the economic efficiency of food production and the impact on the environment not only from the point of view of individual subjects, but also from the point of view of the economy as a whole.

In order to implement these tasks ahead in the new phase of agrarian policy, strengthening of the material and technical base of farms, creation of new production and processing enterprises, application of modern techniques and technologies, further development of entrepreneurship, expansion of state support to this field and other measures should be continuous.

**Keywords**: efficiency, concentration, infrastructure, specialization, dispority, stimulation.

Redaksiyaya daxilolma: 10.11.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.101-105

UOT: 33.339.9 JEL: R40, R49
DOI:10.30546/JIECM.2023.3.101.

# NƏQLİYYAT AMİLİNİN VAHİD İQTİSADİ SUBYEKT OLARAQ İQTİSADİYYATDA TƏSİRİ

**Elvin Elşən oğlu Nəsibov**

**Qarabağ Dirçəliş Fondu**

**nasibovelvinn@gmail.com**

***Xülasə.****Nəqliyyat insanları, biznesləri və bazarları birləşdirən, eyni zamanda yeni iş yerlərinin yaradılmasına, ticarətə və ümumi rifaha töhfə verən iqtisadi inkişafın dayaq nöqtəsidir. Nəqliyyat infrastrukturuna investisiyalar iqtisadi artımı dəstəkləmək və bütün dünyada icmaların həyat keyfiyyətini yaxşılaşdırmaq üçün olduqca vacibdir. Nəqliyyat amilinin iqtisadiyyatdakı rolu hər zaman geniş təhlillər mövzusu olmuşdur. Bir çox mütəxəssis nəqliyyatın iqtisadi inkişafda əsas faktorlardan biri olduğunu qeyd etmiş, bir çox təhlillərlə əsaslandırmışdır. Bu məqalədə məsələyə fərqli baxış tətbiq edilir. Elmi ifadə ilə bir hipotez ortaya qoyulur. Qeyd olunur ki, nəqliyyat vahid iqtisadi subyekt kimi digər faktorlar olmadan iqtisadi canlanma yarada bilmir. Bu hipotez müşahidəyə əsaslanan bir neçə faktlarla əsaslandırılır.*

***Açar sözlər:*** *nəqliyyat, iqtisadiyyat, iqtisadi inkişaf, infrastruktur, hipotez*

**Giriş.Mövzunun aktuallığı.**nəqliyyat amilinin iqtisadi inkişafdakı rolu hazırda Azərbaycan Respublikası üçün təhlil edilməli olan prioritet məsələlərdəndir. Qarabağın işğaldan azad edilməsi ilə regionun ölkənin nəqliyyat şəbəkəsinə qoşulması prosesi və Zəngəzur koridorunun açılması mövzunu daha da aktuallaşdırır.

**Tədqiqatın məqsədi.**nəqliyyatın vahid iqtisadi subyekt olaraq iqtisadiyyatın inkişafında hansı dərəcədə təsirli olmasını araşdırmaq və buna müvafiq təkliflər ortaya qoymaqdır.

**Tədqiqatın obyekti.** müəllif tərəfindən irəli sürülmüş hipotezdir. Hipotezə əsasən nəqliyyat amili bir vahid iqtisadi subyekt olaraq digər faktorların iştirakı olmadan iqtisadi inkişafa təsir edə bilməz.

**Tədqiqatın predmeti.** ölkədə icra edilmiş nəqliyyat layihələridir. Layihələr müqayisəli şəkildə təhlil edilir və qeyd olunan hipotez əsaslandırılır.

**Tədqiqat metodları.** tədqiqatda əsas olaraq müşahidə metodu tətbiq edilmişdir. Müəllif tərəfindən aparılan müşahidələr əsasında nəqliyyatın iqtisadi inkişafdakı təsiri mövzusunda bir hipotez qeyd olunmuş və bunun ətrafında təhlillər aparılmışdır.

**Mövzunun təhlili.**Nəqliyyata olan investisiya və iqtisadi inkişaf arasındakı əlaqənin malların və insanların bir yerdən digərinə daşınması kimi nəqliyyatın əsas məqsədindən kənara çıxan geniş nəticələri var. Şübhəsiz ki, daşınma bazar iqtisadiyyatı şəraitində mühüm əhəmiyyət kəsb edir, lakin səmərəli nəqliyyat sisteminin iqtisadiyyatın məhsuldarlığını artıra biləcəyi yollar haqqında hələ də çox araşdırmalar edilməlidir. Nəqliyyat həm də inkişafın və ətraf mühitin formalaşmasında geniş rola malikdir. Növbəti minillikdə siyasətlə bağlı narahatlıqlar getdikcə daha çox insanların yaşadığı və bizneslərin yerləşdiyi yerə və bu yerləşdirmə qərarlarının torpaqdan istifadə nümunələrinə, şəhər nəqliyyat sistemlərinin sıxlığına, təbii ehtiyatlardan istifadəyə, hava və suyun keyfiyyətinə və ümumi həyat keyfiyyətinə nəqliyyatın təsirlərinə diqqət yetirəcək. Şəhərlərin genişlənməsi, əkin sahələrinin mühafizəsi, hava və suyun keyfiyyəti məsələləri artıq həm milli, həm də yerli səviyyələrdə siyasət müzakirələrinin ön sıralarına çıxmışdır. Ehtiyatlı qərarlar qəbul etmək üçün siyasətçilər bu müxtəlif amillər arasında qarşılıqlı əlaqə haqqında mümkün olan ən yaxşı məlumat və təhlillərə sahib olmalıdır. Siyasətçilərin verdiyi suallar ikitərəflidir. Onlar təkcə nəqliyyatın iqtisadi inkişafa əlavə təsirini öyrənməyi yox, eyni zamanda gələcəkdəki artım səviyyəsinin daşıma ehtiyaclarını öyrənmək istəyirlər.

№ 3/2023 səh.101-105

Nəqliyyat sahəsi üzrə qərarverici şəxslər, analitiklər keçmişdə olduğundan daha mürəkkəb məsələləri həll etməlidirlər. Ölkənin nəqliyyat sistemi təkmilləşdikcə və hökumət vəsaitləri üçün rəqabət gücləndikcə qərarvericilərin qarşısında olan məsələ sadəcə olaraq magistral yolların harada tikilməsi və ya hansı hava limanının genişləndirilməsi deyil. Suallar və həll edilməli olan məsələlər daha da mürəkkəbləşib. Bölgənin nəqliyyat ehtiyaclarını ödəmək üçün hansı nəqliyyat növü daha sərfəlidir? Şəhər ərazisində əlavə artımla daha böyük artımı təmin etmək üçün nəqliyyat sistemlərinin genişləndirilməsinin dəyəri arasında hansı fərq varmı? Nəqliyyat sistemlərinin genişləndirilməsi digər infrastruktur növlərinə investisiya zərurətinə necə təsir edir?

Bu məqalədə nəqliyyat iqtisadi canlanma yaradır fikrinə bir əks hipotez təqdim edilir. Qeyd olunan hipotez bir neçə müşahidə elementi və buna müvafiq statistik göstəricilərlə test edilir. Bu hipetozə əsaslanan testlər Azərbaycandakı nümunələr üzərindən yoxlanılır və aparılan müşahidələr statistik rəqəmlərlə də şərh edilir.

Nəqliyyat iqtisadi inkişaf və canlanmada təsirli elementlərdən olsa da vahid olaraq, digər faktorlarla bir arada olmadan çox ciddi təsir yarada bilmir. Nəqliyyatın iqtisadiyyatda bir dəyər və təsir yaratması üçün bir neçə iqtisadi elementlə vəhdət yaratması lazımdır. Məsələn heç bir insanın yaşamadığı iki məntəqəni biri-biri ilə əlaqələndirən və ya insanların gedəcəyi hər hansı obyekt olmayan məkanlarda nəqliyyat infrastruktunun yaradılması vahid iqtisadi subyekt olaraq hər hansı dəyər yaratmaq potensialına sahib deyil. Məsələn, təhlillər zamanı ortaya çıxmışdır ki, hazırda ən böyük nəqliyyat layihələrindən biri kimi “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində Avrasiyada icra olunan 68 layihənin təqribən 50%-i çox da fayda qazandırmır. Buna səbəb icra olunan layihələrin kütləvi məskunlaşma məntəqələri arasında ən aşağı xərcli yolları formalaşdıra bilməməsi və ya şəbəkədə mövcud olan yollara alternativ ola bilməməsidir. Bəzi layihələr hətta şəbəkədə mövcud nəqliyyat xətləri ilə eynilik təşkil edərək artıqlıq yaradır. Ortaya çıxan bu nəticələr bazara az çıxışı olacaq layihələrin ləğv edilməsinə və ya sponsorlar tərəfindən ayrılan vəsaitin dayandırılmasına səbəb olur.

**Test 1.** Bir çox hallarda yeni metro stansiyalarının açılışının müvafiq ərazidə iqtisadi canlanma yaratdığı fikiri ön planda olur. Bu arqumentlər hələ də öz aktuallığını saxlayır. Lakin bir neçə müşahidənin ortaya çıxardığı nəticələr heç bu arqumentin hər zaman doğru olduğunu iddia etməyə əsas vermir. 1979-cu ildən fəaliyyətdə olan Bakmil metro stansiyası, 2022-ci ildə isə açılışı olan Xocasən metro stansiyası yerləşdiyi ərazidə ciddi bir iqtisadi canlanmaya səbəb olmamışdır. Qrafik 1-dən də göründüyü kimi 2023-cü ilin ilk 9 ayı ərzində hər iki metro stansiyası ən az sərnişinə xidmət edən iki stansiya olmuşdur. Belə ki, Xocasən stansiyasından 481430 nəfər (0.33%), Bakmil metro stansiyasından isə 237191 nəfər (0.16%) istifadə etmişdir. Hər iki metro stansiyası əslində bir nəqliyyat infrastrukturu hesab edilir və inşası üçün böyük miqdar vəsait sərf edilir. Lakin irəli sürülmüş hipotezə əsasən yerləşdiyi ərazidə digər iqtisadi subyektlərin fəaliyyəti olmadığı və ya zəif olduğu üçün ciddi insan axını yarada bilməmişdir. Bu da onu deməyə əsas verir ki, nəqliyyat infrastrukturunun yaradılması hələ orada insan axını dolayısı ilə iqtisadi canlanma yaratmaq mənası ifadə etmir.

№ 3/2023 səh.101-105




**Qrafik 1. Metro stansiyalardan istifadə edən vətəndaş sayı (2023-cü ilin ilk 9 ayı)**
***Mənbə: "Bakı Metropoliteni" QSC-nin 2023-cü il üzrə hesabatı, https://metro.gov.az/az***

**Test 2.** 7 saylı Bakı "ASAN xidmət" mərkəzinin yerləşdiyi və hazırda Zaur Nudirəliyevin adını daşıyan və ona kəsişmədə olan küçədəki yol infrastrukturu uzun müddət idi istifadəyə verilmişdi. Buna baxmayaraq həmin ərazidə yeni iqtisadi subyektlərin ortaya çıxması, yeni ictimai iaşə obyeklərinin açılışı bir neçə dövlət qurumunun orada fəaliyyətə başlamasından sonra müşahidə olundu. Bir zamanlar Bakı şəhərində ən az nəqliyyat vasitəsinin olduğu küçələrdən biri hazırda tıxacın sıx müşahidə olunduğu məkanlardan biridir.

**Test 3.** Füzuli Beynəlxalq Hava Limanının gələcəkdə Qarabağ iqtisadi rayonu, eləcə də Füzulinin iqtisadi inkişafında müsbət mənada ciddi təsirləri olacaq. Lakin indiki şəraitdə zəif məskunlaşma, iqtisadi subyektlərin əksikliyi və yaxın ərazilərdə də bu halların yaşanması səbəbi ilə tək başına hər hansı iqtisadi dəyər yarada bilməz. Nəqliyyat vasitəsinin hərəkətverici qüvvəsi yanacaq, elektrik olduğu kimi iqtisadiyyatda da bunu insan əvəz edir. Hər hansı bir ərazidə məskunlaşma yoxdursa orada nəinki nəqliyyat, heç bir iqtisadi subyekt vahid formada bir dəyişiklik yarada bilməz. Burada bir neçə iqtisadi elementin ortaq bir bağlılığı, əlaqəsi olmalıdır.

Beləliklə, nəqliyyat mahiyyəti, regionun və ya ölkənin spesifik vəziyyətindən asılı olaraq iqtisadi artımın həm səbəbi, həm də nəticəsi ola bilər. Hər iki hal nəzərdən keçirilərsə:

İqtisadi artımın səbəbi kimi nəqliyyat:

a. İnfrastrukturun İnkişafı: yollar, avtomobil yolları, dəmir yolları, limanlar və hava limanları kimi nəqliyyat infrastrukturuna investisiyalar iqtisadi artımı stimullaşdıra bilər. Təkmilləşdirilmiş infrastruktur malların daşınmasını və insanların iş, bazar və xidmətlərə çıxışını asanlaşdırır. Bu təkmilləşmiş şəbəkələrin yaranması iqtisadi fəaliyyətin və məhsuldarlığın artmasına səbəb olur.

b. Resurslara çıxış: effektiv nəqliyyat şəbəkələri xammal və enerji mənbələri kimi qiymətli resurslara çıxışı təmin edə bilər. Bu imkan iqtisadi artıma töhfə verən və bu resurslara əsasən fəaliyyətini tənzimləyən sənaye və müəssisələrin inkişafına imkan verir.

c. Ticarət və Ticarət: nəqliyyat həm yerli, həm də beynəlxalq səviyyədə istehsalçıları istehlakçılarla birləşdirərək ticarəti asanlaşdırır. Ticarət iqtisadi fəallığın artmasına, iş yerlərinin yaradılmasına, mal və xidmətlərin mübadiləsinə gətirib çıxarır ki, bunların hamısı iqtisadi artıma kömək edir.

d. Turizm: səmərəli nəqliyyat sistemi turistləri cəlb edir və turizm sənayesini gücləndirir ki, bu da öz növbəsində regionda iqtisadi artıma təkan verir.

İqtisadi artım nəticəsində nəqliyyat:

a. Artan Tələb: iqtisadiyyat böyüdükcə, adətən nəqliyyat xidmətlərinə tələbat artır. Daha çox insan məşğul olur və müəssisələr genişlənir, bu da malların və insanların daha çox hərəkətinə səbəb olur. Bu da öz növbəsində nəqliyyat infrastrukturunun və xidmətlərinin inkişafını və genişləndirilməsini tələb edir.

b. İnvestisiya Bacarığı: artan iqtisadiyyat çox vaxt daha çox vergi gəliri və özəl investisiya imkanları yaradır. Hökumətlər və özəl qurumlar daha sonra artan tələbata cavab olaraq nəqliyyat sistemlərini təkmilləşdirmək və genişləndirmək üçün vəsait ayıra bilərlər.

c. Texnoloji irəliləyişlər: iqtisadi artım daha səmərəli və dayanıqlı nəqliyyat həlləri ilə nəticələnən nəqliyyat texnologiyası və innovasiyaya investisiyalara səbəb ola bilər. Məsələn, iqtisadi artım elektrik nəqliyyat vasitələrinin, yüksək sürətli dəmir yolu sistemlərinin və digər qabaqcıl nəqliyyat texnologiyalarının inkişafına təkan verə bilər.

Xülasə, nəqliyyat və iqtisadi artım bir-biri ilə sıx bağlıdır. Yaxşı inkişaf etmiş nəqliyyat sistemi əlçatanlığı yaxşılaşdırmaq, ticarəti asanlaşdırmaq və sənayeləri dəstəkləməklə iqtisadi artım üçün katalizator rolunu oynaya bilər. Eyni zamanda, iqtisadiyyat böyüdükcə, nəqliyyat xidmətlərinə və infrastruktura artan tələbat yaradır ki, bu da nəqliyyat sektorunda inkişafı daha da gücləndirir. Buna görə də, nəqliyyat və iqtisadi artım tez-tez bir-birini tsiklik şəkildə gücləndirərək ümumi rifaha töhfə verir.

## Nəticə və təkliflər

Nəqliyyat siyasəti və ona uyğun atılan addımların əhaliyə sosial və iqtisadi təsirlər yarada biləcəyi bir çox məsələlərə görə, nəqliyyatla bağlı sosial və iqtisadi tədqiqatlar geniş mövzudur. Eyni zamanda sosial və iqtisadi siyasətlər də əhaliyə gözlənilməz nəqliyyat təsirləri yarada bilər. Ona görə də bu mövzular davamlı olaraq nəqliyyat və sosial-iqtisadi siyasət sahəsində tədqiqat ehtiyacları ilə yanaşı, qarşıdan gələn əsrdə əhəmiyyətli səy və diqqətə layiq bir tədqiqat gündəliyi təqdim edir.

Bu tədqiqatda ortaya qoyulan hipotezis və bu çərçivədə müşahidə əsasında nəzərdən keçirilən üç test əsasında nəqliyyatın vahid bir iqtisadi subyekt kimi digər faktorlar olmadan iqtisadi inkişafa birbaşa təsir edə bilmədiyini qeyd etmək mümkündür. İnsanların yaşamadığı iki təyinat nöqtəsini birləşdirən və ya heç bir iqtisadi subyektin fəaliyyət göstərmədiyi bir məkanda yaradılan nəqliyyat infrastrukturunun iqtisadi inkişafı sürətləndirmədiyi bir neçə faktla əsaslandırıldı. Yəni iqtisadi inkişafın hədəfləndiyi bir məkanda nəqliyyat infrastrukturunun yaradılması zaman paralel olaraq digər iqtisadi subyektlərin də təsis edilməsi nəzərə alınmalıdır. Bunlar birlikdə vahid mexanizm şəklində iqtisadiyyatda inkişafa səbəb ola bilər.

## ƏDƏBİYYAT

1. Assessing the Value of Market Access from Belt and Road Projects, Tristan Reed and Alexandr Trubetskoy, World Bank Group, Policy Research Working Paper 8815, april, 2019
2. “Bakı Metropoliteni” QSC-nin 2023-cü ilin ilk 9 ayı üzrə hesabatı
3. Department for Transport, Office for National Statistics, July 19, 2019
4. Social and Economic Factors in Transportation, W.R. Black, Indiana University
5. Transportation, jobs and economic growth , Martin Wachs, Access journal # 38, 2011
6. https://onlinepubs.trb.org/onlinepubs/millennium/00138.pdf
7. https://www.futurelearn.com/info/courses/what-is-economics-in-the-world-of-global-logistics/0/steps/95653

**UDC 33.339.9**

**Summary.**Transport is a linchpin of economic development which connects people, businesses and markets, while also contributes to the creation of new jobs, trade and general prosperity. Investments in transportation infrastructure are critical to supporting economic growth and improving the quality of life for communities around the world. The role of the transport factor in the economy has always been the subject of extensive analysis. Many experts have noted that transport is one of the main factors in economic development and justified it with many analyses. This article takes a different approach. A hypothesis is expressed in scientific terms. It is noted that transport as a single

№ 3/2023 səh.101-105

economic subject cannot create economic revival without other factors. This hypothesis is supported by several observational facts.

**Keywords:** transport, economy, economic development, infrastructure, hypothesis

**УДК 33.339.9**

**Резюме.**Транспорт является стержнем экономического развития, который соединяет людей, предприятия и рынки, а также способствует созданию новых рабочих мест, торговле и общему процветанию. Инвестиции в транспортную инфраструктуру имеют решающее значение для поддержки экономического роста и улучшения качества жизни сообществ во всем мире. Роль транспортного фактора в экономике всегда была предметом обширного анализа. Многие эксперты отметили, что транспорт является одним из основных факторов экономического развития, и обосновали это многочисленными анализами. В этой статье используется другой подход. Гипотеза выражается в научных терминах. Отмечается, что транспорт как единый экономический субъект не может создать экономическое возрождение без других факторов. Эта гипотеза подтверждается несколькими наблюдательными фактами.

**Ключевые слова:** транспорт, экономика, экономическое развитие, инфраструктура, гипотеза

Redaksiyaya daxilolma: 22.11.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.106-110

UOT 336.74
DOI:10.30546/JIECM.2023.3.106.

# BANK SEKTORUNDA RƏQABƏTİN KREDİT MÜNASİBƏTLƏRİNİN SƏMƏRƏLİLİYİNƏ TƏSİRİ

**Pərvin Hüseyn oğlu İdrisli**

**Azərbaycan Dövlət Aqrar Universitet,**
**Gəncə şəhəri, Adil İskəndərov küç. 64**

**parvin.idrisli@gmail.com**

***Xülasə.*** *Bank sektorunda rəqabət, subyektlər arasında ən əlverişli şərtlər uğrunda mübarizə forması olub, kredit cəlbediciliyinə və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə birbaşa təsir göstərir. Bank fəaliyyətinin yüksək inhisarlaşdırılması iqtisadiyyatın investisiya ehtiyaclarının maliyyələşdirilməsi imkanlarına mənfi təsir etdiyindən kredit təklifinin optimal səviyyəsinə yalnız rəqabətli bazar şəraitində nail olmaq mümkündür. Bu baxımdan rəqabət, göstərilən xidmətlərin differensiallaşdırılması, həmçinin müştərilərin bankla əlaqələrinin müntəzəmliyini nəzərdə tutan strategiyaların həyata keçirilməsi üçün stimul yarada bilər.*

***Açar sözlər:*** *kredit, rəqabət, bank, risk, səmərə, rəqabət mühiti.*

**Giriş.** Rəqabət, kredit təşkilatlarının dayanıqlığının artırılmasına, əməliyyatların şaxələndirilməsinə və maliyyə xidmətlərinin əlçatanlığının təmin olunmasına zəmin yaratmaqla bank sektorunda keyfiyyət dəyişikliklərinin hərəkətverici qüvvəsi rolunda çıxış edir. Bu baxımdan, bank sektorunda səmərəli rəqabət mühitinin formalaşdırılması üçün iqtisadi və hüquqi şəraitin yaradılması bank nəzarəti orqanlarının və antiinhisar xidmətinin prioritet fəaliyyət istiqamətlərindən hesab oluna bilər. Ən ümumi formada bank sektorunda rəqabət, kredit təşkilatları arasında kreditlər, depozitlər və digər bank xidmətləri bazarında güclü mövqe tutmağa çalışan dinamik rəqabət prosesi kimi müəyyən edilə bilər. Ümumiyyətlə "rəqabət bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizə" formasıdır [2]. "Rəqabət, məhsul istehsalçılarını bazar tələblərinə istiqamətləndirərək, əmtəə və xidmətlərin alıcılar tərəfindən geniş seçiminə, istehsal ehtiyaclarının daha tam ödənilməsinə şərait yaradır" [3, s.8].

**Mövzunun aktuallığı.** Bank fəaliyyəti, bir qayda olaraq, rəqabət münasibətlərinin yüksək inkişafı ilə xarakterizə olunur. Bank rəqabətinin xüsusiyyətləri bir sıra amillərlə müəyyən edilir ki, onların arasında aşağıdakılar həlledici rol oynayır:

- bank məhsulu spesifikdir. Formal xüsusiyyətlərinə görə bankçılıq xidmət sektoruna aiddir. Müvafiq olaraq, bankın satdığı məhsul, müştərinin bildirilmiş ehtiyacını ödəmək üçün bank əməliyyatının nəticəsi olan xidmətdir. Bankların təqdim etdiyi əsas xidmətləri xüsusi xidmətlər kimi təsnifləşdirmək olar. Fiziki və hüquqi şəxslərə kredit verilərkən və vəsait cəlb edilərkən kreditorla borcalan arasında qarşılıqlı münasibət yaranır. Bank krediti ödəniləndə kredit xidməti başa çatır. Beləliklə, müştərilərdən vəsaitlərin cəlb edilməsi əməliyyatları yalnız pulun müştərilərə qaytarıldığı halda reallaşdırılmış xidmət sayıla bilər. Bütün bunlar onu deməyə əsas verir ki, kredit təşkilatları tərəfindən göstərilən xidmətlər ikili xarakter daşıyır: alıcı ilə satıcı arasındakı münasibət borc verənlə borcalan arasındakı münasibətdən üstündür. Böyük ölçüdə məhz buna görə bankçılıq sosial-iqtisadi vəziyyətin dəyişməsinə son dərəcə həssasdır, artan risklərlə əlaqələndirilir və böhranlara meyilli olur;
- təkcə bankların göstərdiyi xidmətlər deyil, həm də onların predmeti spesifikdir. Banklar vəsaitlərin yerləşdirilməsi və cəlb edilməsi əməliyyatlarını həyata keçirərkən pul siyasətinin idarəedicisi kimi çıxış edirlər. Nəticədə bank sektorunun fəaliyyəti təkcə dövlətin deyil, bütün hüquqi şəxslərin, eləcə də vətəndaşların əksəriyyətinin maraqlarını cəlb edir;

- sosial əhəmiyyətinə görə bank fəaliyyəti həmişə səlahiyyətli dövlət orqanı tərəfindən tənzimlənmə və nəzarət obyekti olur. Kredit təşkilatının yaradılmasının özü, digər xidmət bazarları ilə müqayisədə, bank xidmətləri bazarına çıxışı çətinləşdirən və ya hətta qadağan edən hərəkətlər kimi başa düşülən maneələr kimi qəbul edilə bilən tələblərlə bağlıdır. Bank sektorunda rəqabətin xüsusiyyəti, kredit təşkilatlarına kapital adekvatlığını qorumağı, likvidliyi təmin etməyi və riskləri məhdudlaşdırmaq baxımından öhdəliyi müəyyən edən qaydalara və standartlara riayət etməyi önə çəkir;

- banklar kredit resurslarına olan tələbatı ödəməklə iqtisadi artımı təmin edirlər. Buna görə də bankların fəaliyyəti vasitəçi rolu ilə məhdudlaşmır, müəyyən dərəcədə cəmiyyətin iqtisadi həyatının nəzarətçiləri və tənzimləyiciləri funksiyalarını yerinə yetirirlər;

- bank rəqabətinin xüsusiyyətlərinə göstərilən xidmətlərin məhdud və eynicinsli siyahısı daxildir. Bu, bank fəaliyyətinin istehsal, ticarət və sığorta fəaliyyəti ilə birləşməsinə imkan verməyən müstəsna məqsəd növü kimi hüquqi qeydiyyatın nəticəsidir. Bu səbəbdən bank sektorunda rəqabət ən yaxşı halda maliyyə sektoru ilə məhdudlaşaraq, sahələrarası səviyyəyə çatmır. Bazar münasibətlərinin yetkinliyindən, qanunvericilik mühitinin xüsusiyyətlərindən və digər amillərdən asılı olaraq, konkret rəqabət mexanizmləri həmişə nəinki müxtəlif ölkələrdə, həm də hər bir konkret ölkə daxilində bank xidmətləri bazarının müxtəlif seqmentlərində inkişaf edir [5, s.27]. Nə bankların sayı, nə kredit təşkilatlarının mülkiyyət forması, nə də maliyyə vasitəçilərinin kapitalının və aktivlərinin təmərküzləşmə dərəcəsi özlüyündə rəqabət mühitinin bank işinin səmərəliliyinin artırılmasına nə dərəcədə töhfə verdiyi sualına cavab vermir və s.

**Tədqiqatın məqsədi.** Bank sektorunda rəqabətin kredit münasibətlərinin səmərəliliyinə təsirini qiymətləndirmək və kreditlərə əlçatanlığın təmin edilməsi üzrə prioritetləri müəyyənləşdirməkdən ibarətdir.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Araşdırmalar göstərir ki, rəqabətin effektiv hesab oluna biləcəyini deməyə imkan verən bir sıra meyarları da mövcuddur. İqtisadi ədəbiyyatda üç əsas meyar müəyyən edilir.

1. Bazara giriş üçün kifayət qədər aşağı maneələrin olması. Bu o deməkdir ki, potensial rəqiblər nisbi rahatlıqla bazara girib mənfəət üçün fəaliyyət göstərə bilərlər. Kifayət qədər çox sayda bazar iştirakçılarının olması qərar qəbul edərkən bir-birinin müstəqilliyini təmin edir.

2. Bazar iştirakçıları arasında birbaşa sövdələşmənin olmaması və rəqabəti məhdudlaşdıran razılaşmaların olmaması.

3. Məlumatlı istehlakçılar (müştərilər), mal və xidmətlərin tədarükçüləri arasında rasional seçimin mümkünlüyü [7, s.18].

Bank sektorunun səmərəliliyinin əsas meyarı onun iqtisadiyyatda maliyyə resurslarının yenidən bölüşdürülməsi funksiyasını yerinə yetirmək qabiliyyətidir ki, bu da istehsal fəallığına və əhalinin həyat keyfiyyətinin yüksəlməsinə kömək edir. Kredit resurslarının təklifinin optimal səviyyəsinə yalnız rəqabətli bazar şəraitində, xidmətin göstərilməsi xərcləri ilə onun dəyəri arasındakı fərq minimuma endirildiyində nail olmaq mümkündür. Əksinə, bank fəaliyyətinin yüksək inhisarlaşdırılması iqtisadiyyatın investisiya ehtiyaclarının maliyyələşdirilməsi imkanlarının məhdudlaşmasına səbəb olur. Ona görə də "inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması üzrə dövlət siyasətini, digər dövlət orqanlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi" vacibdir [1]. Bununla belə, rəqabət mühiti müəssisələrin və əhalinin maliyyələşməsini şərtləndirən yeganə amil deyil. Kredit fəaliyyətinin miqyası bilavasitə bankların öz vəsaitləri ilə təmin olunmasından asılıdır.

Əlavə kapital mənbələrinin olmaması və ya dəymiş itkilər bankın kredit əməliyyatlarının genişlənməsi ilə bağlı təlimatlarına yenidən baxmasına səbəb ola bilər. Bu nöqteyi-nəzərdən daha yüksək gəlirliliklə işləyən bankın kredit təklifini genişləndirmək imkanları daha böyükdür. Bank sektorunun səmərəliliyini yalnız verilən maliyyələşdirmənin həcmi və dəyəri ilə azaltmaq olmaz. İqtisadi cəhətdən əsaslandırılmış investisiya layihələrinin həyata keçirilməsi üçün kreditlərin verilməsi də iqtisadiyyat üçün vacibdir. Başqa sözlə, maliyyə vasitəçilərinin fəaliyyəti, ən keyfiyyətli

borcalanları seçmək, yəni informasiya uyğunsuzluğu problemini həll etmək imkanları baxımından təhlil edilməlidir.

Bank əməliyyatlarının araşdırılması kredit bazarında qərarların qəbuluna iki əsas yanaşmanın mövcud olduğunu göstərir. Birinci halda, təqdim olunan maliyyələşdirmənin parametrlərini müəyyən edərkən, bank müəssisə ilə münasibətlərinin tarixinə əsaslanır. İkinci halda, bank iri firmalara və ya fiziki şəxslərə kredit əməliyyatları üçün daha münasib olan şirkət haqqında mövcud hesabat məlumatlarından istifadə edir. Bazar gücünə malik olan bankların öz müştəriləri ilə uzunmüddətli əlaqələr saxlamaq üçün daha geniş imkanları var. Ümumiyyətlə, öz həyat dövrünün ilkin mərhələlərində olan firmaların bank bazarı iştirakçılarının yüksək konsentrasiyası şəraitində kreditlər almaq üçün daha çox uyğunlaşdıqları fərziyyəsini dəstəkləyir. Eyni zamanda, kredit faizləri bank və şirkət arasında əməkdaşlığın bütün dövrü ərzində faktiki olaraq dəyişməz olaraq qalır.

Rəqabətin özü, göstərilən xidmətlərin differensiallaşdırılması və loyallıq proqramlarından fəal istifadə etməklə müştərilərin banka bağlanmasını nəzərdə tutan strategiyaların həyata keçirilməsi üçün stimul yarada bilər. Bank xidmətləri bazarının strukturu da bankların borcalanların monitorinqinə və müvafiq olaraq kredit riskinin keyfiyyətcə qiymətləndirilməsinə münasibətinə təsir göstərir [4, s.264]. Rəqabətli bazarda bir bankın borcalana kredit təklifi digər maliyyə vasitəçiləri tərəfindən borcalanın kredit qabiliyyətinin göstəricisi kimi nəzərə alınır. Nəticədə banklar kredit təhlili xərclərini öz üzərinə götürməyə daha az meylli olurlar ki, bu da son nəticədə maliyyə resurslarının iqtisadiyyatda yerləşdirilməsinin səmərəliliyinə təsir göstərir. Beləliklə, rəqabət bank fəaliyyətinin səmərəliliyinə ikili təsir göstərə bilər. Üstəlik, yüksək bazar konsentrasiyası çox vaxt rəqabət qüvvələrinin nəticəsidir. Başqa sözlə, daha səmərəli biznes modellərinə malik olan banklar bazar gücü qazanır. Mümkün miqyas qənaətlərini nəzərə alsaq, iştirakçılardan birinin bazarında hakim mövqeyi maliyyə xidmətlərinin yüksək əlçatanlığı ilə yaxşı birləşdirilə bilər.

Bankların fəaliyyətinin miqyasının artırılmasından əldə edə biləcəyi faydalar yalnız əməliyyat xərclərinin azaldılması ilə məhdudlaşmır. Maliyyə sektorunda səmərəliliyin qazanılması əsasən məhsul xəttinin diversifikasiyası ilə əlaqələndirilir. Göstərilən xidmətlərin çeşidini genişləndirməklə, bank müştərilərin cəlb edilməsi xərclərini və texnoloji inkişaf xərclərini optimallaşdıra bilər. Xarakterikdir ki, bu halda əməliyyatların optimal həcmi adi miqyas qənaətləri ilə müqayisədə yüksək səviyyədə qiymətləndirilir.

Məlum olduğu kimi, böyük həcmdə cəlb edilmiş resurslardan istifadəni nəzərdə tutan bank işinin özünəməxsus xüsusiyyətləri, bank sahiblərinin və rəhbərliyinin riskli investisiyalara marağını artırır. Bank aktivlərinin bütün məbləğinə sərəncam verərkən, onlar yalnız kapital həddində zərərə məruz qalırlar. Yerdə qalan itkilər daha çox bankın əmanətçilərinin və müştərilərinin üzərinə düşür. Mühafizəkar bazar siyasətinin həyata keçirilməsinin əsas motivi, gələcək gəlir axınından, o cümlədən inhisarçı rentadan ayrılmaq istəməməkdir. Öz növbəsində, rəqabətli bazarda fəaliyyət göstərən bank üçün müflisləşmə əhəmiyyətli dərəcədə aşağı itkilərlə əlaqələndirilir ki, bu da riskin artması deməkdir. Kapitalın adekvatlığına dair tələblərin olması xərclərin məbləğinə təsir edən mühüm amil ola bilər, çünki onlar bankın müflis elan edildiyi halda sahibi üçün itkilərin artmasına kömək edir.

Rəqabətin maliyyə sabitliyinə təsiri kredit təhlili xərcləri ilə də bağlıdır. Bazar gücünün mövcudluğu borcalanların monitorinqi üçün əlavə stimullar yaradır və nəticədə kredit portfelinin risklərini azaltmağa kömək edir. Rəqabət, əksinə, müştərilər üçün gərgin mübarizəyə gətirib çıxarır, onların arasında keyfiyyətsiz borc alanlar da ola bilər. Beləliklə, bir bankdan kredit müraciəti ilə bağlı mənfi qərar almış şirkət digər bankın müsbət qərarına ümid edə bilər. Nəticə etibarı ilə kredit bazarında iştirakçılar nə qədər çox olarsa, riskli kreditlərin verilməsi ehtimalı bir o qədər çox olar və müvafiq olaraq bank sektorunun potensial itkiləri də bir o qədər yüksək olar. Bununla belə, nəzərə almaq lazımdır ki, rəqabət təzyiqi kredit faizlərinin aşağı düşməsinə səbəb olur, nəticədə borc alan şirkətlərin maliyyə nəticələrinə düşən yük azalır, bununla da onların kredit qabiliyyəti artır. Bundan əlavə, borcalanların monitorinqi üçün zəif motivasiya problemi banklara kredit portfellərinin keyfiyyətinin müntəzəm olaraq açıqlanması tələblərinin müəyyən edilməsi ilə effektiv şəkildə həll edilə bilər.

№ 3/2023 səh.106-110

İri bankların əməliyyatlarının risk potensialına təsir edən mühüm amillərdən biri də investisiyaların diversifikasiyasının mümkünlüyüdür. Aydındır ki, yerli bazarda fəaliyyət göstərən kredit təşkilatları üçün kredit risklərinin coğrafi və sənaye konsentrasiyası problemi xeyli yüksəkdir [6, s.39]. Beləliklə, əməliyyatların coğrafi diversifikasiyası ilə bağlı fəaliyyət miqyasının artması iflas riskini azaltmağa kömək edir. Maliyyə-bank sektorunun böhran hadisələri qarşısında potensial həssaslığını onun şok impulslarının yayılması üçün əlverişli mühit kimi xidmət etməsi ilə əlaqələndirmək olar. Maliyyə sektorunun aktivlərinin əhəmiyyətli hissəsi maliyyə institutlarının bir-birinə qarşılıqlı tələbləri hesabına formalaşır. Bu o deməkdir ki, onlardan birinin müflis olması avtomatik olaraq digərinin aktivlərinin keyfiyyətini pisləşdirir, onun kontragentləri üçün itki riskini açır və s. Bu halda söhbət təkcə banklararası kreditlərdən deyil, həm də tələblərdən gedir. Bu cür öhdəliklərin müddəti adətən saatlarla, hətta dəqiqələrlə ölçülsə də, bankların kredit riskinə məruz qaldıqları məbləğlər kapitallarından bir neçə dəfə çox ola bilər.

Beləliklə, bank bazarının təmərküzləşmə səviyyəsi və onun iştirakçıları arasında inhisarın olması maliyyə sektorunun böhran hadisələrinə məruz qalmasının birbaşa göstəricisi ola bilməz. Bank sektorunun strukturunun xüsusiyyətlərinin prudensial nəzarətin səmərəliliyi ilə necə əlaqəli olması sualına da aydın cavab yoxdur. Bir tərəfdən, tənzimləyici orqanlar baxımından az sayda bankla işləmək daha məqsədəuyğun görünür. Digər tərəfdən, iri kredit təşkilatlarına münasibətdə nəzarət səlahiyyətlərinin həyata keçirilməsi onların fəaliyyətlərinin miqyasına və mürəkkəbliyinə, habelə tənzimləyicilərə mümkün inzibati təzyiqlərə görə kifayət qədər əmək tutumlu iş kimi görünür.

Göründüyü kimi, rəqabət səviyyəsi ilə maliyyə sabitliyi riskləri arasında birbaşa əlaqə yalnız kredit təşkilatının iflas ərəfəsində olduğu vəziyyətlə bağlı müzakirə oluna bilər. Bu şəraitdə bir sıra əməliyyatlara məhdudiyyətlərin tətbiqi və maksimum borc faizlərinin müəyyən edilməsi kimi dövlət müdaxiləsinin formaları olduqca məqbuldur. Rəqabət təzyiqləri bankları maliyyə xidmətləri bazarının müxtəlif seqmentlərində payını artırmaq üçün biznes proseslərini təkmilləşdirməyə, satış nöqtələrini inkişaf etdirməyə və məhsul xətlərini şaxələndirməyə sövq edir. Bu məqsədlərə nail olmaq fəaliyyət dairəsinin genişləndirilməsini və əlavə maliyyə mənbələrinin axtarışını tələb edir. Bu problemlərin həllində əsas rolu bank biznesinin konsolidasiyası oynayır, bu müddət ərzində üzvi əsasda böyümənin dar sərhədləri aşılır və rəqabət üstünlükləri əldə etmək üçün əlverişli şərait təmin edilir.

**Nəticə**

Rəqabət və konsolidasiya bank sektorunda institusional dəyişikliklərin vahid mexanizminin qütbləri kimi qəbul edilə bilər. Bir tərəfdən rəqabətin inkişafı kommersiya banklarının maliyyə xidmətlərinin göstərilməsinin müxtəlif seqmentlərində bazar paylarının dəyişməsinə gətirib çıxarır, onları öz kapital bazasını artırmağa və miqyasda qənaət əldə etməyə sövq edir. Bunun sayəsində biznesin konsolidasiya proseslərinin intensivləşdirilməsi üçün ilkin şərtlər yaradılır. Digər tərəfdən, konsolidasiya bank xidmətləri bazarında qüvvələr balansının dəyişməsinə töhfə verir və rəqabəti gücləndirir. Bunun nəticəsi bank sisteminin konfiqurasiyasında dəyişikliklərdir, o zaman iştirakçıların tərkibi dəyişir və yeni qruplar və ittifaqlar yaranır. Bank fəaliyyəti səmərəliliyin artırılması və rəqabət potensialının artırılması üçün əlavə stimullar əldə edir. Bu baxımdan maliyyə xidmətləri bazarının strukturunda baş verən dəyişikliklərin iqtisadiyyata təsiri məsələsi kifayət qədər uzun müddətdir ki, həm ekspertlərin, həm də tənzimləyicilərin diqqət mərkəzindədir.

Qeyd edilənləri nəzərə alaraq antiinhisar tənzimlənməsi təcrübəsi, satınalma əməliyyatının miqyas iqtisadiyyatının reallaşdırılmasına töhfə verməsi şərti ilə mövcud konsentrasiya standartlarını aşmağa imkan verir. Bununla belə, səmərəliliyin mümkün itkilərinin təhlili tənzimləyici orqanların vəzifəsi deyil. Eyni zamanda, konsolidasiya fəaliyyəti ilə bağlı araşdırmalar, əsasən, birləşmə və satınalma nəticəsində yaranan zəif miqyas iqtisadiyyatına işarə edir. İnhisarçılığın gücləndirilməsi daha çox izafi mənfəətin əldə edilməsi və nəticədə maliyyə sabitliyinin artırılması ilə əlaqələndirilir.

**Bank sektorunda rəqabətin kredit münasibətlərinin səmərəliliyinə təsiri**

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:
- rəqabətin kredit münasibətlərinin inkişafına təsiri müəyyən edilmişdir;
- bank sektorunda səmərəlilik neyarları müəyyən olunmuşdur;

№ 3/2023 səh.106-110

- kredit cəlbediciliyinin əsas istiqamətləri müəyyənləşdirilmişdir;
- rəqabətin kredit münasibətlərinin səmərəliliyinə təsiri müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti kredit mexanizmindən səmərəli istifadə etməklə kredit münasibətlərinin inkişafı, o cümlədən kredit cəlbediciliyinin əsas istiqamətləri, bu sahədə əlçatanlığın təmin edilməsi imkanları ilə müəyyən olunur.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** İstehlakçıların kredit resurslarına tələbatının ödənilməsi, rəqabət mühitində kredit münasibətlərində iqtisadi səmərəliliyin təmin olunması iqtisadiyyatın müxtəlif sferalarında əhəmiyyətli nəticələrə səbəb ola bilər. Bu baxımdan rəqbət mühitinin yaxşılaşdırılması kontekstində kredit mexanizminin inkişafı istehlakçılarla banklar arasında etimadın və əlaqələrin səmərəliliyinə ciddi tədir edə bilər.

## ƏDƏBİYYAT


1. “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu, 4 mart, 1993.
2. “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanunu. 2 iyun 1995-ci il.
3. Abbasov İ. M., Məmmədova Z. M., Quliyev E. N. Rəqabət və marketinq. (monoqrafiya) – Bakı. Biznes Universitetinin nəşri, 157 s.
4. Бодров А. А., Сенкус В. В. Конкуренция банков и определение конкурентных преимуществ на современном рынке банковских услуг // Вестник КемГУ. 2013. № 2 (54). Т. 1. С. 263-266.
5. Хандруев А. А., Чумаченко А. А. Конкуренция в банковской отрасли: проблемы, тенденции, прогнозы // Банковское дело. 2010. №11.
6. Калинин Н. В., Матраева Л. В., Денисов В. Н. Деньги. Кредит. Банки. Учебник для бакалавров. 2-е изд., стер. М.: Дашков и К, 2020. 300 с.
7. Чернова С. А., Алиева М. Ю. К вопросу о сущности банковской конкуренции и конкурентоспособности // Финансы и кредит. 2012. № 23 (503). С. 14-22.


**UDC 336.74**

## Credit relations of competition in the banking sector effect on efficiency

**Idrisli P.H.**

**Summary.** ompetition in the banking sector is a form of struggle for the most favorable conditions among subjects, which directly affects the attractiveness of credit and the improvement of the quality of services. Since high monopolization of banking activities has a negative impact on the financing of investment needs of the economy, the optimal level of credit supply can be achieved only in competitive market conditions. In this regard, competition can create an incentive for the differentiation of the provided services, as well as for the implementation of strategies that envisage the regularity of customers' relations with the bank.

**Keywords:** credit, competition, banking, risk, efficiency, competitive environment.

**УДК 336.74**

## Кредитные отношения конкуренции в банковском секторе влияние на эффективность

**Идрисли П. Г.**

**Summary.**Конкуренция в банковском секторе представляет собой форму борьбы за наиболее выгодные условия среди субъектов, которая напрямую влияет на привлекательность кредита и повышение качества услуг. Поскольку высокая монополизация банковской деятельности отрицательно влияет на финансирование инвестиционных потребностей экономики, оптимальный уровень кредитного предложения может быть достигнут только в условиях конкурентного рынка. В связи с этим конкуренция может создать стимул для дифференциации предоставляемых услуг, а также для реализации стратегий, предусматривающих регулярность отношений клиентов с банком.

**Ключевые слова**: кредит, конкуренция, банковское дело, риск, эффективность, конкурентная среда.

Redaksiyaya daxilolma: 29.09.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.111-115

UOT 339.01
DOI:10.30546/JIECM.2023.3.111.

# MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ ÜMUMLOGİSTİK PROBLEMLƏR

[1]Könül Rasim qızı Həsənova, [2]Şakir Hüseynqulu oğlu Əliyev

Azərbaycan Texnologiya Universiteti

k-qasanova@mail.ru

***Xülasə***.*Sənayecə inkişaf etmiş ölkələrdə logistikanın inkişaf etdirilməsi proble-minə artan maraqlar hər şeydən əvvəl tarixi baxımdan iqtisadi xarakterə malik səbəb-lərlə əlaqədardır. İstehsalın həcminin artdığı, ölkədaxili və beynəlxalq əlaqələrin genişləndiyi bir şəraitdə mübadilə sferasına aid olunan xərclərin də səviyyəsinin yüksəlməsi faktoru sahibkarların bazar fəaliyyətinin optimallaş-dırılması məqsədilə yeni formaların axtarılıb tapılması üçün səylərini gücləndirdi.*

***Açar sözlər:*** *logistika, beynəlxalq əlaqə, istehsal*

**Giriş**.Logistikadan aktiv istifadə edən qərb ölkələrinin praktiki təcrübəsi göstərir ki, xammal, material, yarımfabrikat və dəstləşdirici məmulatların ilkin mənbədən son təyinat məntəqəsinə qədər ümumi hərəkətinin 93%-i onların müxtəlif maddi-texniki təchizat kanallarından ötüb keçməsinə, daha doğrusu, əsasən tədavül kanallarında yığılıb qalması və saxlanmasına sərf edilir. Ümumi vaxtın yerdə qalan hissəsinin 2 % - ni xüsusi istehsal (hazır məhsul istehsalı), 5% - ni isə nəqletmə əməliyyatları təşkil edir. Bu ölkələrdə məcmu milli məhsulun 20 % - i bazara malyeridilişi ilə əlaqədar xərclərdən ibarətdir. Buna görə də belə xərclərin quruluşunda xammal, yarımfabrikat və hazır məhsulların saxlanılmasına çəkilən xərclər 44 %, saxlanma və ekspedisiya xərcləri 16 %, yüklərin magistral və texnoloji daşınmasına çəkilən xərclər 23 və 9 %, hazır məhsulların satışının təmin edilməsinə sərf edilən xərclər isə 8 % təşkil edir.

Beləliklə, fikrimizi ümumiləşdirmiş olsaq logistikanın inkişafı bir tərəfdən firma və şirkətlərin malyeridilişi ilə əlaqədar vaxt və maliyyə məsrəflərinin azaldılmasına səy göstərmələri ilə əsaslandırılırsa, digər tərəfdən isə aşağıdakı iki:

- bazar münasibətlərinin mürəkkəbləşməsi və məhsulların bölüşdürülməsi prosesinə kəmiyyət və keyfiyyət baxımından yüksək tələbkarlıq;
- çevik istehsal sistemlərinin yaradılması kimi amillərlə müəyyənləşir.

Deməli, logistikanın inkişafı əhəmiyyətli dərəcədə istehsal strategiyasında və malyeridilişi sistemində mühüm dəyişikliklərlə müşahidə olunan satıcı bazarından alıcı bazarına keçidlə əlaqələndirilir. İstehsalçıların istehlakçılara icbari formada təhkim edilməsi, resursların ciddi və sərt mərkəzləşdirilmiş qaydada «bölgüsü» prinsipinə əsaslanan totalitar təsərrüfatçılıq, inzibati-amirlik sistemində bu və ya digər məhsulun istehsalına qərarın verilməsi onun satış siyasəti (strategiyası) ilə uzlaşdırılmırdı. Yəni, satış siyasətinin işlənməsi bir qayda olaraq məhsul istehsalından sonda gəlir və onun təşkili istehsalın diqtəsi-hökmü ilə həyata keçirilirdi. Lakin təsərrüfat subyektləri üçün fəaliyyət azadlığı təmin edən bazar iqtisadiyyatı şəraitində məhsul satışı bazarının həcmi və quruluşundan asılı olaraq məhsul istehsalına qərarların verilməsi və ya istehsal proqramının formalaşması qəti şəkildə satış strategiyasının tələblərinə uyğun həyata keçirilir. Məlum olduğu kimi istehsalın təşkilində istifadə olunan ənənəvi konveyerlərin robotlarla əvəzlənməsi, yəni istehsalın robotlaşdırılması əhəmiyyətli dərəcədə canlı əməyə qənaət edilməsinə və kiçik partiyalarla məhsul hazırlanması hesabına işlərin rentabellik səviyyəsini artıran çevik istehsal strukturlarının yaradılmasına gətirib çıxarır. İri istehsal müəssisələrində kütləvi istehsaldan imtina etməklə özlərinin istehsal fəaliyyətlərini məhz minimum xərclərlə kiçik seriyalı istehsal yönümündə qurmaları üçün əlverişli imkanlar yaranır. İri müəssisələrlə müqayisədə kiçik müəssisələrin çevik bazar şəraitinə uyğunlaşmaları və rəqabət qabiliyyətli olmaları üçün isə normal iqtisadi mühit formalaşır. Öz növbəsində istehsal fəaliyyətinin «kiçik partiyalar»

№ 3/2023 səh.111-115

prinsipi əsasında qurulması istehsalın material resursları ilə təminatı və hazır məhsulun satış sistemində müvafiq dəyişikliklərin həyata keçirilməsi ilə nəticələnir. Böyük həcmdə xammal, material, yarımfabrikat və son məhsulların göndərilməsi əksər hallarda iqtisadi nöqteyi - nəzərdən əlverişli olmur. Bununla əlaqədar olaraq istehsalçı müəssisələrin böyük anbar tutumlarına olan ehtiyacı aradan qalxır və ciddi vaxt məhdudiyyətləri daxilində yüklərin kiçik partiyalarla daşınmasına tələbat meydana gəlir. İlk baxışda belə fikir formalaşa bilər ki, istehsal yerlərinin anbar tutumlarından imtina etmələri məhsulların saxlanması ilə əlaqədar xərcləri azaltsa da (bəzi hallarda tam aradan qaldırsa da) kiçik partiyalarla məhsulgöndərmələrə çəkilən xərclər saxlama xərclərindən çoxdur, onu üstələyir. Lakin belə yanaşmada nəticə etibarı ilə məhsulların daşınmasına çəkilən artan xərclər anbar xərclərinin azaldılması hesabına bərpa edilir.

Logistikanın inkişafını bilavasitə müəyyənləşdirən faktorlarla yanaşı bunun üçün imkan yaradan amilləri də nəzərə almaq lazımdır. Buraya hər şeydən əvvəl:

- iqtisadi məsələlərin həlli üçün sistem və kompromisslər nəzəriyyəsindən istifadə;
- kommunikasiya sahəsində elmi-texniki tərəqqinin sürətləndirilməsi, mübadilə sferasında istifadə olunan sonuncu nəsl EHM – nin firmaların təsərrüfat praktikasında tətbiqi;
- məhsulgöndərmələr üzrə qayda və normaların xarici-iqtisadi fəaliyyətə uyğunlaşdırılması (unifikasiyası), ixrac və idxal üzrə müxtəlif səpkili məhdudiyyətlərin aradan qaldırılması, dünya təsərrüfat sistemində intensiv iştirak edən ölkələrin logistik yük vahidlərinin daşınması zamanı istifadə etdikləri yükləmə- boşaltma vasitələri, hərəkətedici heyət və bütünlüklə nəqliyyat vasitələrinin texniki parametrlərinin standartlaşdırılması aid edilir.

Firmanın məsrəfləri, gəlir və mənfəətinin balanslaşdırılması metodu kimi nəzərdən keçirilən kompromisslər iki aspektdən:
a) sistemin bütün tədavül xərclərinə təsiri;
b) satışdan asılı olan gəlirlərə təsiri baxımından qiymətləndirilir.

Lakin buradan belə nəticə hasil olunur ki, kompromisslər sistemdaxili xərclərin artmasına gətirib çıxarır. Standartlar çərçivəsində istehlakçılara yüksək xidmətin göstərilməsi nəticəsində satışdan əldə edilən gəlirlərin də mütləq həcmi artır. Şərtsiz olaraq, logistikanın inkişafı üçün obyektiv imkanların yaradılmasında mühüm rolu rabitə vasitələri və informatika sahəsində texniki tərəqqi oynayır. İlkin mənbədən son təyinat məntəqəsinə qədər material axınlarının hərəkətinə nəzarət olunması prosesində müasir informasiya vasitələrinin tətbiqi «kağızsız» texnologiyadan istifadə olunmasına şərait yaradır. «Kağızsız» texnologiyanın tətbiq edilməsinin mahiyyəti ondan ibarətdir ki, məsələn, material resurslarının təyinat məntəqəsinə daşınmasını həyata keçirən nəqliyyat vasitələrində yükləri müşahidə edən çoxlu sayda sənədlərlə yanaşı sinxron formada rabitə kanalları vasitəsilə göndərilən hər yük vahidini xarakterizə etmək üçün zəruri informasiyada ötürülür.

İnkişaf etmiş hər bir cəmiyyətin ilkin, əsas məqsədi həmişə cəmiyyət üzvlərinin dəyişən, çevik və konkret tələbatlarını (iqtisadi, sosial, fizoloji, mədəni) müəyyənləşdirməkdən ibarətdir. Mahiyyətinə görə cəmiyyət qarşısında duran ikinci dərəcəli vəzifə müəyyənləşdirilmiş tələbatın (son nəticələrə nail olunması) ödənilməsi üçün vasitə və texnologiyaların axtarılması – insan fəaliyyətinin əsasını təşkil edir. Bu zaman məşhur institusional nəzəriyyəçi T. Veblenin insan fəaliyyətini müəyyənləşdirən faktorları beş başlıca: «ustalıq», «valideynlik», «hər şeyi bilmək həvəsi», «aqressivlik», «eqoistlik» kimi instinktlər üzrə qruplaşdırmasına xüsusi diqqət yetirmək lazımdır. Qeyd olunan bu instinktlərin müxtəlif formada kombinasiyasını «sosial vərdişlərin» törədicisi hesab etmək olar. Birinci üç əsas instinkt cəmiyyətin maraqları ilə eyniyyət təşkil etdiyindən onlar «müsbət» vərdiş kimi qiymətləndirilir. Sonuncu iki instinkt fərdin, individumun cəmiyyətə qarşı etirazını ifadə edir. Vərdişlər insan üçün təvəkkür adəti, davranışın ümumi prinsiplərini formalaşdırır. Logistik təfəkkür isə hər şeydən əvvəl «ustalıq» instinktinə əsaslanır. Daha doğrusu, logistik iqtisadiyyat ona insani münasibətlər üçün müvafiq atmosfer yaradır.

№ 3/2023 səh.111-115




**Şəkil 1. İnsanın firma, jəmiyyət və təbiətlə qarşılıqlı əlaqə sistemi**

Hal-hazırda cəmiyyətlə təbiət arasında kifayət qədər mürəkkəb qarşılıqlı əlaqələr sistemi mövcuddur. Şəkil 1.1-dən göründüyü kimi bu halda insan - sahibkarlıq firmasının əməkdaşı, onun daxili mühitinin başlıca elementi, istehsal prosesinin aparıcı qüvvəsi; firma - bazar iqtisadiyyatının əsas hərəkətverici subyekti; təbiət – tayı - bərabəri olmayan, həmişəlik, əbədi ətraf mühit; cəmiyyət – firmanın bütün ətraf mühiti – onun məhsullarını alan alıcılar və xammal, material, enerji, dəstləşdirici məmulatları göndərənlər, hökumət və ictimai təşkilatlar, rəqiblər, banklar, birjalar və s. başa düşülür. Bu sistemdə hər bir əlaqə müstəqil ictimai - iqtisadi fənlərin predmetini təşkil edir. «Təbiətlə – firma» arasında qarşılıqlı əlaqələr ekologiyanın tədqiqat obyektinə, «cəmiyyət – firma» arasında qarşılıqlı əlaqə firmanın xarici faktorların təsirilə idarə edilməsini əks etdirməklə marketinqin müstəsna səlahiyyətinə; «insan – firma» əlaqələri firmanın əsas sistem yaradıcı elementi hesab edilən insanın sistem kimi nəzərdən keçirilən firmaya münasibətlərini, yəni daxili amillərin idarə edilməsini xarakterizə edən menecmentin fəaliyyət sferasına aid edilir. Marketinq firmanın strateji baxımdan inkişaf etdirilməsi üçün ideyaların generatoru, menecment bu ideyaların reallaşdırılmasının təminat vasitəsi kimi çıxış edir və eyni bir prosesin (strateji və operativ idarəetmənin) iki ayrılmayan tərəflərini özündə birləşdirir.

«İnsan – təbiət» arasında qarşılıqlı münasibətləri, əlaqələri insanın dünyaya dəyərli münasibətlərinin aşkar edilməsi haqqında, insanların bədii fəaliyyət sferası haqqında elm-estetika öyrənir və bunlar onun predmetini təşkil edir. Bütün bu rəngarənglikdən isə təbii ki, sənaye estetikası, dizayn əmələ gəlmişdir.

«Cəmiyyət – təbiət» münasibətləri varlığın və idrakın ümumi prinsiplərinin, habelə təbiətin, cəmiyyətin və təfəkkürün ümuminkişaf qanunauyğunluqlarının öyrənilməsi ilə məşğul olan fəlsəfə elminin çoxsaylı predmetlərdən biridir. Sosial həqiqətlərlə determinələşdirilən fəlsəfə ictimai varlığa aktiv təsir göstərir, yeni ideallar və mədəni dəyərlər formalaşdırır. Məhz təsərrüfatçılığın fəlsəfəsi hesab edilən yeni, müstəqil elm sahəsi – sahibkarlıq fəlsəfəsi də beləcə formalaşır.

Bütün bunlarla yanaşı sxemdə müstəqil şəkildə öyrənilən bir elmin –material, maliyyə, əmək, informasiya və digər axınlar vasitəsilə mövcud sistemin obyektləri arasında qarşılıqlı əlaqəni həyata keçirən - logistikanın predmetini təşkil edən xüsusi sfera göstərilmişdir.

Logistika iqtisadi subyektlərə, mücərrəd formada bazara deyil, məhz konkret istehlakçıya

№ 3/2023 səh.111-115

istiqamətlənməklə bazarda rəqabət üstünlüklərinin təmin edilməsi üzrə səmərəli strategiyanın formalaşmasına imkan verir. Bu mənada logistik təfəkkür məhsulların fiziki bölüşdürülməsindən fərqli olaraq daha geniş məsələləri əhatə edir. Ona görə də bazar iqtisadiyyatı şəraitində firmaların rəqabət qabiliyyətinin yüksəldilməsinə şərait yaradan obyektiv qərarların qəbul edilməsi üçün əməliyyatların tədqiq edildiyi səviyyədə həm firmanın daxili, həm də xarici mühitini xarakterizə edən böyük informasiya bazasını formalaşdırmaq lazım gəlir. Birmənalı formada qeyd etmək olar ki, formalaşan bu informasiya bazası tələbatın ödənilməsi üçün optimal həll metodlarının və ya üsullarının aşkar edilməsinə xidmət göstərəcəkdir.

Deməli, bazar iqtisadiyyatı inkişaf etdikcə cəmiyyət üzvlərinin mütəmadi artan tələbatının konkret ödənilməsi üçün aşkar edilən metod və üsulların praktiki olaraq istər makro, istərsə də mikrosəviyyədə tədricən təkmilləşdirilməsi (optimallaşdırılması) meylləri güclənir. Ötən, XX əsrdə insan cəmiyyətinin inkişafında nəzərə alınan ümumi hadisələr onun həyat fəaliyyətinin bütün cəhətlərinin təkmilləşdirilməsinə manikal (mübtəla, düşkünlük) cəhdlərin göstərilməsi ilə səciyyələnir. Yəni, mövcud olan yaxşı nə varsa onların yaxşılaşdırılması və insan tələbatının (o cümlədən, keçmiş fantaziyaya görə nağıl hesab edilən televiziya, nüvə enerjisi, genetika əsasında bioloji əkizlərin yaradılması, Aya uçuş və s.) ödənilməsinin bu və ya digər cəhətlərinin total optimallaşdırılması traktovakası irəli sürülürdü. Bununla əlaqədar bütün aspektlər üzrə cəmiyyətin inkişafında, xüsusilə XX əsrin həm əvvəlləri, həm də sonlarında cəmiyyətdə hər bir individiumun sosial mövqeyi, həyat səviyyəsi və həyat tərzində praktiki baş verən mütərəqqi dəyişiklikləri mütənasib, mücərrəd formada izləmək lazım gəlir. Məsələn, istehsalın texnika və texnoloji baxımdan təşkili, təhsil, maddi nemətlərin yaradılması (əsrin əvvələrində və sonunda avtomobil, təyyarə, dəniz nəqliyyatı, hərbi vasitələr, silahlar və müdafiə vasitələri, insan resurslarının təşkili və idarə edilməsi) sahəsində iri, nəhəng intellektual insan potensialının toplanması və s.

Elmi-texniki tərəqqinin və iqtisadi inteqrasiyanın dünya ölkələri üzrə inkişaf ənənələri, sabit bazar iqtisadiyyatının spesifik xüsusiyyətləri, inkişaf etmiş ölkələrdə onun dövlət (inhisarçı) tənzimlənməsi, respublikamızda həyata keçirilən iqtisadi islahatların tənzimlənən legitim bazar mexanizminin yaradılması istiqamətində aparılması zəruriyyəti, dövlət və qeyri - dövlət müəssisələrinin kommersiya fəaliyyətinin spektrinin genişləndirilməsi və s. material, informasiya və maliyyə axınlarının idarə edilməsi ilə əlaqədar praktiki hesab olunan çoxlu problem məsələləri (bunlardan bəziləri əvvəllər həll edilmədiyinə görə «köhnə», digərləri isə köhnə vaxtda «unudulmuş» hesab olunduqlarına görə iqtisadi, elmi texniki tərəqqi baxımından «yeni» elmi yanaşma tələb edir) iqtisadiyyatın bütün səviyyələrində ön plana çəkdi və ona aktual xarakter verdi.

Qeyd etmək lazımdır ki, təsərrüfat subyektlərinin sərbəst fəaliyyət azadlığına və onların iqtisadi baxımdan müstəqilliyinə təminat verən bazar iqtisadiyyatına keçidlə əlaqədar ötən əsrin 90 - cı illərinin sonunda kommersiyanın ölkə iqtisadiyyatı üçün vaciblik və əhəmiyyətlik dərəcəsindən asılı olmayaraq elmi-texniki tərəqqiyə əsaslanan dünya təsərrüfat sistemində yeni iqtisadi strukturlar yaradıldı və onların optimal inkişaf formaları aşkar olundu. Təbii ki, belə mütərəqqi formalardan biri kimi iqtisadiyyatın logistikləşdirilməsini (iqtisadiyyatın bütün sahələrində logistik prinsiplər və ya yanaşmaların total - ümumi tətbiqi) hesab etmək olar.

## Nəticə

Məhz kompetent həlli iqtisadiyyatın logistizasiyası gedişində müvəffəqiyyətlə təmin edilən bir neçə aktual məsələləri (problemlər) fikrimizcə aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Müəssisə, iqtisadi region və bütünlükdə milli iqtisadiyyat səviyyəsində məqsəd bazarına çıxarılacaq hazır məhsulun istehsalına lazım olan müxtəlif növ xammal-material qiymətliləri, xidmətlər və maliyyə vəsaitlərinə real və potensial tələbatın elmi nöqteyi- nəzərdən əsaslandırılması.

Aydındır ki, bu məsələ qarşıda duran məqsəd və müxtəlif meyarlar nəzərə alınmaqla həll edilməlidir.

2. Məhsul istehlakçılarının istehsalçılara rasional təhkim edilməsi (əgər müəssisələr dövlət və ya proteksionist siyasətin subyektidirsə) və ya istehlakçılarla istehsalçılar, eləcə də məhsulgöndərənlər

№ 3/2023 səh.111-115

arasında mövcud sərbəst iqtisadi münasibətlərin aşkar olunması və onun kontrakt (müqavilə) – kommersiya münasibətləri üzərində qurulması.

Bazarda təsərrüfat subyekti kimi müstəqil çıxış edən dövlət özünün real şəraitdən asılı iqtisadi maraqlarını tələ-
bat paketinə uyğun «dövlət sifarişçisi» formasında ixtiyari istehsalçı firma ilə müqavilə münasibətlərində ifadə edir və sifarişin icra edilməsi üzrə müvafiq şərtləri müəyyənləşdirir. Sahibkarlıq fəaliyyəti sahəsində anoloji olan bu tip problemlər kifayət qədər mürəkkəb hesab olunur və logistik yanaşma və prinsiplər əsasında müvəffəqiyyətlə həll edilir.

3. Məhsulgöndərmələrin təşkili, material qiymətlilərinin, informasiyaların və maliyyə vəsaitlərinin qəbulu və saxlanması ilə əlaqədar logistik əməliyyatların optimallaşdırılması.

4. Makro, mezo və mikro səviyyələrdə istehsal – texniki təyinatlı məhsulların istehsalçıları və istehlakçılarına xidmət göstərən təchizat – satış, nəqliyyat müəssisələri və təşkilatlarının qarşılıqlı fəaliyyətinin səmərəli təşkili.

5. İnkişaf edən azad bazar iqtisadiyyatı şəraitində material və maliyyə resurslarının milli iqtisadiyyat, iqtisadi region, sahə və müəssisə səviyyəsində bölüşdürülməsi üzrə proseslərin idarə edilməsi və onun təkmilləşdirilməsi.

6. İstehsalçı müəssisələrin zəruri xammal və material qiymətlilərilə təmin olunması üçün optimal təchizat və əksinə hazır məhsulun həm marketinq logistikası, həm də beynəlxalq marketinq logistikası əsasında (mezo səviyyədə) reallaşdırılması üçün satış planlarının işlənib hazırlanması.

Bu problematika sənaye-maliyyə qrupları, beynəlxalq maliyyə və bank strukturları üçün daha xarakterikdir.

7. İstehsalçı firma və ya müəssisə çərçivəsində sex və sahələrin zəruri material və avadanlıqlarla tələb olunan vaxtda və zəruri həcmdə optimal təmin edilməsi.

**UDC 339.01**

**General logistics problems in modern economic conditions**

**[1]Hasanova K. R., [2]Aliyev Sh.H.**

**Summary.**The growing interest in the problem of logistics development in industrially developed countries is primarily due to economic reasons from a historical point of view. In a situation where the volume of production is increasing, and domestic and international relations are expanding, the factor of increasing the level of costs related to the sphere of exchange has strengthened the efforts of entrepreneurs to find new forms in order to optimize market activity.

**Key words:** logistics, international communication, production

**УДК 339.01**

**Общие проблемы логистики в современных экономических УСЛОВИЯХ**

**[1]Гасанова К. Р., [2]Алиев Ш.Г.**

**Резюме.**Возрастающий интерес к проблеме развития логистики в индустриально развитых странах обусловлен, прежде всего, экономическими причинами с исторической точки зрения. В ситуации, когда объем производства увеличивается, а внутренние и международные связи расширяются, фактор повышения уровня издержек, связанных со сферой обмена, усилил усилия предпринимателей по поиску новых форм с целью оптимизации рыночной деятельности.

**Ключевые слова**: логистика, международные коммуникации, производство.

Redaksiyaya daxilolma: 12.09.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh. 116-122

UDC: 338.1, 338.3.
JEL: L11, L61, L69, O10, O31.
DOI:10.30546/JIECM.2023.3.122.

# GREENING THE AUTOMOTIVE INDUSTRY: LEVERAGING ALUMINUM FOR ENVIRONMENTAL AND ECONOMIC ADVANTAGES

**Ramil İlham Hasanov**

**Azerbaijan Technology University**

**r.hasanov@uteca.edu.az**

***Summary.****Numerous strategic industries stand as prime candidates for the infusion of greeninnovation, with the transportation sector ranking second only to the energy industry in terms of global emissions. The continual escalation in the mass of automobiles and aviation fleets necessitates the development of novel methodologies, extending beyond the electrification of propulsion systems to encompass innovative material supply chain management. Aluminum, heralded as the preeminent eco-friendly material of the future, emerges as a particularly unique and influential instrument in this endeavor. In contemporary times, the weight of aluminum and its compounds in automobile production has eclipsed 70% in certain cases, underscoring its pivotal role in shaping the manufacturing landscape. Within the scope of this research, comprehensive analyses pertaining to green marketing strategies within the automotive and allied industries were conducted, unveiling the multifaceted environmental and economic benefits associated with the integration of aluminum materials.*

*This article investigates how the strategic use of aluminum in the automotive sector not only enhances environmental sustainability but also yields substantial economic benefits. Aluminum's weight-saving properties and fuel efficiency improvements are pivotal in driving both environmental conservation and financial viability in the automotive industry.*

***Keywords:*** *Sustainability, car industry, aluminum, innovation, green transport.*

**Introduction.**The automotive sector is presently standing at a pivotal crossroads in its evolutionary journey. With a global drive towards more sustainable and environmentally friendly transportation solutions, automakers are facing escalating demands to curtail their carbon emissions and adopt eco-conscious materials and manufacturing methods. Within this paradigm shift towards sustainability, aluminum has risen to prominence as a central figure. Leveraging its exceptional blend of strength, lightweight attributes, and recyclability, aluminum has emerged as a transformative force in the quest to enhance vehicle fuel efficiency and promote ecological awareness.

In recent times, aluminum has been pushing other metals out of the market in world car production. From engine internals to spare parts, aluminum has begun to be widely used. As a light metal, aluminum has become a more demanded product in the world because it has switched to an ecologically low-consumption model. Aluminum offers a more affordable car for the future. This car is faster, lighter, less fuel-efficient, safer, and more environmentally friendly. Attention to the production of the main parts of the car from aluminum is increasing. Aluminum is included in the machinery industry in various combinations and brands.

In particular, the increase in electric vehicle production in recent years has further increased the demand for aluminum. The company "Tesla", which has implemented revolutionary innovations in the automobile industry, has designed a number of important parts of the electric car from aluminum alloys. Recently, the company began to install new aluminum-titanium armor plates on its cars. This tool allows you to literally crush concrete and steel barriers, while at the same time allowing the driver to fully control the car. The main negative aspect of aluminum for the automotive industry is that it is

№ 3/2023 səh. 116-122

relatively expensive. The high cost of production of some aluminum alloys affects their final market price in the automotive industry. For this reason, currently, cars made of aluminum are mostly in the luxury category. The CoMIT (Cost, Macro, Infrastructure, Technology) model is a sophisticated analytical tool designed for assessing the consequences of widespread Electric Vehicle (EV) adoption on the demand for critical raw materials. According to the model's projections, it is expected that by 2030, there will be a substantial increase in the demand for vehicles, with a significant uptick of 27.4%. Within this growth trajectory, Electric Vehicles are expected to make up approximately 13.3% of the total vehicle demand (Jones, Ellioe & Nguyen-Tien, 2020) [1]. The CoMIT model considers critical factors such as the cost implications of EV adoption, macroeconomic variables, infrastructure development, and automotive technology advancements, providing a holistic understanding of EV proliferation's impact on vital raw materials demand. This analysis is of great significance, offering valuable insights into the evolving automotive industry and its potential implications for resource consumption, environmental sustainability, and economic dynamics, thereby aiding policymakers, industry stakeholders, and researchers in informed decision-making for sustainable transportation and resource management in the next decade.

This kind of explorations delve into the potential ramifications on energy demand resulting from the impending shift to electric vehicles. It initiates by elucidating the motivating factors behind the transition from internal combustion engines to electric power, along with identifying key barriers obstructing this shift. It evaluates the diverse approaches used to implement this transition, encompassing an analysis of governmental policies and technological innovations. Finally, it addresses the expected consequences on existing electricity generation and distribution systems, and explores innovative technologies and emerging business models that could accommodate the substantial surge in electricity demand anticipated with the widespread adoption of Evs (Nieuwenhuis, Cipcigan, & Sonder, 2020) [2].

The new trend in the modern car industry, aluminum is used for the production of white bodywork, such as roof panels, doors, and hood panels. For example, the hid panels of automobiles like the "Audi A6, Renault Laguna II, and Peugeot 307" are aluminum bodyly parts. Aluminum alloy is used in the hood, roof, and door panels of the Renault Laguna II.

Many car manufacturers use aluminum alloys in a number of parts of the overall car production. Aluminum body panels have multifarious advantages, not only in reducing the weight of the car but also in decreasing the fuel consumption and increasing the maneuverability potential of the car.

What sets the aluminum body apart from other rigid and heavy steel-based alternatives is that it is also more environmentally friendly. In addition to energy and fuel consumption, the recycling of aluminum used as a raw material in car body parts has a potential of 99%. Apart from these, aluminum is also used in the engine, wheels, and other parts of the car.

**Material and methods.**Aluminum's applicability within the automotive industry extends far beyond its traditional role in forming body panels. It finds integration into a myriad of critical vehicle components, including engine blocks, suspension elements, wheels, and transmissions, among others. This diverse incorporation of aluminum is underpinned by its distinctive lightweight properties, which exert a profound influence on a vehicle's power-to-weight ratio. As a result, aluminum contributes significantly to the enhancement of overall automotive performance and efficiency. Furthermore, aluminum's exceptional malleability is a hallmark feature that empowers automotive designers and engineers to explore intricate and inventive designs. This malleable characteristic is pivotal in achieving a harmonious fusion of aesthetic appeal and functional innovation in contemporary vehicles. By capitalizing on aluminum's capacity to assume intricate shapes, automotive manufacturers can drive advancements in aerodynamics, structural engineering, and novel manufacturing processes. These endeavors collectively spearhead the ongoing evolution of automotive design and performance. Therefore, aluminum's adaptability serves as a cornerstone not only of its versatility but also of its pivotal role in propelling forward the frontiers of automotive engineering and design within the framework of sustainability and environmental consciousness.

№ 3/2023 səh. 116-122

Passenger cars were the biggest source of emissions that year, accounting for 41 percent of global transportation emission (Tiseo, 2023) [3]. In such statistical realities, when approaching epistemological bases along with green energy strategies, the development of a theoretical-methodological road map for the greening of the automobile industries with aluminum materials is of special importance.

The use of aluminum metal in car industry is strategic, but it is also scarce in terms of scientific materials. To implement the research, it is required to acquire theoretical and practical knowledge. Tizsa's comprehensive study (2014a) [4] and the subsequent collaborative work by Tizsa & Lukacs (2018a) [5] encompassed in-depth investigations into the utilization of aluminum within the automotive sector. Manufacturer Haomei Aluminum and the global information platform Aluminum Leader also have useful data exclusively for the car industry. The use of aluminum in the automotive industries is of particular importance from an eco-economic point of view. Theoretically and methodologically, the main research vectors are based on the principles of sustainable development. Basic green marketing and innovation features were expressed as the main criteria of the research.

Aluminum is the fastest-growing material in the car industry today. It is predicted that in 2026, every vehicle produced will contain an average of 12% aluminum (Huetter, 2020) [6]. In particular, the share of aluminum in today's fast-growing electric cars will show itself to be important. Innovative cars of the future will depend on aluminum.



**Figure 1.** Aluminum car model.
**Photo source:** Autoaluminumsheet.com

## Research findings

Every kilogram of aluminum used in a car can lead to a decrease of one kilogram in the total weight of the car. As a result, more automobile components are made of aluminum, including engine radiators, rims, bumpers, suspension parts, engine cylinder blocks, gearbox housings, and body parts such as hoods, doors, and even the frame. Since the 1970s, the share of aluminum in the total heaviness of the average car has been steadily increasing. So, if in the 1970s an average of 35 kg of aluminum was used in a car, now this figure has risen to 152 kg. Experts predict that by 2025, the average amount of aluminum in a car will be 250 kg (Aluminumleader, 2015) [7].

№ 3/2023 səh. 116-122




**Figure 2.** The portion of aluminum in the total mass of the car by years (in kilograms).

Another compelling statistic about aluminum in the automotive sector is its 95% recycling rate. This means 1 million tons of aluminum have returned to circulation in this area alone. 21 barrels of oil are saved for every ton of aluminum obtained through recycling. According to the calculations of the national laboratory "OAK Ridge" of the USA, a 20% reduction in total life cycle energy consumption and a 17% reduction in CO2 emissions can be achieved (Das, 2020) [8].

Many alloy grades of aluminum are used in the automotive industry: 5xxx allow series (Al+Mg), 6xxx series (Al+Mg+Si), 7xxx series (Al+Zn), and 3xxx series (Al+Mn). For example, 5xxx is required for the main body of the car and 6xxx for the wheels (Haomei Aluminum, 2023) [9]. If it is expressed as a concrete brand, for example, car doors are mainly made of 5182 brand aluminum. Due to their improved physical, mechanical, and tribological qualities, aluminum composite materials have emerged as the material of choice for many architectural applications (Srivyas & Charoo, 2019a) [10]. Automobile producers have made a progression all-aluminum vehicles with two competing designs: the traditional unibody and the spaceframe concept. The rise in aluminum substitution for steel is influenced in part by regulatory pressures to meet fuel efficiency standards by reducing vehicle weight and to meet recycling standards (Tisza, and Lukacs, 2018b) [11]. The use of the so-called multimaterial principle is also becoming more common in today's vehicle body production (Tizsa, M., 2014b) [12].

The advantages of aluminum for car manufacturing are as follows:

- Low fuel consumption: cars using aluminum have about 10% less energy-fuel consumption.
- Having a light weight has a positive effect on power and handling performance. Aluminum cars are around 20–30% lighter than other alternatives.
- Having profits in speed. Faster movement means more maneuverability.
- Increases safety. The lightweight the vehicle, the more secure it is. The greater the inertia of the vehicle, the greater the impact energy it will bear after the accident, and the more severe the repercussions of the accident.

By 2030, the global requirement for passenger-carrying plane alone is projected to exceed 30,000, and rapid growth will keep the importance of aluminum, which is of great importance to aircraft manufacturing, in constant focus. The main aspects that make aluminum alloys important for the aviation field and aircraft design are that they are light in weight, resistant to corrosion, and have high strength parameters. For example, aluminum is 70% lighter than iron and resistant to environmental influences. Apart from these, the following are the main advantages of aluminum for the aircraft industry:

- Resistance to high voltage, temperature, and pressure.
- Having high electrical conductivity.

№ 3/2023 səh. 116-122

- Having more cost-effective features than other alternatives.

The automotive industry is facing the challenge of increasing demand for lightweight and environmentally friendly vehicles that reduce energy consumption and air pollution. The distinctive characteristics of aluminum make it a promising material to replace the heavier materials currently employed in the automotive sector (Srivyas & Charoo, 2019b) [13]. While aluminum has found significant applications in the automotive industry, it faces certain challenges that warrant consideration. A prominent issue revolves around the production of primary aluminum, a process known to be energy-intensive and hence raising concerns about the environmental implications associated with aluminum mining and refining. Nevertheless, the industry is actively engaged in various initiatives aimed at enhancing the sustainability of aluminum production. These endeavors encompass the adoption of renewable energy sources in manufacturing facilities and continuous refinement of aluminum extraction and processing techniques to minimize their ecological footprint. Furthermore, as the use of aluminum in vehicles continues to grow, there is a pressing need to fortify recycling infrastructure. This strategic expansion is crucial to ensure the efficient collection and reintroduction of end-of-life aluminum components back into the manufacturing cycle. By establishing a robust and efficient recycling framework, the automotive sector can fully leverage the recyclable nature of aluminum, thus diminishing the demand for virgin materials and consequently reducing the environmental impact associated with primary aluminum production. This dual-pronged approach, which combines sustainable production methods with improved recycling practices, is instrumental in charting a more environmentally responsible and resource-efficient course for the future of the automotive industry.

## Conclusion

A number of strategic industries of environmental and economic importance were analyzed in the research work. As the main object, the possible application methods of aluminum materials, with green principles as the basis, have been elaborated. The main goal of scientific research on this topic, which is also considered a branch of green supply chain management, is to make a small contribution to the sustainable future of the world.

The scientific article points to new visions of the future by showing ways of using aluminum metal in the machinery and aviation industries. The utilization of aluminum in these industries can lead to 10–30% green benefits. The data revealed in the research, the information collected on one platform, the specific material names, and the future predictions have useful nuances for all researchers interested in this field. The goal of the research written in the form of a review is to be useful to the scientific environment of Turkey and Azerbaijan, which specialize in the aluminum industry in the region.

## REFERENCES

1. Jones, B., Elliott, R. J., & Nguyen-Tien, V. (2020). The EV revolution: The road ahead for critical raw materials demand. Applied Energy, 280, 115072.
2. Nieuwenhuis, P., Cipcigan, L., & Sonder, H. B. (2020). The electric vehicle revolution. In Future energy (pp. 227-243). Elsevier.
3. Tiseo, L. (2023). Breakdown of CO2 emissions in the transportation sector worldwide 2020, by subsector. Distribution of carbon dioxide emissions produced by the transportation sector worldwide in 2020, by subsector. Statista.
https://www.statista.com/statistics/1185535/transport-carbon-dioxide-emissions- breakdown/
4. Tisza, M (2014a) Advanced materials in sheet metal forming, Key Engineering Materials, 581 pp.137-142. DOI:10.4028/www.scientific.net/KEM.581.137
5. Tisza, M. & Lukacs, Z. (2018b). High strength aluminum alloys in car manufacturing. IOP Conf. Ser.: Mater. Sci. Eng. 418 012033. DOI 10.1088/1757-899X/418/1/012033

№ 3/2023 səh. 116-122

6. Huetter, J. (2020). DuckerFrontier: Aluminum has grown in skeleton of cars; spike in bumpers expected.
7. Aluminiumleader (2015). Aluminium in transport. https://www.aluminiumleader.com/application/transport/
8. Das, S. (2014). Life Cycle Energy and Environmental Assessment of Aluminum-Intensive Vehicle Design. SAE International Journal of Materials and Manufacturing 7(3):588-595. https://doi.org/10.4271/2014-01-1004
9. Haomei Aluminum (2023). What Are The Aluminum Alloys Used in Cars. https://www.autoaluminumsheet.com/a/what-are-the-aluminum-alloys-used-in-cars.html.
10. Srivyas, P.D. & Charoo M.S., (2019a). Application of Hybrid Aluminum Matrix Composite in Automotive Industry. Material Today Proceedings. Volume 18, Part 7, 2019, Pages 3189-3200. https://doi.org/10.1016/j.matpr.2019.07.195
11. Tisza, M. & Lukacs, Z. (2018b). High strength aluminum alloys in car manufacturing. IOP Conf. Ser.: Mater. Sci. Eng. 418 012033. DOI 10.1088/1757-899X/418/1/012033
12. Tisza, M (2014b) Advanced materials in sheet metal forming, Key Engineering Materials, 581 pp.137-142. DOI:10.4028/www.scientific.net/KEM.581.137
13. Srivyas, P.D. & Charoo M.S., (2019b). Application of Hybrid Aluminum Matrix Composite in Automotive Industry. Material Today Proceedings. Volume 18, Part 7, 2019, Pages 3189-3200. https://doi.org/10.1016/j.matpr.2019.07.195

**UOT 338.1, 338.3.**

## Avtomobil sənayesinin yaşıllaşdırılması: ekoloji və iqtisadi üstünlüklər üçün alüminiumdan istifadə

**R. İ.Həsənov**

**Xülasə.**Çoxsaylı strateji sənayelər yaşıl innovasiyaların tətbiqi üçün əsas namizəd kimi dayanır və nəqliyyat sektoru qlobal emissiyalara görə enerji sənayesindən sonra ikinci yerdədir. Avtomobil və aviasiya sənayelərinin kütləsinin davamlı artması, innovativ material tədarük zəncirinin idarə edilməsini əhatə etmək üçün hərəkət sistemlərinin elektrikləşdirilməsindən də kənara çıxan yeni metodologiyaların işlənib hazırlanmasını tələb edir. Gələcəyin ekoloji cəhətdən təmiz materialı kimi elan edilən alüminium bu işdə xüsusilə unikal və təsirli alət kimi çıxış edir. Müasir dövrdə avtomobil istehsalında alüminiumun və onun birləşmələrinin çəkisi bəzi hallarda 70%-i üstələyib və bu kimi amillər onun istehsal landşaftının formalaşmasında əsas rol oynayır. Bu tədqiqat çərçivəsində alüminium materialların inteqrasiyası ilə əlaqəli çoxşaxəli ekoloji və iqtisadi faydaları ortaya çıxaran avtomobil sənayesi daxilində yaşıl marketinq strategiyalarına aid geniş təhlillər aparılmışdır.

Bu məqalə avtomobil sektorunda alüminiumun strateji istifadəsinin nəinki ekoloji dayanıqlığı artırdığını, həm də əhəmiyyətli iqtisadi faydalar verdiyinə də önəm vurğulayır. Alüminiumun çəkiyə qənaət edən xüsusiyyətləri və yanacaq səmərəliliyinin təkmilləşdirilməsi həm ətraf mühitin qorunmasında, həm də avtomobil sənayesində maliyyə dayanıqlığının təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.

**Açar sözlər:** davamlılıq, avtomobil sənayesi, alüminium, innovasiya, yaşıl nəqliyyat.

**УДК 338.1, 338.3.**

## Экологизация автомобильной промышленности: использование алюминия для получения экологических и экономических преимуществ

**Р. И. Гасанов**

**Резюме.**Многочисленные стратегические отрасли промышленности являются главными кандидатами на внедрение «зеленых» инноваций, при этом транспортный сектор занимает второе место после энергетической отрасли по объему глобальных выбросов. Постоянное увеличение количества автомобилей и авиации требует разработки новых методологий,

№ 3/2023 səh. 116-122

выходящих за рамки электрификации двигательных систем и охватывающих инновационное управление цепочками поставок материалов. Алюминий, провозглашенный выдающимся экологически чистым материалом будущего, становится особенно уникальным и влиятельным инструментом в этом начинании. В настоящее время вес алюминия и его соединений в производстве автомобилей в некоторых случаях превысил 70%, что подчеркивает его ключевую роль в формировании производственной среды. В рамках этого исследования был проведен комплексный анализ стратегий зеленого маркетинга в автомобильной и смежных отраслях, раскрывающий многогранные экологические и экономические выгоды, связанные с интеграцией алюминиевых материалов.

В этой статье исследуется, как стратегическое использование алюминия в автомобильном секторе не только повышает экологическую устойчивость, но и дает существенные экономические выгоды. Свойства алюминия по снижению веса и повышение эффективности использования топлива имеют решающее значение для сохранения окружающей среды и финансовой жизнеспособности автомобильной промышленности.

**Ключевые слова:** устойчивое развитие, автомобильная промышленность, алюминий, инновации, экологически чистый транспорт.

Redaksiyaya daxilolma: 25.09.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.123-128

| UOT: 338.1, 338.3. |
| --- |
| DOI:10.30546/JIECM.2023.3.129. |

UOT 338.1, 338.3.

# MÜƏSSİSƏDƏ İNNOVASİYA FƏALİYYƏTİNİN MƏHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

**Xudaverdiyeva Elnurə Misir qızı**

**Gəncə Dövlət Universiteti**

***Xülasə.****İnnovasiaya fəaliyyəti nəticəsində yeni ideyalar, yeni və təkmilləşdirilmiş məhsullar, texnoloji proseslər doğulur, iqtisadiyyatın müxtəlif sahələrinin və onun strukturlarının yeni təşkili və idarə olunması formaları meydana çıxır. Davamlı yeniliklər şirkətin yüksək artım templərini və gəlirliliyini qorumağın yeganə yoludur. Bu günkü enerjili, aqressiv rəqabət mühitində mövcud məhsul çeşidinin rentabelliyini qorumaq heç də asan deyil. Dəyişən şərtlər gözlənilmədikdə və vaxtında reaksiya verilmədikdə, müəssisə böhranla üzləşə bilər. Bazar iqtisadiyyatı şəraitində menecerin yaxşı məhsula malik olması kifayət deyil; o, rəqiblərlə ayaqlaşa bilmək üçün yeni texnologiyaların yaranmasına ciddi nəzarət etməli və onların öz müəssisəsində tətbiqini planlaşdırmalıdır. Ölkə iqtisadiyyatının qeyri-sabitliyi və idxalı əvəzləmə siyasətinin fəal şəkildə formalaşdırılması zərurətinin mövcud vəziyyətində nəzərdən keçirilən məsələ çox aktualdır.*

***Açar sözlər:*** *innovasiya, qərar qəbuletmə, xarici və daxili mühit, innovasiya strategiyası, proqnozlaşdırma.*

**Giriş.** Bu gün yüksək səviyyədə innovasiya potensialına malik müəssisələr innovasiyaları bazara uğurla təqdim edirlər. Müasir şəraitdə yeni biliklərin tətbiqinin bütün prosesləri bazar münasibətləri ilə əlaqələndirilir. Təcrübə göstərir ki, innovasiyalar bazara və onun tələbatının ödənilməsinə yönəlir. Əsas problem hələ də innovasiya prosesinin iştirakçıları arasında pozulmuş əlaqələr, məlumatların qeyri-şəffaflığı və bu baxımdan da innovasiyaların inkişafı və maliyyələşdirilməsi üçün aşağı motivasiya olaraq qalır.

İnnovasiya mexanizmini, onun stimullarını və kanallarını bilmək müəssisələrin rəqabət qabiliyyəti və sabitliyi üçün böyük əhəmiyyət kəsb edir. Məqalə mürəkkəb və çoxsəviyyəli proses kimi başa düşülən innovasiya fəaliyyətinə həsr olunub. Bura yeni texnologiyanın inkişafı və yeni məhsulun istehsalı daxildir. İnnovasiyaların digər sənaye sahələrinə yayılması, yeni üsul və məhsulların digər sahələrə uyğunlaşdırılması və yeni bazar sektorlarının formalaşması son dərəcə vacibdir. Ümumiyyətlə, innovasiya axını xüsusilə mühüm infrastrukturdur, bu, müvafiq kadrların hazırlanması sistemi, elmi məlumatların yayılması kanalları, elmi tədqiqatların intensivləşdirilməsinin maliyyə üsulları və s.-dir. Əks halda istənilən ixtira yalnız tarix, elm və texnologiyanın mülkiyyətinə çevrilə bilər.

Bu gün davamlı inkişaf üçün müəssisə fəaliyyətinin bütün sahələrində innovasiyanın əhəmiyyəti və rolu olduqca böyükdür. İnnovasiya siyasəti sahəsində kompleks yanaşmanın zəruriliyini dərk edən müəssisələr yeni yüksək texnologiyalı və rəqabətqabiliyyətli məhsulların (xidmətlərin) yaradılması hesabına iqtisadi inkişafa şərait yarada bilirlər.

Müəssisənin potensialı müəssisənin mövcudluğu üçün əsas meyardır. Potensialın inkişafı vasitəsilə təşkilatın və onun bölmələrinin, həmçinin istehsal və təsərrüfat sisteminin bütün elementlərinin inkişafı həyata keçirilir.

**Müzakirə.**Dünya iqtisadi ədəbiyyatında "innovasiya" potensial elmi-texniki tərəqqinin yeni məhsul və texnologiyalarda təcəssüm olunmuş real tərəqqiyə çevrilməsi kimi şərh olunur. Ölkəmizdə innovasiya məsələsi uzun illər elmi-texniki tərəqqi ilə bağlı iqtisadi tədqiqatlar çərçivəsində işlənib hazırlanmışdır.

Hazırda texnoloji innovasiya ilə əlaqədar olaraq, Oslo Təlimatları ilə müəyyən edilmiş və elm,

texnologiya və innovasiyanın Beynəlxalq Statistika Standartlarında əks olunan anlayışlar tətbiq olunur.

Elm, texnologiya və innovasiya statistikasında beynəlxalq standartlar - bazar iqtisadiyyatı şəraitində onların sistemli təsvirini verən elm və innovasiya statistikası sahəsində beynəlxalq təşkilatların tövsiyələridir. Bu standartlara uyğun olaraq, innovasiya bazara çıxarılan yeni və ya təkmilləşdirilmiş məhsul, praktik fəaliyyətdə istifadə olunan yeni və ya təkmilləşdirilmiş texnoloji proses və ya sosial xidmətlərə yeni yanaşma şəklində təcəssüm olunan innovativ fəaliyyətin yekun nəticəsidir.

Beləliklə, innovasiya innovativ fəaliyyətin nəticəsidir. Müxtəlif təriflərin təhlili belə nəticəyə gəlməyə əsas verir ki, innovasiyanın spesifik məzmunu dəyişiklik, innovasiya fəaliyyətinin əsas funksiyası isə dəyişiklik funksiyasıdır. İnnovasiya üçün eyni dərəcədə vacibdir: elmi və texniki yenilik, sənaye tətbiqi qabiliyyəti, kommersiya məqsədəuyğunluğu. Qeyd edilən bu üç xüsusiyyətin birinin olmaması innovasiya prosesinə mənfi təsir göstərər.

İnnovasiyanın yayılması informasiya prosesidir ki, onun forması və sürəti kommunikasiya kanallarının gücündən, təsərrüfat subyektləri tərəfindən informasiyanın qavranılmasının xüsusiyyətlərindən, onların bu məlumatlardan praktiki istifadə imkanlarından və s. asılıdır. Bu onunla bağlıdır ki, real iqtisadi şəraitdə fəaliyyət göstərən təsərrüfat subyektləri yeniliklərin axtarışına fərqli münasibət və onları mənimsəmək üçün müxtəlif qabiliyyətlər nümayiş etdirirlər.

Real innovasiya proseslərində innovasiyanın yayılması prosesinin sürəti müxtəlif amillərlə müəyyən edilir. Bunlara:

a) qərar qəbuletmə forması;

b) informasiyanın ötürülməsi üsulu;

c) sosial sistemin xassələri, eləcə də yeniliyin özünün xassələri; innovasiyanın xüsusiyyətlərinə isə ənənəvi həllərlə müqayisədə nisbi üstünlüklər, mövcud təcrübə və texnoloji strukturla uyğunluq, mürəkkəblik və s. aiddir.

İstənilən innovasiyanın yayılmasında mühüm amillərdən biri onun münasib sosial-iqtisadi mühitlə qarşılıqlı əlaqəsidir ki, bunun da mühüm elementi rəqabət aparan texnologiyalardır. Şumpeterin innovasiya nəzəriyyəsinə görə, innovasiya diffuziyası daha yüksək mənfəət gözləməklə, yenilikçidən sonra yeniliyi tətbiq edən imitasiyaçıların sayının kümülatif artması prosesidir.

Müəssisənin ümumi potensialı istehsal və texnoloji potensialdan, elmi-texniki, maliyyə-iqtisadi, kadr potensialından və bütün potensialın özəyi kimi onun hər bir hissəsinə üzvi şəkildə daxil olan innovasiya potensialının özündən strukturlaşdırıla bilər [6, s. 49].

İnnovativ potensial ilə müəssisənin ümumi potensialının digər komponentləri arasında mürəkkəb dialektik əlaqələr mövcuddur. Sənaye müəssisəsinin ümumi potensialında innovativ potensialın bir hissəsinin təcrid edilməsi rəsmiləşdirmənin mümkünlüyü baxımından əhəmiyyətli tədqiqat tələb edən zəif strukturlaşan problemdir. Quruluşun zəif olması səbəbindən dolayı rəsmiləşdirmə üsullarından istifadənin mümkünlüyü barədə mübahisə etmək olar.

Bazar şəraitində innovasiya potensialı innovasiyaların inkişafı və tətbiqi yolu ilə müəssisənin rəqabət üstünlüklərinin əldə edilməsini təmin edən bütün resurslar hesabına formalaşır. Qeyd edək ki, sahibkarlıq subyektlərinin iqtisadi artımında istehsal, maliyyə, marketinq, əmək, idarəetmə və kommunikasiya potensialları ilə yanaşı, innovasiya potensialı da mühüm rol oynayır.

Mövcud qanunvericiliyə əsasən əsas vəsaitlər müəssisənin onlardan məhsul istehsalı və ya tədarükü, xidmətlərin göstərilməsi, başqa şəxslərə icarəyə verilməsi prosesində istifadə etmək və ya inzibati və sosial-mədəni funksiyaları yerinə yetirmək məqsədi ilə malik olduğu maddi sərvətlərdir. Müəssisənin maddi ehtiyatları müəssisənin balansında aktiv kimi göstərilir. Ənənəvi olaraq hesab olunur ki, məhz əsas vəsaitlər və dövriyyə vəsaitləri, həmçinin müəssisənin onlardan səmərəli istifadə etmək qabiliyyəti müəssisənin potensialını müəyyən edir. Qeyd edək ki:

1) təşkilatın innovativ mühitinin təhlili mürəkkəbdir və kifayət qədər vaxt aparır, bu baxımdan da onun həyata keçirilməsi texnologiyasına çox diqqət yetirilir.

2) innovasiyanın həyata keçirilməsi investisiya tələb edir, ona görə də innovasiyanın səmərəliliyinin qiymətləndirilməsi investisiyaların səmərəliliyinin iqtisadi qiymətləndirilməsi

**№ 3/2023** **səh.123-128**

metodologiyası ilə sıx bağlıdır və eyni üsul və prinsiplərə əsaslanır.

3) müəssisələr öz innovativ layihələrini həyata keçirmək üçün öz mənfəətlərini artırmalı, yeni texnika və texnologiyalar tətbiq etməli, iqtisadi dayanıqlığı və rəqabət qabiliyyətini artıran yeni istehsal müəssisələri təşkil etməlidirlər [2].

İdarəetmə prosesinin strateji mərhələsinin mərkəzi vəzifəsi xarici və daxili mühitin vəziyyətinə, korporativ imkanlara və yenilənmə növünə ən adekvat olan innovasiya strategiyasının seçilməsi və həyata keçirilməsidir. Məsələn, sabit xarici mühitdə, mülayim rəqabətdə və müəssisədə prinsipial olaraq yeni texnologiyaların və məhsulların mövcudluğunda innovasiya strategiyası aparıcı, hücum xarakterli olmalıdır. Unutmayaq ki, yeni bilik və bacarıqların və yeni texnologiyaların yaradılması özlüyündə gəlirləri artırmaq və məhsuldar artım kimi uzunmüddətli məqsədlərin həyata keçirilməsinə səbəb olmur [1]. Uzunmüddətli inkişaf üçün məqsəd və strategiyalar mövcud vəziyyət nəzərə alınmaqla situasiya baxımından əsaslandırılmalıdır. İnnovasiya strategiyasının həyata keçirilməsinin strateji mərhələsi vəziyyətin dəqiq təhlili və proqnozlaşdırılmasına, ən uyğun strategiya növünün təhlili məlumatlarına əsaslanan alternativ seçimə, sonra isə bu strategiyanın həyata keçirilməsinin idarə edilməsinə əsaslanır. Yuxarıda göstərildiyi kimi, xarici və daxili mühitin əlverişli vəziyyətində (sabit mühit və radikal yeniliklər) yeganə alternativ liderin strategiyasıdır. Və əksinə, qeyri-sabit xarici mühitdə və texnoloji fəaliyyətin imitasiyasında, zəif rəqabət və aşağı xərclər şəklində əlverişli şərait müəssisəni hücum strategiyasına sövq etməməlidir, çünki vəziyyət yalnız bir strategiyanın - liderin ardınca getməyin mümkünlüyünü diktə edir. Eyni zamanda, sabit bazar və yüksək tələbatla eyni müəssisə aşağı qiymətli lider strategiyasını formalaşdıra bilər.

Strateji mərhələdə innovasiya meneceri aşağıda göstərilən cədvəldə strategiya seçiminin matris təhlilini rəhbər tutmalıdır.

**Cədvəl**

**İnnovasiya strategiyasının seçilməsi üçün matris**

| Daxili yenilənmə mühiti | Xarici mühit | | | |
|---|---|---|---|---|
| | Sabit | Qeyri-sabit makroiqtisadi mühit, sabit tələb, mülaim rəqabət | Sabit makroiqtisadi mühit, qeyri-sabit bazar mühiti, aktiv rəqabət | Yüksək qeyri-müəyyənlik, risk və ətraf mühitin dəyişkənliyi |
| Modernləşmə | Orta dərəcədə hücum | Fokuslanmış fərqləndirmə strategiyası | Liderin ardınca getmək | Xarici təhlükələrə qarşı müdafiə |
| Qismən texnologiyanın yenilənməsi, avadanlıqların modernləşdirilməsi, məhsulun yenilənməsi | Hücumedici geniş diferensiasiya strategiyası | Geniş diferensiasiya strategiyası | Fokuslu diferensiallaşdırma strategiyası | Liderin ardınca getmək |
| İnnovasiyalar klasterlərinə əsaslanan istehsalın sistemli şəkildə yenilənməsi | Hücumedici, lider | Mövqelərin gücləndirilməsi, aparıcı | Situasiya, lider | Orta hücumedici fərqləndirmə strategiyası |

№ 3/2023 səh.123-128

| | | | | |
|---|---|---|---|---|
| Radikal texnoloji həllərin tətbiqi və istehsalın yenidən qurulması | Hücumedici, lider | Orta dərəcədə hücum, lider | Mövqelərin gücləndirməsi, lider | İnnovativ, situasiya |

İdarəetmə strategiyasına uzunmüddətli məqsədlərin qoyulması və fəaliyyət kursunun hazırlanması daxildir. İnnovasiya fəaliyyətinin strateji planı yalnız şirkətin vəziyyətinin, xarici mühitin və bir-biri ilə əlaqəli olan bütün amillərin situasiya təhlilindən əldə edilən məlumatlara deyil, həmçinin gələcəkdə xarici və daxili şəraitin proqnozuna, o cümlədən fəaliyyətin qiymətləndirilməsinə və gələcək hadisələrin real ehtimalına əsaslanır. Proqnozlaşdırma bir neçə yanaşma əsasında həyata keçirilə bilər. Ənənəvi olaraq, əksər menecerlər keçmişin təcrübəsinə və gələcəkdə analogiya metoduna əsaslanırlar. Lakin riskin artması və yeniliyin qeyri-müəyyənliyi şəraitində bu üsul səmərəsiz ola bilər [5, s. 103].

Proqnozlaşdırmada analogiya metodu kifayət qədər məlumat və qeyri-müəyyənlik dərəcəsi ilə etibarlıdır. Bu zaman riyazi modelləşdirmə üsullarından istifadə edilir. Beləliklə, birinci mərhələdə zaman seriyası təhlilindən istifadə etməli, standart sapmanı nəzərə alaraq dəyişmə əmsallarını, onların gözlənilən dəyərlərini hesablamalıyıq. Riyazi proqnozlaşdırmanın ən dəqiq üsulu səbəb-nəticə modelləşdirmə adlanan üsuldur. İqtisadi modellər korrelyasiya və reqressiya təhlili metodlarından istifadə edə bilər. Keyfiyyətli proqnozlaşdırma üsulları arasında ən çox tətbiq olunanları ekspert qiymətləndirmələri, münsiflər heyətinin rəyləri, istehlakçıların gözləntiləri modelləri və s. metodlardır. Onlar üçün riyazi əsas Delfi metodudur [6].

Strateji idarəetmə məsələləri üzrə tanınmış amerikalı ekspert İ.Ansoff iddia edir ki, dinamik inkişaf edən bazar və innovasiyaların intensiv axını şəraitində texnoloji dəyişikliklər getdikcə daha az keçmiş təcrübə ilə əlaqələndiriləcək.

Bu gün proqnozlaşdırma xüsusi bir bilik sahəsidir. İqtisadi, texnoloji və sosial inkişaf perspektivləri əsasında şirkətin gələcək vəziyyətinin uzunmüddətli proqnozu tərtib edilir. Proqnoz iqtisadiyyatın ümumi vəziyyəti, sosial-siyasi bazar şəraiti, demoqrafik amillərin dəyişməsi və psixoloji münasibətlərlə bağlı proqnozları ehtiva edir. Daha dəqiq proqnoz vermək üçün rəqabət aparan istehsalçıların strategiyalarını, sənaye strukturlarında və infrastruktur şəraitlərində baş verəcək dəyişiklikləri gözlənilməsi məsləhətdir [8].

Qeyd edək ki, istehlakçı tələbinin proqnozu xüsusi yer tutur. Gələcək tələbin qeyri-müəyyənliyi səbəbindən onun qeyri-dəqiqliyi artır. Bu onunla bağlıdır ki, sosial-iqtisadi mühitdə baş verən dəyişikliklər müştərilərin ehtiyaclarının dəyişməsinə və ya texnoloji boşluğun yaranmasına səbəb olur. Bazar iqtisadiyyatı şəraitində iqtisadi vəziyyətin qeyri-müəyyənliyi, bir qayda olaraq, firmaları innovasiyaya müraciət etməyə məcbur edir, çünki onlar gələcəkdə bazara fəal şəkildə daxil olmaq və rəqibləri qabaqlamaq imkanı verirlər.

Qeyri-müəyyənlik və risk nə qədər çox olarsa, hücum texnologiya siyasətlərinə keçən firmaların sayı bir o qədər çox olar (texniki-iqtisadi proqnozlaşdırma üzrə bir sıra müasir mütəxəssislərin fikri belədir). İnnovativ şirkətin məqsəd və strategiyasının seçilməsi idarəetmənin və müvafiq təşkilati strukturların yaradılmasının ən mühüm mərhələsidir. Şirkət müxtəlif növ innovasiya fəaliyyətlərinə fokuslana bilər. Əgər şirkətin məqsədi cari məhsulların keyfiyyətini artırmaq və səmərəli istehsal etməkdirsə, strategiya ənənəvidir, demək müəssisənin uzunmüddətli proqnozları, elmi əsasları, innovativ potensialı yoxdur. Belə olduqda müəssisə, istər-istəməz, bir neçə ildən sonra tamamilə modernləşmə və ya diversifikasiya üçün addımlar atmağa məcbur olacaq, əks halda şirkət birləşmə və ya iflasla üzləşə bilər.

Başqa bir halda isə şirkət bazarda inhisarçı mövqeyə malikdir. Onun məqsədi istehsal xərclərini minimuma endirmək və resurslara qənaət etməkdir. Belə olduqda bütün üstünlüklərindən və uyğunlaşma qabiliyyətlərindən istifadə edərək müəssisə bazarda qala biləcək. Müəssisə əldə edilmiş səviyyəni saxlamaq üçün strategiya tətbiq edir. Bununla belə, bu seçim bazarı yaxşı bilmək, rəqiblərlə münasibətdə ehtiyatlılıq və sayıqlıq tələb edir. Aktiv rəqabət yarandıqda, firma uğursuz ola bilər və ya strategiyasını dəyişdirməlidir.

Əgər şirkət tədqiqat və inkişafda çətinliklər yaşayırsa, lakin yüksək texnologiya səviyyəsi və yüksək keyfiyyətli məhsulu ilə seçilirsə, deməli onun strategiyası müdafiə xarakterlidir və liderlərlə

№ 3/2023 səh.123-128

ayaqlaşmaq və bazarda qalmaq məqsədi daşıyır. Belə bir strategiya bir şirkətin uzun illər bazarda mövcud olmasına imkan verə bilər, lakin kölgədə qalaraq uğursuz fəaliyyət göstərə bilər.

Xarici və daxili inkişaf şəraitindən asılı olaraq, innovativ şirkət bazar payını genişləndirməyə, yeni məhsullar buraxmağa, mənfəət marjasını və satış həcmini artırmağa çalışır. Bu hallarda strategiya aktiv davranışdan ibarətdir, lakin fəaliyyət dərəcəsi fərqli ola bilər: aktiv hücum və orta dərəcədə hücum. Şirkət bazarda lider olmağa çalışır, lakin onun nə dərəcədə uğur qazanması onun uyğunlaşma imkanlarından, innovativ potensialından, həyata keçirilməsindən, innovasiyanın intensivliyindən, rəqiblərin imkanlarından və rəqabətin şiddətindən asılıdır [4, səh. 112].

İnnovatorlar bəzən yeni məhsulların, bazarların, sənayelərin və ehtiyacların əsl qabaqcılları və yaradıcıları olurlar. Bəzən sənayedə və bazarda əsl yenilikçi deyil, təqlidçi liderlik edə bilər. Böyük ölçüdə təqlid daha sərfəlidir; çevik hücum və manevrli davranışı ilə təqlidçi hətta ilkin liderdən də üstün ola bilər.

Strateji innovasiyaların idarə edilməsi, təşkilat və onun ətraf mühiti arasında bir sıra əlaqələrin saxlanılması ilə təşkilatın məqsəd və vəzifələrinin təyin edilməsini vahid bir zəncirlə əlaqələndirir. İnnovasiyaların idarə edilməsində dəyişiklik ehtiyacını müəyyən etmək, situasiyanın modelləşdirilməsi əsasında müvafiq dəyişiklik strategiyasını hazırlamaq və strategiyanın uğurla həyata keçirilməsi üçün lazım olan taktika və prosedurlardan istifadə etmək bacarığı yüksək qiymətləndirilir [3, s.124].

Müəssisənin xarici mühitinin situasiya təhlili siyasi, hüquqi, iqtisadi və texnoloji mühitin strateji təhlilindən fərqli olaraq, makroiqtisadi və ümumi göstəricilərə diqqət yetirmir, konkret strategiya seçir və onun həyata keçirilməsini idarə edir. Fəaliyyətin strateji mərhələsində vəziyyətin təhlili üçün mövcud vəziyyət, məhsulların rəqabət qabiliyyəti, texnologiya və tələbin vəziyyəti, təklif və rəqiblərin davranışı haqqında məlumat tələb olunur.

Strateji mərhələni inkişaf etdirmək və uğurla həyata keçirmək üçün müəssisənin daxili mühitinin vəziyyəti haqqında bilik tələb olunur. Əməliyyat strategiyasının növbəti mərhələsi strateji diaqnostika və onun əsasında zəruri əməliyyat strategiyasının seçilməsidir. Seçilmiş strategiyanı həyata keçirmək üçün menecer aşağıdakı qaydalara riayət etməklə həyata keçirmə üsullarını seçir:
• icra mərhələləri addım-addım olmalı;
• prosedur bir sıra sadə tapşırıqlardan ibarət olmalı;
• hər bir vəzifənin aydın məqsədi olmalı;
• tapşırıqlar funksional formada təqdim edilməli (məsələn, istehsal gücündən istifadəni artırmaq və ya kritik satış həcminə nail olmaq üçün vaxtı azaltmaq üçün nə etmək lazımdır).

Strategiyanın həyata keçirilməsi üçün məqsədlər aydın şəkildə tərtib edilməli və hər bir strateji addımın ətraflı təsvirini ehtiva etməlidir. Strateji mərhələnin icrasına nəzarətin də özünəməxsus xüsusiyyətləri var. Nəzarət üçün tələblərə onun xarakteri, tezliyi, əks əlaqənin olması, avtomatlaşdırılmış sistemlərdən və ekonometrik modellərdən istifadə imkanları daxildir.

Müəssisənin innovativ fəaliyyətinin əsas şərti mövcud olan hər şeyin köhnəlməsidir. Bu baxımdan da köhnəlmiş, tərəqqi yolunda əyləcə çevrilmiş hər şeyi sistematik şəkildə kənarlaşdırmaq, həmçinin uğursuzluqları və səhv hesablamaları nəzərə almaq lazımdır. Bunun üçün müəssisələr vaxtaşırı olaraq məhsulları, texnologiyaları və iş yerlərini sertifikatlaşdırmalı, bazarı və paylama kanallarını təhlil etməlidirlər.

## Nəticə

İnnovasiya fəaliyyəti tənəzzülü aradan qaldırmağa, bazarı müxtəlif rəqabət qabiliyyətli məhsullarla doyurmaq üçün əsas təkanverici qüvvədir. Dəyişən şərtləri qabaqcadan görüb onlara vaxtında reaksiya vermədikdə şirkət böhranla üzləşə bilər. Müasir menecment innovativ tipli menecment, yəni müəyyən innovativ potensiala malik olmalıdır. Bazar iqtisadiyyatı şəraitində inkişafın sürətləndirilməsi, vaxtı sıxışdırmaq, şirkətin iş şəraitini xarakterizə edən dəyişikliklərin sayını və müxtəlifliyini artırmaq meylləri mövcuddur. Rəhbərlik reallıqda baş verən dəyişikliklərlə ayaqlaşmalıdır. İdarəetmənin iqtisadi həyatda, elm və texnologiyada baş verən dəyişikliklərə belə uyğunlaşmasının amili isə idarəetmənin kadrlarla işləməkdə, menecerlərin hazırlanmasında, dinamikaya yönəlmiş idarəetmənin təşkilində formalaşan innovativ potensialıdır.

№ 3/2023 səh.123-128

## ƏDƏBİYYAT

1. Axundov M.A. Strateji idarəetmə. Dərs vəsaiti. Bakı -2001
2. Əliyeva N.R. İnnovasiyalı menecment. Dərslik. BAKI – 2016
3. Вачугова Д.Д. Основы менеджмента. / Д.Д. Вачугова - Москва, 2002.-132 с.
4. Виханский О. С., Наумов А. И. Менеджмент. - М.: Экономистъ, 2003 - 528 с.
5. Кохно П.А., Микрюков В.А.. Менеджмент. - М.: Финансы и статистика, 1993.- 378 с.
6. Немкович Е.Г., Курило А.Е. Менеджмент малого и среднего бизнеса. - М.: Юнити, 1999. - 346 с.
7. Пугачев В.П. Руководство персоналом организации. Учебник для вузов по спец."Менеджмент" - М.: Аспект Пресс, 2003. - 467 с.
8. https://science.gov.az/institutes

**UDC 338.1, 338.3.**

### Essence and importance of innovation activity at the enterprise

**Summary.**As a result of innovative activity, new ideas, new and improved products, technological processes are born, new forms of organization and management of various sectors of the economy and its structures appear. Continuous innovation is the only way to maintain high growth rates and profitability of the company. In today's fast-paced, competitive environment, it is challenging to maintain high profitability from your existing product portfolio. If changing conditions are not anticipated and responded to in a timely manner, the enterprise may face a crisis. In a market economy, it is not enough for a manager to have a good product; he must strictly control the emergence of new technologies and plan their implementation in his enterprise in order to keep up with competitors. In modern conditions of economic instability and the need to actively formulate a policy of import substitution, the issue under consideration is very relevant.

**Key words:** innovation, decision-making, external and internal environment, innovative strategy, forecasting.

**УДК 338.1, 338.3.**

### Сущность и значение инновационной деятельности на предприятии

**Резюме.**В результате инновационной деятельности рождаются новые идеи, новая и усовершенствованная продукция, технологические процессы, появляются новые формы организации и управления различными отраслями экономики и ее структурами. Постоянное применение инноваций – единственный способ сохранить высокие темпы роста и уровень прибыльности компании. В современной энергичной, агрессивной конкурентной среде непросто поддерживать высокую рентабельность существующего ассортимента продукции. Если изменение условий не предвидеть и не отреагировать своевременно, предприятие может столкнуться с кризисом. В рыночной экономике менеджеру недостаточно иметь хороший продукт; он должен строго контролировать появление новых технологий и планировать их внедрение на своем предприятии, чтобы не отставать от конкурентов. В современных условиях нестабильности экономики и необходимости активного формирования политики импортозамещения рассматриваемый вопрос весьма актуален.

**Ключевые слова:** инновации, принятие решений, внешняя и внутренняя среда, инновационная стратегия, прогнозирование.

Redaksiyaya daxilolma: 22.09.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.129-136

UOT: 338.3.
DOI:10.30546/JIECM.2023.3.135.

# STRATEJİ ƏMƏLİYYAT VƏ BÜDCƏ PLANLAŞMASINDA RİSKLƏRİN İDARƏEDİLMƏSİ

[1]Fuad Zakir oğlu Abbasov, [2]Məqsəd Qabil oğlu Alxaszadə

Azərbaycan Texnologiya Universiteti

***Xülasə.****Muasir dövrdə sosial siyasət anlayışı təkcə bu sahə ilə məşğul olan şəxslərin, alimlərin deyil, həm də cəmiyyətin bütün sosial təbəqələri və qruplarının gündəlik həyatına möhkəm daxil olmuşdur. Sovet dövründə siyasətin bölgüsündə sosial siyasət demək olar ki, fərqləndirilməmiş, çox zaman iqtisadi siyasətin tərkib hissəsi kimi qəbul edilmişdir. Lakin tarixi inkişaf prosesində sosial məsələlərin yanlışlığı ortaya çıxmışdır.*

*Sosial siyasətə bu cür münasibət , anlayış olaraq XIX əsrin ikinci yarısında Almaniyada ortaya çıxıb. İlk dəfə sadəcə fəhlə və kapitalist sinfi arasındakı mənfəət qarşıdurmasını nizamlamaq üçün dövlətin gördüyü tədbirləri nəzərdə tutan bu anlayış, daha sonra inkişaf edərək geniş mənada işlədilmişdir. Bütün sosial sinif və qruplar üçün dövlətin gördüyü bütün tədbirləri əhatə etmişdir. Sosial siyasət müasir mənada: cəmiyyətdəki bütün sosial sinif və qrupların sosial müdafiə, sağlamlıq, təhsil, məşğulluq və s. kimi problemlərini həll etməyə istiqamətlənmiş, qruplar və siniflər arasında yaranan mübarizə və münaqişələri sosial ədalət prinsiplərinə görə həll etməyə çalışan və cəmiyyətin sosial rifahı üçün həyata keçirilən bütün tədbirlərin cəmidir. Bu anlayış hazırkı mənanı alana qədər uzun bir tarixi inkişaf mərhələsi keçmişdir. Bu mərhələlərdə dövlətlər öz funksiyalarını dəyişdikləri kimi sosial siyasətin də mənasını dəyişdirmiş və onu daha da genişləndirmişdilər.*

***Açar sözlər:*** *metodoloji cəhət, regional inkişaf, sosial-iqtisadi.*

**Giriş.**Müasir cəmiyyətin inkişafı üçün hər zaman yaxşı idarəetmə sisteminə ehtiyac var. Belə bir sistemin əsas komponentlərindən biri regional sistemdir ki, regional sistemlər həmişə bazarın özünü idarəetməsi əsasında inkişaf edə bilmir. Təcrübə göstərir ki, regionların inkişafına dövlətin müdaxiləsi labüddür. Məhz bu səbəbdən regional inkişaf siyasəti dövlətin əsas funksiyalarından biri hesab olunur. Regional siyasət bir növ hər bir dövlətin taktikası hesab olunur. Bu baxımdan, müxtəlif ölkələrdə regional siyasətin məqsədləri və vəzifələri fərqlidir.

Sosial siyasət anlayışına münasibətdə müxtəlif elmi baxışlar mövcuddur. Bu baxışların bir qismini nəzərdən keçirək. Son dövrlərdə sosial siyasətlə bağlı bir sıra tədqiqatlar aparılmışdır.

Regionun sosial-iqtisadi inkişaf xüsusiyyətlərinin qiymətləndirilməsi nəzəri- metodoloji baxımdan mövcud problemlərin və prioritetlərin obyektiv müəyyən olunmasına kömək edir ki, bu da regional iqtisadiyyat subyektləri tərəfindən qəbul edilən qərarların keyfiyyətli və effektiv olmasında mühüm rol oynayır.

Bu günə kimi regionların sosial-iqtisadi inkişafının prioritetlərinə dair bir çox elmi tətqiqat işlərinin yazılmasına baxmayaraq, davamlı sosial-iqtisadi inkişafa nail olmaq üçün hər zaman yeni prioritetlərin müəyyən olunmasına ehtiyac var.

Beləliklə, müasir dövlətin sosial siaysəti ictimai həyatın ən mühüm tərəflərini əhatə edən məzmuna malik olmalıdır. Səmərəli sosial siyasət əhalinin öz tələbatlarını ödəmək imkanlarının genişləndirilməsi, cəmiyyətdə sabitliyin qorunması, hər bir vətəndaşın sabaha inamla yaşaması, sosial gərginliyin azaldılması və bütövlükdə cəmiyyətdə təkrar istehsal prosesinin normal həyata keçirilməsini təmin edən sosial müdafiə sistemini qurmaqdan ibarətdir[2].

Bazar münasibətlərinin formalaşması prosesində respublikamız əhali gəlirlərində ciddi differensiallaşma və kütləvi işsizlik kimi ağır sosial problemlərlə üzləşmişdir. Prosesin az ağrılı keçməsi üçün dövlətin bu problemlərə diqqətinin artırılması zəruri idi. Dövlətin tədbirləri müxtəlif əhali qruplarının sosial müdafiəsinə isliqamətlənmişdir. Məsələni mürəkkəbləşdirən amillərdən biri də

№ 3/2023 səh.129-136

ondan ibarətdir ki, sosial müdafiəyə yalnız maddi çətinliklərlə üzləşənlərin deyil, demək olar ki, bütün bazar subyektlərinin böyük ehtiyacı vardı. . Yeni iqtisadi sistemə keçidlə əlaqədar təsərrüfat subyektlərinin mülkiyyətin toxunulmazlığı, gəlirlərin istifadəsində sərbəstliyin təmin edilməsi, fəaliyyət növünün azad seçilməsi və başqa sahələrdə dövlət zəmanətinin olmasına ehtiyacı duyulurdu. Aydındır ki, hamını eyni dərəcədə kasıb yaşamağa vadar edən, «humanist» prinsiplərə əsaslanan gəlirlərdə bərabərlik yaratmaq, maddi təminatda fərqləri aradan qaldırmaq kimi başa düşülən «sosial müdafiə» bugünkü reallığa uyğun gəlmirdi.

Regional inkişaf siyasətinin mahiyyətini daha yaxşı anlamaq üçün əvvəlcə "regional inkişaf" və "region" anlayışına diqqət yetirmək lazımdır. İqtisadiyyatda "region" anlayışı böyük şəhərdəki kiçik rayondan başlayaraq qitənin böyük bir hissəsinə kimi ən müxtəlif ölçüyə malik ərazini adlandırmaq üçün istifadə olunur. Çox zaman region bu və ya digər milli dövlətin müəyyən hissəsi ilə əlaqələndirilir. Həmçinin tətqiqatçılar hesab edirlər ki, dünyanin bircins xüsusiyyətlərə və müəyyən sərhədlərə malik hissəsi kimi region yalnız dövlətin deyil, həmçinin qlobal sistemin bir hissəsidir.

Müxtəlif tətqiqatçılar region anlayışına müxtəlif cür tərif veriblər. Məsələn, ən çox istifadə olunan tərif belədir: "Region-təbii, sosial-iqtisadi, milli-mədəni və digər şərtlərin ümumiliyinə malik ərazi hissəsidir".

Bazar münasibətlərinin formalaşması prosesində respublikamız əhali gəlirlərində ciddi differensiallaşma və kütləvi işsizlik kimi ağır sosial problemlərlə üzləşmişdir. Prosesin az ağrılı keçməsi üçün dövlətin bu problemlərə diqqətinin artırılması zəruri idi. Dövlətin tədbirləri müxtəlif əhali qruplarının sosial müdafiəsinə istiqamətlənmişdir. Məsələni mürəkkəbləşdirən amillərdən biri də ondan ibarətdir ki, sosial müdafiəyə yalnız maddi çətinliklərlə üzləşənlərin deyil, demək olar ki, bütün bazar subyektlərinin böyük ehtiyacı vardır. . Yeni iqtisadi sistemə keçidlə əlaqədar təsərrüfat subyektlərinin mülkiyyətin toxunulmazlığı, gəlirlərin istifadəsində sərbəstliyin təmin edilməsi, fəaliyyət növünün azad seçilməsi və başqa sahələrdə dövlət zəmanətinin olmasına ehtiyacı duyulurdu. Aydındır ki, hamını eyni dərəcədə kasıb yaşamağa vadar edən, «humanist» prinsiplərə əsaslanan gəlirlərdə bərabərlik yaratmaq, maddi təminatda fərqləri aradan qaldırmaq kimi başa düşülən «sosial müdafiə» bugünkü reallığa uyğun gəlmirdi.

Sosial müdafiə hər kəsin öz əməyi, istedadı, mülkiyyəti əsasında mövqeyi müəyyənləşmiş cəmiyyətdə ayrı-ayrı fərdlərin imkan və qabiliyyəti ilə əldə oluna bilməyən, hamı üçün eyni olan vətəndaşlıq mövqeyinin təmin edilməsi zərurətidir.

Sosial yönümlü cəmiyyət qurmaq üçün birinci şərt maddi ehtiyaclarını təmin etmək məqsədi ilə hər bir insana bazarın imkanlarından tam və azad istifadə etməyə ilkin şərait yaratmaqdır. Buraya təhsil və ixtisas almaq imkanları, əmək və qabiliyyətinə görə istənilən (qanun çərçivəsində) fəaliyyət növü ilə məşğul olmaq və gəlir əldə etmək, dövlətin sosial köməyindən istifadə etmək və s. aiddir. Belə olduqda hər kəs imkanları daxilində öz maddi imkanlarını təmin edər, cəmiyyətdəki mövqeyini müəyyənləşdirər və imkanları xaricində olan sosial məsələlər dövlətin öhdəsinə düşər. Keçən əsrdə yaranan konsepsiyalar sosial tərəqqiyə inkişafın nəticələri kimi deyil, inkişafın amili kimi baxılması ideyasını irəli sürürdülər[1].

Müasir elmi konsepsiyalar sosial yönümlü cəmiyyət quruculuğunda dövlətin yeri və rolunun düzgün müəyyənləşdirilməsini əsas problem hesab edirlər. Bu zaman dövlətin iqtisadi funksiyalarından ikisi həlledici istiqamət kimi vurğulanır: birinci - sosial ədaləti təmin edə bilən makroiqtisadi sabitliyin əldə edilməsi; ikinci - mikroiqtisadiyyatda rəqabəti təmin edə bilən bazar mexanizminin inkişafı. Zənnimizcə, keçid iqtisadiyyatı üçün də məsələnin belə qoyuluşu özünü doğruldar. Bu, həm də iqtisadi islahatlar gedişində sosial siyasətin yeni iqtisadi əsaslar üzərində qurulması baxımından da aktualdır. Keçid dövrünün iqtisadi siyasəti bazar mexanizminin inkişafına yönəlməli, sosial problemin həllində bazarın imkanlarından daha dolğun istifadə edilməli və dövlətin sosial siyasəti bazar mexanizminə söykənməlidir. «Bazar mexanizmində təcəssüm olunan institut və normaların daha dəqiq anlamı göstərir ki, inkişaf strategiyası - dövlət və bazar arasında seçim məsələsidir - fikri səhvdir. Ölkələrə bazarı inkişaf etdirmək zəruridir; eyni zamanda, onlar üçün bazarın inkişafını təmin edən işlək dövlət institutlarının olması zəruridir» Dünya bankının

№ 3/2023 səh.129-136

hesabatlarında öz əksini tapmış bu fikir bir daha təsdiq edir ki, institusional dəyişikliklər etmədən səmərəli iqtisadi, o cümlədən sosial siyasət yeritmək mümkün deyil. Məlumdur ki, sovet dövründə sosial siyasətin institusional əsasını dövlətin, iqtisadiyyatla bilavasitə əlaqəsi olmayan, inzibati qurumları və xeyriyyəçi orqanlar təşkil edirdi. Bazar münasibətlərinə keçidlə əlaqədar sosial siyasətin institusional quruluşu yeniləşməlidir.

Sosial sığorta sistemi vətəndaşlara sığorta ödəmələrinin və sosial nemətlərin verilməsini onların sığorta haqlarını ödəməsinə uyğun həyata keçirilməsini nəzərdə tutur. Sosial sığorta sistemi ümumi həmrəylik və dövlətin öz vətəndaşlarını qoruması prinsipləri əsasında qurulmalıdır.

Sosial yardım sistemi cəmiyyətin ən çox ehtiyacı olan üzvlərinə sosial qayğı və sosial prinsiplərini əks etdirir. Buraya aztəminatlı insan qruplarına əvəzsiz kömək göstərilməsi halları aiddir, özəl sosial yardım (bəzən özəl sığorta da) bu sistemə aiddir. Qeyd etmək lazımdır ki, institusional və icra mexanizmindən asılı olmayaraq sosial siyasət, bir qayda olaraq, müəyyən problemləri əhatə etməlidir.

Keçid iqtisadiyyatı şəraitində dövlətin ən vacib funksiyalarından biri bazara keçidlə əlaqədar meydana çıxan bir sıra mühüm problemləri həll etmək, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı tədbirləri həyata keçirməkdir. Dövlətin iqtisadi siyasətinin əsasını sosial siyasət təşkil edir. Dövlətin sosial siyasəti cəmiyyətin həyat fəaliyyətinin sosial-iqtisadi şərtlərinin tənzimlənməsinə yönəldilən tədbirlər kompleksindən ibarətdir. Məhz sosial siyasət vasitəsi ilə ilk növbədə əhalinin dövlət himayəsinə ehtiyacı olan hissəsinin vəziyyətini keçid şəraitində qismən yüngülləşdirmək mümkündür.

Sosial sahədə dövlət tərəfindən həyata keçirilən və əhalinin sosial müdafiəsinə xidmət edən əsas tədbirlər sırasına təhsil, səhiyyə, ekoloji problemlərin həllinə yönəlmiş iri proqramların işlənib hazırlanması, zəhmətkeşlərin sosial mühafizəsi və sosial təminatı (istehlak büdcəsinə uyğun olaraq əmək haqqının və pensiyaların minimum səviyyəsinin müəyyən edilməsi, inflyasiyanın sürətinə uyğun olaraq gəlirlərin indeksləşdirilməsi və s. ) mexanizminin formalaşdırılması daxildir.

Azərbaycanda sosial inkişafın özünəməxsus xüsusiyyətləri mövcuddur. Bu qanunauyğunluqlar son illər daha çox nəzərə çarpır. Milyondan çox pensiyaçının, iki yüz minə qədər tələbənin və işsizliyin yuxarı olması xarakterik xüsusiyyətdir. O cümlədən, əhalinin yaş tərkibində son illərdə nisbi qocalmanın baş verməsi, hər bir işçiyə düşən işsizlərin sayının artması, təbii artımın azalması tempini xarakterizə edir və digər xüsusiyyətlər, sosial təminat, sosial müdafiə, sosial tənzimlənmənin özünəməxsus qanunauyğunluqlarını meydana çıxarır və sosial siyasəti formalaşdırır. Sosial siyasətə uyğun olaraq maliyyə, kredit, bölgü, mübadilə, vergi siyasəti formalaşdırılır. Sosial təminatın pulsuz və güzəştli xidmət istiqamətlərində formalaşmasının tənzimlənməsi mexanizmləri həmin sahələrdə işləyənlərin əmək haqqı, bu sahələrin maddi-texniki bazası və kadr potensialının inkişaf etdirilməsi üçün zəruri olan maliyyə imkanları ilə məhdudlaşır.

Bu sahələrin inkişafının əsas maliyyə mənbəyini mərkəzləşmiş formada dövlət büdcəsi təşkil etdiyi üçün dövlət büdcəsi həmişə sosial yönlü siyasət yeritməlidir.

Maliyyə gərginliyi şəraitində sosial tənzimlənmənin əsaslarını müəssisələrin özlərinin təsərrufat hesabı vasitəsilə işləməsi yolu ilə ödənilməsi problemi meydana çıxır. Müasir şəraitdə təhsil ocaqlarının demək olar ki, hamısında pullu təhsil sistemi mövcuddur, özəl təhsil ocaqları inkişaf edir. Mülkiyyət münasibətlərindən asılı olaraq maliyyələşdirmə mənbələri yenilənir. Yeni ixtisaslara, xidmətlərə ehtiyac əhalinin xidmətə olan alıcılıq qabiliyyəti ilə müəyyən olunur. Beləliklə, bazar iqtisadiyyatı formalaşdıqca sosial inkişafın yeni formaları meydana çıxır. Bu strukturların təşkilatı-iqtisadi xüsusiyyətləri formalaşır. Maliyyə imkanları yenilənir və tənzimləmədə indiyə qədər formalaşmış plan, mərkəzləşmiş mexanizmlərdən fərqli olaraq çevik bazar mexanizmləri meydana gəlir. Əlbəttə, sosial tənzimlənmənin bazar iqtisadiyyatı şəraitində maliyyə imkanları daha da gərginləşir. Ona görə də, istər respublikanın daxili imkanları hesabına, istərsə də xarici kreditlərin hesabına bu gərginliyi azaldan, yumşaldan tədbirləri, mexanizmləri tətbiq etmək lazımdır. Bu baxımdan, respublikada sosial müdafiə fondları, kreditlər, dünya bank sistemləri, dünya humanitar təşkilatlarının vasitələri hesabına sosial fondlar yaradılır[4].

№ 3/2023 səh.129-136

Azərbaycan müstəqillik qazanandan sonra çətin problemlərlə üzləşmişdir. Əhali müxtəlif təzadlar məngənəsində sıxılaraq hələ yaşayış tərzini tam müəyyən- ləşdirməmişdir. Yeni iqtisadi sistemə keçidlə əlaqədar respublikamızın iqtisadiy-yatının iflic vəziyyətinə düşməsi xalqın sosial vəziyyətini ağırlaşdıraraq əhalini bir sıra problemlərlə üz-üzə qoymuşdur. Respublikanın üzləşdiyi Dağlıq Qarabağ münaqişəsi bu problemlərin sayını artırmışdır. Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkün olması, fabrik və zavodlarımızın avadanlıqlarının fiziki və mənəvi cəhətden köhnəlməsi, cəmiyyətdə gedən inkişafı ləngidir. Bu cür mürəkkəb vəziyyətdə sosial siyasəti formalaşdırmaq çətindir. Belə şəraitdə ölkəmizdə liberal sosial siyasət meyilləri özünü göstərir. Liberal sosial siyasətin gerçəkləşdiyi dövlətlərdə iş yerləri yaradılır, kiçik biznesə üstünlük verilir, insanlar sahibkarlıqla daha çox məşğul olurlar. Buna görə də, Azərbaycan dövlətçiliyində bir nömrəli məsələ kiçik və orta biznesin inkişaf etdirilməsi və sahibkarlığa şərait yaradılmasıdır.

Əvvəllər tənqid atəşinə tutduğumuz bazar iqtisadiyyatı insanların azad və firavan yaşaması üçün əlverişli quruluşdur. Bu gün insanlarda bazar iqtisadiyyatına xas xüsusiyyətlərin tərbiyə olunmasına səy göstərilməlidir. Son illər ərzində iqtisadi islahatlara paralel olaraq, sosial sahədə də islahatlar həyata keçirilir və əhalinin sosial problemləri dövlətin daima diqqət mərkəzindədir. Bazar iqtisadiyyatına keçid və keyfiyyətcə yeni iqtisadi münasibətlərin formalaşması sosial müdafiə sistemində zəruri islahatların aparılmasını, müasir tələblərə cavab verə biləcək çevik işlək mexanizmlərin, əmək hüquqlarının qorunmasını təmin edən tam əhatəli hüquqi və sosial təminatlar sisteminin yaradılmasını tələb edir.

Bu məqsədlərə nail olmaq üçün müvafiq, həmçinin beynəlxalq normalara əsaslanan qanunverici bazanın yaradılması zəruridir. Məhz, bütün bunlara görə qanurvericiliyin təkmilləşdirilməsi və yeni qanunların yaradılması istiqamətində lazımi işlər görülmüş, beynəlxalq normalara uyğun qanunlar, o cümlədən «Əməyin ı mühafizəsi haqqında», «Vətəndaşların pensiya təminatı haqqında», «Əlillərin sosial müdafiəsi haqqında», «Minimum istehlak büdcəsi haqqında», «Vətəndaş-ların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında», «Məzuniyyətlər haqqında», «Kollektiv müqavilələr və sazişlər haqqında» və s. qanunlar hazırlanmış və qəbul edilmişdir.

Sosial təminat sistemində müavinətlər mühüm yer tutur. Əhalinin aztəminatlı təbəqələrinin ünvanlı sosial müdafiəsinin təşkil edilməsi məqsədilə 22 may 1996-cı ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış «Aztəminatlı ailələrə verilən müavinətlərin artırılması haqqında» sərəncama əsasən müharibə əlillərinə, şəhid ailələrinə və müddətli hərbi xidmətdə olan hərbi qulluqçuların uşaqlarına, yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına, Çernobıl qəzası nəticəsində əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına təyin olunan aylıq müavinətləri, uşağa qulluğa görə qismən ödənişli məzuniyyətdə olan şəxslərə müavinətlər, gəlirdən asılı olmayaraq uşaq doğulması və dəfn üçün birdəfəlik müavinətlərin təyin olunması müəyyən edilmişdir. İşləyən aztəminatlı ailələrə müavinətlərin təyin edilməsi uşaqlara görə verilən aylıq müavinətlərin daha çox ehtiyacı olan ailələrə çatdırılmasını mümkün etmişdir. Əhalinin ən zəif təbəqələrinin sosial müdafiəsini gücləndirmək məqsədilə qaçqın və məcburi köçkünlərdən birinci qrup əlil olan ailələrə əlavə aylıq müavinətlər təyin edilmişdir.

Respublikamızda bir çox güzəştlərin verilməsi ünvanlı xarakter daşımadığından, həmçinin güzəştlər ölkənin iqtisadi inkişafına mənfi təsir göstərdiyindən bəzi kateqoriyalar üzrə güzəştlərin aylıq müavinətlərlə əvəz olunmasına üstünlük verilmişdir.

Müavinət ciddi məqsədli təyinat xarakterinə malikdir. Bir sıra müavinətlər üzürlü səbəbə görə itirilən qazancı əvəz etmək məqsədilə (müvəqqəti əmək qabiliyyətini itirməyə, işsizliyə və s. görə), digərləri isə sosial yardım göstərmək məqsədi ilə verilir (uşaq doğularkən birdəfəlik müavinət, aztəminatlı ailələrin uşaqlarına aylıq müavinət, dəfn üçün birdəfəlik müavinət və s.).

Müavinətlərin verilmə müddətləri müəyyən zamanla məhdudlaşdırılır. Onları ödənilmə müddətindən asılı olaraq birdəfəlik, aylıq və cari kimi qruplara bölmək olar. Pensiya kimi müavinət də ekvivalentsiz əsaslarla verilir. Müavinətlərin maliyyələşmə mənbələri müxtəlifdir.

№ 3/2023 səh.129-136

Sosial təminatın mühüm növlərindən birini də ahıllara, tək və kimsəsiz vətəndaşlara, əlillərə sosial xidmət göstərilməsi təşkil edir. Sosial təminat sahəsində xidmətin fərqləndirici cəhəti onların ayrı-ayrı vətəndaşlara pulsuz və ekvivalentsiz həyata keçirilməsidir.

Sosial xidmətin tibbi xidmət və müalicə, müvəqqəti əmək qabiliyyətinin itirilməsinin ekspertiza edilməsi, əlilliyin səbəb və qrupunun müəyyən edilməsi, evdə sosial xidmət, qocalar və əlillər evində qocaların və əlillərin saxlanılması və s. növləri vardır. Sosial yardım sistemləri əhali təbəqələrinin ehtiyaclarına əsasən onlara güzəştlər təqdim olunmasını təmin edir. Yardım sistemləri hökumət fondlarının vəsaitləri hesabına maliyyələşdirilir. Bu sistemin tətbiq edilməsi isə test üsulları ilə sosial yardımlara ehtiyacı olan şəxslərin müəyyənləşməsi yolu ilə həyata keçirilməlidir.

Sosial sığorta ilə sosial yardım arasındakı fərq aydınlaşdırılmalıdır. Sosial riskli şəraitin yarandığı hallarda məqsədli hüquqlara malik, sosial cəhətdən sığortalanmış tərəf onlar üzərində test yoxlanması aparılmadan güzəştlər almaq hüququna malik olmalıdır. Sığortalanmış tərəf onların güzəştlərə ehtiyacı olub olmamasından asılı olaraq sığorta güzəştləri almaq hüququna malik olurlar. Lakin sosial yardıma ehtiyacı olan hər hansı bir tərəfsə hökumət tərəfindən onun müavinətlər almaq hüququ olub olmadığının qiymətləndirilməsi faktını nəzərə almalıdır, bu zaman yaşayış üçün müvafiq vəsaitlərin olması imkanları da nəzərdən keçirilir. Onu da qeyd etmək lazımdır ki, son 4-5 ildə sosial sığorta ilə sosial yardım arasındakı məsafə çox qısalmışdır [5].

Yəni bir tərəf məqsədli hüquqlara malik olmaqla sosial yardımlar ola biləcək tərəf kimi qəbul edildiyi halda, digər tərəf sosial sığorta üzrə güzəştlər və vəsaitlərin testi aparıldıqdan sonra onların təqdim olunmasını artırmaqda davam edir. Eyni zamanda, pensiyaların məbləği aşağı olduğu üçün Respublika prezidentinin fərmanıyla dövlət büdcəsindən pensiyalara əlavə müavinətlər təyin edilmişdir.

Hər iki hüququn bu cür bir-birinə yaxınlaşması sosial müdafiə anlayışının açıqlanması üçün onların vahid hala gətirilməsini tələb edir. Sosial sığorta və ya sosial müdafiəyə aid olmasının aydınlaşması mümkün olmayan güzəştlərə «qarışıq güzəştlər» kimi baxılmalıdır.

Sosial sığorta haqlarından əlavə sosial yardım sistemi və digər milli sosial müdafiə sistemləri sosial müdafiə müavinətlərin digər növlərindən hələ də fərqlənməkdədir. Bununla əlaqədar olaraq, sosial kompensasiyalar sistemi barədə də məsələyə toxunaq. Bu birgə məxrəc sistemlərinin tərkibinə daxil olur ki, bu da çətinliklərə və itkilərə məruz qalmış insanların problemlərinin həllində hökumət və ictimaiyyətin birgə həmrəyliyini nümayiş etdirir.

Bu baxımdan əlillər, ahıl yaşlı və müharibədə ailə başçısını itirmiş və təcavüzə məruz qalmış, eləcə də, insan hüquqları tapdanan vətəndaşların pensiya haqları və digər güzəştləri diqqət mərkəzində olmalıdır.

Bir çox güzəştlər nağd ödənişlər şəklindədir və əməyin ödənilməsindən kifayət qədər qazanc əldə etmək iqtidarında olmayan və məcburi xərclərlə üzləşən insanların ehtiyaclarına yönəlmişdir. Başqa sözlə desək, həmrəylik, sosial sığorta və sosial müdafiə sistemləri tərəfindən ifadə olunan ve sosial riskli şəraitə məruz qalan insanlara verilir. Həmrəyliyə ehtiyac olan elə hallar olur ki, bunlardan biri də əsas gəlir anlayışıdır. Bu elə sistemlərə aiddir ki, bütün vətəndaşlar hökumət tərəfindən, insanların işləməyə marağı olmasından və ya ehtiyacları olub olmadığından asılı olmayaraq həmişə müavinətlərlə təmin olunurlar. Bu cür əsas gəlir anlayışı bütün güzəştlərin sosial müdafiə sistemi tərəfindən nağd ödənişli formada təqdim olunmasına səbəb olur və gələcəkdə bu ödənişlərin ünvanlarının artırılması əsas məqsəd sayılır.

Sosial müdafiə müavinətləri sosial sığorta və ya sosial yardım üzrə güzəştlərə bölünə bilməz, lakin öz tərkibinə əsasən təsnifləndirilə bilər. Bununla da, natural formada təqdim olunmuş güzəştlərə də toxunulmalıdır ki, onlar da mahiyyət etibarı ilə nağd formada olan güzəştlərdən və digər ödənişlərdən fərqlənir.

Sosial müdafiənin milli modelinin hazırlanması və layihələşdirilməsi fəaliyyətin bir növüdürsə, məsələnin ikinci tərəfi bütün bunların həyata keçirilməsi üçün müvafiq inzibati idarəetmə strukturunun yaradılmasına olan tələbatdır. Bu, ən azı, bir neçə müxtəlif sosial müdafiə sistemlərini, müxtəlif əhali təbəqələri və müxtəlif qruplar üçün sosial müdafiə tədbirləri həyata keçirən sistemləri idarə edən

inzibati qurumlar olmalıdır. Fəaliyyətin professional səviyyədə təşkil olduğu zaman işçilər və onlara müxtəlif xidmətlər həyata keçirilməsi sxemlərini və özünü işlə təmin edənlərin fəaliyyətini təşkil edən müxtəlif inzibati qurumlar yaradılmalıdır.

Milli iqtisadiyyatın innovativ inkişaf yoluna keçid şəraitində resurs mərkəzli iqtisadi sahənin təşkili və keyfiyyətinə dair yeni tələblərə gəldikdə iqtisadi sahənin keyfiyyətini və bu regionların iqtisadiyyatının texnoloji vəziyyətini qiymətləndirmək üçün kritik bazanı genişləndirmək lazımdır.

Kommersiya və yaxud gəlirlə işləyən özəl qurumlara da, bəzən sosial müdafiə sistemlərinin gələcəkdə inzibati idarə olunmalara cəlb edilmələri ilə bağlı müraciətlər ola bilər. Özəl sığorta kompaniyalarının cəlb olunmasına yönəldilmiş bu cür funksional qeyri-mərkəzləşmə daha çox hallarda sənayedə baş vermiş qəzalarla bağlı, risk tələb edən hallardan qorunmanı təmin edən sistemlərdə öz əksini tapır. Funksional qeyri-mərkəzləşmənin yuxarıda qeyd olunan bütün hallarında səlahiyyətlərin ötürülməsi, baş vermiş hadisə ilə əlaqədar yaradılmış xüsusi qurumlara kreditlərin verilməsi və ya baş vermiş hadisə ilə bağlı qeyri-xüsusi qurumlara güzəştlərin təqdim olunması ilə müşayiət oluna bilər. Sosial yardımın inzibati idarə olunması, əksər hallarda qeyri-xüsusi ictimai qurumları, məsələn, bələdiyyələri də səlahiyyətlərlə təmin edə bilər.

Əgər işəgötürənlərin nə zamansa, «sosial müdafiənin inzibati qurumu» kimi rolu olmasına baxmayaraq, bir neçə hüquq və öhdəliklərin müvafiqliyinə əsasən, qeyri-xüsusi qurumların kreditləşməsində bu işəgötürənlərə qeyri-mərkəzləşmənin digər növü kimi baxılır.

İşəgötürənlər, çoxsaylı sosial sığorta sistemlərinin inzibati idarə olunması baxımından, onların həyatında çox böyük rol oynayırlar. İşəgötürənlər çox zaman sosial tədiyələri onların işəgötürənləri üçün nəzərdə tutulmuş məbləğlərindən çıxır, bunu işəgötürənlərin tədiyələrinə əlavə edərək sosial mudafiənin inzibati idarəolunma qurumlarına göndərirlər. Beləliklə də, işəgötürənlər sosial müdafiənin yığım funksiyalarının həyata keçirilməsində əsas rolu yerinə yetirirlər.

Bütün qeyri-mərkəzləşdirilmiş ərazi və funksional qurumlar onlara verilmiş səlahiyyətlərə nəzarət edən orqanların himayəsi ilə fəaliyyət göstərirlər. Həmin səlahiyyətlər əvvəldən də işlənib hazırlana bilər. Mənbələrin istifadə və idarə olunması, fəaliyyətə cəlb olunmuş bütün maraqlı tərəflərin vəzifə və öhdəliklərinin müəyyən olunması, güzəştlərin ödənilməsi - bütün bunlar ümumi vəzifə və öhdəliklərin tərkibinə daxil edilə bilər. Qeyri-mərkəzləşmiş ərazi və funksional qurumlar özlərinə həvalə edilmiş səlahiyyətlərlə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xərclərin bir hissəsinin ödənilməsi ilə bağlı maliyyə məsuliyyəti daşıyır.

Müasir dövrdə sosial müdafiə sistemi cəmiyyətin inkişafında mühüm rol oynayır. İqtisadi problemlər içərisində sosial müdafiə problemi əsas rol oynayır. Bütün ölkələrdə sosial güzəştlərdən asılı olan bir sıra insan qruplarının problemlərinin bir hissəsinin həll olunduğu şəraitdə, büdcə kəsrlərinin mövcud olduğu bir durumda, hökumət sosial müdafiə üzrə xərclərin bir hissəsini öz üzərinə götürməli olur. Sosial müdafiə sistemi və bu sistemin inzibati idarə olunması və tənzimlənməsi ilə bağlı öz üzərinə götürdüyü öhdəliklər ictimaiyyətin bütün problemlərinə yönəldilməlidir. Bir məşvərətçi orqan kimi tərkibinə sosial, iqtisadi, dini və digər qruplar daxil olan qurumlar sosial müdafiənin inzibati idarə olunmasında iştirak etməsə də, onun bir üzvü sayıla bilər, sosial müdafiə məsələlərinə həsr olunmuş müzakirələrdə iştirak edə bilər, bununla da bu sistemin, fəaliyyətinin ictimaiyyət tərəfindən qəbul olunmasına şərait yaratmış olar.

Beləliklə, sosial təminat vətəndaşlara və onların ailə üzvlərinə yaşayış vasitələri mənbəyini itirdiyi və ya zəruri yaşayış minimumu olmadığı hallarda sosial əhəmiyyətli əlavə xərclər çəkilməsi, eləcə də, tibbi yardım göstərilməsi, ailəyə, uşaqların saxlanılmasına və tərbiyə edilməsinə kömək olunması, digər sosial xidmətlər göstərməklə ve güzəştlər müəyyən etməklə onların tələbatını ödəmək üçün sosial təyinatlı vəsaitlərin bölüşdürülməsi üzrə ictimai münasibətlərin məcmusunu əhatə edir.

Regional siyasət üçün vasitələr dövlətin regional problemləri - vergi stimulları, subvensiyalar, kreditlər, dövlət sifarişlərini həll etmək üçün istifadə etdiyi yol və vasitələrdən ibarətdir.

Regional siyasətin həyata keçirilməsi ərazinin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək üçün müvafiq sənədlərin hazırlanmasını nəzərdə tutur. Bunlara qısa müddətli, orta müddətli və uzunmüddətli proqnozlar, ən aktual problemlər üzrə ayrı-ayrı hədəf proqramlar daxildir.

№ 3/2023 səh.129-136

Bu sənədlər direktiv xarakter daşımır, lakin uzun müddətdə region iqtisadiyyatının ehtimal olunan sistemli bir mənzərəsini əks etdirir.

Regional siyasət dövlətin aqrar, demoqrafik və digər tədbirlərinin regional aspektlərini də əhatə etməlidir. Regionlarda, həm dövlət, həm də regional və yerli hakimiyyət orqanları tərəfindən sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün müəyyən tətbirlər görmək lazımdır. Regionların inkişafında sosial-iqtisadi vəziyyətin müqayisəli təhlilini aparmaq, regiona dəstək verən qərarların vaxtında verilməsi və regionun inkişaf səviyyəsini qiymətləndirmək üçün metodların müəyyən olunması vacibdir. Bu gün qarşımızda duran əsas məqsədlərdən biri sosial-iqtisadi inkişafın cari və uzunmüddətli problemlərinin həllinin mümkünlüyünü təhlil etməkdir.

Hal-hazırda metodik materialların hazırlanmasında və regional təhlilin və regionlararası müqayisələrin aparılmasında müəyyən bir müsbət təcrübə formalaşdırılmışdır. Lakin regionların sosial-iqtisadi vəziyyətinin qiymətləndirilməsi üçün qəbul edilmiş metodologiya yoxdur və reytinqin nəticələri olduqca subyektivdir.

İqtisadi ədəbiyyatda iqtisadi və riyazi üsullarla regionun inkişaf səviyyəsinin qiymətləndirilməsinin müxtəlif yolları və üsulları var. Bunlar bölgənin inkişaf reytinqinin müəyyənləşdirildiyi regionun ümumi göstəricilərinin hesablanması, inkişaf səviyyəsinin kəmiyyət qiymətləndirilməsi, bir sıra ekonometrik modellərin və onların xüsusiyyətlərinin istifadəsindən ibarətdir

Regionların inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün ən ümumi yanaşma regionun inkişafının bəzi ümumi qiymətləndirmələrinə və digər bölgələrin inkişafının eyni mürəkkəb göstəriciləri ilə müqayisə edilməsinə yönəlmiş yanaşmadır. Bu vəziyyətdə kompleks bir alqoritm qurmaq lazımdır. Analitiklər nisbi göstəriciləri müəyyən etmək üçün belə alqoritmlərdən istifadə edirlər ki, onların fikrincə bu alqoritmlər sosial-iqtisadi inkişaf səviyyəsini ən uyğun şəkildə əks etdirir. Daha sonra bu göstəricilərə görə, hər bölgə üçün kompleks göstəricilər hesablanır və müqayisə edildikdə, müqayisənin nəticələri regionların hansı hissələrinin inkişafının digər bölgələrindən qabaqda olduğunu göstərməyə imkan verir. Regionun reytinqi müəyyənləşdirilir. Qeyd edək ki, regionun inkişafı kompleks göstəricisinin hesablanması üsulu həm göstəricilərin tərkibində, həm də hesablama prosedurunda öz əksini tapır.

Aydındır ki, Respublikamız müstəqillik əldə etdikdən sonra dövlət idarəetmə sistemini yeniləşdirməyə başlamışdır. Əlbəttə ki, yeni sistemin qurulmasıda inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə olunmuşdur. Beynəlxalq təcrübəyə diqqət yetirsək görərik ki, son illər "rayonlaşma"nın nəzəri problemlərinə maraq xeyli artmışdır. Əksər dövlətlərdə rayonlaşma ölkənin ərazisinin iki bir-birinə əks olan rayonlara bölgüsü ilə eyniləşdirilir. Məsələn; Böyük Britaniyada daha çox işsiz olan rayonlar "depressiv", Almaniyada ən aşağı iqtisadi artım templəri və çox işsiz olan rayonlar "fəlakət" rayonları adlandırılır. Alman tətqiqadçısı E.Ditrix bu məsələ ilə bağlı "problem rayon" terminini əlavə etmişdir. Bu termin Qərb ölkələrinin rayonlaşmaya münasibətini açıq aydın göstərir: əvvəlcə ərazidə kiçik problemlər yaranır, daha sonra bu problemlər böyüyür.

Hazırda, ölkəmizin ərazisi 10 iqtisadi rayona bölünür. İqtisadi rayonlar qonşuluq prinsipinə görə müəyyən inzibati rayonları özündə cəmləşdirir. Belə regionlar iqtisadi təhlilin, statistik müşahidənin, proqnozlaşdırmanın obyektləri hesab olunurlar.

Beləliklə, region anlayışı regional iqtisadiyyatın əsas anlayışı hesab olunmaqla yanaşı regional iqtisadiyyatda metodoloji yanaşmanın əsasının təşkil edir.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının Konstitusiyası(Əsas Qanun), Bakı-2009
2.Azərbaycan Respublikasında "Əhalinin Məşğulluğu haqqında"qanun, Bakı-2014
3.Azərbaycan Respublikası"Əmək Pensiyaları haqqında"qanun.Baki-2006
4.Azərbaycan Respublikası"Sosial müavinətlər haqqında"qanun,Bakı-2006
5."Azərbaycan Respublikasının Məşğulluq strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı" .2011-2015

**№ 3/2023** **səh.129-136**

6.Azərbaycan Respublikasında "Vətəndaşların pensiya təminatı haqqında"qanun, Bakı-1992, № 305
7.Azərbaycan Respublikasında "Əlillərin sosial müdafiəsi haqqında"qanun, Bakı1992
8.Azərbaycan Respublikasında "Minimum istehlak büdcəsi haqqında"qanun, Bakı1992
9.Azərbaycan Respublikasında"Yaşayış Minimumu haqqında"qanun, Baki-2004
10.Azərbaycan Respublikasında "Yaşayış Minimumu haqqqında"qanun, Bakı-2014

**УДК 338.3.**

## Управление рисками в стратегической операции и планировании бюджета

**[1]Ф. З.Аббасов, М.Г.Алхасзаде**

**Резюме.**В современную эпоху понятие социальной политики прочно вошло в повседневную жизнь не только людей и ученых, занятых в этой области, но и всех социальных классов и групп общества.В советский период социальная политика почти не выделялась в Разделение политики часто рассматривалось как составная часть экономической политики.Однако в процессе исторического развития выявилась ошибочность такого отношения к социальным вопросам.

Социальная политика как понятие появилась в Германии во второй половине XIX века. Впервые под этим понятием подразумевались меры, принимаемые государством для урегулирования конфликта прибыли между рабочим классом и классом капиталистов, а позднее оно было развито и использовано в более широком смысле. Меры, принимаемые государством в отношении всех социальных классов и групп, носили комплексный характер. Социальная политика в современном понимании: направлена на решение проблем всех социальных классов и групп общества, таких как социальная защита, здравоохранение, образование, занятость и т. д., это сумма всех мер. исторический этап развития, пока не приобрело свое современное значение. На этих этапах государства изменили свои функции, а также изменили смысл социальной политики и еще больше расширили ее.

**Ключевые слова:** методологический аспект, региональное развитие, социально-экономический.

**UDC 338.3.**

## Risk management in strategic operations and budget planning

**[1]F.Z.Abbasov, [2]M.G.Alkhaszade**

**Summary.** In the modern era, the concept of social policy has firmly entered the daily life not only of people and scientists engaged in this field, but also of all social classes and groups of society. In the Soviet period, social policy was almost not distinguished in the division of politics, it was often considered as a component of economic policy. However, in the process of historical development, the wrongness of this attitude towards social issues has emerged.

Social policy, as a concept, appeared in Germany in the second half of the 19th century. For the first time, this concept meant the measures taken by the state to regulate the profit conflict between the working class and the capitalist class, and was later developed and used in a wider sense. The measures taken by the state for all social classes and groups were comprehensive. Social policy in the modern sense: aimed at solving the problems of all social classes and groups in the society, such as social protection, health, education, employment, etc. it is the sum of all measures. This concept has gone through a long historical development phase until it got its current meaning. In these stages, states changed their functions as well as changed the meaning of social policy and expanded it further.

**Keywords:** methodological aspect, regional development, socio-economic.

Redaksiyaya daxilolma: 29.11.2023
Çapa qəbul olunma: 15.12.2023

№ 3/2023 səh.137-144

| UOT: 338.1, 338.3. |
| --- |
| DOI:10.30546/JIECM.2023.3.143. |

# VERGİ – BÜDCƏ GƏLİRLƏRİNİN ARTIRILMASININ ƏSAS MƏNBƏYİ KİMİ

**[1]Xalidə Mehdi qızı Ağayeva, [2]Günay Rauf qızı Şirəliyeva**

**Azərbaycan Texnologiya Universiteti**

***Xülasə.****Büdcə gəlirlərinin formalaşmasında vergi siyasətinin əhəmiyyəti böyükdür və Azərbaycanda vergi gəlirləri büdcə gəlirlərinin əsas hissəsini təşkil edir. Effektiv vergi siyasəti dedikdə, ümumiyyətlə, nə başa düşülməlidir? Artıq qeyd edildiyi kimi, vergi gəlirləri büdcə gəlirlərinin tərkib hissəsidir. Nəticə etibarı ilə daha çox vergi gəlirləri daha çox büdcə gəlirləri deməkdir. Lakin nəzərə almaq lazımdır ki, vergilərin müəyyən həddən artıq artırılması həm iqtisadi artıma, həm də biznes mühitinə mənfi təsir göstərə bilər. Effektiv vergi siyasəti elə siyasət tədbirlərini nəzərdə tutur ki, büdcə gəlirlərini təmin etməklə yanaşı, iqtisadi inkişafa kəskin mənfi təsir göstərməsin. Dövlət maliyyələşdirmə strukturu kimi, artan borc da iqtisadiyyata artan yükdən başqa bir şey deyil. Bu problemi yumşaltmağın bir yolu vergi sistemini elə tənzimləməkdir ki, tətbiq olunan vergi dərəcələri iqtisadiyyata çəkindirici təsir göstərmədən dövlət üçün mümkün olan maksimum gəliri təmin etsin. Bu baxımdan, fərdi gəlir vergilərinin səviyyəsi və sistemin ümumi səmərəliliyi həmişə elmi və sosial sahələrdə ən çox müzakirə olunan mövzulardandır.*

***Açar sözlər:*** *vergi, büdcə, gəlir, dövlətin vergi siyasəti*

**Giriş.**Vergi dövlətin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə təşkilatlardan və fiziki şəxslərdən tutulan vəsaitlərin özgəninkiləşdirilməsi şəklində məcburi, əvəzsiz, fərdi ödənişdir. Xüsusilə mühüm ictimai məsələlərə xərclənən büdcə vəsaitlərinin formalaşmasında vergilər ən mühüm vasitədir.

Qədim dövrlərdən bəri vergilərin yığılması dövlət xəzinəsinin doldurulmasının əsas tərkib hissələrindən biri hesab olunurdu. Buna əsaslanaraq, vergilər dövlətin vətəndaşlarının sosial, iqtisadi, siyasi, eləcə də mənəvi sferada rifahının qorunması üçün məcburi tədbirlərdən biri hesab edilə bilər. Bir çox dövlətlərin təcrübəsinə əsasən demək olar ki, vergilər bütün dövlət xəzinəsinin tərkibinin 60%-dən çoxunu təşkil edir

Hal-hazırzda bu mövzu aktualdır, çünki büdcə gəlirləri ölkənin milli gəlirinin əsas hissəsini təşkil edir və bundan sonra müxtəlif səviyyəli büdcələrdə icra olunur. Həmçinin büdcə sisteminin vergi gəlirləri gəlirlərin yığılmasının əsas tərkib hissəsi və ən mühüm formasıdır. Büdcənin vergi daxilolmalarının tərkibini və strukturunu təhlil etməklə vergilərin bütövlükdə ölkə iqtisadiyyatına mənfi təsirlərini aradan qaldırmaq mümkündür.

Vergi gəlirləri tarix boyu dövlətlər üçün müxtəlif funksiyalar yerinə yetirmişdir. Bunlara hərbi xərclər, hüquq-mühafizə, ictimai asayiş, mülkiyyətin mühafizəsi, iqtisadi infrastruktur, ictimai işlər, sosial mühəndislik və ictimai xidmət daxildir. Dövlət vergiləri də ictimai rifah və ictimai xidmətlərə xərclənir. Bu xidmətlərə təhsil sistemi, səhiyyə, pensiyalar, işsizlik müavinətləri və ictimai nəqliyyat daxil ola bilər. Enerji, su ehtiyatlarının idarə edilməsi və tullantıların idarə edilməsi adətən dövlət xidmətlərinə daxildir [1, s. 36]. Dövlətlərdə fərqli vergilər və vergi dərəcələri var. Bu vergi yükü və ya vəsaitləri vergi tutulan fəaliyyətlə məşğul olan fərdlər və əhali qrupları (məsələn, müəssisələr) arasında bölüşdürmək üçün nəzərdə tutulub. Tarixən aristokratiya yoxsullardan alınan vergilərlə dəstəklənirdi, lakin müasir rifah sistemləri hələ də işləyənlərə vergilər vasitəsilə yoxsullara, əlillərə və ya təqaüdçülərə kömək etməyi hədəfləyir. Bundan əlavə, vergilər xarici yardımı və hərbi əməliyyatları maliyyələşdirir, makroiqtisadi göstəricilərə təsir etmək (fiskal siyasət adlanır) və ya istehlak və məşğulluq səviyyələrini dəyişdirmək üçün istifadə olunur. Dövlətin vergi sistemi çox vaxt onun icma və ya hökumət dəyərlərini əks etdirir. Vergi sistemini yaratmaq üçün dövlət vergi yükünün necə

№ 3/2023 səh.137-144

bölüşdürülməsinə qərar verməlidir: kim nə qədər ödəyəcək və qazanılan vəsait hara yönəldiləcək. Demokratik ölkələrdə vergi sistemini idarə edənləri ictimaiyyət seçir. Vergilərdən alınan vəsait həmişə hökumətin istifadə edə biləcəyi məbləğdən çox olmalıdır. Bu fərq "uyğunluq dəyəri" adlanır və buraya əmək haqqı və vergiyə uyğunluqla bağlı digər xərclər də daxildir [7; s. 66].

Bildiyiniz kimi, bütün iqtisadi fəaliyyətin əsas məqsədi və son nəticəsi gəlir əldə etməkdir. Hər bir şəxs, qurum, təşkilat, şirkət və s. iqtisadi sistem daxilində müəyyən əlaqələrə malikdir. Bu əlaqələri davam etdirmək üçün gəlir və xərcləriniz olmalıdır. Hər bir insanın ən vacib məqsədi xərclər üçün lazım olandan daha çox pul - gəlir əldə etməkdir. İstənilən iqtisadi fəaliyyətin maddi marağı gəliri artırmaqdır. Əgər gəlir yüksəkdirsə, o zaman istehlak da yüksək olacaq, qənaət də. İstehlak istehsalı və yığılması investisiyaları stimullaşdırır. Yəni istənilən iqtisadi prosesin başlanğıcı və sonu gəlirlə bağlıdır.

Dövlət, fərdi şəxslər kimi, həmişə gəlirlərini artırmağa çalışır. Deməli, heç bir ölkə gəlirsiz yaşaya, müdafiə oluna və inkişaf edə bilməz [6; s. 80].

Dövlət hər zaman və hər şeydən əvvəl daha çox gəlir əldə etməyə çalışır. Bu səbəbdən dövlət gəlirlərinin mənbələri müxtəlif və çoxsaylıdır. Bu mənbələrin bir çoxu tarixən qədim zamanlardan yaranıb inkişaf etsə də, iqtisadiyyat inkişaf etdikcə yeni gəlir mənbələri yaranır, dövlət gəlirlərinin tərkibi genişlənir. Bu baxımdan inkişaf etməkdə olan ölkələr, ilk növbədə, onlara daha çox gəlir gətirən və gəlirlərini artıran sahələri inkişaf etdirməyə və böyük həcmdə investisiyaları bu sahələrə yönəltməyə çalışırlar. İqtisadi inkişaf və artım olanda dövlət gəlirləri artır, əksinə, böhranlar baş verəndə dövlət gəlirləri azalır.

Dövlət əmlakından istifadədən əldə edilən gəlir dövlətə məxsus daşınar və daşınmaz əmlakın istifadəsindən əldə edilən gəlirdir. Bu gəlirlərə meşə odununun satışı və ya istifadəsi, balıq ovu, çöllərdə ovçuluqdan, habelə dövlət əmlakından istifadədən əldə edilən gəlirlər daxildir. Bu gəlirləri vergilərlə qarışdırmaq olmaz. Hazırda bu gəlirlər xeyli artsa da, ümumilikdə dövlət büdcəsində çox az yer tutur. Bu payın azalmasının ən mühüm səbəblərindən biri vergitutma obyektlərinin genişlənməsi və vergilərin dövlətin əsas gəlirinə çevrilməsidir.

Bir qayda olaraq, keçid dövrünü yaşayan bir qrup ölkələr konkret tarixi şəraitə görə inkişafın ilkin mərhələlərində vergi və ödənişləri artırmaqla dövlət büdcəsinin gəlirlərini tənzimləmək istəyirlər [5; s. 5].

Dövlət büdcəsinin mədaxil hissəsinə daxil olan vəsaitlər müxtəlif mənbələrdən toplanır. Vergilər bu gəlir mənbələrindən biri və əsasıdır. Biz vergiləri, rüsumları, gömrük rüsumlarını və s. yığmırıq. Dövlət büdcəsi və ya büdcədənkənar fondlar adı altında ölkədə qüvvədə olan konkret qaydalara əsaslanaraq, vergilər və ödənişlər üzrə, habelə bu qanunvericilik aktlarında müəyyən edilmiş hədlərə və səviyyələrə uyğun olaraq dövlət büdcəsinə və büdcədənkənar fondlara icbari ödənişləri nəzərdə tuturuq.. Bundan əlavə, nəzərə almaq lazımdır ki, maliyyə vəsaitinin toplanması mənbəyi hüquqi və fiziki şəxslər tərəfindən vergilər və dövlət maliyyə rüsumları deyilən vəsaitlərdir [2; s. 45].

Vergiyə verilən tərifin düzgün və dolğun olması üçün tərifin bir neçə mühüm və zəruri cəhətləri vardır: verginin tutulması xərcləri onların tutulmasının xarakterini və yerinə yetirdikləri funksiyaları ehtiva etməlidir.

Vergilər dövlət və yerli hakimiyyət orqanları tərəfindən müəyyən ölkənin qanunlarına uyğun olaraq fiziki və hüquqi şəxslərdən tələb olunan, dövlətin öz funksiyalarını yerinə yetirməsi üçün zəruri olan vəsaitlərdir [4; s. 21].

Vergilər iqtisadiyyatın inkişafında güclü iqtisadi vasitədir. Ölkənin gəlirlərinin və maliyyə resurslarının yenidən bölüşdürülməsi üzrə əməliyyatları həyata keçirir. Belə bir yenidən bölüşdürmənin zəruriliyi və ehtiyacı ondan irəli gəlir ki, öz daxili imkanları hesabına heç bir işi görə bilməyən qurum və şəxslər maliyyə resurslarına ehtiyac duyurlar. Yenidən bölüşdürmə bu boşluğun doldurulmasında mühüm rol oynayır. Vergi münasibətləri bir tərəfdən hüquqi və iqtisadi münasibətləri tərənnüm edir, digər tərəfdən, məsələyə hüquqi nöqteyi-nəzərdən yanaşanda, dövlətlə vergi subyektləri arasında mükəmməl münasibət, iqtisadi baxımdan yanaşanda isə büdcə gəlirlərinin təminatçısı ilə büdcənin gəlirlərinin tənzimlənməsi arasındakı əlaqəni görürük. Ən əsası iqtisadi

№ 3/2023 səh.137-144

inkişafın hər bir mərhələsində vergi funksiyaları arasında əlverişli koordinasiya yaratmaq, məkan və zamana uyğun olaraq hər hansı funksiyaya üstünlük vermək, dövrün nəbzini tutmaq və əsas həlqəni seçməkdir. Bu funksiyalar düzgün əlaqələndirildikdə, vergilər əsasən həvəsləndirmə, investisiya və istehsalın maliyyələşdirilməsi yolu ilə istehsala birbaşa təsir göstərə bilir və nəticə uğurlu olur. Bir sözlə, iqtisadiyyatın keçid dövrünə uyğun gələn vergi siyasəti olmalıdır və maliyyə siyasətinin tərkib hissəsi kimi bu dövrün xüsusiyyətlərini əks etdirməlidir. Əks halda, keçid iqtisadiyyatına və ümumiyyətlə, iqtisadiyyata ciddi zərbə vurmuş olardı [3; s. 55].

Cəmiyyətin bütün sahələrinin səmərəli fəaliyyəti vergi sisteminin vergi siyasətinin necə qurulmasından asılıdır. Vergitutma iqtisadi strukturun bir növü kimi idarəetmə növündən asılı olmayaraq bütün dövlətlərə xasdır.

Vergi Məcəlləsinin birinci hissəsi vergi sisteminin qurulmasının əsas prinsiplərini müəyyən edir:

1. Vergitutmaya ümumi yanaşma, o cümlədən vergi güzəştləri hüququnun əldə edilməsi və bütün vergi ödəyicilərinin qanuni mənafelərinin müdafiəsi;
2. Hökumətin müxtəlif səviyyələri arasında vergilərin müəyyən edilməsi və tutulması hüquqlarının aydın şəkildə bölüşdürülməsi;
3. Vergi qanunvericiliyi ilə müəyyən edilmiş standartların vergi hüququ normalarına aid olmayan, lakin müəyyən dərəcədə vergitutma məsələlərinə aid olan digər qanunvericilik və normativ hüquqi aktlardan üstünlüyü;
4. Birdəfəlik vergitutma, qanunla müəyyən edilmiş vergitutma müddəti üçün eyni obyektin bir vergi növü üzrə bir dəfə tutula biləcəyini göstərən, bir tərəfdən vergi ödəyicilərinin, digər tərəfdən vergi orqanlarının hüquq və vəzifələrinin müəyyən siyahısının tərtib edilməsi.

Regional büdcələr ərazi büdcələrinin əsas elementidir. Hazırda regional hakimiyyət orqanları öz yurisdiksiyalarında regionların inkişafını, istehsal və qeyri-istehsal sahələrinin proporsional inkişafını maksimum dərəcədə təmin etməyə çağırılır. Onların ərazilərin iqtisadi və sosial inkişafının əlaqələndirici funksiyası əhəmiyyətli dərəcədə artır. Son on ildə iqtisadi və sosial proseslərin rayonlaşdırılması vəziyyətini müşahidə etmək olar. O cümlədən, daha çox bu prosesləri tənzimləmə funksiyaları dövlət hakimiyyətinin mərkəzi səviyyəsindən regional səviyyələrə doğru kənara çıxır. Buna əsaslanaraq, regional büdcələrin əhəmiyyətinin artması müşahidə olunur və onların istifadə dairəsi artır. Hökumət regional büdcələr vasitəsilə fəal şəkildə iqtisadi siyasət aparır. Regional hakimiyyət orqanlarının büdcələrini artırmaq üçün vəsaitin ayrılması ilə əlaqədar olaraq ayrı-ayrı rayonlar səviyyəsində sənaye, tikinti, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi üçün maliyyə ayrılır. Eyni zamanda, maliyyələşdirilən tədbirlərin həcmi artır.

Regional büdcələr sayəsində dövlət tarixi hadisələr və ya təbii fəlakətlər nəticəsində iqtisadi və sosial inkişafdan geri qalan ərazilərin iqtisadi və sosial inkişaf səviyyələrini ölkənin digər regionlarından istehsal edir və sabitləşdirir. Bunun aradan qaldırılması üçün regional büdcələrdən maliyyələşdirilən regional proqramlar tərtib edilir. Yerli büdcələr istehsalın yekun nəticələrinin əhaliyə çatdırılmasının əsas kanallarından biridir. Yerli büdcələr vasitəsilə ictimai istehlak fondları əhalinin müəyyən qruplarına bölünür. Bu büdcələrdən həm də vətəndaşların həyatının təmin edilməsində mühüm element olan yerli və yeyinti sənayesi, kommunal təsərrüfat kimi istehsal sferasının sahələrinin maliyyələşdirilməsi və inkişafı, istehsalın həcminin sabitləşdirilməsi və xidmətlərin genişləndirilməsi həyata keçirilir. Yüksək inkişaf etmiş bazar münasibətləri dövlət tərəfindən vergi siyasətinin işlənib hazırlanması, ərazilərin iqtisadi inkişafı, əhalinin gəlir səviyyəsinin strukturunun dəyişməsi nəticəsində ÜDM-in bölüşdürülməsi üçün istifadə olunur. Vergi siyasətinin həyata keçirilməsində vergi mexanizminin əsas alətləri vergi dərəcələri, vergitutma bazası və vergi hesablamalarıdır.

Büdcə balansının tənzimləyicisi olan əsas vergi fiziki şəxslərin gəlir vergisidir. Tənzimləyici vergilər yerli hakimiyyət orqanlarını nəinki maliyyə resursları ilə təmin edir, həm də onların vəsaitlərinin daha yüksək büdcəyə səfərbər edilməsinə, öz ərazisində istehsalın səmərəliliyinin artırılmasına, o cümlədən yerli büdcə kəsirinin saxlanmasına marağını artırır.

№ 3/2023 səh.137-144

Yerli büdcələrin artımı bilavasitə urbanizasiya prosesi və nəticədə sosial infrastrukturun artması ilə bağlıdır. Yerli büdcələrin ümumi həcmində şəhər və kənd büdcələrinin payı durmadan artır. Şəhər sakinlərinin sayının genişlənməsi, bir vətəndaşa düşən büdcə xərclərinin kiçik şəhərlərə nisbətən 4-6 dəfə çox olduğu böyük şəhərlərdə artım templəri artımdan yüksək olan şəhər büdcəsi xərclərinin çoxalmasına səbəb olur. Belə nəticəyə gəlmək olar ki, dövlət büdcəsi dövlətin fəaliyyətinin ilkin şərti kimi vəsaitlərin formalaşmasını, bölüşdürülməsini və istifadəsini təmin edən ölkənin müəyyənedici maliyyə planıdır.

Büdcə sisteminin təhlili göstərir ki, müasir şəraitdə federal büdcə gəlirlərinin daha çox dərəcədə vergilər hesabına formalaşması tendensiyası mövcuddur. Deməli, dövlət müəyyən maliyyə ehtiyatı yaratmaqla öz iqtisadiyyatını yaxşılaşdırmaq üçün əlverişli şərait yaradır və bu maliyyə vəsaitlərini subsidiya şəklində maliyyə dəstəyinə ehtiyacı olan vətəndaşlara yönəldir. Vergi sistemi yeni iqtisadi münasibətlərin tənzimlənməsi üçün daha effektiv alətə çevrilir. Əhalidən alınan vergi və ödənişlər ölkə iqtisadiyyatında böhran anlarının şiddətini hamarlayır və istehsalın səmərəliliyinin artırılmasına stimul yaradır.

Vergi səlahiyyətlərinin və vəzifələrinin mərkəzi və ərazi dövlət strukturları arasında şaxələnməsi vergi federalizmində özünü göstərir ki, onun tərtibi əsasən mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş strukturlar arasında vergilərin tənzimlənməsini və istənilən səviyyədə büdcənin gəlir hissəsinin formalaşmasını müəyyən edir. Ona görə də, belə nəticəyə gəlmək olar ki, müasir cəmiyyətdə vergilər müxtəlif səviyyələrdə büdcə gəlirlərinin tərtibində mühüm, eyni zamanda, əsas rol oynayır.

Maliyyə siyasətinin tərkib hissəsi kimi vergi siyasətinin formalaşdırılması və həyata keçirilməsi ümumi iqtisadi inkişafın əsas şərtlərindən biridir. Ona görə də, vergi işinin təşkilində inkişaf etməkdə olan ölkələrin təcrübəsindən istifadə etmək və mükəmməl vergi siyasətini formalaşdırmaq çox vacibdir. Vergi siyasəti son nəticədə vergi sisteminin formalaşmasına gətirib çıxarmalıdır ki, bu sistem iqtisadi tənzimləməni düzgün həyata keçirə bilsin. Bu baxımdan mükəmməl vergi siyasətinə böyük ehtiyac var. İqtisadi ədəbiyyatda vergilərin funksiyaları ədədi cəhətdən birmənalı deyil, üstəlik, bu və ya digər funksiyalara üstünlük verilir və o, ön plana çəkilir. İqtisadi ədəbiyyatda verginin 2 funksiyası olduğunu iddia edənlər var: fiskal və stimullaşdırıcı. Digərləri verginin fiskal-pul və paylayıcı funksiyasını qeyd edirlər. Nəhayət, verginin funksiyalarını 3 yerə bölənlər var. Bu funksiyalar büdcə gəlirlərinin təmin edilməsi, istehsalın stimullaşdırılması və tənzimləmə funksiyalarıdır. Yuxarıda qeyd edilən kimi birinci funksiya ön plana çıxır, lakin indiki konkret vəziyyətimizdən çıxış edərək, biz çətin vəziyyətdə istehsalımızın bərpasına və inkişafına daha çox diqqət yetirməli, hərəkətə güclü stimul yaratmalıyıq. Təsadüfi deyil ki, xüsusi ekspertlər Azərbaycanda hələ də vergiyə fiskal siyasətə üstünlük verilməsini, onun tənzimləyici və stimullaşdırıcı funksiyalarından az istifadə olunmasını tənqid edirlər. Ona görə də, vergilər yalnız büdcənin mədaxil hissəsini təmin edən yığım mənbəyi kimi qəbul edilə bilməz. Yeri gəlmişkən, qeyd edirik ki, dövlət büdcəsinin gəlirləri ilə üzvi vəhdət təşkil edən və ondan asılı olan sahibkarlığın inkişafı və ona diqqət ölkəmizdə qənaətbəxş deyil, dövrün tələblərinə cavab vermir, proses ləngiyir. Baxmayaraq ki, vergilər kiçik biznesin və sahibkarlığın inkişafına təkan verməli və onun üçün böyük təkan olmalıdır.

